ISSN 2218-5178



ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNAL

# HÜQUQİ MÜSTƏVİ

## Legal plane

## Юридическая плоскость

## Hukuki düzey

№ 4
BAKI - 2020



**“Bizim əsas məqsədimiz, ilk növbədə, vətəndaşların təhlükəsizliyidir, sağlamlığıdır və onların rifahıdır. Əlbəttə ki, pandemiya dövründə Azərbaycan digər məsuliyyətli ölkələr kimi, ilk növbədə, vətəndaşların sağlamlığını nəzərə alır. Bütün qalan məsələlər ikinci dərəcəli məsələlərdir, o cümlədən iqtisadi inkişafla bağlı olan məsələlər. Halbuki biz bu məsələlərə də mütləq lazımi fikir verməliyik. Çünki insanların həm sağlamlığı, həm rifahı, ümumiyyətlə, Azərbaycanda sosial sahədə əsas məsələlərdən biridir. İnsanların sağlamlığına aid olan bütün məsələlər bu gün Azərbaycanda öz həllini tapır və əsas məqsəd, bir daha demək istəyirəm ki, pandemiyanın miqyasını nəzarətdə saxlamaqdır. Biz, ilk növbədə, buna nail olmalıyıq”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**




«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

HEYDƏR ƏLİYEV

HÜQUQİ MÜSTƏVİ

# ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**Arif PAŞAYEV** – *Redaksiya şurasının sədri, Milli Aviasiya Akademiyasının rektoru, akademik, fizika-riyaziyyat elmləri doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin I vitse spikeri;*

**Aytən MUSTAFAZADƏ** – *Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq üzrə elmlər doktoru;*

**İrina SOPİLKO** – *Ukrayna Milli Aviasiya Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq üzrə elmlər doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq üzrə elmlər doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, professor, hüquq üzrə elmlər doktoru;*

**Arif QULİYEV** – *Ukrayna Milli Aviasiya Universiteti, Beynəlxalq Əlaqələr İnstitutunun Beynəlxalq hüquq kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İbrahim QULİYEV** – *Milli Aviasiya Akademiyası "Hüquqşünaslıq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi yurnalın baş redaktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Nazim ƏLİYEV** – *Daxili İşlər Nazirliyi Polis Akademiyasının rəisi, polis general-mayoru, dosent, hüquq üzrə elmlər doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti polkovniki, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq üzrə elmlər doktoru.*

# №4(4)

2020-ci ilin yanvar ayından çıxır.

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq üzrə elmlər doktoru.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)

***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**

***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az



## REDAKSİYA HEYƏTİ:

**Elmi redaktor** — ***MƏMMƏDOV R.F.*** — Bakı Dövlət Universiteti Hüquq fakültəsi Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Məsul redaktor** — ***MƏMMƏDOV Ə.Q.*** — BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı** — ***HÜSEYNOVA F.E.*** — BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Böyük redaktor:** — ***Zümrüd TURABXANQIZI.***

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

**Kiçik redaktorlar:**

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas;

— ***ƏLƏSGƏROVA S.Q.*** — Azərbaycan Respublikası DİN Baş DYP İdarəsinin əməkdaşı – operator.



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

6 may 2020-ci il tarixdə 242 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

2020

II RÜB

# HEYDƏR ƏLİYEV ZİRVƏSİNİ FƏTH EDƏN RƏHBƏR

**Hər bir xalqın sevilən, qeyri-adi missiyanı yerinə yetirən rəhbəri, sərkərdəsi, siyasətçisi və diplomatı olur və adətən onlar müəyyən dövrün, zamanın yetirməsi sayılırlar.**

Tarixin meydana çıxardığı belə nadir şəxsiyyətlər sonralar özləri də bir tarix yaradırlar!

Təəssüf ki, xalqın tarixində iz buraxan belə nəhəng simalar çox nadir hallarda dünyaya gəlirlər!

Özü də heç zaman unudulmurlar, çünki taleləri xidmət etdikləri xalqların, qurub dəyişdirdikləri dövlətlərin tarixi və inkişaf mərhələsi ilə elə qaynayıb qarışır ki, sonralar onları bir-birindən ayırmaq mümkün olmur!

Azərbaycan tarixində zamanın gedişinə təsir göstərən şəxsiyyətlərin sayı bir o qədər də çox deyil. Amma dövr və zaman tələb edəndə, xüsusən əsrlərin qovuşuğunda və ictimai-iqtisadi formasiyaların yerdəyişməsində uğurla fəaliyyət göstərərək xilaskarlıq və quruculuq missiyasını müvəffəqiyyətlə gerçəkləşdirən dahilər öz sözlərini deyə, xidmətlərini göstərə bilirlər. Xüsusən Heydər Əliyev kimi titanik şəxsiyyətlər.

Sovet dövrü özünün dəyişməz prinsip və çərçivələri, sərt qanunları və qaçılmaz cəza mexanizmləri ilə daim fərqlənib.

O dövrdə seçilmək, vəzifə pillələri ilə irəliləmək olduqca çətin idi.

Hansısa məqamda kiçicik səhv ucbatından vurulub sıradan çıxmaq isə adi hal sayılırdı.

Əslində, o dövrdə siyasətçi səhvi minaaxtaran səhvinə bənzəyirdi!

Yalnız xüsusi istedad, xarizma sahibləri sona qədər yüksəlməyi, siyasi quruluşun mahiyyətindən irəli gələn kataklizmlərdən qorunmağı bacarırdılar.

Ulu Öndər Heydər Əliyev bənzərsiz şəxsiyyət idi. Sanki Allah-Təala onu yorulmadan çalışmaq, daim qurub-yaratmaq, rəhbərlik etmək üçün yaratmışdı!

Qeyri-adi yaddaş, tükənməz enerji, hadisələri irəlicədən duyub qabaqlamaq qabiliyyəti vardı.

Tariximizin təkrarolunmaz şəxsiyyətləri sırasında Heydər Əliyev özünəməxsus layiqli yer tutur.

Əlbəttə, hər bir insanı və şəxsiyyəti olduğu kimi təkrarlamaq mümkün deyil!

Çünki zamanın özü buna imkan vermir! Filosoflar buna öz qiymətlərini hələ qədimlərdə veriblər: "axar suya iki dəfə girmək mümkün deyil” deyimi ilə!

Amma şəxsiyyətin, dövlət xadiminin yüksəldiyi əlçatmaz zirvənin bəzən kimsə tərəfindən fəth edildiyinin də şahidinə çevririk!

Belə hadisə nə qədər nadir olsa da, bir o qədər də xoşdur!

Xüsusən də zaman və siyasi kurs ardıcıl, davamlı olanda!

***

SSRİ mərkəzləşdirilmiş dövlət, əslində, yeni tipli imperiya sayılırdı. Burada sanki hər şey "könüllü” idi.

Sanki...

"Azad respublikalar" adlandırılan on beş "qardaş" dövlət bir tavan altında birləşmişdi: Ancaq bu "on beş qardaş"ın bir "böyük qardaş"ı vardı: hər şeyi yığıb bölüşdürən, idarə edən, son söz sahibi olan qardaş!

Həmin qardaşın adı "mərkəzi hakimiyyət" idi.

"Kiçik qardaş"ların "böyük qardaş"ın, yəni mərkəzin razılığı olmadan özünə gərək olanı götürməsi, öz marağını "böyük qardaş"ın marağı kimi təqdim etməsi çox çətin sayılırdı, maraqları uzlaşdırmaq isə asanlıqla baş tutan məsələ deyildi!

**Böyük diplomat Heydər Əliyev bunu məharətlə bacarırdı!**

MƏSƏLƏN:

* Azərbaycan SSR-də üzümçülüyün və şərabçılığın inkişafı ilə bağlı Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin xüsusi qərarının qəbuluna nail olmaqla və bu hesaba ölkəyə külli miqdarda vəsait cəlb etdirib, yeni emal müəssisələri, yaşayış məntəqələri salmaq və beləliklə, kənd əməkçilərinin güzəranını xeyli yüksəltməklə;

* ölkənin gələcək inkişafını təmin edəcək ən nadir ixtisaslar üzrə dövlət hesabına müxtəlif şəhərlərdə savadlı gənc kadrlar hazırlatmaqla;

* şəxsi nüfuzundan istifadə edərək zamanında və sonrakı dövrlərdə kara gələcək, fayda gətirəcək məişət kondisionerləri və dərin dəniz qazma qurğuları kimi nadir zavodların tikintisini paytaxt Bakıya saldırmaqla;

* ittifaq tabeli nəhəng sənaye müəssisələrinin, xüsusən neft-maşınqayırma və kimya müəssisələrinin tikintisini respublikada reallaşdırmaqla və s.

Bəli, Ulu Öndər Heydər Əliyev bütün çərçivə, qadağa və "dəyişməz prinsiplər"ə baxmayaraq, SSRİ dövründə Azərbaycan iqtisadiyyatını formalaşdıraraq sənayeni inkişaf etdirdi, kəndin yenidən tikilib qurulmasına nail oldu və beləliklə, xalqın güzəranının, mədəni səviyyəsinin əsaslı yüksəlişini təmin etdi.

Bu gün eyni missiyanı eyni uğur və uzaqgörənliklə cənab İlham Əliyev dünya səviyyəsində təkrarlayır:

* Azərbaycanın maraqları dünyanın aparıcı dövlətlərinin maraqları ilə məharətlə uzlaşdırılır, nəticədə reallaşdırılan transmilli layihələr hamı tərəfindən qəbul edilir və dəstəklənir, ölkəyə böyük miqdarda gəlirlə bahəm yüksək siyasi nüfuz da qazandırır.

Lap sonuncu fakt:

* bir vaxtlar "Bakı-Tbilisi-Qars"a mane olmaq istəyənlər (lakin bunu bacarmayanlar) indi onun verdiyi üstünlüklərdən - zamana və xərcə qənaət imkanından həvəslə bəhrələnirlər.

***

Ötən əsrin səksəninci illərində SSRİ iqtisadi qüdrətini itirməyə, bütün parametrlər üzrə geriləməyə başladı. Vəziyyətdən çıxış yolunu Sibirin zəngin təbii sərvətlərinin və xammal ehtiyatlarının işə salınmasında, daşınıb satılmasında görürdülər. Lakin bunun üçün uzun, eyni zamanda çətin coğrafi

şəraitdən keçən dəmir yolu xətti çəkilməli idi.

"Baykal-Amur magistralı" ideyası belə meydana gəldi.

"Ümumittifaq zərbəçi tikintisi" elan edilən xəttin çəkilməsi elə də asan deyildi və geriləmələr aydın görünürdü. Bu ağır və məsuliyyətli vəzifə həmin dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyən Ulu Öndər Heydər Əliyevə həvalə olundu.

Heydər Əliyevin böyük təşkilatçılıq bacarığı və yaratdığı möhkəm intizam nəticəsində BAM-ın tikintisi müvəffəqiyyətlə, nəzərdə tutulan vaxtda başa çatdırıldı.

Bu unikal dəmir yolu indi də insanlara xidmət edir.

Ulu Öndərin çəkdiyi zəhmət yüksək qiymətləndirilərək dəmir yolu stansiyalarından birinə minnətdarlıq əlaməti kimi onun adı verilmişdir!

* Bir neçə il əvvəl dünyada neftin qiyməti enmişdi. Yaranmış vəziyyət həm OPEC üzvlərini, həm də digər neft ixracatçılarını çətin duruma salmışdı. Sanki hamı bununla, ziyanla işləməklə barışmışdı. Davos Dünya İqtisadi Forumunda cənab İlham Əliyev OPEC-ə üzv dövlətlərin və digər neft istehsalçılarının bir araya gəlməsinin, neftin qiymətinin qalxmasına təsir göstərəcək addımların atılmasının vacibliyini söylədi. Razılaşmanın qarşılıqlı etimada əsaslanmasını, inam və işbirliyinin zəruriliyini xüsusi qeyd etdi. Onun təşəbbüsü ilə OPEC-in bir iclası Bakıda keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin bu uzaqgörən təşəbbüsü öz bəhrəsini verdi, az zamanda neftin qiyməti normallaşdı.

OPEC-in sədri Məhəmməd Barkindo Davosdakı növbəti görüşdə bu hadisəni yenidən xatırlayaraq cənab İlham Əliyevə bir daha təşəkkür və minnətdarlığını söylədi...

* SSRİ xalqlarını bir bayraq altında birləşdirən "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" prinsipi iflasa uğradı, eyni bayraq altında yaşayanlar bir-birilərinin ərazilərini işğal etdilər. Lakin Azərbaycan xalqının multikultural dəyərləri bu gün də yaşayır, dünyada sabitliyin möhkəmlənməsində, qarşıdurmaların qarşısının alınmasında, dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsində mühüm vasitə olduğunu sübut edir.

İlham Əliyevin təşəbbüsü ilə dünyaya örnək kimi təqdim olunan xalqımızın multikultural dəyərləri bir sıra universitetlərdə öyrənilərək tətbiq edilir. Neçə illərdir ölkəmizdə keçirilən, sivilizasiyalararası əlaqə və əməkdaşlığın möhkəmlənməsinə sağlam töhfələrini verən beynəlxaq forumlar hamı tərəfindən qəbul edilərək yüksək qiymətləndirilir.

***

Dövr, zaman müxtəlif, ictimai-iqtisadi formasiyalar fərqli olsa da, uğur və qələbələr eynidir. Hamısı nəticə etibarilə dövlətin güclənməsinə, xalqın sosial vəziyyətinin yaxşılaşmasına, ölkənin siyasi nüfuzunun artmasına xidmət edir.

Oxşar məqamlara müqayisəli şəkildə nəzər salaq:

* Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçildikdən sonra ölkə sürətli inkişaf

yoluna qədəm qoydu. Neft sənayesi dirçəldildi, kənd təsərrüfatında görünməmiş yüksəliş baş verdi, sənaye potensialı işə salındı, elm, mədəniyyət və təhsil sahəsində ciddi dönüş yarandı. Geridə qalmış aqrar ölkə sayılan Azərbaycan az vaxtda SSRİ miqyasında tanınmağa, şöhrət qazanmağa başladı. O dövrdə ən yaxşı işləyənlər ittifaq hökumətinin "Keçici Qırmızı Bayrağı" ilə mükafatlandırılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə hər il Azərbaycan belə bayraqlara layiq görülürdü.

İlham Əliyevin rəhbərliyi zamanı isə müstəqil Azərbaycan nəinki Cənubi Qafqazın lider dövlətinə və söz sahibinə çevrilmiş, hətta inkişaf parametrləri ilə bütün dünyaya səs salmışdır. Qazanılan uğurlara verilən qiymət ölkəmizin adının dünyanın reytinq agentliklərinin, nüfuzlu qurumlarının tərtib etdikləri siyahıların ön cərgəsində yazılmaqla təsdiqini tapır. Üstəlik, hər il yeni reytinq cədvəllərinə düşür, qazandığımız mövqeni möhkəmləndirir, siyahılarda daha da irəliləyirik.

* Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə daim xalqla təmasda idi. Yazıçı və şairlər, elm və mədəniyyət xadimləri, başqa şəhərlərdə təhsil almağa gedən tələbə-gənclərlə görüş ənənvi xarakter daşıyırdı. Xüsusən kənd əməkçiləri ilə görüşlər, onların ruhlandırılması, zəhmətlərinin qiymətləndirilməsi daim diqqət mərkəzində saxlanılırdı.

Cənab İlham Əliyev də xalqla ünsiyyətə xüsusi fikir verir. Ulu Öndər Heydər Əliyevdən qalan ənənələr davam etdirilməklə yanaşı, qaçqın və məcburi köçkünlər, müharibə veteranları və şəhid ailələri, əlillər və əhalinin digər qrupları ilə görüşlər, fikir mübadiləsi aparılması, mövcud problemlərin ilk mənbədən öyrənilərək operativ həlli yolunda əməli tədbirlər görülməsi xalqı razı salan məqamlardandır.

Prezidentin təşəbbüsü ilə kənd təsərrüfatı sahəsində çalışanların zəhmətinin qiymətləndirilməsi üçün xüsusi "Əmək" ordeni də təsis olunmuşdur.

* Azərbaycan rəhbərliyinə gəldiyi ilk illərdə "Literaturnaya qazeta"da "Qoy ədalət zəfər çalsın" müsahibəsi ilə çıxış edən Ümummilli Lider Heydər Əliyev rüşvətxorluğa və cəmiyyətdə mövcud olan digər mənfi hallara qarşı kəskin mübarizə mövqeyi sərgilədi. Həmin dövr üçün belə bir görünməmiş addım bütün SSRİ-yə səs saldı. Heydər Əliyev sübut etdi ki, mövcud problemləri və mənfilikləri gizlətməklə onlardan yaxa qurtarmaq mümkün deyil! Əksinə, onların üzərinə getmək gərəkdir!

Cənab İlham Əliyev də korrupsiyaya, məmur özbaşınalığına qarşı kəskin mübarizəyə başlamışdır. Bu mübarizədə aşkarlıq və şəffaflıq mühüm rol oynayır. Mübarizənin uğurunu təmin edən əsas cəhətlərdən biri elektron hökumətin qurulması, məmur-vətəndaş təmasının minimuma endirilməsidir. Bu məsələdə artıq bütün dünyada Azərbaycan brendinə çevrilən "ASAN xidmət" və "DOST" mərkəzlərinin yaradılması xüsusi rol oynayır. "Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı da-

yanır", "Dövlət məmuru xalqın xidmətçisidir" çağırışını irəli sürən ölkə Prezidenti vətəndaş məmnunluğunun yaradılmasına xüsusi əhəmiyyət verir.

Onu da qeyd edək ki, korrupsiyaya qarşı mübarizənin vəziyyətini əks etdirən beynəlxalq reytinq cədvəlində 2019-cu ilin nəticələrinə görə Azərbaycan 30 balla daha 26 pillə irəliləmişdir.

* Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra həlli vacib digər problemlərlə yanaşı yeni Konstitusiyanın qəbulu və bazar iqtisadiyyatı münasibətlərinə keçidi də diqqətində saxlayırdı. Qısa zaman kəsiyində ölkə üzrə özəlləşdirmə proqramları uğurla həyata keçirildi, dövlət mülkiyyətinin özgəninkiləşdirilməsi prosesi başa çatdırıldı. Ən çətin məsələlərdən sayılan torpaq islahatı da uğurlu oldu. Beləliklə, bazar iqtisadiyyatı münasibətlərinə keçid qısa vaxtda təmin edildi.

Cənab İlham Əliyev 2019-cu il prezident seçkilərindən sonra islahatların anonsunu vermişdi. Artıq biz hamımız baş verən ciddi dəyişikliklərin şahidiyik. Gənclərin enerjisi ilə yaşlıların təcrübəsi əlaqələndirilir, idarəetməyə yeni nəfəs, çeviklik və stimul gətirilir. İslahatlar siyasi, iqtisadi sferanı və kadr yeniləşməsini əhatə edir.

Adətən böhran məqamında çətinliklərdən çıxmaq üçün islahatlara əl atılır. İlham Əliyev islahatlarının xarakterik xüsusiyyəti odur ki, Azərbaycan sürətli inkişaf və yüksəliş dövrünü yaşadığı zamanda ciddi dəyişmələr aparılır. Məqsəd inkişaf sürətinin azalmasına yol verməmək, ölkənin bütün potensialını işə salmaq, dövrün çağırışlarını qabaqlamaqdır.

Xalqın dəstəyi başlanmış islahatların uğurla nəticələnəcəyinə zəmanətdir.

***

Müsəlman dünyasının böyük hissəsini təşkil edən ərəb dövlətlərinin bir qismi "demokratiya baharı"nın və rəngli inqilabların dalğalarında dağıdılaraq yerlə yeksan edildi, sərvətləri talan olundu, əhalisi ölkəni tərk etmək məcburiyyətində qalaraq "miqrant" adlandırılan qaçqınlara çevrildi. Dünya gücləri türk dövlətlərinə də eyni aqibəti yaşatmaq üçün dəfələrlə təşəbbüs göstərdilər, müxtəlif məkrli planlar işə saldılar. Lakin məqsədlərinə çata bilmədilər. Çünki bir sıra türk dövlətlərinin başında dövrün görkəmli simaları, türk dünyasının liderləri sayılan təcrübəli siyasi xadimlər dayanırlar. Ulu Öndər Heydər Əliyevdən sonra SSRİ miqyasında türk dövlət başçılarından Nursultan Nazarbayev seçilirdi. Siyasi karyerasını başa vuran N.Nazarbayev hörmət və ehtiramla aktiv siyasi fəaliyyətindən kənarlaşdı.

Hazırda Türk dövlətlərində dünya çaplı iki qəbul olunmuş şəxsiyyət parlamaqdadır: Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev!

Dünya liderlərinin sırasında xüsusi yeri olan bu iki şəxsiyyətin dostluğu və əməkdaşlığı bütövlükdə türk dünyasına böyük fayda və sabitlik gətirir. Onların təşəbbüskarlığı, hadisələri qabaqlama bacarıqları, qətiyyət və prinsipiallıqları bir sıra məkrli planları puça çıxarır.

Kiçik Azərbaycanın böyük rəhbərinin dünyanın bütün nöqtələrindən baxanda gö-

rünməsi, daim nüfuzlu beynəlxalq tədbirlərə dəvət edilərək ona söz verilməsi, təşəbbüs və təklifləri dinlənilərək həyat vəsiqəsi qazanması cənab İlham Əliyevin böyük nüfuzundan, zəka və təcrübəsindən xəbər verir.

Bu gün İlham Əliyev təkcə Azərbaycanın deyil, bütün müsəlman dünyasının fəxri, eyni zamanda qəbul olunmuş liderlərindən biridir!

***

Bunu sübut edən konkret faktlar da var.

İlham Əliyevin gördüyü işlər sayəsində Azərbaycan 133 dövlətin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasına uğurla rəhbərlik etdi, müzakirələrə dünyanı düşündürən məsələlər çıxarılaraq faydalı təkliflər irəli sürüldü.

İndi isə 120 dövlətin dəstəyi ilə üç il müddətində dünyanın ikinci nüfuzlu qurumu sayılan Qoşulmama Hərəkatına və Türk Dövlətlərinin İqtisadi Əməkdaşlıq Şurasına başçılıq edəcəkdir!

Bəli, Ulu Öndər Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilmişdi, İlham Əliyev isə artıq dünya səviyyəli təşkilatlara rəhbərlik edir!

Belə rəhbərlə hamı haqlı olaraq qürur duyur!

Heydər Əliyev nadir xarakterli dövlət başçılarından idi. Dövrünün analitik təfəkkürə malik müdrik və uzaqgörən siyasətçilərindən sayılırdı.

Ən qısa müddətdə ən çətin və mürəkkəb məsələləri öyrənərək onu müvəffəqiyyətlə həll etmək, ən gərgin anlarda ən düzgün qərarlar vermək məharətinə malik idi. Dayanmadan və yorulmadan işləməyi, məqsədə çatınca irəliləməyi iş üsuluna çevirmişdi. Polad kimi möhkəm iradə, siyasi fəhm sahibi idi.

Bütün bu keyfiyyətlər həm də zəngin həyat təcrübəsi ilə yoğrulmuşdu.

Hər bir siyasətçi və dövlət xadimi üçün zəruri sayılan bu keyfiyyətlər İlham Əliyevin gen kodundadır.

Ən gərgin və çətin məqamda onun nə qədər sakit və soyuqqanlı (bəlkə də zahirən) göründüyünün, kəsərli söz söyləmək üçün son dərəcə ustalıqla əlverişli məqam və yer seçdiyinin dəfələrlə şahidi olmuşuq! Jurnalistlərin müxtəlif "çaşdırıcı" suallarına həmişə sadə və təmkinli, eyni zamanda məharətli cavabını dönə-dönə eşitmişik.

Biz bunu "Valday" Beynəlxalq Diskussiya Klubunda, MDB Dövlət Başçıları Şurasının Aşqabad görüşündə, ən nəhayət, Münxen Təhlükəsizlik Konfransında Ermənistanın baş naziri N.Paşinyanı aciz duruma salarkən də gördük.

Bu gün İlham Əliyev Heydər Əliyev siyasi zirvəsini fəth etmiş yeganə siyasi və dövlət xadimidir!

Bu gün İlham Əliyev bütün türk dövlətləri tərəfindən qəbul olunmuş parlaq liderdir!

Bu gün İlham Əliyev Azərbaycan xalqının fəxri, güvənci və taleyini əminliklə etibar etdiyi əsl dövlət başçısıdır!

**Bəxtiyar SADIQOV,**
**“Azərbaycan” qəzetinin baş redaktoru**
e-mail: secretary@azerbaijan-news.az

# BİZİ MƏHARƏTLİ İDARƏÇİLİK, BİRLİK VƏ HƏMRƏYLİK XİLAS EDİR

**Elçin BABAYEV,**
**Bakı Dövlət Universitetinin rektoru.**

**Hazırda inkişaf etmiş bir sıra dövlətlər və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən görülən tədbirlərə və birgə səylərə baxmayaraq, yeni növ koronavirus (COVİD-19) infeksiyasının dünyada yayılmasının qarşısını hələ də almaq mümkün olmamışdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, indiyədək dünyada 3,2 milyondan çox adam COVİD-19 infeksiyasına yoluxmuş, 1 milyondan çox adam sağalmış, 228 mindən çox adam isə bu infeksiya səbəbindən vəfat etmişdir.**

Pandemiyanın ilk günlərindən etibarən Azərbaycan koronavirus infeksiyasının yayılmasının qarşısının alınması üçün çevik və təsirli qabaqlayıcı addımlar atmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə cari ilin əvvəlində Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargah yaradılmışdır. Nazirlər Kabinetinin 2020-ci il 30 yanvar tarixli 35s nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasında yeni koronavirus infeksiyasının yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilmişdir.

Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə mayın 4-dək dayandırılmış, keçirilməli bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin, şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları, digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları müvəqqəti olaraq dayandırılmışdır. Aprelin 5-dən etibarən bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların zəruri hallarda müəyyən olunmuş vaxt çərçivəsində yaşayış yerini tərk etməsi üçün SMS icazə sistemi tətbiq edilmişdir.

Pandemiya ilə mübarizə sahəsində ölkə Prezidentinin hadisələrin axarını uzaqgörənliklə, dəqiq və düzgün təhlil edərək vaxtında verdiyi qərarlar, onun təşəbbüsü və rəhbərliyi ilə operativ olaraq həyata keçirilən qabaqlayıcı və effektiv tədbirlər koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması və vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün mühüm əhəmiyyətə malik olmuşdur. Ciddi karantin tədbirlərinin tətbiqi, infeksiyanın diaqnostikası məqsədilə testlərin vaxtında alınması və davamlı yoxlamaların aparılması, infek-siyaya yoluxmuş insanların müalicəsinin operativ təşkili, qoruyucu vasitələrin idxalı və yerli istehsalı, zəruri tibbi bazanın daha da gücləndirilməsi, yeni xəstəxanaların tikilərək istifadəyə verilməsi istiqamətində görülən işlər xüsusi olaraq qeyd edilməlidir. İndiyə

kimi ölkə üzrə 137 mindən çox test keçirilmişdir. Bu testlərin aparılması üçün hazırda 18 laboratoriya fəaliyyət göstərir ki, onlardan da 5-i yeni yaradılmışdır. Aprel ayının 30-dək dünya üzrə infeksiyaya yoluxanların 31 faizinin sağalmasına və 7 faizinin vəfat etməsinə baxmayaraq, ölkəmiz üzrə bu rəqəmlər uyğun olaraq 72 faiz və 1,3 faiz təşkil edir.

Hazırda ölkəmizdə koronavirus xəstələri 22 dövlət xəstəxanasında müalicə olunur. Bu günlərdə Bakıda 575 çarpayılıq "Yeni klinika" və ölkəmizin 3 şəhərində ümumi çarpayı sayı 500-dən çox olan 3 yeni xəstəxana istifadəyə verilmişdir. Cənab Prezidentin göstərişi əsasında hər birində 200 çarpayı yeri olmaqla müasir modul tipli 10 xəstəxananın inşasına başlanılmışdır və onların yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulur.

Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlindən tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır. Eyni zamanda, koronavirusa yoluxanlara xidmət göstərən həkimlərin və aidiyyəti üzrə pandemiya ilə mübarizə sahəsində çalışan işçilərin əmək-haqqının əhəmiyyətli dərəcədə artırılması, bu çətin günlərdə aztəminatlı insanlara və sosial cəhətdən həssas qrupa aid edilən ailələrə dövlət qayğısının göstərilməsi, bir sıra genişmiqyaslı sosial layihələrin həyata keçirilməsi xalq-iqtidar birliyinin bariz təzahürüdür və qədirbilən xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Pandemiya dövründə ölkədə iqtisadi sabitliyi təmin etmək üçün bir neçə milyard manat vəsait ayrılmış, pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı hazırlanmış və təsdiq edilmişdir.

Koronavirus nəticəsində mənfi təsirə məruz qalmış özəl sektorun müvafiq sahələrinə dövlət dəstəyi paketi çərçivəsində xidmət və digər sahələrdə çalışan 600 min vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əmək-haqlarının böyük hissəsi dövlət tərəfindən ödənilmişdir. 600 min aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa da minimal meyara uyğun olaraq ödənişlər edilmişdir. Vergi güzəştləri də nəzərə alınmaqla bu rəqəm 3,5 milyard manatdan artıq olmuşdur.

Cənab Prezidentin təşəbbüsü ilə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmiş, ilkin olaraq fonda dövlət tərəfindən 20 milyon manat vəsait köçürülmüşdür. Prezident İlham Əliyev və Birinci Vitse-prezident Mehriban Əliyeva tərəfindən bir illik əmək-haqqının fonda ianə edilməsi cəmiyyətdə həmrəylik üçün stimul rolunu oynamışdur. Ayrı-ayrı fiziki və hüquqi şəxslər tərəfindən fonda könüllü ianələr edilmişdir. Hazırda fonda köçürülmüş ianələrin həcmi 113 milyon manatdan çoxdur və bu vəsaitin aidiyyəti üzrə sərf edilməsinə ictimai nəzarətin təşkil edilməsi məqsədilə xüsusi komissiya yaradılmışdır.

Ötən müddət ərzində böyük əksəriyyəti dövlət hesabına olmaqla, 15 mindən artıq Azərbaycan vətəndaşı müxtəlif xarici ölkələrdən təxliyə edilmiş və karantin müddəti bitənədək dövlət hesabına ən yüksək şəraitlə təmin olunmuş xüsusi karantin zonalarında yerləşdirilmişdir.

Ölkə daxilində həyata keçirilən tədbirlərlə yanaşı, beynəlxalq aləmdə fəallığını davam etdirən Azərbaycan pandemiyaya qarşı mübarizədə elə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir.

Ölkəmiz qlobal həmrəylik nümayiş etdirərək Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVİD-19 müraciəti Fonduna könüllü maliyyə yardımı ayırmışdır. Hələ mart ayının əvvəllərində bu təşkilatın aparıcı mütəxəssislərindən ibarət nümayəndə heyəti ölkəmizdə səfərdə olmuş, vəziyyətlə tanış olaraq görülmüş işlərə müsbət qiymət vermişlər. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə, videokonfrans vasitəsilə Türk Şurasının dövlət başçıları səviyyəsində fövqəladə Zirvə görüşünün keçirilməsi, həmçinin, bir sıra dövlət başçıları ilə müxtəlif formatlarda müzakirələrin aparılması koronavirus pandemiyası ilə mübarizədə beynəlxalq əməkdaşlıq üçün zəmin yaratmışdır. Şübhə etmirik ki, cənab Prezidentin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçiriləcək Zirvə görüşü də dünya dövlətlərinin bu mübarizədə səfərbər olması və beynəlxalq həmrəyliyin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu koronavirus infeksiyası ilə mübarizə sahəsində dövlət tərəfindən görülən işlərə dəstək vermişdir. Fondun daimi himayəsində olan uşaq, körpələr və qocalar evləri, internat məktəbləri və sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində tələb olunan profilaktik tədbirlər görülmüş, onlar lazımi qoruyucu vasitələrlə təmin olunmuşdur.

Heydər Əliyev Fondu, hər zaman olduğu kimi, illər boyu qazandığı təcrübə ilə bu gün də koronavirusla mübarizədə səhiyyə müəssisələrinə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və Səhiyyə Nazirliyinə lazımi dəstəyi göstərir. Ümum-dünya Səhiyyə Təşkilatının təşəbbüsü, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Səhiyyə Nazirliyinin dəstəyi ilə Azərbaycanın regionlardakı xəstəxanalarında COVİD-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas ba-carıqları gücləndirmək üçün REACT-C19 layihəsinə start verilib. Türkiyə xəstəxanalarında çalışan 19 azərbaycanlı həkim layihəyə cəlb edilib. Layihənin məqsədi koronavirusa yoluxmuş xəstələrin müalicəsi üçün bölgələrdəki seçilmiş xəstəxanalarda COVİD-19-la bağlı əsas bacarıqları sürətlə inkişaf etdirməkdir.

Mehriban xanım Əliyevanın tapşırığı ilə beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində əhalinin maarifləndirilməsi üçün birgə kommunikasiya planı ha-zırlanmışdır. Plan əsasında mətbuat, ictimaiyyət və dövlət qurumları ilə mütəşəkkil əlaqələndirici iş aparılır. Heydər Əliyev Fondu ölkədə uğurla həyata keçirilən sosial siyasətə dəstək göstərir, sosial cəhətdən həssas əhali qrupuna və ehtiyacı olan ailələrə hərtərəfli yardım edir. Pandemiya ilə əlaqədar ölkədə elan olunmuş xüsusi karantin rejimi dövründə dövlət tərəfindən görülən tədbirlərə dəstək olaraq, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" şüarı ilə həyata keçirdiyi layihə çərçivəsində Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyinin "www.bizbirlikdegucluyuk.az" portalı istifadəyə verilib.

Bu möhtəşəm layihədə məqsəd dövlət tərəfindən həyata keçirilən sosial siyasətə dəstək göstərmək, köməyə ehtiyacı olan insanlara yardım etmək istəyən şəxsləri bir

araya gətirmək, bu işdə vətəndaş həmrəyliyini genişləndirməkdir. Aksiya çərçivəsində 100 mindən artıq sovqatın paylanılması nəzərdə tutulur.

Tədris prosesinin dayandırılması ilə əlaqədar təhsilin davamlılığının təmin edilməsi və preventiv tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən də bir sıra vacib tədbirlər həyata keçirilmişdir.

Koronavirus infeksiyasının qarşısının alınması məqsədilə bütün təhsil müəssisələrində dezinfeksiya işləri aparılmış, ölkə üzrə bütün təhsil müəssisələrində tibbi-profilaktik vəziyyətə nəzarət gücləndirilmiş, dezinfeksiya işlərinin və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi intensivləşdirilmişdir.

Təhsil Nazirliyinin təşkilatçılığı ilə martın 11-dən "Mədəniyyət" və "ARB Günəş" kanallarında ölkənin ümumtəhsil müəssisələrinin şagirdləri üçün teledərslərin yayımına başlanılmışdır. Teledərslər bütün sinifləri və əksər fənləri əhatə etməklə, həm Azərbaycan, həm də rus bölmələri üçün əvvəlcədən elan edilmiş cədvələ uyğun olaraq təqdim edilir. Bununla yanaşı, şagirdlər teledərsləri və hər bir fənn üzrə əlavə videomaterialları Təhsil Nazirliyinin www.video.edu.az elektron portalında onlara uyğun olan vaxtda da izləmək imkanına malikdirlər.

Nazirlik, həmçinin, "Virtual məktəb" layihəsinə start verib. Layihənin məqsədi nazirlik tərəfindən yayımlanan teledərslərin interaktivliyini təmin etmək və ümumilikdə məsafədən tədris imkanlarını genişləndirməkdir. "Virtual məktəb" layihəsi Təhsil Nazirliyi və "Microsoft" korporasiyası arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir. Hər bir şagird "Virtual məktəb" portalında qeydiyyatdan keçərək öz yaşına əsasən sinfə təyin olunur və müəllimlər tərəfindən həftəiçi teledərslərdə tədris olunmuş mövzulara uyğun hazırlanmış ev tapşırıqlarını yerinə yetirir.

Aprel ayının 1-dən Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələrinin qrup və dərnəklərinə cəlb edilən məktəblilər üçün onlayn formatda dərslərə start verilib. Dərslər müəssisələr tərəfindən müəyyən olunmuş qrafikə uyğun olaraq ev şəraitində keçirilməsi mümkün olan istiqamətlər üzrə təşkil edilir. Məşqçi-müəllim və dərnək rəhbərləri müxtəlif proqram təminatlarından yararlanaraq məktəbliləri interaktiv tədris prosesinə cəlb edir, onların fiziki sağlamlıqlarının təmin edilməsi üçün idmanın ayrı-ayrı növləri üzrə məşq prosesi, yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün rəqs, rəsm, bacarıqlı əllər, bədii qiraət, ifa, biçmə-tikmə, erudit və digər sahələr üzrə dərslər təşkil edir, mövzuya uyğun sual-cavab, fikir mübadiləsi aparmaq imkanı yaradır.

Aprelin 6-dan Təhsil Nazirliyinin yeni 146-3 "Qaynar xətt" xidməti fəaliyyətə başlayıb. Ölkəmizdə karantin rejimi ilə əlaqədar evdə qalan şagirdlər, eləcə də, bütün vətəndaşlar mənəvi-psixoloji dəstəyə zərurət duyduğu hallarda bu xidmət ilə əlaqə yarada bilərlər. Əlaqə yaradan hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə məsləhət verilərək lazımi dəstəklə təmin olunurlar.

Koronavirus pandemiyası ilə mübarizə ümumtəhsil məktəbləri ilə yanaşı, ali təhsil müəssisələri qarşısında da bir sıra təxirəsalınmaz vəzifələr qoydu. Tədris prosesinin davamlılığını təmin etmək məqsədilə 2020-ci il 18 mart tarixində Təhsil Nazirliyi tərəfindən bütün ali təhsil müəssisələrinə tədris

prosesinin məsafədən təşkil edilməsi ilə bağlı "Microsoft teams" platformasından istifadə tövsiyə edildi. Nazirlik təlim-tədris prosesinin məsafədən təşkili məqsədilə ali və orta ixtisas təhsil pillələri üzrə bu platformadan ödənişsiz istifadə imkanı yaratdı. Platformadan istifadə üzrə müəllim və tələbələr üçün video-təlimatlar hazırlanaraq video-dərslər (video.edu.az) portalında yerləşdirildi. Təhsil müəssisələri sözügedən platforma vasitəsilə videobağlantı imkanı əldə edərək məsafədən təhsil vermək, müəllim-tələbə müzakirəsinin təşkili üçün interaktiv alətlərdən istifadə, sillabus, mühazirə mətnləri kimi müxtəlif dərs materialları və daha böyük həcmli materiallar ötürmək, təqvim aləti vasitəsilə onlayn dərsləri planlaşdırmaq, qrup işinin təşkili və qiymətləndirmə alətlərindən istifadə etmək kimi geniş imkanlardan faydalana bilirlər.

Aprelin 24-də Azərbaycan Respublikasının Təhsil nazirinin ali təhsil müəssisələrinin rektorları ilə keçirilmiş videokonfransında koronavirus pandemiyasının təsirlərinin minimallaşdırılması istiqamətində ölkə rəhbərliyi tərəfindən verilmiş tapşırıqların icrası vəziyyəti barədə geniş müzakirələr aparılmışdır. Tələbələrin tədris ilinin ikinci yarımilliyinin nəticələrinə əsasən qiymətləndirilməsi prosesinin, buraxılış kurs tələbələrinin pedaqoji və istehsalat təcrübələrinin və yekun dövlət attestasiyasının keçirilməsinin təşkili məsələləri ətrafında fikir mübadiləsi aparılmış, nazirlik tərəfindən bu istiqamətlərdə ümumi tövsiyələr verilmişdir. Ali təhsil müəssisələri tərəfindən bu istiqamətdə görüləcək konkret tədbirlər barədə təkliflərin hazırlanması və Təhsil Nazirliyinə təqdim edilməsi tapşırılmışdır.

Pandemiya ilə mübarizə sahəsində, bütövlükdə, ölkəmizdə, o cümlədən, ali təhsil sahəsində aparılan işlər çərçivəsində Bakı Dövlət Universitetində (BDU) də bir sıra tədbirlər həyata keçirilir. Mart ayının 5-dən başlayaraq BDU-da infeksiyalara yoluxma hallarına yol verilməməsi və onun qarşısının alınması, bu sahədə profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə sanitar-epidemioloji vəziyyətə nəzarət gücləndirilib, dezinfeksiya işləri və qabaqlayıcı tədbirlər həyata keçirilib. Bakı Şəhər Dezinfeksiya Stansiyasının bölmələri tərəfindən universitetin auditoriyaları, kitabxanası, dəhlizləri və digər ərazilərində mütəmadi olaraq dezinfeksiya işləri aparılıb.

Cari ilin mart ayında BDU Elmi Şurasının virtual iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında operativ qərargahın qərarlarından irəli gələn vəzifələr, universitetdə tədrisin onlayn və oflayn rejimlərdə, elektron vasitələrlə təşkili imkanları, tələbə və əməkdaşların sağlamlığının qorunması istiqamətində görülmüş işlər və nəzərdə tutlmuş tədbirlər müzakirə olunub. Elmi Şura Azərbaycan Respublikası Prezidentinin yeni növ virusla mübarizədə atdığı qətiyyətli və effektiv addımları dəstəkləmiş, ölkə başçısının müvafiq sərəncamı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılmasını əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi istiqamətində vacib və əhəmiyyətli tədbir kimi qiymətləndirmişdir. Elmi Şurada bu ümummilli məsələdə dövlətin qətiyyətli addımlarının, həyata keçirdiyi yüksək təhlükəsizlik tədbirlərinin Azərbaycan xalqının gələcəyinə, əhalinin sağlamlığının qorunmasına xidmət etdiyi vurğulanmış, hər bir insan öz sosial məsuliyyətini dərk etməyə, birliyə və həmrəyliyə, Nazirlər Kabineti yanında operativ qərargahın

tələb və tövsiyələrinə əməl etməyə çağrılmışdır.

Elmi Şuranın qərarına əsasən BDU büdcəsindən COVİD-19 Koronavirusla Mübarizəyə Dəstək Fonduna 100 min manat vəsait köçürülmüşdür. Bununla yanaşı, universitetin bir qrup əməkdaşı da aylıq əməkhaqlarının müəyyən hissəsini fonda ianə etmişlər.

Elmi Şuranın digər qərarı əsasında BDU-da yeni COVİD-19 infeksiyası ilə mübarizə və onun yayılmasının qarşısının alınması, universitetin ərazisində təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi, həmçinin, tədrisin dayandırılması ilə əlaqədar olaraq video-dərslərin təşkili və elektron mühazirələrin təhsilalanlara paylanması işini təşkil etmək məqsədilə qərargah yaradılmışdır. Yaradılmış qərargahın fəaliyyəti çərçivəsində universitetin bütün giriş qapılarında dezin-feksiyaedici məhlullar qoyulmuş, Ümumdünya Səhiyyə Təşkilatının və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargahın yeni COVİD-19 infeksiyası ilə mübarizə üzrə məsləhət və tövsiyələrini əks etdirən maarifləndirici posterlər vurulmuşdur. Qərargah mütəmadi olaraq əməkdaşların və təhsilalanların suallarını operativ şəkildə cavablandırır, zərurət yarandıqda atılacaq addımlar və mövcud məhdudiyyətlər barədə onlara telefon, SMS və ya elektron-poçt vasitəsi ilə məlumatlar verir.

Artıq qeyd edildiyi kimi, tədris prosesinin davamlılığını təmin etmək məqsədilə 2020-ci il 18 mart tarixində Təhsil Nazirliyi bütün ali təhsil müəssisələrinə tədris prosesinin məsafədən təşkil edilməsi ilə bağlı "Microsoft Teams" platformasından istifadəni tövsiyə etmişdir. Bununla əlaqədar olaraq BDU-da 2020-ci il 18 mart tarixindən başlayaraq onlayn tədris prosesinin təşkili, müəllim və tələbə heyətinin "Microsoft Teams" platformasına inteqrasiyası müvəffəqiyyətlə təmin edilib. Tədrisin məsafədən təşkilinin məqsədi yaranmış fasilə zamanı tələbələrə tədris və metodiki dəstəyin göstərilməsi, təhsil proqramının mənimsənilməsinə şəraitin yaradılması, bu müddət ərzində onların vaxtlarının səmərəli təşkil olunmasıdır. Universitetin bu platformaya daxil edilən 20 mindən artıq istifadəçi hesabı, 1500-dən artıq qrup və qrup birləşməsi yaradılıb. Dərslər 2020-ci il 31 mart tarixinədək "Zoom" platforması və video-dərslər vasitəsi ilə tənzimlənib. 29-31 mart tarixlərindən "Microsoft Teams" platformasında sınaq dərslər keçiriləndən sonra, 1 aprel tarixindən başlayaraq tədris aktiv dərslərlə davam etdirilir.

Hazırda BDU-da dərs prosesi sillabus, mühazirə mətnləri və digər dərs mate-riallarının ötürülməsinə, böyük həcmli materialların yerləşdirilməsinə imkan verən "Microsoft Teams" platforması vasitəsilə uğurla həyata keçirilməkdədir. BDU-nun 15 mindən artıq aktiv istifadəçisinin yararlandığı platformada bu günə qədər 30 mindən çox dərs keçirilib, gündəlik dərslərin sayı orta hesabla 1500, istifadəçilərin sayı isə 10 mindən çoxdur. Platforma BDU tələbələrinin 80%-ni əhatə edir.

Tədris prosesinin təşkili, dərslərin keçirilməsinə nəzarət, texniki çətinliklərin aradan qaldırılması, müəllim və tələbələrin bu platformadan düzgün istifadə etməsinə kömək məqsədilə universitetin məsafədən fəaliyyət göstərən, 20 əməkdaşdan ibarət işçi qrupu formalaşdırılıb. Distant formada dərslərin əksəriyyətinin videoqeydiyyatı aparılır. Bu da internet imkanları məhdud tələbələrin

həmin mühazirəni yenidən izləməsinə şərait yaradır.

Şübhəsiz ki, gündəlik həyat tərzinin pozulması, infeksiya ilə bağlı yaranan qorxu və həyəcan kimi mənfi hallarla əlaqədar insanların həyat fəaliyyətində kəskin dəyişikliklər, bəzən psixoloji problemlər, narahatlıqlar özünü göstərir. Bu səbəbdən, Azərbaycan ali məktəbləri arasında ilk dəfə olaraq BDU-da hələ 2019-cu ilin dekabr ayında yaradılan Psixoloji Yardım Sektoru evdə qalan tələbələrin, eləcə də, əməkdaşların mənəvi-psixoloji vəziyyətini nəzərə alaraq rəsmi sosial media səhifələri vasitəsilə onlara dəstək göstərir.

Bakı Dövlət Universiteti ölkədə həyata keçirilən sosial aksiyalarda fəal iştirak edir. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən ölkəmizdə elan edilən xüsusi karantin rejimi müddətində evdən çıxması qadağan olunan, 65 yaşdan yuxarı tənha yaşayan şəxslərə sosial qayğı göstərilməsi kampaniyası ilə əlaqədar Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyi və Bakı Dövlət Universitetinin birgə keçirdiyi sosial aksiya çərçivəsində Bakı şəhərinin müxtəlif ərazilərində xüsusi risk qrupuna aid 100 şəxsə müxtəlif ərzaq məhsullarından ibarət sovqat paylanılmışdır. Aksiya zamanı yardım olunanlara COVİD-19 infeksiyasının ölkədə yayılmasının qarşısının alınması məqsədilə Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən elan edilən xüsusi karantin rejiminin qaydaları bir daha xatırladılmış, xüsusi bukletlər təqdim olunmuşdur.

Tələbə-gənclərin estetik və mənəvi tərbiyəsində, dünyagörüşünün zənginləşməsində, vətəndaş kimi formalaşmasında mütaliənin rolunu nəzərə alaraq, tələbələr arasında kitab və mütaliəni təbliğ edən müxtəlif onlayn sosial aksiyalar keçirilir. BDU Radiosunun təqdimatında BDU-nun jurnalistika fakültəsinin tələbələri tərəfindən hazırlanmış “Ədəbi incilər” radioverilişləri universitetin rəsmi saytı və sosial media səhifələrindən tələbələrə təqdim edilir.

Onlayn tədrislə yanaşı BDU-da elmi-tədqiqat institutları və laboratoriyalarının əməkdaşları, tədqiqatçılar öz axtarışlarını davam etdirir, xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq onlayn formada məsləhətləşmələr və müzakirələr aparır, elmi fəaliyyətlərini məsafədən koordinasiya edirlər. BDU-nun yeni yaradılmış və gənc tədqiqatçıların fəaliyyət göstərdiyi Sənaye Kimyası Laboratoriyasında da tədqiqat işləri məsafədən idarə olunmaqla həyata keçirilir. Laboratoriya əməkdaşları tərəfindən mühüm elmi nəticələr “Microsoft Teams” platforması üzərindən müzakirəyə çıxarılır, yeni innovativ ideyalar haqqında mülahizələr irəli sürülür. Eyni zamanda, Fransanın Lorraine, Tunisin Carthage, Amerika Birləşmiş Ştatlarının (ABŞ) İllinois universitetlərinin professorları ilə yeni elmi məqalələr üzərində məsləhətləşmələr aparılır. Həmçinin, laboratoriya əməkdaşlarının üzərində çalışdıqları bir sıra layihələr üzrə araşdırmalar onlayn formada davam etdirilir, alqoritmlər hazırlanır, modelləşdirmə və kodlaşdırma işləri görülür.

Universitetin müasir tələblərlə səsləşən yeni yaradılmış digər bir tədqiqat qurumu – “Mikrobiologiya və virusologiya” Elmi-tədqiqat laboratoriyasının tədqiqat istiqamətləri müəyyənləşdirilmişdir. Hazırda laboratoriyada aparılacaq elmi-tədqiqat işlərinin effektivliyinin təmin edilməsi üçün lazımi şəraitin yaradılması istiqamətində zəruri işlər görülür.

Bakı Dövlət Universitetinin görkəmli alimləri, peşəkar mütəxəssisləri, tanınmış ziyalılar mütəmadi olaraq kütləvi informasiya vasitələrində çıxışlar edir, yeni növ koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısının alınması istiqamətində dövlət səviyyəsində görülən tədbirlərin əhəmiyyəti, xüsusi karantin rejiminə ciddi riayət olunmasının vacibliyi, sosial izolyasiya dövründə təhsilin davamlılığı, insanların öz psixoloji sağlamlıqlarını qoruması yolları və s. haqqında məlumat verir, ölkədə elmi maarifləndirmə işində yaxından iştirak edirlər.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nəzarəti ilə dövlət orqanlarının Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq koronovirusla mübarizə məqsədilə həyata keçirdikləri qabaqlayıcı tədbirlər bu virusun yayılma-sının qarşısının alınmasında və nəzarətdə saxlanılmasında böyük əhəmiyyət kəsb edir. Hazırda ölkədə pandemiyaya qarşı vəziyyət stabildir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 aprel tarixli qərarı ilə xüsusi karantin rejiminin 04 may 2020-ci il tarixədək uzadılması da, hər şeydən əvvəl, Azərbaycan xalqının sağlamlığının qorunması, profilaktik və mübarizə xarakterli təxirəsalınmaz tədbirlərin davam etdirilməsi, pandemiyanın Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin tamamilə qarşısının alınması məqsədi daşıyır. Ölkə başçısının rəhbərliyi altında infeksiya ilə mübarizədə geniş miqyaslı tədbirlər davam etdirilir. Uğurlu səhiyyə siyasəti ilə bərabər, fəal şəkildə sosial dəstək və sosial cəhətdən həssas əhali qrupunun, o cümlədən, pandemiyadan zərər çəkmiş sahələrdə işləyən sakinlərin məşğulluğunun təmin olunması siyasəti həyata keçirilir. Məşğulluğun və sosial rifahın dəstəklənməsi məqsədilə ölkə başçısının tapşırığı ilə genişmiqyaslı sosial, iqtisadi tədbirlər görülür. Xalqımızın bu çətin sınaqdan şərəflə çıxması üçün ən vacib addımlar atılır. Bütün bunların nəticəsidir ki, son günlər infeksiyaya yoluxanların müalicəsində davamlı olaraq müsbət dinamika müşahidə olunur. Şübhəsiz ki, ölkə rəhbərinin səmərəli, məqsədyönlü fəaliyyəti vətəndaşlar tərəfindən də böyük razılıqla qarşılanır.

Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı mübarizədə yeni bir nümunə yaratmışdır. Ümumdünya Səhiyyə Təşkilatı COVİD-19-la mübarizədə Azərbaycan dövlətinin siyasətini yüksək dəyərləndirmiş, görülən tədbirləri ən effektiv mübarizələrdən biri kimi qiymətləndirmişdir. Bugün dünya ölkələri üçün Azərbaycan nümunəsi bir örnəyə çevrilmişdir. Dövlətimiz tərəfindən həyata keçirilən genişmiqyaslı mübarizə tədbirləri xalqımızın bu sınaqdan daha az itki ilə çıxacağına qəti əminlik yaradır. Cənab Prezidentin infeksiya ilə mübarizədə “Biz birlikdə güclüyük!” çağırışına hər kəs qoşulur. Pandemiyaya qarşı mübarizədə Azərbaycanın əldə etdiyi uğurun başlıca səbəbi də məhz bu milli birlik, xalqımızın öz Prezidentinə sarsılmaz inamıdır.

İnanırıq ki, görülən işlər və xalq-iqtidar birliyi hesabına müdrik Azərbaycan xalqı bütün dünyanı cənginə almış bu ağır vəziyyətdən, bu böyük sınaqdan şərəflə çıxacaq və biz tezliklə digər sahələrlə birlikdə normal təhsil prosesini də yenidən bərpa edəcəyik. Bunun üçün vətəndaş məsuliyyəti, birlik və həmrəylik əsas şərtdir.

Biz birlikdə güclüyük və həmişə güclü olaraq qalacağıq!

URL: www.bsu.edu.az

# İSLAHATÇI PREZİDENT

**Ölkəmizdə 2018-ci il aprelin 11-i tarixində keçirilən prezident seçkilərində Azərbaycan xalqı bu dəfə də doğru və müdrik seçim etmişdir: Cənab İlham Əliyev seçicilərin 86,03 faizinin səsini qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Xalq səsini ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiq qalaraq, Azərbaycanı regionun liderinə və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevirən dünya səviyyəli siyasətçi İlham Əliyevə vermişdir. Növbəti dəfə xalqdan etimad mandatı alan Prezident İlham Əliyevin rəhbərliyi altında son iki ildə Azərbaycan öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələ bütün sahələri əhatə edən, genişmiqyaslı və davamlı islahatlarla xarakterizə olunur. Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən dərinləşən islahatlar kursu sosial-iqtisadi, məhkəmə-hüquq sahələrini, siyasi, struktur və kadr istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir.**

Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin bütövlükdə 17 il, o cümlədən, son 2 il həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq cevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq dövlət başçımız həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir.

Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti və nəhayət, ecazkar cəzbetmə potensialı, bənzərsiz xarizması ilə ən qatı siyasi opponentlərini də "tərksilah" etməyə və onları "siyasi hipnoz" vəziyyətinə salmağa müyəssər ola bilir.

Dəfələrlə bu reallığın şahidi olmuşuq. Həmin həqiqətlərdən bir neçəsi üzərində dayanmaq istərdik. Məlum həqiqətdir ki, 2009-cu ildə ABŞ başda olmaqla, Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə – Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta, iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edib, orada ABŞ Prezidenti Barak Obama və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi hədəfləmişdilər. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Prezident İlham Əliyev dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi. Bununla da hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut etdi. Əslində, bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan öz miqyası etibarilə böyük dövlət olmasa belə, sözünün mənası və çəkisi, qətiyyəti və iradəsi, Prezidenti və xalqı arasındakı birliklə böyükdür. Türkiyə – Ermənistan sərhədləri bugünə kimi bağlıdır. Onların açılması baglanmasına səbəb olan amillər aradan qaldırıldıqdan sonra mümkündür. Bu, hər iki qardaş dövlətin rəhbərləri – cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyidir.

Prezident İlham Əliyevin bütün diplomatik addımları millli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır və bir çox hallarda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal və məqsədyönlü addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmamaq Hərəkatına üzv oldu. Bu xəbəri eşidən kimi, radikal siyasi ünsürlər haray-həşir qaldırdılar ki, mövcud iqtidar Azərbaycanı Avroatlantik məkana inteqrasiya xəttindən uzaqlaşdırır. Bu, az qala dövlətçiliyimizin itirilməsinə bərabərdir və s. Sonralar həmin ünsürlər öz aralarında etiraf etmək məcburiyyətində qalacaqlar ki, ölkə başçısının həmin siyasi gedişinin arxasında dayanan əsl mətləbi vaxtında dərk edə bilməyiblər. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi olan İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-ya üzv olmasını əsas siyasi hədəf kimi müəyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi.

Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan, 120 dövləti özündə birləşdirən Qoşulmama Hərəkatına (QH) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə

də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-ya keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nın qeyri-daimi üzvü seçildi. Respublikamız müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi boyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir. Bu baxımdan, 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarıda general Gerasimov ilə NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş komandanı Kurtis Skaparotinin, 2019-cu ilin iyul ayında Rusiyanın eyni ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında və nəhayət, 2019-cu ilin noyabr ayında Rusiya Müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimov və NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsi təsadüfi sayılmamalıdır. Beləliklə, Bakı 6-cı dəfə idi ki, Rusiya ilə Qərb arasındakı ali hərbi danışıqlara evsahibliyi etmiş oldu. Heç şübhəsiz, bu seçim səbəbsiz deyildir. Əsas səbəb odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və qətiyyətli siyasət dünyanın əsas güc mərkəzləri tərəfindən ehtiramla qarşılanır.

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir, bu baxımdan, bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək", – fikri təsadüfi sayılmamalıdır.

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Gü-

nəşli” yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. Şərq – Qərb nəqliyyat marşrutu artıq reallaşıbdır. 2017-ci ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Çindən gələn ilk qatar Bakı–Tbilisi–Qars dəmir yolundan keçərək Avropaya çatmişdir. Milli iqtisadiyyata təkan verəcək, daşıma xərclərini azaldacaq dəmir yolu sistemi müasirləşdirilib və bu proses davam etməkdədir.

Təsadüfi deyildir ki, Davos Dünya İqtisadi Forumunun 2019-cu il üçün qiymətləndirməsinə əsasən, Azərbaycan dəmir yollarının səmərələliyinə görə dünyada 12-ci, hava yollarının səmərəliliyinə görə isə 11-ci yerdədir. Heydər Əliyev Beynəlxalq Aeroportu dünyadakı beşulduzlu 10 hava limanından biridir. Azərbaycan yolların keyfiyyətinə görə dünyada 27-ci, infrastrukturun keyfiyyətinə görə isə 34-cü yerdədir.

Prezident İlham Əliyevin uzaqgörən, müdrik siyasəti sayəsində Azərbayacan son 16 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda, dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliğı istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofoboya kimi təhlükəli meyillərin bir sira dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

“Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir”, deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə 2018-ci ildə 10 illiyini qeyd etdiyimiz “Bakı prosesi”nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı ikiillik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılıarının böyük idman bayramlarına evsahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-cildə IV İslam Həmrəylik Oyunlarına da evsahibliyi etməklə mədəniyyətlər arasında unukal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük tohfə vermişdir. Eyni məntiqdən qaynaqlanaraq, Prezident İlham Əliyev 2017-ci ili “İslam Həmrəylik ili” elan etmişdir. Cənab İlham Əliyevin İslam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında geniş rəğbət hissi ilə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün keçirilməsi və quruma sədrliyin Azərbaycana həvalə edilməsi, 25-26 oktyabr tarixlərində Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün keçirilməsi və Azərbaycana tərkibində BMT-yə üzv dövlətlərin üçdə ikisinin təmsil olunduğu bu nəhəng beynəlxalq quruma 3 il müddətinə sədrlik etmək hüququnun verilməsi, 14 noyabr tarixində Bakı şəhərinin Dünya Dini Liderlərinin II Bakı Sammitinə evsahibliyi etməsi, 2019-cu ili oktyabrın 25-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə baş tutatcaq Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququnu qazanması, həmin ildə Çin Xalq Respublikası ilə iqtisadi və siyasi münasibətlərini daha da inkişaf etdirərək Azərbaycanın "Bir kəmər- bir yol" təşəbbüsündə "orta marşrut"un fəal və mühüm iştirakçısı kimi yerini möhkəmləndirməsi və digər mühüm tədbirlər, heç şübhəsiz, müəllifi Prezident İlham Əliyevin olduğu Azərbaycanın müstəqil və milli maraqlara söykənən fəal xarici siyasət kursunun böyük uğurları kimi qiymətləndirilməlidir.

Bu, bir həqiqətdir ki, əgər Ermənistanın Azərbaycana təcavüzü və etnik təmizləmə siyasəti olmasaydı, Prezident İlham Əliyevin rəhbərliyi altında həm daxili, həm də xarici siyasətdə qazandığımız uğurların miqyası daha böyük olardı. Münaqişənin hələ də həllini tapa bilməməsi reallığına baxmayaraq, Azərbaycanın son 16 il ərzində konfliktin həlli prosesində siyasi, diplomatik və hərbi üstünlüyü təmin edilmişdir. Əvvəla, Ermənistanın bütün çoxsaylı cəhdlərinə baxmayaraq, heç bir beynəlxalq subyekt, o cümlədən, rəsmi İrəvanın özü də separatçı rejimin müstəqilliyini tanımamışdır. Bu, Azərbaycanın mühüm siyasi üstünlüyüdür. İkincisi, Ermənistanın separtçı rejimdə keçirdiyi referendum və saxta seçkilərin nəticələrini heç bir dünya dövləti və ya beynəlxalq təşkilat qəbul etməmişdir. Bu, əslində, beynəlxalq birliyin Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etməsinin bariz nümunəsidir. Nəhayət, 2016-cı ildə Ermənistan silahlı qüvvələrinin aprel avantürası onların məğlubedilməzliyi haqqında mifin bir neçə gün ərzində Azərbaycanın şanlı ordusunun əks həmləsi ilə darmadağın edilməsinə gətirib çıxartdı. Bu qələbə Azərbaycan Ordusunun hərbi texniki təchizatı və döyüş ruhunun ən yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi.

Ali Baş Komandan İlham Əliyevin təcavüzkar Ermənistan dövlətinə qarşı tətbiq etdiyi dərinləşməkdə olan iqtisadi və nəqliyyat blokadası siyasəti, başqa sözlə, təcavüzkar ölkəyə münasibətdə istifadə olunan "taqətdənsalma taktikası" öz real nəticələrini verməkdədir. Ən mühüm nəticələrdən biri və bəlkə də, birincisi Ermənistanda inqilabın baş verməsi və 20 ildir ki, bu ölkədə bərqərar olmuş xunta rejiminə son qoyulmasıdır. İnqilabi proseslərin dalğasında hakimiyyətə gəlmiş

Nikol Paşinyan hökumətinin, təəssüf ki, münaqişənin həlli ilə bağlı davranışı onun yaxın tarixi keçmişdən müvafiq nəticələr çıxarmadığını təsdiqləyir. O, öz sələfləri kimi daxili auditoriyaya ünvanlanmış populist, məsuliyyətsiz, ziddiyyətli və bir çox hallarda avantürist bəyanatlar verməkdə davam edir. Xüsusilə, Nikol Paşintyanın 2019-cu il avqustun 5-də işğal altındakı Azərbaycan ərazisində –Xankəndidə dar əhatədə səsləndirdiyi "Dağlıq Qarbağ Ermənistandır. Nöqtə" sərsəm fikri işğalçı ölkənin özündə belə qeyri-ciddi və populist mövqe kimi qarşılanmışdır. Azərbaycan xalqı isə görür ki, Prezident İlham Əliyev yeganə problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində son dərəcə prinsipiallıq və qətiyyət göstərir. Dövlət başçımız sonuncu dəfə bu davranışı Soçidə "Valday" Beynəlxalq Diskusiya Klubunun plenar sessiyasında nümayiş etdirdi. Münaqişənin tarixi, Ermənistanın işğalçılıq siyasətinin humanitar fəlakət törətməsi, beynəlxalq hüququn işləməməsi, təcavüzkar dövlətin yeni rəhbərliynin populist və məsuliyyətsiz bəyanatlar səsləndirməsi kmi həqiqətləri lazımi məqamda və yerdə dünya ictimaiyyətinə çatdırdı. Çıxışının sonunda isə Paşinyanın dar çərçivədə söylədiyi və daxili auditoriyaya ünvanlanmış "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" sayıqlamasına qarşı "Dağlıq Qarabağ Azərbaycandır. Nida işarəsi!" hökmünü irəli sürdü.

Prezident İlham Əliyev hücum taktikasından istifadə edərək işğalçı Ermənistanın rəhbərliyinə siyasi kürsülərdən bir-birinin ardınca zərbələr vurmaq siyasətinə sadiq qalaraq,

2019-cu il okyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasındakı olduqca arqumentli çıxışı ilə işğalçı ölkənin baş naziri Nikol Paşinyanı "siyasi nokaut" vəziyyətinə salmışdır. Azərbaycan Prezidenti öz çıxışında ölkəmizin faşizm üzərində qələbə qazanmasında müstəsna xidmətləri barədə danışaraq vurğuladı ki, Bakı nefti olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Faktlarla və arqumentlərə istinad edərək danışan Prezident İlham Əliyev bunun qarşılığında MDB məkanında, xüsusən Ermənistanda faşizmin təbliğatının aparıldığını, faşizmə xidmət edən şəxslərin xatirəsinə abidə ucaldılmasının qəbuledilməz olduğunu təəssüf hissi ilə iclas iştirakçılarının diqqətinə çatdırdı. Azərbaycan lideri bununla da siyasi hoqqabazlıq edən Nikol Paşinyanı susdurdu, onun iddialarını darmadağın etdi. Dövlət başçısının bu çıxışından sonra erməni mətbuatı Nikol Paşinyanı səriştəsiz, savadsız və populist siyasətçi adlandırdı. Prezident İlham Əliyevin isə lazımi yerdə və lazımi məqamda Azərbaycan həqiqətlərini ən yüksək tribunalardan səsləndirməyi bacaran xarizmalı lider kimi xarakterizə etdi.

Nəhayət, cari ilin 15 fevral tarixində Azərbaycan Prezidenti İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə panel müzakirə zamanı, sözün həqiqi mənasında, Ermənistanın baş naziri Nikol Paşinyana həm

tarixi, həm də hüquq dərsi keçdi, onun "mikro-inqilablar" nəzəriyyəsini öz tutarlı faktları və arqumentləri ilə darmadağın etdi. Dövlət başçımız tarix həqiqətlərə və hüquqi bazaya söykənərək, Dağlıq Qarabağın əzəli və qədim Azərbaycan ərazisi olduğunu təkzibedilməz faktlarla sübuta yetirdi. Bu debatdan sonra Ermənistan mətbuatı hələ uzun müddət ərzində Azərbaycan Prezidentinin münaqişənin həlli ilə bağlı prinsipial, qətiyyətli və beynəlxalq hüquqa söykənən mövqeyi qarşısında Nikol Paşinyanın olduqca cılız, sönük və inamsız davranışının etnik erməniləri hiddətləndirdiyini vurğulamış, bunun qarşılığında isə Prezident İlham Əliyevin olduqca hazırlıqlı, təcrübəli, peşəkar və dünya səviyyəli siyasətçi olduğunu etiraf etmək məcburiyyətində qaldı.

Ölkəmizin bugünkü inkişafı, əmin-amanlıq, dünya birliyində mövqeyinin getdikcə möhkəmləndirilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin səsləndirdiyi "Azərbaycan tarixində heç bir zaman indiki qədər güclü və qüdrətli olmayıb", – fikrini təsdiqləyir. Elə bu baxımdan, təsadüfi deyildir ki, ABŞ-ın nüfuzlu "U.S.News & World Report" jurnalının açıqladığı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycan 80 ölkə arasında 45-ci yerdə qərarlaşmışdır. Bu möhtəşəm nəticəsi ilə Azərbaycan hətta bir neçə Avropa ölkəsini –Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoymuşdur. Məlumat üçün qeyd edək ki, reytinq siyahısı ABŞ-ın nüfuzlu Pensilvaniya Universitetinin "BAV Group & Wharton School" qrupunun analitikləri tərəfindən tərtib edilmişdir.

Böyük fəxr hissi ilə onu da vurğulayaq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunda daha yüksək artımın təmin edilməsi, ixrac imkanlarının, rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması, investisiyaların təşviqi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində aparılan genişmiqyaslı islahatlar kursu beynəlxalq aləmdə də olduqca yüksək qiymətləndirilir. Məsələyə bu xüsusda yanaşdıqda ABŞ-ın kifayət qədər nüfuzlu "İrs" Fondunun 2020-ci ilin mart ayında təqdim etdiyi dünyanın 180 ölkəsi üzrə "İqtisadi azadlıq indeksi"ndə Azərbaycan mövqeyini 16 pillə yaxşılaşdıraraq 44-cü yerə sahib olmuşdur. Azərbaycan dünyada "iqtisadi azadlıq" indeksini ən çox təkmilləşdirən 11 ölkə sırasındadır. Ölkəmiz bu uğuru, ilk növbədə, biznes azadlığı, investisiya azadlığı və fiskal sağlamlıq göstəricilərinə görə qazanmışdır. Onu da xüsusi olaraq qeyd edək ki, Azərbaycan "iqtisadi azadlıq" indeksinə görə, hətta, Avropanın Polşa, Portuqaliya, İspaniya, Fransa və Belçika kimi ölkərini belə arxada qoyaraq, köhnə qitə"nin 45 ölkəsi arasında 24-cü yerdə qərarlaşmışdır.

Sonda təəssüf hissi ilə qeyd edək ki, 2019-cu ilin dekabr ayında Çin Xalq Respublikasının Uhan şəhərindən başlayaraq dünyanın bütün ölkələrini əsarətə alan ko-

ronavirus pandemiyası dünya iqtisadiyyatında yeni və daha ağır böhran təhlükəsi yaratdığı kimi, Azərbaycana da təsirsiz qalmamışdır. Xüsusilə, bu infeksiyanın məlum təsirləri fonunda dünya neft bazarında qiymətlərin 2 dəfədən artıq enməsi, heç şübhəsiz, ölkəmizin də sosial-iqtisadi həyatına, diplomatik və beynəlxalq iqtisadi əlaqələrinə mənfi təsir göstərməkdədir. Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan dövlətinin koronavirus infeksiyasına qarşı mübarizədə həmrəylik, birlik və məsuliyyətimizi daha da möhkəmləndirməklə bağlı çağırışları yalnız bir məqsədə xidmət edir. Bu məqsəd xalqımızı və dövlətimizi bu qorxulu infeksiyanın fəlakətli nəticələrindən hifz etmək və qorumaqdan ibarətdir. Elə bu niyyətlə də dövlətimizin rəhbəri koronavirus pandemiyasına qarşı mübarizədə preventiv, profilaktik, ardıcıl və sistemli addımların atılmasını təmin etməklə qorxulu xəstəliyin təsirlərinin minimuma endirilməsinə nail olmaq üçün gecə-gündüz çalışır. Şəxsi ləyaqət hissini paklıq zirvəsinə qaldıran mərhəmətli Mehriban xanım Əliyeva dəfələrlə ölkə vətəndaşlarına həm Birinci vitse-prezident, həm də bir ana olaraq müraciət edərək, onların sağlamlığının hər şeydən dəyərli olduğunu bildirmiş, eyni zamanda, insanlara mənəvi dəstək olaraq böyük inam hissi ilə vurğulamışdır: "Əminəm ki, müdrük xalqımızın ən gözəl xüsusiyyətləri, ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Sizə can sağlığı və uzun ömür arzulayıram!"

Beləliklə, yuxarıda apardığımız təhlillər o qənaətə gəlməyə əsas verir ki, dövlət iki halda beynəlxalq güclərin təzyiq obyektinə çevrilir. Birinci hal dövlət zəif olanda baş verir. Həmin dövlətin, ilk növbədə, ərazi bütövlüyü və suverenliyi böyük təhlükə altına düşür. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan analoji vəziyyəti yaşamışdır. İkinci hal isə, nə qədər paradoksal səslənsə də, dövlət güclü olanda labüdləşir. Azərbaycan bütün parametrlərə görə regional gücə – liderə çevrilmişdir. Deməli, bu reallığı qəbul edə bilməyən beynəlxalq qüvvələrin və onların miskin əlaltısına çevrilmiş daxili qaragüruhçu seqmentin naqis planlarını alt-üst etmək üçün indi daha güclü milli həmrəyliyə sahib olmalıyıq. Son 16 il ərzində ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, ugurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı olan Prezident İlham Əliyev ətrafında daha sıx və monolit birlik nümayiş etdirməliyik. Bu, zamanın çağırışıdır!

**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru.**
www.dia.az

# GÖMRÜK XİDMƏTİNİN FƏALİYYƏTİNDƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK VƏ AZAD BIİZNES MÜHİTİNİN TƏMİN EDİLMƏSİ MÜHÜM YER TUTUR

**Səfər MEHDİYEV,**
**Dövlət Gömrük Komitəsinin sədri,**
**gömrük xidməti general-polkovniki.**

***Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən mütərəqqi siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, gömrük işinin müasir idarəçilik prinsipləri əsasında təşkili istiqamətində də mühüm nailiyyətlər əldə edilib. Hazırda dövlət başçısının rəhbərliyi ilə aparılan islahatların əhatə dairəsi daha da genişlənib. Biznes mühitinin yaxşılaşdırılması, gömrük xidmətinin ən yüksək səviyyəyə çatdırılması, azad rəqabət mühitinin yaradılması Azərbaycan dövlətinin əsas prioritetlərindəndir. Gömrük xidmətində həyata keçirilən islahatlar nəticəsində xarici ticarət iştirakçılarının aktivliyi artıb, biznes mühitinin əlverişliliyinin artırılması, rəqabətliliyinin qorunub saxlanması və şəffaflıq təmin edilib. Eyni zamanda, dövlət büdcəsinə gömrük ödənişləri üzrə daxilolmaların artımına nail olunub.***

Bu gün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasından 28 il ötür. Dövlət Gömrük Komitəsi 1992-ci il yanvarın 30-da, Azərbaycan öz suverenliyini bərpa etdikdən üç ay sonra yaradılıb. Ötən dövr ərzində gömrüyün keçdiyi yol asan olmayıb. Müstəqilliyimizin ilk illərində ölkə iqtisadiyyatının digər sahələri kimi, gömrük xidməti də böhran dövrünü yaşayıb. Həmin illərdə mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan verməyib. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə digər sahələrdə olduğu kimi, gömrük xidmətində də kompleks tədbirlər həyata keçirilib.

Müstəqil və müasir gömrük xidməti formalaşdırılarkən dahi rəhbər Heydər Əliyevin tövsiyələri əsas tutulub: gömrük orqanları xarici-iqtisadi əlaqələrdə öz yerini müəyyən etməli, iqtisadiyyatın inkişafına xidmət göstərməli, bütün hallarda müstəqil Azərbaycanın nüfuzunun yüksəldilməsinə öz töhfəsini verməli idi.

Ulu öndər Heydər Əliyev gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirir, bu orqanın fəaliyyətini daim diqqətdə saxlayırdı. Dövlət Gömrük Komitəsinin yaradılmasının 5 illiyində, 1997-ci ildə Heydər Əliyev vurğulamışdır ki, "gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir".

Həmin təntənəli yığıncaqdakı nitqində gömrük orqanlarının fəaliyyətini son dərəcə dəqiqliklə və böyük uzaqgörənliklə təhlil edən Heydər Əliyev bu sistemdə yaranmış problemlərin həlli yolunun tələbkarlıq və nizam-intizam, peşəkarlıq mühitinin formalaşdırılması, kadrlarla işin yenidən qurulması, hər bir gömrük işçisinin öz dövlətinə sadiqlik prinsipinin əsas meyara çevrilməsi sayəsində mümkünlüyünü göstərmişdi.

Öz imkanlarına görə unikal orqan olan gömrük xidmətinin vəzifəsi – həm dövlət büdcəsinə daxilolmaları təmin etmək, gömrük

hüquqpozmalarına qarşı mübarizə aparmaq, xarici ticarəti sürətləndirmək və asanlaşdırmaq, həm də ölkənin iqtisadi təhlükəsizliyini qorumaqdır.

Məhz ulu öndər Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti sayəsində formalaşan Azərbaycan Gömrük Xidməti qısa zaman kəsiyində ölkəmizin önəmli dövlət təsisatlarından birinə çevrildi.

Bu gün Azərbaycan Gömrük Xidməti Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı inkişaf strategiyasına uyğun olaraq daha da inkişaf edib ölkəmizin mühüm dövlət təsisatlarından birinə çevrilməklə yanaşı, dünya gömrük ailəsində yüksək etibar və etimad qazanıb. Gömrük sistemində aparılan struktur və kadr islahatları idarəetmənin təkmilləşdirilməsinə, kadrların peşə hazırlığının artırılmasına, bir sözlə, gömrük işinin müasir dünyanın çağırışlarına uyğun şəkildə yenidən qurulmasına əlverişli şərait yaradıb.

Prezident İlham Əliyevin tarixi İpək Yolu üzərində strateji mövqe tutan ölkəmizin tranzit potensialının gücləndirilməsi, ixrac potensialının artırılması istiqamətində atdığı addımlar gömrük orqanlarının da qarşısında yeni hədəflər müəyyənləşdirib. Artıq ən müasir idarəetmə strukturuna malik Azərbaycan gömrüyü fəaliyyətini nəzarətdən xidmətə doğru dəyişdirərək beynəlxalq ticarətin təhlükəsiz, asan və sürətli şəkildə reallaşdırılması, ən müasir gömrük nəzarət üsul və vasitələrinin tətbiqi istiqamətində mühüm addımlar atır.

**Büdcə daxilolmaları və xarici ticarət**

Azərbaycan Gömrük Xidməti fəaliyyəti dövründə daha məzmunlu və daha maraqlı bir ili arxada qoydu. Gömrük orqanlarında 2019-cu ilin yekunları və qarşıda duran vəzifələrdən bəhs edərkən ilk növbədə qeyd etməliyəm ki, ötən il Dövlət Gömrük Komitəsi üzrə makrogöstəricilər baxımından uğurlu bir il olub, büdcə daxilolmalarındakı artım tendensiyası maksimum səviyyədə qorunub.

2019-cu il üzrə Dövlət Gömrük Komitəsi üçün nəzərdə tutulan 3 milyard 702 milyon manat büdcə öhdəliyinə qarşı 4 milyard 408 milyon 620 min manat gömrük ödənişləri toplanaraq dövlət büdcəsinə köçürülüb. Beləliklə, proqnoz göstəriciləri ilə müqayisədə 706 milyon 620 min manat artıq gömrük vergi və rüsumları toplanıb və ya proqnoza 119,1 faiz əməl olunub.

Bununla da Dövlət Gömrük Komitəsi yarandığı dövrdən rekord fiskal göstəriciləri nümayiş etdirərək son 2 il ərzində büdcə proqnozunda nəzərdə tutulduğundan 2 milyard manata yaxın artıq vəsaitin dövlət büdcəsinə köçürülməsini təmin edib.

Eyni zamanda, 2019-cu il ərzində xarici ticarət mühitində müsbət artım tendensiyası müşahidə olunub. Dünya bazarında neft qiymətlərinin nisbətən stabil olması və investisiya qoyuluşlarının həcminin artması ölkənin həm ixracında, həm də idxalında sabit artım üçün şərait yaradıb.

2019-cu ildə xarici ticarət dövriyyəsi 33,3 milyard ABŞ dolları təşkil edib ki, bu da 2018-ci illə müqayisədə 2,4 milyard ABŞ dolları və ya 7,6 faiz artım deməkdir.

Sevindirici haldır ki, ixrac həcminin 1 faizə yaxın artmasına baxmayaraq qeyri-neft sektorunda ixracın artımı 14 faiz təşkil edib. İdxalın həcmi isə əhəmiyyətli dərəcədə, 19 faiz artaraq 13,7 milyard ABŞ dolları olub. Bununla da 2019-cu ilin sonuna qeydə alınan müsbət saldo 5,96 milyard ABŞ dolları təşkil edib.

Ötən il Azərbaycan Respublikası ilə ticarət aparan xarici ölkələrin sırasında 2018-ci ildə

olduğu kimi idxalda ilk üçlüyə Rusiya Federasiyası, Türkiyə Respublikası və Çin Xalq Respublikası daxil olub. Bu da ölkənin ümumi idxalının 39 faizini təşkil edib. İxracda isə əsas üç ölkə İtaliya Respublikası, Türkiyə Respublikası və Çin Xalq Respublikası olub.

Onu da nəzərə çatdırım ki, 2019-cu il ərzində idxal əməliyyatlarının həcmi 13 milyard 668 milyon dollar məbləğində olmaqla 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 202 milyon dollar və ya 19,2 faiz artıb. İxrac əməliyyatlarının həcmi isə 19 milyard 635 milyon dollar təşkil edib və 2018-ci illə müqayisədə 146 milyon 620 min ABŞ dolları və ya 0,8 faiz artıb.

**Gömrük nəzarətinin təşkili və ticarətin asanlaşdırılması**

Dövlət Gömrük Komitəsi iqtisadi təhlükəsizliyin təmin edilməsinin əsas iştirakçılarından biri kimi ölkə Prezidentinin müəyyən etdiyi prioritet hədəflər çərçivəsində gömrük işinin daha müasir və çevik metodlarla tənzimlənməsi, sağlam iqtisadi rəqabətlilik mühitinin yaradılması, Azərbaycan Respublikasının ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması istiqamətində davamlı tədbirlər görür.

Azərbaycan Prezidentinin "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"nın təsdiq edilməsi haqqında 21 dekabr 2018-ci il tarixli, 427 nömrəli Fərmanı da öncül beynəlxalq praktikaya əsaslanaraq gömrük xidmətinin təkmilləşdirilməsi və ticarətin asanlaşdırılması istiqamətində atılmış ən mühüm addımlardan biridir. Bu sistem xarici iqtisadi fəaliyyət sahəsində etibarlı tərəfdaş prinsipinə uyğun olaraq Azərbaycan gömrüyündə tətbiq olunan ən müasir üsullardan biridir.

Həmin fərmanın icrasından irəli gələn məsələlərlə bağlı bir sıra mühüm işlər görülüb. Xarici ticarət iştirakçılarına "Yaşıl dəhliz" buraxılış sisteminə qoşulmaq üçün öz şəxsi kabinetlərindən Dövlət Gömrük Komitəsinə müraciət imkanı yaradılıb və daxil olan müraciətlərə komitənin struktur bölmələri tərəfindən baxılma mexanizmi işlənib hazırlanıb.

Eyni zamanda, Dövlət Gömrük Komitəsinin müvafiq sərəncamına əsasən, "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş xarici ticarət iştirakçıları tərəfindən həyata keçirilən idxal-ixrac əməliyyatları zamanı yarana biləcək çətinliklərin operativ qaydada aradan qaldırılması üçün "Dəstək qrupu" yaradılıb. Bu qrup tərəfindən 7/24 formatında xarici ticarət iştirakçılarına praktiki köməklik göstərilib, problemlərin operativ qaydada həlli üçün komitənin aidiyyəti struktur bölmələri ilə birgə işlər aparılıb.

Həmçinin "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ əldə etmiş xarici ticarət iştirakçıları tərəfindən sistemin səmərəliliyinin qiymətləndirilməsi, sistemin işinin daha da təkmilləşdirilməsi və istifadəsinin nəticələrinə dair fikir və təkliflərin öyrənilməsi məqsədilə "Yaşıl dəhliz" iştirakçısı olan biznes subyektləri ilə görüşlər keçirilib. Eyni zamanda, elektron poçt vasitəsilə sorğu aparılıb və respondentlərin təklifləri təhlil edilərək tədbir görülməsi üçün komitənin aidiyyəti struktur bölmələrinə göndərilib.

"Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası"na müvafiq olaraq ötən il 599 xarici ticarət iştirakçısı komitəyə müraciət edib. Bunlardan, ümu-

milikdə 530 xarici ticarət iştirakçısına "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququ verilib.

**Gömrük hüquqpozmalarına qarşı mübarizə**

2019-cu il ərzində gömrük orqanları tərəfindən əməliyyat-axtarış fəaliyyətinin və gömrük nəzarətinin gücləndirilməsi istiqamətində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində 13443 hüquqpozma faktı aşkar edilib.

Bu faktlardan 866-sı cinayət xarakterli faktlar olub və həmin faktlar üzrə tutulmuş qaçaqmalçılıq əşyaları və digər cinayət predmetlərinin dəyəri 11 milyon 273 min manatdan çox təşkil edib. Bu əməllərin törədilməsində şübhəli bilinən 992 nəfərin (771 Azərbaycan vətəndaşı, 220 əcnəbi, 1 vətəndaşlığı olmayan) barəsində müvafiq tədbirlər görülüb.

Gömruk sərhədindən narkotiklərin qanunsuz keçirilməsinin qarşısını almaq məqsədilə gömrük orqanları tərəfindən (o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə) görülmüş tədbirlər nəticəsində 2019-cu il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsilə əlaqədar 393 fakt aşkar olunub.

Bu faktlar üzrə ümumilikdə 1 ton 988 kq 628 qram narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən çıxarılıb. Onların 95,3%-ni daha təhlükəli ağır narkotiklər olan heroin və metamfetamin təşkil edib, müvafiq olaraq 1 ton 821 kq 728 qram heroin, 74 kq 246 qram metamfetamin tutulub. Bundan əlavə – 63 kq 559 qram tiryək, 11 kq 501 qram həşiş, 4 kq 009 qram kokain, 322,947 qram marixuana, 633,676 qram metadon, 18,5 qram diazepam, 93 qram fenobarbital, 12 kq 045 qram kalium permanqanat və digər maddələr qanunsuz dövriyyədən çıxarılıb.

2019-cu il ərzində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən 490 nəfər: 416 kişi və 74 qadın olmaqla 367 nəfər Azərbaycan vətəndaşı, 122 nəfər əcnəbi (91 İran, 16 Gürcüstan, 5 Rusiya, 3 Ukrayna, 3 Pakistan, 2 Türkiyə, 1 Boliviya və 1 Braziliya vətəndaşı) və 1 vətəndaşlığı olmayan şəxs barəsində müvafiq tədbirlər görülüb, 79 halda bu əməlləri törədən cinayətkar dəstə ifşa edilib.

Narkotiklərin qanunsuz keçirilməsi məqsədilə narkoqaçaqmalçılar müxtəlif gizlətmə üsullarından istifadə ediblər. 2019-cu il ərzində 116 halda narkotik vasitələrin daxili bədən boşluqlarında (mədədə, düz bağırsaqda və s.) keçirilməsinə cəhdin qarşısı alınıb.

2019-cu il ərzində gömrük orqanları tərəfindən aşkar olunmuş 12577 gömrük qaydaları əleyhinə inzibati xəta faktları üzrə 2154 hüquqi şəxs (o cümlədən 1010 xarici hüquqi şəxs) və 10440 fiziki şəxs (o cümlədən 3921 xarici vətəndaş) inzibati məsuliyyətə cəlb edilib, göstərilən şəxslərə qarşı 1 milyon 358 min 741 manat cərimə tətbiq olunmaqla, dəyəri 470 min 519 manat olan mallar məhkəmə orqanları tərəfindən müsadirə edilib.

"Valyuta tənzimi haqqında" Qanuna və digər qanunvericilik aktlarına əsasən, gömrük orqanları valyuta və valyuta sərvətlərinin gömrük sərhədindən keçirilməsi üzərində nəzarəti həyata keçirərkən qanunvericiliyin tələblərini pozan şəxslərdən 310330 ABŞ dolları, 13585 avro, 6531350 rus rublu, 35000 türk lirəsi, 25400 Azərbaycan manatı, 11627 manat dəyərində 730 ədəd gümüş zinət əşyaları, 56008 manat dəyərində 284,614 karat qiymətli daşlar, 1293908 manat dəyə-

rində 1803 ədəd qızıl zinət əşyaları aşkar olunub.

Bundan əlavə, hesabat dövründə gömrük orqanları tərəfindən 239569 ədəd CITES obyekti olan tibbi zəli, 12970770 litr dizel yanacağı, 3140993 manat dəyərində dərman vasitələri, 2679 manat dəyərində baytarlıq dərmanları, 1800 ədəd təhlükəsizlik kameraları, 2 ədəd elektroşoker, 18 ton 202 kq kimyəvi maddə, 24 kq 370 qram kürü, 7525 litr mühərrik yağı, 1152 ədəd mobil telefon və 43078 ədəd mobil telefonların aksesuarları, 121080 manat dəyərində məişət texnikası və əşyaları, 113 ədəd odlu silahın patronları, 5760 ədəd ov silahının sursat və ləvazimatları, 1 559 130 ədəd pirotexniki məmulatlar, 3 ədəd pnevmatik silah, 11500 ədəd pnevmatik silahın patronları, 164 ədəd soyuq silah, 30766 manat dəyərində tibbi ləvazimatlar və xeyli miqdarda digər mallar tutulub.

Hesabat dövründə gömrük orqanları tərəfindən alkoqollu içkilərin, etil (yeyinti) spirtinin və tütün məmulatlarının idxalı zamanı vergidən yayınma və aksiz markalarının tətbiqi qaydalarının pozulması hallarının qarşısının alınması üçün həyata keçirilmiş tədbirlər nəticəsində aksiz markasız və ya digər qanunsuz yollarla ölkəyə gətirilməsinə cəhd göstərilən 282 796,2 manat dəyərində 2 005 144 ədəd xaricdə istehsal olunan siqaretlər, 1469,5 manat dəyərində 1305 ədəd siqarlar, 130980 manat dəyərində 80894,7 litr spirtli içkilər saxlanılıb.

**Gömrük risklərinin idarə olunması və elektron gömrük**

Məlum olduğu kimi, gömrük sistemində islahatların tərkib hissəsi olaraq gömrük rəsmiləşdirilməsinin və gömrük nəzarətinin risk qiymətləndirilməsinə əsasən aparılmasına ciddi zərurət yaranıb. Bu istiqamətdə 2019-cu il ərzində konkret addımların atılması əsas prioritetlərdən olub. Risklərin idarə edilməsi sisteminin tətbiqinin məqsədi risk qiymətləndirilməsi əsasında gömrük nəzarətini və rəsmiləşdirilməsini daha çevik və şəffaf həyata keçirməklə fiziki gömrük yoxlamalarının minimuma endirilməsi və mövcud resurslardan daha səmərəli istifadənin təmin edilməsindən ibarətdir.

Hesabat dövrü ərzində risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə məlumatların toplanması, məlumat bazasının yenilənməsi, risklərin təhlili həyata keçirilib. Bu tədbirlərin nəticələrinin mütəmadi monitorinq yolu ilə risklərin müəyyən edilməsi, onların təhlükəlilik ehtimalının və dövlətin iqtisadi, sosial və digər maraqlarına dəyə biləcək ziyanın dərəcəsinin qiymətləndirilməsi və riskə məruz qalmanın azaldılması və qarşısının alınması məqsədilə avtomatlaşdırılmış proqram təminatında müvafiq təhlillər aparılıb. 2019-cu il ərzində müəyyən olunmuş risk göstəriciləri əsasında 1375 gömrük bəyannaməsi üzrə riskli əməliyyatlar aşkar olunaraq Risklərin Avtomatlaşdırılmış İdarəetmə Sisteminə (RAİS) inteqrə edilib və nəzarətə götürülüb. İdxal olunan malların gömrük dəyərinin, mal miqdarının, xarici iqtisadi fəaliyyətin mal nomenklaturu üzrə mal kodlarının düzgün bəyan olunmasında yaranmış riskli əməliyyatlar üzrə aidiyyəti gömrük orqanları məlumatlandırılmaqla külli miqdarda gömrük ödənişlərindən yayınma halları aşkar edilib və həmin məbləğin dövlət büdcəsinə köçürülməsi təmin olunub.

Ötən il ərzində gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sisteminin (VAİS) təkmilləşdirilməsi, məlumatların yoxlanılması və emalı, biznes proseslərinin təkmilləşdirilməsi, innovasiya layihələrinin tətbiqi, korporativ şəbəkənin genişləndirilməsi

və təkmilləşdirilməsi, elektron gömrük xidmətlərinin təşkili, gömrük xidmətinin informasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi və digər istiqamətlərdə bir sıra işlər görülüb.

Komitənin internet saytında təkmilləşdirmələr aparılıb, yeni bölmələr əlavə edilib, gömrük qanunvericiliyi, gömrük orqanlarının fəaliyyəti, gömrük işi və gömrük xidmətilə bağlı digər məsələlərə dair yeniliklər haqqında ictimaiyyətin məlumatlandırılması təmin edilib.

Ümumdünya Gömrük Təşkilatının elektron təhsil – "CLiKC! e-Learning" sistemi gömrük xidmətində istifadəyə verilib. Yaradılan lokal və uzaq məsafədən elektron təhsil sistemi gömrük əməkdaşları və Dövlət Gömrük Akademiyasının tələbələri üçün nəzərdə tutulub.

2019-cu ilin yanvarında Dövlət Gömrük Komitəsinin ÜGT-nin dəstəyi ilə hazırladığı Elektron Tədris Platformasının təqdimatı keçirilib. Azərbaycan gömrüyü hər zaman elmi nailiyyətlərin gömrük işinin təşkili sahəsində tətbiqinə xüsusi önəm verib və Elektron Tədris Platforması da bu sahədə növbəti addımlardan biridir.

Bu layihə gömrük sahəsində çalışanların bilik və bacarıqlarının artırılmasında, potensialın gücləndirilməsində mühüm rol oynamaqla yanaşı, təcrübə mübadiləsi istiqamətində də səmərəli nəticələrin əldə olunmasına şərait yaradır. Təhsildə yeni metod və yanaşmaları ehtiva edən Elektron Tədris Platforması bilik və məlumatların elektron qaydada məsafədən əldə olunmasına, öyrənilməsinə, analiz edilməsinə və dəyərləndirilməsinə imkan yaradan bir sistemdir.

Bu gün gömrük sistemində informasiya texnologiyaları sahəsində ən son yeniliklərin tətbiqi nəticəsində artıq gömrük orqanları tamamilə kağızsız texnologiyalar əsasında fəaliyyət göstərir, xarici ticarət iştirakçıları ilə münasibətdə də bütün gömrük əməliyyatları, o cümlədən gömrük ödənişləri elektron qaydada həyata keçirilir.

Sərhədkeçmə prosesinin asan və sürətli şəkildə həyata keçirilməsini təmin edən yeniliklərdən biri də "bir inspektor – bir nəqliyyat vasitəsi" layihəsidir. Bu layihə real vaxt ərzində gömrük-buraxılış məntəqəsindən keçən nəqliyyat vasitələrinin sayının bir neçə dəfə artırılmasına şərait yaradır ki, bu da ticarətin sürətləndirilməsi üçün mühüm amillərdən hesab edilir.

Ötən ilin iyununda isə Dövlət Gömrük Komitəsi "Maersk" və "IBM" şirkətlərinin birgə hazırladığı, blokçeyn texnologiyasına əsaslanan təchizat zənciri platforması olan "TradeLens"ə qoşulub. "TradeLens"dən istifadə etməklə Dövlət Gömrük Komitəsi "TradeLens" ekosistemi üzrə hərəkət edən daşımalardakı konteynerlərin tərkibi və prosesdə iştirak edən tərəflər haqqında daha erkən və daha ətraflı məlumat əldə edir. Bu isə ölkə daxilində və xaricində həyata keçirilən daşımalar üzrə risklərin daha səmərəli şəkildə qiymətləndirilməsinə, gömrük rəsmiləşdirilməsi prosesinin daha sürətli icra edilməsinə, ticarətlə məşğul olanlar üçün yüksək xərc tələb edən öhdəliklərin yüngülləşdirilməsinə və region üzrə, ümumilikdə ticarət prosesinin sadələşdirilməsinə imkan verir.

Dövlət Gömrük Komitəsinin aidiyyəti qurumlarla inteqrasiya və məlumat mübadiləsi sahəsində gördüyü işlərə gəlincə, Qida Təhlükəsizliyi Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi, Dövlət Dəniz Administrasiyası və Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi

üzrə Dövlət Agentliyi arasında məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilib.

Eyni zamanda, "Giriş-çıxış və qeydiyyat" İdarələrarası Avtomatlaşdırılmış Məlumat-Axtarış Sistemi və Vergilər Nazirliyinin informasiya sistemi ilə məlumat mübadiləsi aparılıb. Respublikanın digər gömrük orqanlarından Beynəlxalq Dəniz Limanının ünvanına göndərilən mallar üzrə məlumatların Beynəlxalq Dəniz Limanına ötürülməsi təmin edilib.

Azərbaycan Respublikasına gətirilən və çıxarılan valyuta sərvətlərinə dair məlumatların, eləcə də "Gömrük bəyannamələri haqqında məlumatın verilməsi" elektron gömrük xidmətindən istifadə etməklə respublikada fəaliyyət göstərən bank təşkilatları tərəfindən VAİS-ə daxil edilən məlumatlar əsasında konsiqnasiya yolu ilə ixrac olunan mallara görə valyuta daxilolmaları üzrə məlumatların gündəlik olaraq Maliyyə Bazarlarına Nəzarət Palatasına ötürülməsi təmin olunub.

Hazırda informasiya texnologiyaları sahəsində resurslarımızı 2009-cu ildən tətbiq edilən VAİS vasitəsilə xarici ticarət iştirakçısı – məmur təmasının minimuma endirilməsinə yönəltmişik. Əslində, "Yaşıl dəhliz" və artıq gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi sisteminin tətbiqi gömrük bəyannamələrinin elektron qəbulu sisteminin daha da inkişaf etdirilərək malların avtomatlaşdırılmış buraxılış sistemlərinə keçidini nəzərdə tutur. Bu, VAİS-i tətbiq etməklə gömrük rəsmiləşdirilməsinin bütün mərhələlərində həyata keçirilən mürəkkəb əməliyyatların tam avtomatlaşdırılmasını əhatə edir.

Artıq gömrük orqanlarının təqdim etdiyi bir çox xidmətlər elektronlaşdırılıb və hər il yeni elektron xidmətlər istifadəyə verilir. Dövlət Gömrük Komitəsi elektron xidmətlər üzrə ölkə miqyasında qabaqcıl mövqelərdən birini tutaraq 2019-cu il ərzində xarici ticarət iştirakçılarına 4 milyon 500 mindən artıq müxtəlif xidmətlər göstərib.

Bu da VAİS-in nə dərəcədə işlək bir sistem olmasından xəbər verir. Bununla yanaşı, artıq elektron xidmətlərin gömrük xidmətinin "Smart Customs" mobil tətbiqinə daşınması prosesinə də başlanılıb. Belə ki, təqdim etdiyimiz elektron xidmətlərdən mobil telefonlar vasitəsilə də faydalanmaq mümkün olacaq. Hesabat dövründə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyasının Federal Gömrük Xidməti, Ukrayna Dövlət Fiskal Xidməti, Özbəkistan Respublikasının Dövlət Gömrük Komitəsi, Qazaxıstan Respublikası Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsi və Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında xarici ticarətin gömrük statistikası üzrə müvafiq informasiyaların elektron mübadiləsi həyata keçirilib.

Həmçinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidməti, Ukrayna Dövlət Fiskal Xidməti, Türkiyə Respublikasının Ticarət Nazirliyi və İran İslam Respublikasının Mərkəzi Gömrük İdarəsi arasında dövlət sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsi aparılıb.

Bundan başqa, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Rusiya Federasiyasının Federal Gömrük Xidməti arasında pilot variantında hər iki dövlətin sərhədindən keçən mal və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsinə başlanılıb. Eyni zamanda, hər iki dövlətin sərhədindən keçən müəyyən mal növləri üzrə ilkin məlumat mübadiləsinin həyata keçirilməsi təmin edilib.

Dövlət Gömrük Komitəsi beynəlxalq əməkdaşlıq istiqamətində xarici dövlətlərin gömrük xidmətləri, bir çox nüfuzlu beynəlxalq və regional təşkilatlarla işgüzar əlaqələrin qurulması və inkişaf etdirilməsi üzrə geniş fəaliyyət göstərir.

Ümumiyyətlə, Azərbaycan Gömrük Xidməti dünya gömrük ailəsinə nüfuz edib və onun fəaliyyəti beynəlxalq miqyasda yüksək dəyərləndirilir. Elə 2019-cu ilin yanvar və iyun aylarında Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanın Azərbaycan Respublikasına səfər etməsi deyilənləri bir daha təsdiqləyir. Kunio Mikuriyanın ölkəmizə yanvar səfəri, onun ikinci dəfə ÜGT-nin Baş katibi seçildikdən sonra xarici ölkələrə ilk rəsmi səfəri olub. İyun ayında baş tutan səfər zamanı isə Baş katib Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisində iştirak edib.

Hər iki səfər zamanı Azərbaycan Prezidenti ilə görüşündə ÜGT-nin Baş katibi Azərbaycan Gömrük Xidmətinin nümunəvi bir qurum olduğunu və Ümumdünya Gömrük Təşkilatının standartlarına uyğun fəaliyyət göstərdiyini vurğulayıb. Öz növbəsində, dövlətimizin başçısı gömrük sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini və bunun artıq çox yaxşı nəticələr verdiyini, Azərbaycan gömrük sisteminin dünyanın ən şəffaf gömrük sistemlərindən biri olmasını istədiyini vurğulamaqla, bu sahəyə xüsusi diqqətini bir daha göstərib. Görüşlərdə ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirilib, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Dövlət Gömrük Komitəsinin beynəlxalq əməkdaşlığı daim inkişaf edir, əməkdaşlığın istiqamətləri müəyyən edilir və həyata keçirilir. Hüquq-müqavilə bazasının yaradılması məqsədilə indiyə qədər 53 ölkə və 9 beynəlxalq təşkilatla 120-yə yaxın beynəlxalq sənəd imzalanıb.

2019-cu ildə beynəlxalq əməkdaşlıq sahəsində mühüm yeniliklərdən biri də Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransında bütün Avropa ölkələrinin dəstəyi ilə Azərbaycanın 2 il müddətinə (2019-2021-ci illər) ÜGT-nin Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa Regionu üzrə rəhbəri vəzifəsinə seçilməsi olub.

Dövlət Gömrük Komitəsinin ÜGT-nin Avropa Regionu üzrə rəhbərliyi dövründə region dövlətləri ilə əməkdaşlıq əlaqələrinin davam etdirilməsi nəzərdə tutulub. Diplomatik münasibətlərimiz olan qonşu ölkələrlə əməkdaşlıq əlaqələrimiz davam etdiriləcək və gömrük işi sahəsində ortaya çıxan məsələlər öz həllini tapacaqdır. Gömrük işi ilə bağlı aidiyyəti beynəlxalq təşkilatlar çərçivəsində də digər ölkələrlə əməkdaşlıq əlaqələri davam etdiriləcək.

2019-cu il ərzində Ümumdünya Gömrük Təşkilatı, BMT-nin İnkişaf Proqramı, MDB üzv dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası, Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM-ın Ticarətə və Nəqletməyə yardım layihəsinin Rəhbəredici Komitəsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramının Gömrük Əməkdaşlıq Komitəsi, Ümumdünya Gömrük Təşkilatının hüquq-mühafizə fəaliyyəti üzrə Regional Məlumat Əlaqələndirmə Ofisləri (RILO), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqa-

mətində məqsədyönlü addımlar atılıb.

Ötən ilin fevralında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Böyük Britaniyanın Sərhəd Direktoratlığı adından çıxış edən Daxili İşlər Departamentinin Dövlət Katibliyinin Birgə Bəyanatı", mart ayında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respublikası Gömrük Administrasiyası arasında görüşün protokolu" və "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük idarələri arasında gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.

Eləcə də sentyabr ayında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası ilə Rusiya Gömrük Akademiyası arasında təhsil və elm sahələrində əməkdaşlıq haqqında Memorandum", oktyabrda "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında Gömrük Məsələləri üzrə Birgə Komitənin üçüncü İclasının Protokolu" və "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında 2019-2020-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planı", həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında sadələşdirilmiş gömrük dəhlizi haqqında Anlaşma Memorandumu", dekabrda "Səlahiyyətli İqtisadi Operatorların qarşılıqlı tanınması haqqında GUAM üzv dövlətlərin gömrük administrasiyaları arasında Niyyət Protokolu" və "GUAM üzv dövlətlərin dövlət sərhədlərindən keçirilən malların mənşə sertifikatının eyniləşdirilməsi zamanı "Blokçeyn" texnologiyalarından istifadəyə dair GUAM üzv dövlətlərin gömrük administrasiyaları arasında Niyyət Protokolu" və sair sənədlər imzalanıb.

Ötən il Azərbaycan Respublikası gömrüklə əlaqəli bir sıra regional və beynəlxalq tədbirlərə evsahibliyi də edib.

Yanvar ayında "Ümumdünya Ticarət Təşkilatının "Ticarətin Asanlaşdırılması Sazişi"nin gömrüklə bağlı müddəalarının tətbiqinə dair" subregional seminar, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində Gömrük Tranzitinin Asanlaşdırılması üzrə regional seminar, ÜGT-nin Avropa Regionunun Potensialın Gücləndirilməsi üzrə Milli Əlaqələndirici Şəxslərinin iclası, fevral ayında "İnsan resurslarının idarəedilməsi sahəsində ixtisaslaşmış ÜGT Gömrük Modernləşdirilməsi Məsləhətçilərinin Akkreditasiyası" mövzusunda seminar, martda Azərbaycan Respublikası və İran İslam Respublikası arasında Elektron BYD (eTIR) Sisteminin pilot layihəsinin tətbiqinə dair Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının nümayəndələrinin iştirakı ilə görüş, apreldə Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans, mayda MDB üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Hüquq-Mühafizə Bölmələri Başçıları Komitəsinin 19-cu iclası, iyunda ÜGT-nin Məlumat Modeli ilə bağlı seminar və Qeyri-intruziv nəzarət üzrə Texniki Ekspertlər Qrupunun iclası, oktyabrda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin gömrük xidmətlərinin ekspertlərinin texniki iclası və digər tədbirlər təşkil olunub. Şübhəsiz ki, ötən il gömrük sahəsində ən böyük beynəlxalq toplantı Bakı şəhərində, Heydər Əliyev Mərkəzində iyunun 12-dən 14-dək keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisi olub.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin evsahibliyi, Ümumdünya Gömrük Təşkilatının təşkilatçılığı və Koreya Gömrük Xidmətinin dəstəyi ilə keçirilən tədbirə 91 ölkədən

500-ə qədər nümayəndə – gömrük orqanları, biznes və elm dairələri, beynəlxalq təşkilatlar, informasiya texnologiyaları sahəsində ixtisaslaşan, eləcə də gömrük işində tətbiq edilən texniki nəzarət vasitələrinin istehsalçısı olan şirkətlərin təmsilçiləri iştirak edib.

Tədbirin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin konfrans və sərgi iştirakçılarına ünvanlanan məktubunda belə mötəbər tədbirin Bakı şəhərində keçirilməsi çox yüksək qiymətləndirilib. Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə daim böyük önəm verildiyi, informasiya cəmiyyətinin formalaşması və inkişafı məqsədilə müvafiq milli strategiyaların qəbul edildiyi vurğulanıb.

İlk dəfə olaraq ÜGT-nin həm özəl, həm də dövlət sektoru üçün nəzərdə tutulan iki tədbiri – İnformasiya Texnologiyaları Sərgisi və Texnoloji İnnovasiyalar Konfransı birləşdirilərək vahid tədbir çərçivəsində təşkil edilib. Bu yeniliyə məhz Bakıda keçirilən tədbirdə imza atılması isə Azərbaycanın mötəbər tədbirlərə evsahibliyi etməsi işində qazandığı xüsusi rəğbət və etimadın göstəricisidir. Eyni zamanda, bu konfrans və sərginin Bakıda keçirilməsi Azərbaycanın informasiya texnologiyaları sahəsində uğurla irəlilədiyinin bariz nümunəsidir.

**Gömrük xidməti və könüllülük hərəkatı**

2019-cu ildə Dövlət Gömrük Komitəsinin fəaliyyətində yeniliklərdən biri də "Könüllü gömrükçü" dəstəsinin yaradılmasıdır.

Gənclərin hərtərəfli inkişafı, bilik və bacarıqlarının artırılmasında könüllülük hərəkatı böyük önəm daşıyır. Ölkəmizdə bu hərəkatın formalaşmasında Prezident İlham Əliyev tərəfindən həyata keçirilən gənclər siyasəti, bu sahəyə göstərilən dövlət qayğısının mühüm rolu var. Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial-humanitar layihələr, beynəlxalq tədbirlər minlərlə gəncimizə potensiallarını reallaşdırmaq, öz imkanlarını göstərmək üçün şərait yaradıb.

Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi könüllülük fəaliyyətinə istiqamətlənmiş daha çox layihələrin həyata keçirilməsinə şərait yaradacaq və bu sərəncam ölkədə könüllülük fəaliyyətinə verilən yüksək dəyərin daha bir göstəricisidir.

Öz növbəsində, Dövlət Gömrük Komitəsi sistemində gənclərin potensialından daha səmərəli istifadə etmək, onlara peşə vərdişlərini aşılamaq, gənclərin təcrübi biliklərini artırmaq, startap layihələri ilə bağlı cəmiyyətin bütün sahələrində onların fəal iştirakına şərait yaratmaq, yaradıcı və innovativ potensialının üzə çıxarılması dəstəklənir və inkişaf etdirilir.

Dövlət Gömrük Komitəsində ilk "Könüllü gömrükçü" dəstəsi komitənin müvafiq sərəncamı ilə ötən ilin iyununda formalaşdırılıb. "Könüllü gömrükçü" dəstəsinin üzvləri komitənin müxtəlif struktur bölmələrində fəaliyyətlərini uğurla davam etdirir və "Könüllü gömrükçü" dəstəsinə üzvlər "Ehtiyat üzvlər bazası"ndan müsahibə yolu ilə seçilir.

Dövlət Gömrük Komitəsi bölgələrdə yaşayan gənclərin də həyatın bütün sahələrində iştirak imkanlarını artırmaq, habelə gömrük sistemində könüllülük hərəkatını stimullaşdırmaq və yerlərdə intensivləşdirmək niy-

yətindədir. Bu məqsədlə Ərazi Baş Gömrük İdarələrində və idarələrin strukturuna daxil olan bir sıra gömrük postlarında da gənclər könüllülük fəaliyyətinə cəlb edilir.

Könüllü şəkildə dövlətə, ictimai maraqlara təmənnasız xidmət göstərmək saf niyyətdən doğan çox nəcib bir əməldir və hər cür alqışa layiqdir. Eyni zamanda, könüllü fəaliyyət gənclərə öz potensialını üzə çıxarmağa, ölkədə və xaricdəki həmyaşıdları ilə qarşılıqlı əlaqələr qurmağa imkan yaradır.

Beləliklə, 2019-cu ildə gömrük orqanlarında ilk dəfə olaraq 131 nəfər könüllü gömrükçü fəaliyyətə başlayıb, onlar 4 ay müddətində Dövlət Gömrük Komitəsinin müxtəlif strukturlarında müvəffəqiyyətlə fəaliyyət göstəriblər.

**Gömrük-biznes əməkdaşlığı, ictimaiyyətlə əlaqələr**

Gömrük xidmətində islahatların uğurla reallaşdırılmasında gömrük-biznes münasibətləri mühüm rol oynayır. Bu məqsədlə gömrük orqanlarının sahibkarlarla davamlı görüşləri keçirilir, iş adamlarının təklif və iradları gömrük işinin səmərəli şəkildə təşkilinə öz töhfəsini verir.

Biznes nümayəndələrilə hər zaman açıq dialoqa hazır olan Dövlət Gömrük Komitəsinin rəhbərliyi ötən il Alman-Azərbaycan Xarici Ticarət Palatası, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası, Azərbaycan-İtaliya Ticarət Palatasının üzvləri ilə görüş keçirib, eləcə də “Caspian European Club”un təşkilatçılığı ilə baş tutan biznes-forumda iştirak edib. Bu tədbirlərdə gömrük islahatları barədə məlumat verilib, gömrük-biznes əməkdaşlığı və perspektivlər barədə fikir mübadiləsi aparılıb.

Dövlət Gömrük Komitəsinin yerli orqanları da yerlərdə iş adamları ilə vaxtaşırı görüşlər keçirir, bu görüşlərdə sahibkarları maraqlandıran məsələlər müzakirə edilir və onlara kömək göstərilir. Ötən il ərzində Bakı Baş Gömrük və Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük idarələrində keçirilən görüşlərdə də gömrük islahatları və yeniliklər barədə iş adamları bilgiləndirilib.

Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən hüquq və konsaltinq şirkətlərinin nümayəndələrinin Şimal Ərazi Baş Gömrük İdarəsinin “Samur” gömrük postuna və Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük-sərhəd buraxılış məntəqəsinə səfəri təşkil olunub. Şirkət nümayəndələrinə sərhədkeçmə proseslərinin sürətləndirilməsi və avtomatlaşdırılması ilə bağlı görülən işlər əyani şəkildə nümayiş etdirilib, malların və nəqliyyat vasitələrinin qeydiyyatı, nəzarət prosedurlarının sadələşdirilməsi istiqamətində atılan addımlar barədə məlumat verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət sərhədindən buraxılış məntəqələrində gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi barədə verdiyi tapşırıqların icra vəziyyəti və bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə Dövlət Gömrük Komitəsinin rəhbərliyi aidiyyəti qurumların rəhbər şəxsləri ilə birlikdə yerlərə də səfər edir, müvafiq iş görür.

Ötən il komitə rəhbərliyi “Qırmızı Körpü”, “Mazımçay”, “Samur” və Biləsuvar gömrük postlarında, Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi və Bakı Baş Gömrük İdarəsində mövcud vəziyyətlə tanış olub, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı ərazisində istifadəyə verilməsi nəzərdə tutulan gömrük və müvəqqəti saxlanc anbarlarına baxış keçirib.

Onu da bildirim ki, ötən ilin iyulunda Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsində İqtisadiyyat Nazirliyinin ta-

beliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) “Kiçik və Orta Biznesin Dostu” – “KOB Dostu” fəaliyyətə başlayıb. Gömrük xidmətlərindən istifadə edən mikro, kiçik və orta sahibkarlar Bakı Baş Gömrük İdarəsində fəaliyyət göstərən “KOB Dostu”na müraciət etməklə idxal-ixrac əməliyyatları, gömrük rəsmiləşdirilməsi və prosedurları, o cümlədən investisiya və ixrac təşviqindən istifadə zamanı gömrük güzəştləri ilə bağlı informasiya, məsləhət, hüquqi yardım, əlaqələndirmə kimi xidmətlərdən istifadə edirlər.

Dövlət Gömrük Komitəsi öz fəaliyyətində ictimaiyyətlə əlaqələrə də xüsusi diqqət yetirib, iş prinsipini media ilə açıq və şəffaf əməkdaşlıq üzərində davam etdirib.

Gömrük sistemində aparılan islahatlar çərçivəsində gömrük-media münasibətləri yeni müstəvidə inkişaf edir, bu sahədə yeniliklərin ictimaiyyətə çatdırılmasında Azərbaycan mediasının səmərəli və peşəkar yanaşması məmnunluq doğurur. Ötən ilin yanvarında “Gömrük orqanlarında aparılan islahatlar: müasir tələblər və çağırışlar” mövzusunda fərdi jurnalist yazıları müsabiqəsinin yekunları da bu baxımdan qənaətbəxş olub. Müsabiqəni Dövlət Gömrük Komitəsi və Mətbuat Şurası birgə təşkil edib.

Fevral ayında ölkənin aparıcı kütləvi informasiya vasitələri nümayəndələrinin Dövlət Gömrük Komitəsinin Akademiyası, Kinoloji Mərkəzi və “Azərterminalkompleks” Birliyinə səfəri təşkil edilib. Jurnalistlər həmin qurumların yaranması və fəaliyyəti barədə məlumatlandırılıb.

Mart ayında isə Şəki şəhərində Dövlət Gömrük Komitəsi media nümayəndələri üçün “Gömrük islahatları: şəffaf gömrük, asan və sürətli ticarət” mövzusunda təlim keçirib. Təlim çərçivəsində jurnalistlərin Azərbaycan Respublikasının Gürcüstanla dövlət sərhədində yerləşən Qərb Ərazi Baş Gömrük İdarəsinin “Mazımçay” gömrük postuna səfəri də təşkil edilib. Burada media nümayəndələrinə “Yaşıl dəhliz” buraxılış sisteminin tətbiqi əyani şəkildə nümayiş olunub.

Media nümayəndələri üçün daha bir təlim noyabrda Lənkəran şəhərində “Gömrük sistemində aparılan islahatlar: nəticələr, perspektivlər” mövzusunda keçirilib. Bu da gömrük-media əməkdaşlığının gücləndirilməsi istiqamətində jurnalistlər üçün təşkil edilən dördüncü təlim olub.

Təlim çərçivəsində kütləvi informasiya vasitələrinin nümayəndələri Cənub Ərazi Baş Gömrük İdarəsinin İran İslam Respublikası ilə sərhəddə yerləşən Astara gömrük postuna səfər edib. Media nümayəndələri ixrac və idxal gömrük nəzarət xəttində həyata keçirilən əməliyyatları izləyib, sərnişin keçid xətlərində gömrük nəzarətinin təşkili prosesi ilə tanış olublar.

Bundan başqa, Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə noyabrda “2019-cu ilin 10 ayı ərzində görülən işlər, qarşıda duran vəzifələr” mövzusunda mətbuat konfransı keçirilib. Jurnalistlərə gömrük xidmətində görülən işlər, islahatlar, yeni layihələr və gələcək hədəflər barədə məlumat verilib.

**Gömrük təhsili və peşəkarlıq**

Gömrük xidməti əməkdaşlarının peşə bacarıqlarının artırılması və göstərilən xidmət səviyyəsinin yüksəldilməsi gömrük xidmətində aparılan köklü islahatların prioritet istiqaməti kimi müəyyən olunub. Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə olduğu kimi, gömrük sahəsində də elm, tədris və tədqiqat fəaliyyətinə xüsusi önəm verilir.

2019-cu ildə Dövlət Gömrük Komitəsinin Akademiyasında gömrük xidməti əməkdaşları üçün müxtəlif mövzuları əhatə edən çoxsaylı təlim proqramları həyata keçirilib. Son 1 il ərzində 700-dən artıq gömrük xidməti əməkdaşı təlimlərdən keçib. Bu təlimlər Dövlət Gömrük Komitəsi, müxtəlif dövlət qurumları, həmçinin xarici və beynəlxalq tərəfdaş qurumlarından dəvət olunmuş ekspertlər tərəfindən aparılıb.

Gömrük Akademiyasına 2019/2020-ci tədris ili üzrə tələbə qəbulu artırılaraq I kurs tələbələrinin sayı 120 nəfərə çatdırılıb. Bu tədris ilindən başlayaraq ilk dəfə tələbə qəbulu yeni yaradılmış informasiya təhlükəsizliyi ixtisası üzrə də aparılıb. Gömrük orqanlarında elektron xidmətin tətbiqi, sistemin elektronlaşması informasiya təhlükəsizliyi ixtisasına yiyələnmiş peşəkar kadrlara ehtiyac yaradıb. Bu ehtiyacı qarşılamaq məqsədilə akademiya gömrük orqanlarında çalışmaq üçün peşəkar kadr hazırlığını həyata keçirir.

Bununla yanaşı, 2019/2020-ci tədris ilində akademiyanın ilk dəfə olaraq magistratura pilləsinə də qəbul aparılıb. Magistratura pilləsinə qəbul gömrük işi və beynəlxalq hüquq ixtisasları üzrə həyata keçirilib.

Eyni zamanda, akademiyanın fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkil olunması üçün müvafiq işlər görülüb. Ötən ilin fevralında Dövlət Gömrük Komitəsinin Akademiyası və Türk Standartları İnstitutunun (TSİ) Azərbaycandakı nümayəndəliyi arasında saziş imzalanıb. Sazişə əsasən, TSİ akademiyanın şəxsi heyəti üçün təlimlər keçirir.

**2020-ci ilin əsas prioritetləri**

Gömrük xidməti gələcəkdə də ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında yaxından iştirak edəcək, qarşıya qoyulan təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığını səfərbər edəcək.

2020-ci il ərzində sərhəd-keçid məntəqələrində infrastruktura yenidən baxılaraq sərhəd ticarətinin daha da asanlaşdırılması üçün işlər görüləcək, idxal-ixrac əməliyyatlarında məmur-sahibkar münasibətlərinin minimuma endirilməsi istiqamətində tədbirlər davam etdiriləcək. Bu sahədə "Yaşıl dəhliz" sisteminin tətbiqi həm idxal, həm də ixrac əməliyyatları üçün genişləndiriləcək. Əsas vəzifələrdən biri də iqtisadiyyatın innovativ inkişafının sürətləndirilməsi məqsədilə innovasiya fəaliyyətinin genişləndirilməsi, kreativ sənayenin müasir iqtisadiyyatda rolunun və əqli mülkiyyətin informasiya cəmiyyətinə təsirinin artırılması, həmçinin Azərbaycan xalqına məxsus mədəni irsin qorunmasının təmin edilməsidir.

Buna uyğun olaraq, insan kapitalına əsaslanan innovativ iqtisadiyyatın inkişafı və əqli mülkiyyət hüquqlarının qorunması üzrə dayanıqlılığın təmin edilməsi məqsədilə əqli mülkiyyət hüquqları üzrə qanunvericilik bazasının yenidən işlənməsi və reyestr sisteminin təkmilləşdirilməsi nəzərdə tutulan işlərə daxildir.

Eyni zamanda, beynəlxalq ticarət-təchizat zəncirinin kompleks idarə edilməsində iştirak etməklə mövcud alət və vasitələrin tətbiqi əsasında beynəlxalq ticarətin asanlaşdırılması və xarici ticarət iştirakçılarına əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə Səlahiyyətli İqtisadi Operator üzrə qanunvericilik bazasının yenidən işlənməsi, Səlahiyyətli İqtisadi Operator institutunun inkişafı, xarici ticarət iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi və bu statusu əldə etmiş şəxslərlə qarşılıqlı münasibətlərin daha da inkişaf et-

dirilməsi üzrə işlərin görülməsi əsas hədəflərdəndir.

Prezident İlham Əliyevin son iki ildə gömrük sistemində aparılan islahatları yüksək dəyərləndirməsi gömrük orqanlarının fəaliyyətinə böyük stimul olmaqla, bizi ölkəmizin iqtisadi inkişafı üçün daha da əzmlə çalışmağa sövq edir. Eyni zamanda, bununla arxayınlaşmır və etiraf edirik ki, həlli vacib problemlər hələ də qalır.

Azərbaycan Prezidenti 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə gömrük orqanlarında aparılan islahatların uğurlu nəticələri ilə yanaşı, bəzi problemləri də diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, ötən dövrlərdə gömrük-keçid məntəqələri yenidən qurulsa da, günün tələbləri nəzərə alınaraq daha yüksək səviyyədə təmir edilməli, bu məntəqələrdə ən yeni avadanlığın quraşdırılması, daha rahat keçidin təmin edilməsi məsələlərinə baxılmalıdır.

Dövlətimizin başçısının gömrük-keçid məntəqələrində şəxslərin və nəqliyyat vasitələrinin daha asan və sürətli keçidinin təmin edilməsi, eləcə də sərhədkeçmə prosesinin sürətli, şəffaf və maneəsiz şəkildə reallaşdırılmasına dair tapşırıq və tövsiyələri hər zaman diqqət mərkəzindədir.

Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də Azərbaycanın Rusiya, Gürcüstan və İranla dövlət sərhədlərində yerləşən gömrük-keçid məntəqələrində təmir-tikinti işləri aparılıb, bu məntəqələr müasir texnoloji avadanlıqlarla təmin olunub. Eyni zamanda, əvvəlki illərlə müqayisədə 2019-cu ildə həm xarici ölkələrə gedib-gələn Azərbaycan vətəndaşlarının, həm də ölkəmizə turist axınının artdığı nəzərə alınaraq, istər qərb, istərsə də şimal istiqamətində yeni gömrük-keçid məntəqələrinin tikilməsinə başlanılıb və bu işlər 2020-ci ildə də davam etdiriləcək.

Bununla yanaşı, gömrük-keçid məntəqələrində vətəndaş-məmur münasibətlərinin tam sağlam əsaslar üzərində qurulması və bu məntəqələrdə xidmətin ən yüksək səviyyəyə çatdırılması istiqamətində görülən işlər davam etdirilir.

Qeyd etdiyim kimi, peşə hazırlığının artırılması və xidmət səviyyəsinin yüksəldilməsi məqsədlə gömrük əməkdaşları davamlı şəkildə ixtisasartırma təlimlərinə cəlb olunur, gömrükçülərə zəruri bilik və bacarıqlarla yanaşı, etik davranış qaydaları da aşılanır. Xidməti intizam qaydalarının tələblərini pozanlara qarşı müvafiq tədbirlər görülür və bu istiqamətdə görülən işlər 2020-ci ildə də ən əsas vəzifələr sırasında olacaq.

Əminliklə bildirirəm ki, Azərbaycan gömrük orqanları gələcəkdə də Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, ölkənin ixrac və tranzit potensialının artırılması məqsədilə həyata keçirdiyi islahatları rəhbər tutaraq mühüm uğurlara imza atacaq.

Azərbaycan Prezidentinin uğurlu iqtisadi siyasətinə, tapşırıq və tövsiyələrinə uyğun olaraq 2020-ci ildə də Dövlət Gömrük Komitəsi xidməti fəaliyyətini müasir dünya standartlarına uyğun həyata keçirəcək, qanunla təsdiq olunan 4 milyard manat büdcə öhdəliyini artıqlaması ilə yerinə yetirəcək.

Ulu öndər Heydər Əliyev siyasi kursunun davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə gömrük xidməti ölkədə aparılan islahatların davamlılığını təmin etməklə, iqtisadi təhlükəsizliyin keşiyində bundan sonra da şərəflə duracaq.

Azərbaycan Gömrük Xidmətinin yaradılmasının 28 illiyi münasibətilə bütün gömrük əməkdaşlarını təbrik edir, onlara cansağlığı və işlərində davamlı uğurlar arzulayıram!

URL: www.customs.gov.az

# QARŞIYA QOYULMUŞ VƏZİFƏLƏR ƏZMLƏ YERİNƏ YETİRİLİR

**Müstəqil Azərbaycanın bugünkü dinamik inkişafı, dünyada böyük nüfuz və söz sahibi olması Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev böyük qətiyyət və əzmkarlıqla ölkəmizi sabitlik və təhlükəsizlik məkanına çevirib. Azərbaycanın beynəlxalq müstəvidə ikitərəfli əlaqələri sürətlə genişlənir, çoxtərəfli formatda uğurlu əməkdaşlıq**

2019-cu il də ölkəmiz üçün uğurlu il oldu, müstəqillik və inkişaf yolu ilə daha inamla addımladı. İlin sonunda ABŞ-ın "U.S.News & World Report" jurnalı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısını açıqladı. Azərbaycan siyahıda 80 ölkə arasında 45-ci yerdə qərarlaşdı, hətta bir neçə Avropa ölkəsini geridə qoydu. Siyahı tərtib edilərkən ölkələrin iqtisadi vəziyyəti, hərbi gücü, siyasi təsir dairəsi, dünyada liderliyi və bir sıra digər amillər nəzərə alınıb.

2019-cu il Azərbaycan tarixində, eyni zamanda dərin islahatlar ili kimi yadda qaldı. İqtisadi, siyasi və sosial sahələrdə aparılan islahatlar, o cümlədən struktur dəyişiklikləri ölkəmizin gücünün və imkanlarının daha da artırılması baxımından tarixi nailiyyət kimi qəbul edilir. Azərbaycan xalqı öz taleyini böyük inamla etibar etdiyi Prezident İlham Əliyevin apardığı siyasəti bu gün birmənalı olaraq dəstəkləyir. Dövlət başçısı isə xalqın bu etimadına arxalanaraq daxili və xarici aləmdə müstəqil, milli maraqlara xidmət edən siyasət yürüdür. "Mən xalqımın bir nömrəli xidmətçisiyəm" – deyən Prezident İlham Əliyevin vətəndaşların rifahı naminə həyata keçirdiyi islahatlar, xalq-iqtidar birliyi qazanılan böyük uğurların əsas mənbəyidir. Bu isə onu göstərir ki, ölkəmizin müstəqillik yolu ilə irəliləməsinə mane olmaq mümkün deyil.

2019-cu il oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçirildi və 120 ölkənin yekdil qərarı ilə Azərbaycan 3 il ərzində BMT-dən sonra bu ikinci böyük beynəlxalq təsisata sədrlik edəcəkdir. Bu, ölkəmizə göstərilən böyük etimaddır və sübut edir ki, dünya birliyi Azərbaycanı dəstəkləyir və ona böyük hörmətlə yanaşır.

Ölkəmizdə Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil dövlət quruculuğu prosesinin tərkib hissəsi kimi respublikamızın hərbi qüdrətinin formalaşdırılması müvəffəqiyyətlə həyata keçirilmişdir. Azərbaycanın vahid komandanlıqdan idarə olunan nizami, yüksək döyüş qabiliyyətinə malik Silahlı Qüvvələrinin sürətli inkişafı istiqamətində əsaslı addımlar atılmışdır.

Prezident İlham Əliyev ordumuzun döyüş qabiliyyətinin artırılmasını, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsini hər zaman xüsusi diqqətdə saxlayır. Bu diqqətin nəticəsidir ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham

Əliyevin qeyd etdiyi kimi: "Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır... Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək".

Əlbəttə, dövlət başçısının bu fikri Silahlı Qüvvələrimizin inkişafının əsas istiqamətlərini və hədəflərini tam ifadə etmişdir. 2016-cı ilin Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələrin endirilməsi, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində qazanılmış Günnüt zəfəri, həmçinin Azərbaycan sərhədçilərinin 2019-cu ildə Qazax rayonunda Babakar istiqamətində əldə etdikləri ciddi uğurlar Silahlı Qüvvələrimizin qüdrətini nümayiş etdirir.

Keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. 1993-cü ildən bəri bu qətnamələr yerinə yetirilmir. Azərbaycan dövləti bir milyondan çox qaçqın və məcburi köçkünün problemlərini demək olar ki, təkbaşına həll etməkdədir. Təkcə 2019-cu ildə 5 mindən çox məcburi köçkün, 800-ə yaxın şəhid ailəsi üçün yeni mənzillər, evlər tikilmişdir. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bir daha vurğulamışdır: "Bizim ardıcıl, düşünülmüş siyasət münaqişənin həllinə gətirib çıxaracaq. İqtisadi gücümüz, hərbi gücümüz, siyasi gücümüz, demoqrafik artım – bütün bu amillər bizim mövqeyimizi gücləndirir. Əminəm, gün gələcək ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir".

Prezident, Ali Baş Komandan İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında bəyan etdiyi "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" fikri hər bir hərbi qulluqçu üçün konkret vəzifələri bir daha dəqiqləşdirdi.

Bu il yanvarın 13-də Azərbaycan Respublikası Prezidentinin yanında keçirilən 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə Prezident İlham Əliyev hərbi sahədə nailiyyətlərimizi konkret faktlarla təqdim etdi ki, "Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir".

### Səfərbərlik və hərbi xidmətə çağırış ölkəmizin müdafiəsinin mühüm tərkib hissəsidir

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2012-ci il tarixli fərmanına əsasən, müvafiq sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi, onun müasir tələblərə uyğun qurulması məqsədilə Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Respublikasının Hərbi Komissarlığı, Naxçıvan Muxtar Respublikasının Hərbi Komissarlığı, rayon, şəhər

hərbi komissarlıqları ləğv edilmiş və onların əsasında yaradılmışdır. Ötən 8 il ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində böyük inkişaf yolu keçərək hərb quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini vermişdir. Müvafiq mərkəzi icra hakimiyyəti orqanı olaraq dövlət siyasətinin tələb olunan səviyyədə icrasını təmin etmək məqsədilə xidmət tərəfindən əsaslı tədbirlər görülmüş, səfərbərlik hazırlığı, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, vətəndaşların hərbi vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı istiqamətində əhəmiyyətli nəticələr əldə edilmişdir.

Gənclərimizin ən mühüm vəzifələrindən biri Silahlı Qüvvələrimizin sıralarında Vətən qarşısındakı müqəddəs borclarını yerinə yetirməkdir. Fərəhli haldır ki, bu gün gənclərimiz dövlət qarşısında konstitusion borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə böyük həvəslə gedirlər. Çünki onlar hərbi xidmət dövründə təlim və məşğələlərdə döyüş hazırlığını artırır, mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənirlər. Xidmət tərəfindən təşkil edilən ictimaiyyətin, şəhər və rayonların icra hakimiyyətinin, idarə və təşkilatların, eləcə də hüquq mühafizə orqanları əməkdaşlarının, təhsil işçilərinin, ziyalıların, ağsaqqalların, Qarabağ müharibəsi veteranlarının, valideynlərin, kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə vətəndaşların ildə dörd dəfə – yanvar, aprel, iyul və oktyabr aylarının 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə yolasalma və ehtiyata buraxılan hərbi vəzifəlilərin qarşılanmaları ilə bağlı təşkil edilən təntənəli mərasimlər cəmiyyətdə rəğbətlə qarşılanır və böyük ruh yüksəkliyi yaradır.

Xidmətdə müxtəlif sahələr üzrə əldə olunan nəticələr əvvəlki illərin göstəricilərindən xeyli yüksəkdir. Ötən dövr ərzində səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların ilkin hərbi qeydiyyata alınması, müddətli həqiqi hərbi xidmətə hazırlanması və hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, eyni zamanda vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə, xidmətin daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və digər sahələrdə bir sıra tədbirlər həyata keçirilmişdir. Qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi üçün maddi-texniki bazanın gücləndirilməsi və şəxsi heyətin iş şəraitinin yaxşılaşdırılması olduqca zəruri məsələlərdəndir. Dövlətimizin qayğısı nəticəsində artıq səkkiz il ərzində bir neçə rayonda SHXÇDX-nin yerli struktur bölmələrinin yeni inzibati binaları istifadəyə verilmişdir. Ötən il xidmətin Goranboy rayon şöbəsinin yeni inzibati binasının açılışı olmuş, Lənkəran rayon şöbəsinin xidməti şəraiti yaxşılaşdırılmışdır. Qəbələ, Göygöl və Qax rayon şöbə və bölmələrinin yeni inzibati binalarının inşası başa çatdırılmış, Siyəzən rayonunda isə inşaat işləri davam etdirilir. O cümlədən işğal altında olan Xocavənd rayon əhalisinin, hərbi vəzifəlilərin, çağırışçıların səfərbərlik və hərbi xidmətə çağırış kimi mühüm işlərinin

icrasını daha mütəşəkkil qaydada təmin etmək məqsədilə xidmətin yerli struktur bölməsi yaradılmışdır.

**Hərbi vətənpərvərlik tərbiyəsi gücləndirilir**

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, yeniyetmə və gənclərdə Vətənə məhəbbət hissinin yüksəldilməsi, milli-mənəvi dəyərlərin aşılanması, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində birgə fəaliyyətin həyata keçirilməsi məqsədilə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə Azərbaycan Respublikasının Gənclər Fondu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmış və ötən il ərzində respublika əhəmiyyətli bir çox tədbirlər keçirilmişdir.

Vətəndaşlar arasında hərbi vətənpərvərlik işinin aparılması ilə əlaqədar respublikanın bir sıra rayon və şəhərlərində "Vətənin müdafiəsinə hazıram!" devizi altında vətənpərvərlik xarakterli silsilə kütləvi tədbirlər keçirilmiş, eyni zamanda Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən "Cəsurlar" və "Şahinlər" hərbi-idman oyunlarında xidmətin yerli idarə, şöbə və bölmələrinin hərbi qulluqçularının yaxından iştirakı və müvafiq köməyin göstərilməsi təmin olunmuşdur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti hərbi vətənpərvərlik tərbiyəsinin daha geniş müstəvidə təbliği məqsədilə ötən il tərəfdaş qurumlarla - "Bakı Metropoliteni" QSC ilə əməkdaşlıq çərçivəsində Bakı metrosunun stansiyalarında, "Azərbaycan Dəmir Yolları" QSC-nin Bakı Dəmir Yolu Vağzalında və sərnişin stansiyalarında, Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzində quraşdırılmış monitorlarda SHXÇDX-nin vətənpərvərlik mövzusunda hazırladığı iki videoçarxın yayımına başlanıb. Belə bir platformanın həyata keçirilməsi rəğbətlə qarşılanıb. Buna görə də müddətli həqiqi hərbi xidmətə çağırış dövründə əhalinin sıx olduğu ictimai yerlərdə və daha çox istifadə etdiyi ictimai nəqliyyat infrastrukturlarında da bu istiqamətdə işlər davam etdirilir. Respublikanın bütün şəhər və rayonlarının əsas küçə və prospektlərində də hərbi vətənpərvərlik mövzusunda banerlərin quraşdırılması həyata keçirilmiş, monitorlarda slaydlar yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli fərmanı ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində yaradılmış "Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Silahlı Qüvvələrə xüsusi hərbi ixtisaslar üzrə peşəkar kadrların hazırlığı aparılır.

Ulu Öndər Heydər Əliyev gəncləri "Azərbaycanın gələcəyi" adlandırar və deyərdi ki, cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Bu diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, demək olar ki, cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Gəncliyə və gənclərə etimad artıq öz təsdiqini tapmaqdadır. Bu gün gənc nəslin düzgün

formalaşması ölkəmizin ictimai-siyasi həyatında önəmli yer tutmaqla yanaşı, gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Əlbəttə, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə güclərini səfərbər etməli, Vətənin inkişafı üçün səylə çalışmalı, onlara arxalanan ölkə rəhbərinin etimadını doğrultmalı, hər an Ali Baş Komandanın verəcəyi əmrə hazır olmalıdırlar.

### Vətəndaş məmnunluğu

Bu gün ölkəmizdə aparılan siyasətin mərkəzində insan amili dayanır. Ölkə rəhbərliyi səviyyəsində aparılan işlərin əsas hədəfi vətəndaşlara xidmət, vətəndaş məmnunluğunun təmin edilməsidir. Azərbaycan Respublikası Prezidentinin mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin və müavinlərinin regionlarda vətəndaşların qəbulunun keçirilməsi, onların təklif, şikayət və rəylərinin öyrənilməsi, qanuni tələblərinin yerinə yetirilməsi, eyni zamanda vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırığının icrası ilə əlaqədar Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi və xidmət rəisinin müavinləri tərəfindən respublikanın regionlarında və Xidmətin Aparatında vətəndaşların qəbulunun keçirilməsi təşkil edilmişdir. Qəbul zamanı bir sıra müraciətlər yerində həllini tapmış, araşdırılması tələb olunan müraciətlər qeydiyyata alınaraq icrası ilə əlaqədar müvafiq tədbirlər görülmüş, xidmətin səlahiyyətlərinə aid olmayan müraciətlər baxılması üçün aidiyyəti qurumlara göndərilmişdir.

Elektron xidmətlərin göstərilməsi və aidiyyəti qurumlar arasında inteqrasiyanın yaradılması istiqamətində müvafiq işlər davam etdirilmiş, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Əhalinin Dövlət Reyestri Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya işləri yekunlaşdırılmışdır. Dövlət qurumları ilə inteqrasiya prosesi vətəndaşların xidmətalma imkanlarını kifayət qədər sadələşdirməklə rahatlıqlarının təmin edilməsi istiqamətində irəliyə atılmış daha bir addım olmuşdur. Məsələn, Dövlət İmtahan Mərkəzi ilə inteqrasiya nəticəsində çağırışçılara müddətli həqiqi hərbi xidmətə çağırışdan təhsilə görə möhlətin verilməsi üçün Azərbaycan Respublikası daxilində ali və ilk peşə ixtisası təhsil müəssisələrində təhsil alan vətəndaşlar barədə məlumatların elektron qaydada alınması və avtomatik olaraq xidmətin "Vahid elektron informasiya sistemi"nə yüklənməsi həyata keçirilir. Eləcə də bu inteqrasiya ilə ali təhsil müəssisələrinə qəbul imtahanına sənəd verən çağırışçılara imtahana buraxılmalarına görə möhlət verilməsi üçün elektron ərizə məlumatlarının alınması təmin edilir.

Həmçinin Dövlət Miqrasiya Xidməti ilə şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyəti ilə bağlı müvafiq sorğuların elektron qaydada mübadiləsi işi təşkil edilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, "Elektron xidmət növlərinin Siyahısı"nın təkmilləşdirilməsi məqsədilə, "Elektron

hökumət" portalına inteqrasiya edilmiş, çağırışçılara və hərbi vəzifəlilərə inzibati qayda pozuntularına görə protokolların yazılması və cərimələrin tətbiq edilməsi üçün xidmətin "Vahid elektron informasiya sistemi"ndə müvafiq modullar hazırlanaraq cərimələr barədə məlumatların "ASANPAY" ödəniş sisteminə ötürülməsi üçün serverlər yazılmışdır.

Vətəndaşlara göstərilən elektron xidmətlərin tətbiqi, vətəndaş məmnunluğunun və şəffaflığın təmini ilə bağlı çağırışçıların müddətli həqiqi hərbi xidmət keçmək üçün hərbi hissələrə təyin olunmaları barədə məlumatlar hər çağırış qabağı SMS vasitəsilə çağırışçıların mobil telefon nömrələrinə göndərilir, eyni zamanda xidmətin saytında yerləşdirilir.

Göstərilən xidmətlərin operativliyinin təmin olunması və işin keyfiyyətinin artırılması məqsədilə xidmətin "Vahid Elektron İnformasiya Sistemi"ndən istifadə edilməsi üçün proqram təminatı da hazırlanaraq istifadəyə verilmiş, həmçinin "ASAN xidmət" mərkəzləri ilə Xidmətin Aparatı, o cümlədən yerli idarə, şöbə və bölmələri arasında daxili rabitə əlaqəsinin qurulması təmin edilmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 17 yanvar 2019-cu il tarixli fərmanına əsasən, Bakı şəhərində, habelə "ASAN xidmət" mərkəzlərinin yerləşdiyi digər inzibati ərazi vahidlərində "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli fərmanının 5-ci hissəsində nəzərdə tutulan dövlət xidmətləri yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Aparatında, həmçinin tabelikdə olan struktur bölmələrdə vətəndaşların müraciətlərinə baxılması işində səmərəliliyin artırılması, vətəndaş müraciətlərinə daha diqqətlə yanaşılması, ərizə və şikayətlərin araşdırılması və yaranmasına səbəb olan amillərin təhlili, narahatlıq doğuran məsələlərin müəyyənləşdirilməsi və aradan qaldırılması istiqamətində mühüm addımlar atılmış, "ASAN xidmət" mərkəzlərində həyata keçirilən xidmət növlərinin sayı artırılmış, xidmətin "ASAN xidmət" mərkəzlərinə ezam edilmiş əməkdaşları tərəfindən xidmətin səlahiyyətlərinə aid olan müraciətlərin qanunamüvafiq qaydada həll edilməsi təmin edilmiş, bu da öz növbəsində vətəndaşlar tərəfindən müsbət qarşılanmışdır. Ümumilikdə 2019-cu il ərzində 39943 nəfər vətəndaş xidmətin "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən nümayəndələrinə müraciət etmiş və 39120 nəfər vətəndaşın müraciəti müsbət həll edilmişdir, digər müraciətlər isə aidiyyəti üzrə yönləndirilmişdir.

Şəhid ailələrinə, müharibə əlilləri və veteranlarına xidmət tərəfindən daim diqqət göstərilir. Ötən il daha bir yeni layihənin əsası qoyulmuşdur. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti respublikamızın bütün şəhər və rayonlarında Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən Novruz bayramı, Qurban bayramı, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə, o cümlədən dekabrın 1-də və

2-də könüllülük hərəkatının üzvləri olan gənclərin iştirakı ilə "Azərbaycan Könüllülük Həftəsi" layihəsinin "Şəhidimiz" kampaniyası çərçivəsində şəhid ailələrinə ziyarət təşkil etmiş və onlara sovqat çatdırılmışdır.

### Xidmətin beynəlxalq əlaqələri

Xidmətin beynəlxalq əlaqələri sahəsində müəyyən işlər həyata keçirilmişdir. Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində ötən dövr ərzində də tədbirlər həyata keçirilmiş, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasına yeni təyin olunmuş hərbi attaşesi ilə, İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ilə, türkiyəli qazilərdən və ehtiyatda olan zabitlərdən ibarət nümayəndə heyəti ilə görüşlər keçirilmişdir. Eyni zamanda Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilmiş və Gürcüstan Respublikasında keçirilmiş iki dövlətin qurumlarının nümayəndələrinin işçi görüşündə xidmətin əməkdaşının iştirakı təmin olunmuşdur.

Sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü münasibətilə Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə tədbirin keçirilməsi təşkil edilmişdir.

### Kadr və kadr hazırlığı

Xidmətin savadlı və bacarıqlı əməkdaşlarla komplektləşdirilməsi işi prioritet olaraq nəzarətdə saxlanılmışdır. 2019-cu il ərzində də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu qismində həqiqi hərbi xidmətə və mülki işə qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar müvafiq qaydada test imtahanlarına cəlb olunmuş, onların fiziki hazırlıqları və sağlamlıq vəziyyətləri yoxlanılmış, barələrində yoxlama tədbirləri həyata keçirilmiş, müsbət nəticə əldə etmiş şəxslər həqiqi hərbi xidmətə və işə qəbul edilmişlər.

Ötən il Prezident İlham Əliyev tərəfindən genişmiqyaslı sosial paket təqdim edilmiş və bu sosial paket 4 milyon 200 min əhalini əhatə etmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində, həmçinin dövlət qulluqçularının, dövlət qulluqçusu olmayan mülki işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılmışdır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çalışan işçilərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların ailə üzvlərinin sağlamlıqlarının qorunması məqsədilə, "Həmkarlar İttifaqı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq xidmətin ilk həmkarlar ittifaqı təşkilatı təsis edilmiş və il ərzində işçilərin sosial-rifah halının yüksəldilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hər bir əməkdaşı xalqa, dövlətə sədaqətlə xidmət edir və yaxşı bilir ki, bu xidmətin alternativi yoxdur...

**Arzu RƏHİMOV,**
**general-leytenant, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi.**

www.seferberlik.gov.az

# TARİXİN ƏN QÜDRƏTLİ AZƏRBAYCANININ LİDERİ

***Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də, öz növbəmdə, sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.***

*Prezident İlham Əliyevin 2018-ci il aprelin 18-də andiçmə mərasimindəki nitqindən*

## Milli iqtisadi inkişaf modeli

2003-cü ildən keçən müddət ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Son 16 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul istehsalı üç dəfədən çox artmışdır. Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir və ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir. Xüsusilə, Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Azərbaycanın valyuta ehtiyatları 50 milyard dolları keçib, bununla da hazırda valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Ölkə iqtisadiyyatına son 16 il ərzində 250 milyard dollardan çox sərmayə qoyulmuşdur. Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Bu, onu göstərir ki, "qara qızıl" və təbii qaz insan kapitalına çevrilmişdir.

Bununla yanaşı, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı ən islahatçı 20 ölkədən biri hesab edir və bu ilin yanvarında Azərbaycan ilə Davos Dünya İqtisadi Forumu arasında Bakıda "Davos Dördüncü Sənaye İnqilabı Mərkəzinin yaradılması haqqında niyyət protokolu" imzalanmışdır. Azərbaycan çox yüksək yerlərə layiq görülür, o cümlədən islahatların aparılması istiqamətində və rəhbərliyə olan inam əmsalına görə ölkəmiz dünyada birinci onluqda yer tutur. Ölkədə həyata keçirilən struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar nəticəsində təkcə 2019-

cu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplanmış və sosial sahəyə yönəldilmişdir. Nəticədə, bundan 4 milyon 200 mindən çox insan faydalanmışdır.

Təkcə onu qeyd etmək kifayətdir ki, həyata keçirilən islahatların nəticəsində 2019-cu ildə minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50, köçkünlərə verilən aylıq müavinət haqqı isə 50 faiz artırılmışdır.

Qeyd etmək lazımdır ki, aparılan struktur islahatları, eyni zamanda, ölkəmizin beynəlxalq imicini daha da yüksəklərə qaldırır və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. Sosial Tədqiqatlar Mərkəzinin sonuncu sorğusunda da vətəndaşların 94,5 faizi ölkə Prezidentinə olan inam və etimadın daha da artdığını bildirmişdir. Sorğuda iştirak edən respondentlərin 87,6 faizinin Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatları dəstəkləməsi, onu əhəmiyyətli hesab etməsi dövlət başçısına göstərilən inamın və etimadın bariz göstəricisidir.

Prezident İlham Əliyev 2020-ci ilin yanvar ayında 14-cü dəfə Dünya İqtisadi Forumunda iştirak edib. Azərbaycan Prezidenti forum çərçivəsində iyirmidən çox yüksək səviyyəli görüş keçirib. Bu, eyni zamanda, Azərbaycana olan maraq və diqqət, eləcə də ölkəmizin beynəlxalq arenada qazandığı böyük nüfuzun əyani göstəricisidir.

Forum çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edən Prezident müasir dövrdə Azərbaycanın dinamik inkişaf göstəriciləri, eləcə də dövlət siyasətinin prioritet istiqamətləri haqqında müfəssəl məlumat verdi. İlk növbədə, diqqəti cəlb edən məqam ondan ibarət oldu ki, panel iclasında moderatorun "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?"– sualına cavab olaraq Prezident İlham Əliyevin "Bakıya" cavabı mühüm önəm kəsb edir.

Prezident İlham Əliyevin bu cavabı Azərbaycanın müstəqil, heç kimdən asılı olmayan, milli maraqların hər zaman uca tutulduğu siyasət yürütdüyünün bariz nümunəsidir. Dövlət başçısı bildirdi ki, Azərbaycanın qonşu ölkələrlə münasibətləri dostluq, qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsiplərinə əsaslanır. Eyni zamanda, Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan üçün onun milli maraqları həmişə birinci yerdədir və buna görə də müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirdiyimizə görə əldə olunub. Bununla yanaşı, Azərbaycanın əldə etdiyi nailiyyətlər Davos Dünya İqtisadi Forumunun illik hesabatlarında yüksək qiymətləndirilib.

Azərbaycan Prezidenti qeyd etdi ki, iyirmi birinci əsrdə iyirminci əsrin baxışı ilə uğur qazanmaq olmaz. Bu baxımdan ölkəmizdə həyata keçirilən struktur və kadr islahatları səmərəli, işlək idarəçilik mexanizminin daha da inkişaf etdirilməsini və müasir dövrün tələblərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Eyni zamanda, Azərbaycanda həyata keçirilən islahatlar

dünyanın aparıcı ekspertləri, iqtisadi-maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Əvvəllər əsasən infrastruktur layihələrinə sərmayə yatırdığımızı bildirən Prezident vurğuladı ki, Davos Forumuna əsasən, Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir və qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir, eləcə də 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa edilib ki, bunlar dövlət sərmayəsinin bir hissəsidir. Davos Forumu Azərbaycan hökumətinin strateji baxışını 10-cu yerə, hökumətin sabitlik təmin etmək bacarığını isə dünyada 11-ci yerə layiq görüb.

**Enerji diplomatiyası**

Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son 5 il ərzində Bakıda hər il Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru, təbii ki, çox böyük yer tutur.

Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin fevralında Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin VI toplantısında diqqətə çatdırdı ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması təkcə kommersiya layihəsi deyildi: "Bu, bizim üçün dövlətçiliyimizi, iqtisadiyyatımızı gücləndirmək, insanlarımızın daha yaxşı həyatını təmin etmək layihəsi idi... Neft uğur qazanmaq, güclü ölkə qurmaq, insanlara normal həyat vermək, sabitlik, təhlükəsizlik, qonşularımızla harmoniyada yaşamaq üçün vasitələrdən, ən vacib vasitələrdən biri idi". Bundan sonra Azərbaycana maraq artdı və 1996-cı ildə "Şahdəniz" sazişi imzalandı.

Hazırda Azərbaycan Respublikası Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında da çox mühüm rol oynamaqdadır. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan qlobal enerji layihələri ölkəmizi özünəməxsus iqtisadi modelə malik dövlət kimi səciyyələndirir. Son 16 il ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilib, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunub, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılıb. Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılıb. Hazırda "Əsrin müqaviləsi"nin icrası çox uğurla gedir və bu müqavilənin imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlanıb.

2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi həlledici mərhələyə qədəm qoydu. Prezident İlham Əliyevin bəyan etdiyi kimi "Şahdəniz - 2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azər-

baycan 25 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açıb və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edib. Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdısa, "Şahdəniz-2" XXI əsrin ən iri enerji layihəsidir.

2013-cü ildə TAP layihəsi – Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə oldu. Bu baxımdan, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək.

Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümü qeyd edildi. Simvolik haldır ki, məhz həmin gün Cənub Qaz Dəhlizinin təməli qoyulub. Bu Avropanın ən böyük infrastruktur layihəsidir və bu nəhəng transmilli layihənin icrasında ölkəmiz öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirib. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihələrdə də liderliyi öz üzərinə götürüb. Bu layihənin icra edilməsinə 40 milyard dollara yaxın sərmayə qoyulub və qoyulur.

Hazırda Azərbaycan Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında iştirak edən və fəal investisiya yatıran yeganə ölkədir. Bu mühüm qlobal layihələr onu göstərir ki, artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Nəticədə, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırıb, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

### Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlarla əməkdaşlıq

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan "Avropa Qonşuluq Siyasətinə" qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalanmışdır. 2008-ci ildə isə respublikamız Aİ-nin "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Bununla yanaşı, 2011-ci il oktyabrın 24-də Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyi ilə inamlı qələbə qazanmışdır. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biri olmaqla, ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu kimi də qəbul edilməlidir. Belə ki, Azərbaycan, son illər ərzində sabit inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyəti ilə dünya ictimaiyyətinin rəğbətini qazanan

dövlət olaraq, bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

Bu illərdə Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmişdir. 2018-ci ilin iyul ayında Avropa İttifaqı ilə Azərbaycan arasında qəbul olunmuş "Tərəfdaşlıq prioritetləri" adlı mühüm sənəddə bir çox məsələlər öz əksini tapmaqla yanaşı, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək və hörmət ifadə olunur. Həmçinin 2018-ci il iyulun 11-12-də Brüsseldə keçirilmiş NATO Zirvə görüşünün Yekun Bəyannaməsində də alyans üzvlərinin Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək və hörməti öz əksini tapıb. Eyni zamanda, 2018-ci il avqustun 12-də Xəzər dənizinin hüquqi statusuna dair aparılan uzunmüddətli danışıqların nəticəsi olaraq, Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması xarici siyasətimizlə bağlı vacib məsələlərdən biri kimi qiymətləndirilməlidir. Bu konvensiya ölkəmizin maraqlarının təmin edilməsi baxımından böyük diplomatik və siyasi uğurdur.

Bununla yanaşı, 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı. Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər. Həmçinin zirvə görüşündə qəbul edilmiş sənədlər Azərbaycanın qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqi sahəsində nümayiş etdirdiyi liderliyi yüksək qiymətləndirir.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğurudur.

Son iki ildə ölkəmizin evsahibliyi etdiyi, eləcə də, dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər – 2018-ci ildə VI Bakı Beynəlxalq Humanitar Forumu, VI Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi, 2019-cu ildə VII Qlobal Bakı Forumu, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü, Qoşulmama Hərəkatının Zirvə toplantısı, Dünya dini liderlərinin II Sammiti və digər möhtəşəm beynəlxalq tədbirlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

### Dövlətimizin xarici siyasətində əsas prioritet

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində Azərbaycan dövləti və Prezident İlham Əliyev, ilk növbədə, sülh variantına

üstünlük verir. Lakin dövlət başçımız Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüququn normaları ilə təsdiq edildiyini vurğulayıb. Münaqişə həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca, bölgədə heç bir müsbət irəliləyişin mümkün olmayacağını vurğulamaqla yanaşı, dövlət başçısı ölkəmizin öz milli maraqları uğrunda sona qədər mübarizə aparacağını bildirmişdir.

Qeyd etmək vacibdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir.

Bunu Azərbaycan Prezidenti 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Ermənistan baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin və dünya birliyinin diqqətinə çatdırdı ki, Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verilməməli, ölkə rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımları pislənilməli, onun qarşısı alınmalıdır.

Ölkə Prezidenti Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri dünyaya çatdırmalı olduğumuzu vurğulayaraq bildirdi ki, tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Azərbaycanın arqumentlərə qarşı Ermənistan tərəfinin heç bir ciddi arqument qoya bilmədiyini, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiyaya əsaslandığını bildirən dövlət başçısı qeyd etdi ki, bu, əslində, onların xislətidir və onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar, bu da heç kimə sirr deyil.

Buna baxmayaraq, Ermənistan danışıqlarda Dağlıq Qarabağın "müstəqil" tərəf kimi iştirakını təmin etməyə çalışır. Amma 2016-cı ilin aprel döyüşləri onu da sübut etdi ki, işğal olunmuş Azərbaycan ərazisində qondarma və cinayətkar rejimin yaratdığı qurum mifdir. Dördgünlük müharibədə qarşı tərəfin itkiləri arasında bir nəfər də olsun Dağlıq Qarabağ ermənisi yox idi. Çünki "Dağlıq Qarabağ" ordusu mövcud deyil. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın nəzarətində olan və tanınmamış qanunsuz rejim azərbaycanlı əhalinin etnik təmizlənməsi əsasında yaradılmış cinayətkar qurumdur. Məhz buna görə beynəlxalq təşkilatlar və dünya ölkələri də Ermənistanın öz işğalçılıq siyasətini ört-basdır etmək məqsədi ilə Dağlıq Qarabağda əvvəllər keçirdiyi bu cür qondarma seçkiləri heç vaxt tanımamışdır.

Ölkə başçısı 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə bildirdi

ki, Ermənistan təbliğatına və ümumiyyətlə, münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Sonuncu, qondarma "prezident və parlament seçkilər"inin keçirməsi isə münaqişənin nizama salınmasında 28 ildir vasitəçilik edən ATƏT-in Minsk qrupu daxil olmaqla, bir sıra beynəlxalq təşkilatlar (NATO, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Parlamenti, İƏT, GUAM və s.) və dövlətlər tərəfindən qanunazidd hərəkət kimi qiymətləndirilmiş və tanınmamışdır. Dövlət başçısı diqqətə çatdırdı ki, bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

**Mürəkkəb geosiyasi şəraitdə müstəqil siyasət**

Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Bununla yanaşı, son illərdə Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Bu baxımdan, Azərbaycan Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü zamanı çıxışında bildirib ki, koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir və pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Eləcə də pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Bu, onu göstərir ki, artıq ölkəmiz təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələrdə də öz sözünü deyir, eləcə də Azərbaycan Prezidenti dünya miqyasında baş verən təhlükələrdə də qətiyyətli mövqe nümayiş etdirir.

Ümumiyyətlə, bütün bunlar onu deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqeyinin yüksəlməsini təmin edib.

**Elçin ƏHMƏDOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru.**

www.dia.edu.az

# ÖLKƏMİZİN SU TƏHLÜKƏSİZLİYİ ETİBARLI ŞƏKİLDƏ TƏMİN EDİLİR

**Azərbaycan qədim suvarma əkinçiliyi ölkəsidir. Onun əsas kənd təsərrüfatı bazası sayılan Kür-Araz düzənliyi suvarılan torpaqların istifadə edilməsi baxımından dünyanın ən qədim və unikal regionlarından biridir. Hələ V-VI əsrlərdə bu ərazilərdə tikilmiş suvarma kanallarının izləri indiyə qədər qalmaqdadır. Düzənliyin ərazisi quraq və arid zonada yerləşdiyinə görə burada suvarma aparılmadan, meliorasiya və su təsərrüfatını inkişaf etdirmədən kənd təsərrüfatı məhsullarının yetişdirilməsi mümkün deyildir.**

Bunu böyük uzaqgörənliklə qeyd edən və "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış müdrik şəxsiyyət, dünya şöhrətli siyasətçi Ulu Öndərimiz Heydər Əliyev meliorasiya və su təsərrüfatı sahəsini daim diqqət mərkəzində saxlamış, onun inkişafına xüsusi əhəmiyyət vermişdir.

Azərbaycanda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərində, lakin onun genişmiqyaslı, intensiv inkişafına Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-cu ildən başlanılmışdır. Bu vaxtdan etibarən ölkənin kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, iqtisadiyyatın bütün sahələrində xüsusi bir yüksəliş dövrü başlandı. Ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul edildi. Bu qərarlarda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etmək məqsədilə kompleks meliorasiya proqramları hazırlandı və meliorasiya olunmuş torpaqlarda kənd təsərrüfatı istehsalının sabit şəkildə artırılması üçün mühüm tədbirlər həyata keçirilmişdir.

Ulu Öndərimiz keçmiş İttifaq rəhbərliyində olduğu illərdə də respublika iqtisadiyyatının, o cümlədən meliorasiya və su təsərrüfatının inkişafını daim diqqət mərkəzində saxlamışdır. Lakin böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, o, keçmiş İttifaq rəhbərliyindən getdikdən sonra kənd təsərrüfatının, xüsusilə də meliorasiya və su təsərrüfatının inkişafı demək olar ki, tamamilə dayandı. Keçmiş respublika rəhbərliyinin səriştəsizliyi və bu sahəyə laqeyd münasibəti nəticəsində meliorasiya və su təsərrüfatı üzrə aparılan işlərin həcmi kəskin surətdə azaldı, kapital qoyuluşu heçə endirildi, sistemlərin istismarına ayrılan büdcə vəsaitinin həcmi xeyli aşağı düşdü. Nəticədə mühüm dövlət əhəmiyyətli obyektlərin saxlanılması, istismarı və təmir-bərpası son dərəcə çətinləşdi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı meliorasiya və su təsərrüfatı sahəsini məhv olmaqdan xilas etdi, sahə öz inkişafının yeni mərhələsinə qədəm qoydu, ona dövlətin diqqət və qayğısı bərpa olundu, mövcud meliorasiya potensialından daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Ölkənin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar aqrar sahə ilə paralel olaraq, meliorasiya və su təsərrüfatında da islahatların həyata keçirilməsinə başlanıldı, onların normativ-hüquqi bazası yaradıldı. Bu məqsədlə 40-dan

artıq normativ-hüquqi sənəd hazırlandı ki, bunlardan da ən mühümü 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılması qaydalarını müəyyən etdi.

Ulu Öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Ümummilli Lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı. İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara verildi.

Heydər Əliyevin yaxından köməyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanıldı. Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir. Uzun müddət ərzində suya daim artan ehtiyacı ödəmək məqsədilə Samur-Abşeron magistral kanalı əsaslı təmirə dayanmadan fasiləsiz olaraq istismar olunurdu. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş və su itkisi artmışdır.

Ulu Öndərin tapşırığına əsasən, bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur. İslam İnkişaf Bankının texniki yardımı ilə beynəlxalq məsləhətçi şirkət tərəfindən hazırlanmış sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçay çayına qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. Vayxır su anbarının inşasına 1983-cü ildə başlanılmış, lakin maliyyə vəsaitinin olmamasına görə tikinti işləri yarımçıq dayandırılmışdır.

Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə (1969-

1982-ci illər) meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq olmuşdur.

Ulu Öndərimiz Heydər Əliyev 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən onun su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırılmışdır. Ümumiyyətlə, bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektar sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük əzm və qətiyyətlə davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir və öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, o, mövqe tutan və xalqını xoşbəxt gələcəyə aparan liderdir.

Xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsi, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, onun qətiyyətli addımları, səriştəli idarəçiliyi nəticəsində ölkənin dayanıqlı inkişaf dinamikasına nail olunmuş, idarəetmə mexanizmi mütəmadi olaraq təkmilləşdirilmiş, səmərəli dövlət idarəçiliyinin, təhlükəsizliyinin, sabitliyin gücləndirilməsi ilə bağlı vaxtında görülən tədbirlər müstəqilliyimizin daha da möhkəmləndirilməsini, dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin etmişdir. İqtisadiyyatın çoxşaxəliyinə və innovativ dinamik inkişafına nail olan Azərbaycan vaxtında reallaşan islahatlar və icra olunan layihələrlə bu gün regionda lider dövlətə, iqtisadi və siyasi mərkəzə çevrilmişdir.

Möhtərəm Prezidentimizin rəhbərliyi altında qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının və "Strateji yol xəritələri"nin dəqiq mexanizmlərlə icrası inkişafın dinamizmini artırır və əhatəsini daha da genişləndirir. Sürətli, yüksək templi bu irəliləyiş dövlətin yürütdüyü daxili və xarici siyasətin düzgünlüyünün düşünülmüş olması və müasir tələblərə cavab verə bilməsi sayəsində mümkün olmuşdur. Təbii ki, qazanılan nailiyyətlərdə ölkə rəhbərinin güclü, prinsipial siyasi iradəsinin, vaxtında düzgün qərarlar qəbul etməsinin və xalqımızın ona olan inamının da böyük rolu olmuşdur.

Son 16 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artmış, ölkə-

mizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə köklü iqtisadi islahatlar, bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan vermiş, həm də bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişmişdir.

Prezident İlham Əliyev kənd təsərrüfatının inkişafı üçün böyük meliorativ tədbirlərin görüldüyünü, son 16 il ərzində dörd su anbarının – Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarının tikildiyini, bu anbarların və çəkilmiş kanalların on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynadığını, 100 min hektardan çox suvarılmayan torpaqlara su xətləri, kanallar çəkildiyini vurğulamış, görülən tədbirlərin fermerlərə, sahibkarlara şərait yaratdığını və kənd təsərrüfatının inkişafında böyük rol oynadığını qeyd etmişdir. Hazırda meliorasiya və su təsərrüfatı sistemi də ölkə iqtisadiyyatının mühüm və ayrılmaz bir parçası olaraq qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə, genişmiqyaslı islahatların ünvanına çevrilmişdir.

Son 16 ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

Belə ki, bütün maliyyə mənbələri hesabına 2004-2020-ci illərdə 4,5 min kilometr uzunluğunda suvarma kanallarının, 3,0 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidən qurulması və bərpası, 462 min hektar sahədə torpaqların su təminatının və 286 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 194 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürləşdirilmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 206 km-dən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 3062 ədəd (o cümlədən 2020-ci ildə – 443 ədəd) subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı (Pirsaatçay, Zoğalavaçay, Ləvain) isə təmir-bərpa edilmişdir.

Dünya Bankının krediti ilə 140 min hektar suvarılan sahəyə xidmət edən Araz çayı üzərindəki Bəhrəmtəpə hidroqovşağının, respublikanın 9 rayonunun və Naxçıvan MR-in 52 min hektara yaxın ərazisində (Babək və Şərur rayonları) suvarma-drenaj şəbəkələrinin təmir-bərpası işləri başa çatdırılmış, respublikanın daha 15 rayonunda Sudan İstifadəedənlər birliklərinin institusional gücləndirilməsi və onların 85 min hektar xidmət ərazilərində təsərrüfatdaxili suvarma-drenaj şəbəkələrinin təmir-bərpa işləri

sona çatdırılmışdır. Bu məqsədlə layihə çərçivəsində 198 ədəd ofis binası, respublikanın 4 rayonunda Regional Dəstək mərkəzləri tikilmiş və 88 ədəd ekskavator alınaraq Sudan İstifadəedənlər birliklərinin balansına verilmişdir. Layihənin başa çatmamasına baxmayaraq, nəzərdə tutulduğundan 39,4 faiz artıq, yəni 119 min hektara yaxın sahədə suvarma və drenaj şəbəkələrinin bərpası, yenidən qurulması işləri tamamlanmışdır. Eyni zamanda respublikanın 8 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmiş, Ağsu, İsmayıllı, Siyəzən, Şabran, Cəlilabad, Lerik və Masallı rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi başa çatdırılmış, Yardımlı rayonunda isə bu işlər davam etdirilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş Sudurulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 km-lik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidən qurulması işləri başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir. Samur-Abşeron kanalının 50-ci kilometrindən suyun Taxtakörpü su anbarına verilməsi məqsədilə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri başa çatdırılmışdır. Eyni zamanda ilk mərhələdə Qusarçay, Qudyalçay və Caqacuqçay çayları üzərində sugötürücü qurğuların və nəqledici kanalların tikintisinin başa çatdırılması ilə Samur-Abşeron kanalına əlavə su verilməsi təmin edilmişdir.

2013-cü ildə Taxtakörpü su anbarı, Taxtakörpü Su Elektrik Stansiyası və Taxtakörpü-Ceyranbatan su kanalının açılışı mərasimində möhtərəm Prezidentimiz İlham Əliyev öz nitqində çox böyük uzaqgörənliklə demişdir: "Beləliklə, Taxtakörpü su anbarının, Şəmkirçay su anbarının və suvarma sisteminin yaradılması nəticəsində biz 2 ildən sonra 250 min hektar yeni torpaq sahələri əldə edəcəyik. Bu, tarixi bir nailiyyət olacaqdır. Bu layihələrin icrası, eyni zamanda, ölkəmizin su təhlükəsizliyini də təmin edir. Bu məsələlərə də biz daim diqqət göstəririk. Çünki ölkəmizi qidalandıran əsas su mənbələri Azərbaycanın hüdudlarından kənarda formalaşır. Ona görə su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanalları inşa etmək və su anbarlarını yaratmaq strateji əhəmiyyətli bir məsələdir. Taxtakörpü su anbarının yaradılması ilə biz bu strateji hədəfə çatırıq. Bizim sularımız Kür çayından, Araz çayından, Samur çayından gəlir ki, bu çaylar öz mənbəyini başqa ölkələrdən başlayır. Beləliklə, su təhlükəsizliyi bizim üçün strateji əhəmiyyətli məsələdir və gələcəkdə hər bir ölkə üçün su ehtiyatları strateji dəyər olacaqdır”.

Göründüyü kimi, hələ bir neçə il öncə su təhlükəsizliyinin nə qədər prioritet məsələ olduğunu ölkə Prezidenti çox uzaqgörənliklə qeyd etmişdir.

Ölkəmizin su təhlükəsizliyi sahəsində strateji əhəmiyyətə malik olan Taxtakörpü su anbarının istifadəyə verilməsi nəticəsində son illərdə yay mövsümündə Samur sərhəd çayında su ehtiyatlarının kəskin azalmasına baxmayaraq, anbarda toplanan su hesabına Bakı şəhərinin və Abşeron yarımadasının əhali, sənaye və kənd təsərrüfatı üzrə su təminatında yarana biləcək çətinliklərin qarşısının alınması mümkün olmuşdur. Taxtakörpü su anbarı zonasında ümumilikdə nəzərdə tutulan 30 min hektara yaxın yeni suvarılacaq torpaqlarda görülmüş meliotrativ tədbirlər nəticəsində 22 min hektarı Aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilmişdir. Eyni zamanda "Şabran Aqropark"a məxsus 1738 hektar torpaq sahəsi suvarma suyu ilə təmin edilmiş və bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri davam etdirilmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə açılmış Şəmkirçay su anbarı zonasında əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmışdır. Şəmkirçay su anbarında yığılan 723 milyon kubmetr su hesabına Şəmkir, Samux və Göygöl rayonlarının 35 min hektara yaxın əkin sahəsinin su təminatı yaxşılaşdırılmışdır. Şəmkir və Göygöl rayonlarının 4 min hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılan sahələri suvarma suyu ilə təmin edilmişdir.

Şəmkirçay su anbarından Şəmkir və Göygöl rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların, eləcə də Goranboy rayonunun əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə uzunluğu 27,9 km olan Şəmkir-Samux-Goranboy suvarma magistral kanalının 2-ci növbəsinin tikintisi tamamlanmışdır. Bununla Samux və Goranboy rayonlarının 31000 hektar (ondan 8231 hektarı yeni suvarılacaq torpaqlardır) sahəsinə suvarma suyu çatdırılmışdır. Goranboy rayonunun daha 18 min hektardan çox sahəsinə suyun çatdırılması üçün kanalda tikinti işləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 avqust 2017-ci il tarixində Samux və Goranboy rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi mərasimlərində iştirak etmişdir. Sovetlər Birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır. Sabirabad rayonu ərazisində "H" kanalının 7,8 km hissəsinin beton məcrada qurğularla birlikdə tikintisi başa çatdırılmışdır. Bununla 1-ci mərhələdə 4 min hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılmış və 200 hektar yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Eyni zamanda Sabirabad rayonunun qış otlaqlarında 1-ci mərhələdə 5000 hektar yeni torpaq sahəsinə, eləcə də Yuxarı Mil kanalında tikinti işləri davam etdirilərək Ağcabədi rayonunda 2700 hektar sahəyə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 sentyabr 2017-ci il tarixdə

Neftçala magistral kanalında görülən işlərlə tanış olmuş və Kür çayından 1-ci mərhələdə rayonun 7770 hektar yeni suvarılacaq və 970 hektar mövcud əkin sahələrinə suvarma suyunun verilməsi mərasimində iştirak etmişdir.

Aqroparkların və iri təsərrüfatların yaradılması məqsədilə Araz çayının yeni qolu vasitəsilə Saatlı (24325 ha), İmişli (5812 ha) və Biləsuvar (9356 ha) rayonlarının 52638 ha qış otlaq sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün 54,2 km uzunluğunda torpaq məcralı kanalın tikinti işləri üzərindəki hidrotexniki qurğularla birlikdə tamamlanmışdır. Goranboy və Samux rayonlarında yaradılan aqroparkların 4700 ha sahəsinə Şəmkir-Samux-Goranboy suvarma magistral kanalından suvarma suyunun çatdırılması üçün 1-ci mərhələdə 12,1 km suvarma boru kəmərinin və həcmi 100 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi başa çatdırılmışdır. Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1738 hektar sahəyə suvarma suyunun verilməsi üçün tutumu 150 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi tamamlanmış, bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün işlər davam etdirilir. Qax rayonunda yaradılan Aqroparka məxsus 1550 hektar torpaq sahəsinin 1-ci mərhələdə 665 hektar ərazisinə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 480 ha və ona bitişik Füzuli rayonunun Mirzənağılı kəndinin 200 ha əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi ilə əlaqədar nasos stansiyasının, təzyiqli boru kəmərinin tikintisi aparılmışdır. Suvarma su mənbəyi yaradılan ərazilərdə investorlar və torpaq mülkiyyətçiləri tərəfindən mütərəqqi suvarma texnikası tətbiq edilməklə və meliorativ tədbirlər aparılmaqla intensiv texnologiyalar əsasında yüksək kənd təsərrüfatı məhsulları istehsalına geniş imkanlar yaranacaqdır. Eyni zamanda respublika iqtisadiyyatının inkişafında böyük əhəmiyyət kəsb edəcək daha bir nəhəng infrastruktur layihəsinin yuxarı Şirvan kanalının yenidən qurulmasının xarici məsləhətçilər cəlb edilməklə ilkin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanmışdır. Şirvan zonasına yeni həyat verəcək bu layihə 10 rayonun 125 min hektardan çox əkin sahəsinin su təminatının yaxşılaşdırılması və 106 min hektar yeni suvarılan torpaqların dövriyyəyə verilməsi ilə ümumilikdə 231 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi, eləcə də regionda ekoloji mühitin yaxşılaşdırılması, Hacıqabul gölündə təhlükəli ekoloji vəziyyətin qarşısının alınması üçün imkan yaradacaqdır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 23 meliorasiya və su təsərrüfatı obyektlərinin təməlqoyma, işlərin gedişi ilə tanışlıq və açılış mərasimlərində iştirak etmişdir ki, bu da onun bu sahəyə olan diqqət və qayğısının təzahürüdür. Qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində ASC tərəfindən meliorasiya tədbirlərinə ayrılan vəsait hesabına meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə sahəsində də 2019-cu ildə konkret tədbirlər həyata keçirilmişdir.

2019-cu ilin mürəkkəb təbii-iqlim şəraitinə baxmayaraq, öz daxili imkanlarını səfərbər edərək ASC üzərinə düşən vəzifələri yerinə yetirmiş, balansında olan irriqasiya və meliorasiya sistemlərinin, hidrotexniki qurğuların istismarını təmin etmiş, müvafiq təmir-bərpa işlərini həyata keçirmişdir. Bu il ərzində Kür, Araz və onlara qovuşan dağ çayları boyunca salınmış torpaq mühafizə bəndlərinin 159,2 km-lik hissəsində möhkəmləndirmə işləri görülmüş və 33231,0 kbm həcmində daş və beton kompozitləri ilə sahilbərkitmə işləri yerinə yetirilmişdir. Suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 70,0 mln.kbm həcmində lildən təmizləmə işləri aparılmış, 17500 km suvarma, 3350 km kollektor-drenaj sistemləri təmizlənmiş, 41,1 km suvarma və 30,6 km kollektor-drenaj şəbəkələri, 5847 hidrotexniki qurğu, 5676 subartezian quyusu, 315 nasos stansiyası təmir edilmişdir.

Həyata keçirilmiş təmir-istismar və tikinti işləri nəticəsində, eləcə də 80500 hektarda aratın, 23000 hektarda təkrar əkinlərin aparılması və digər aqrotexniki tədbirlər hesabına suvarılan torpaqlarda qrunt sularının səviyyəsi aşağı düşmüş, duzların yuyulması prosesi getmiş, 2018-ci illə müqayisədə şorlaşmış torpaq sahələri 4325 hektar azalmışdır. Çay məcralarında 19,9 mln.kbm həcmində məcratəmizləmə işləri aparılmış, 7,4 min kbm şax-daş və faşın, 3,3 min kbm qabion bəndlər quraşdırılmış və daş-beton bəndlərdə 32,7 min kbm həcmində təmir işləri yerinə yetirilmişdir. Əkin sahələrinin su təminatının və meliorativ vəziyyətinin daha da yaxşılaşdırılması məqsədilə ASC tərəfindən respublika üzrə sudan istifadə planı, magistral kanallar üzrə su limitləri, respublikanın çayları üzrə suvarma dövründə rayonlararası su bölgüsü cədvəlləri hazırlanaraq təsdiq edilmişdir. Bütün istismar təşkilatlarında gecə-gündüz növbətçilik yaradılmış, vegetasiya suvarmalarının mütəşəkkil həyata keçirilməsi, sudan səmərəli və qənaətlə istifadənin təmin edilməsi və su limitlərinə nəzarətin gücləndirilməsi məqsədilə ASC-nin mütəxəssisləri ayrı-ayrı obyektlərə təhkim edilmiş, çayların gursululuq dövründə su anbarlarının doldurulması və yarana biləcək sel və daşqın sularının maneəsiz axıdılması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Vegetasiya suvarması dövrünün əvvəlinə əsas su anbarlarında 14,5 mlrd. kbm. həcmində su toplanmışdır.

Kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı 2019-cu il üçün Fəaliyyət planı hazırlanmış və icrası təmin edilmişdir. Görülmüş tədbirlər nəticəsində suvarılan torpaq sahələri əsasən suvarma suyu ilə təmin edilmişdir. Respublika üzrə bütün kənd təsərrüfatı bitkiləri 1400,5 min hektar sahədə orta hesabla 3,3 dəfə, o cümlədən taxıl 547903 hektarda 2,2 dəfə, pambıq 101268 hektarda 3,2 dəfə, tütün 3053 hektarda 4,4 dəfə, yem bitkiləri 418278 hektarda 4,0 dəfə, bostan-tərəvəz 65005 hektarda 5,1 dəfə, çoxillik əkmələr 121523 hektarda 3,7 dəfə və həyətyanı sahələr 143409 hektarda 4,4 dəfə suvarılmışdır. 2019-cu ildə havaların kəskin quraq və isti keçməsi ilə əlaqədar su mənbələrində yaranmış su qıtlığı səbəbindən bir sira hallarda kollektor-drenaj şəbəkələrinin sularından kanalların suları ilə qarışdırılaraq suvarmada istifadə edilmişdir. Bütün suvarma mənbələrindən 9,2 mlrd. kbm su götürülmüş və

su istifadəçilərinə 6,55 mlrd. kbm su verilmişdir. Torpaq eroziyasına və su itkilərinə qarşı mübarizə məqsədilə kanallar, kollektorlar və su təsərrüfatı obyektləri boyunca 160 hektar sahədə yeni meşə zolaqları salınmışdır.

ASC-nin sənaye müəssisəsində 2019-cu ildə hidrotexniki qurğuların təmirində və yenidən qurulmasında istifadə olunan müxtəlif adda 140,0 ton metalkonstruksiya, 34 ədəd elektrik mühərrikləri təmir edilmiş, müxtəlif sazlama-quraşdırma və servis xidmətləri həyata keçirilmişdir.

Dünya Bankının krediti və Azərbaycan tərəfinin payı hesabına həyata keçirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə" çərçivəsində respublikanın 2 rayonunda (Şabran və Siyəzən) içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmişdir. Layihə çərçivəsində Şabran rayonunda təmizləmə gücü gündə 10000 kbm və Siyəzən rayonunda təmizləmə gücü gündə 8700 kbm olan çirkab su təmizləmə qurğularında bütün mexaniki və elektromexaniki avadanlıqlar quraşdırılmış və hər iki qurğuda tikinti işləri tamamlanmışdır. Layihə üzrə respublikanın 8 rayonunda (Şabran, Siyəzən, Ağsu, İsmayıllı, Masallı, Cəlilabad, Lerik və Yardımlı) tikinti işləri tam başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə dövlət büdcəsindən dövlət əsaslı vəsait qoyuluşu üçün ayrılmış vəsaitlər hesabına "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan "Şabran, Siyəzən və Xızı rayonları ərazisində mövcud suvarılan torpaqların su təminatının yaxşılaşdırılması və yeni suvarılan torpaqların istifadəyə verilməsi" layihəsi üzrə Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1738 ha yeni suvarılan torpaq sahəsinə əlavə su verilməsi üçün 9,060 km (diametri 900-700 mm) uzunluğunda boru kəmərinin çəkilməsi üzrə işlər yerinə yetirilmişdir.

2019-cu ildə respublikanın ərazisində aqroparkların yaradılması məqsədilə Şəki və Oğuz rayonları ərazisində yaradılacaq aqroparkın 12300 hektar yeni suvarılacaq torpaq sahəsində salınacaq qoz-fındıq ağacı bağlarının suvarma suyu ilə təmin edilməsi üçün Oğuz rayonu üzrə 2500 kbm həcmində su hovuzunun tikintisi tamamlanmış, 3,2 km uzunluğunda təzyiqli boru kəməri çəkilmiş, Şəki rayonu üzrə Baş Suqəbuledici qurğunun, 5,0 km magistral basqılı boru kəmərinin, 1,24 km təzyiqli boru kəmərinin tikintisi üzrə işlər tamamlanmışdır. Xaçmaz rayonunda Aqroparkın 956 ha torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi ilə bağlı 10,39 km uzunluğunda kanalların qurğularla birlikdə yenidən qurulması və 2 ədəd 50 min kbm həcmində su hovuzunun tikintisi üzrə işlər aparılmışdır.

Ağcabədi rayonunda yaradılan aqroparkın 850 ha yeni suvarılan torpaq sahəsinə suvarma suyunun verilməsi üçün Yuxarı Qarabağ kanalı üzərində nasos stansiyasının və 2,0 km uzunluğunda basqılı boru kəmərinin, Goranboy rayonunun Erkəc kəndi ərazisində yaradılacaq aqroparkın 400 ha yeni suvarılan sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Kürəkçay çayı üzərində sugötürən qurğunun, nasos stansiyasının, 1,88 km uzunluğunda basqılı boru kəmərinin, 5000 kbm həcmində basqılı hovuzun və 10 kv-luq EHX-nin tikintisi üzrə işlər

görülmüşdür. Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın 550 ha əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün Kür çayı üzərində nasos stansiyasının, basqılı boru kəmərinin və Valley tipli yağışyağdırıcı qurğularının qurulması üzrə layihə-smeta sənədləri hazırlanaraq tikinti işlərinə başlanılmışdır. Eləcə də Qobustan rayonunun Qaracüzlü kəndi yaxınlığında yaradılmış aqroparka məxsus 998 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üçün Qozluçay çayı üzərində suqəbuledici qurğunun və 11 km uzunluğunda qapalı boru kəmərinin qurğularla birlikdə tikintisi üzrə layihə-smeta sənədləri hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Ələt-Astara magistral avtomobil yolunun Salyan, Neftçala, Biləsuvar və Cəlilabad rayonlarından keçən hissəsində yerləşən 20000 hektar qış otlaq sahələrində meliorativ tədbirlərin layihə sənədlərinin hazırlanmasına başlanılmışdır. Eyni zamanda Şamaxı rayonunun 2500 ha əkin sahəsinin su təminatının yaxşılaşdırılması üçün 8 kiçik sututarında zəruri təmir-bərpa işlərinin aparılması məqsədilə layihə sənədləri hazırlanmış və 1 ədəd sututarda tikinti işlərinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli 952 nömrəli Sərəncamı ilə respublikanın 41 şəhər və rayonunun 254 yaşayış məntəqəsində 8362 ha (ondan 871 ha yeni suvarılan torpaqlardır) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyularının qazılması üçün layihə-smeta sənədləri hazırlanmış və qazma işləri tamamlanmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafq sərəncamı ilə Ağdam rayonunda 20 yaşayış məntəqəsinin 1050 ha torpaq sahəsinin suvarılması üçün 35 ədəd subartezian quyusunun 14 ədədində qazma işləri 2018-ci ildə həyata keçirilmiş, 21 quyuda isə qazma işləri 2019-cu ildə başa çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2019-cu il tarixli 1367 nömrəli Sərəncamı ilə Ağcabədi rayonunda 12 ədəd və Goranboy rayonunda 55 ədəd qazılması nəzərdə tutulmuş quyuların layihə sənədləri hazırlanmış, Ağcabədi rayonunda 12 ədəd və Goranboy rayonunda 12 ədəd subartezian quyularının qazılması başa çatdırılmışdır.

Cənab Prezidentin qeyd etdiyi kimi, görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

2020-ci ildə ASC meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması işlərinin davam etdirilməsi üzrə təkliflərini aidiyyəti qurumlara təqdim etmişdir. Taxtakörpü və Şəmkirçay su anbarları zonalarında magistral və paylayıcı suvarma kanallarının tikintisi işləri davam etdiriləcəkdir.

Respublikanın şəhər və rayonlarının əkin sahələrinin, əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təmin olunması və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 443 ədəd subartezian quyusunun qazılması, eləcə də respublikanın yaşayış məntəqələrinin, əkin

sahələrinin və infrastruktur obyektlərinin sel və daşqın sularının zərərli təsirindən mühafizəsi və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri üzrə Kür-Araz və dağ çaylarında sel və daşqın sularının zərərli təsirlərinin qarşısının alınması məqsədilə sahilbərkitmə işlərinin aparılması nəzərdə tutulur.

Möhtərəm Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsullarının istehsalının inkişaf etdirilməsi ilə əlaqədar olaraq təsdiq edilmiş Dövlət proqramları və tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində nəzərdə tutulmuş meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlərin icrası 2020-ci ildə də davam etdiriləcəkdir.

Belə ki, cari ildə istismar tədbirlərinə ayrılan vəsait hesabına respublika üzrə 18000 km suvarma kanallarının, 3500 km kollektor-dren şəbəkələrinin lildən təmizlənməsi, 6500 ədəd hidrotexniki qurğunun, 6000 ədəd subartezian quyusunun və 320 ədəd nasos stansiyasının təmiri işlərinin həyata keçirilməsi planlaşdırılır. 2020-ci ildə qazılacaq 443 ədəd subartezian quyularından 204 ədədi pambıqçılıq rayonlarında nəzərdə tutulmuşdur. Çay məcralarında 21,0 milyon kbm həcmində məcratəmizləmə işlərinin aparılması və respublika üzrə 1 milyon 400 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin su ilə təminatı və s. işlər həyata keçiriləcəkdir.

Hamıya məlumdur ki, hazırda dünyada iqlim dəyişiklikləri baş verir: Azərbaycanın da üzv olduğu Ümumdünya Su Şurasının və Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, qarlı günlərin sayı azalır, buzlaqlar əriməkdə davam edir, quraqlıq dövrü uzanır. Ölkəmizdə də isti günlər artmaqla, şaxtalı günlərin sayı azalır, çaylarımızı qidalandıran qar örtüyü dağlarda azalır. Ona görə də 2020-ci və növbəti illərdə də suya həssaslıqla yanaşılmalıdır. Çünki su təbiətin bizə bəxş etdiyi sərvətdir. Hazırda bir çox ölkələr susuzluqdan çox əziyyət çəkirlər. Biz də gündəlik həyatımızda sudan səmərəli istifadə etməliyik.

Bu baxımdan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yanında "Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər" ilə bağlı 29 dekabr 2019-cu ildə keçirilən müşavirədə suyun səmərəli istifadəsi ilə bağlı tədbirlər planı hazırlanmasının vacibliyi barədə tapşırıq verilmişdir. Hazırda bu tapşırıqların icrası olaraq, mövcud meliorasiya və su təsərrüfatı fondlarının istismarının və əkin sahələrinin su təminatının yaxşılaşdırılması və su itkilərinin qarşısının alınması, su ehtiyatlarından daha səmərəli istifadə edilməsi üçün sistemlərin təmir-bərpası və müasir tələblər səviyyəsində yenidən qurulması, kiçik su anbarlarının yaradılması daxil olmaqla bütövlükdə orta müddətli, uzunmüddətli meliorativ tədbirlər planının yenidən tərtib edilməsinə başlanılmışdır.

Cənab İlham Əliyevin uzaqgörən siyasətinin davamı olaraq dövlət başçısı "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2020-

ci il 15 aprel tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Baş Nazirin müavini Şahin Mustafayevin sədrliyi ilə komissiya yaradılmışdır.

Sərəncamın icrasının təmin edilməsi məqsədilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları və komissiyanın digər iştirakçıları ilə birgə koordinasiyalı şəkildə bir sıra kompleks tədbirlər proqramı hazırlanmaqdadır. Proqram ölkə iqtisadiyyatının, əsasən də qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan kənd təsərrüfatının dayanıqlı inkişafında və iqlim dəyişiklikləri şəraitində su təhlükəsizliyinin təmin edilməsi üçün strateji əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı sektorunda görüləcək işləri müəyyənləşdirəcəkdir. Proqramda nəzərdə tutulan tədbirlərin 2020-ci ildən başlayaraq ondan sonrakı dövrlərdə həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər 2025-ci ilədək ortamüddətli və 2030-cu ilədək uzunmüddətli dövrdə iqlim dəyişiklikləri ilə əlaqədar ölkənin su təhlükəsizliyinin təmin edilməsi üçün transsərhəd sulardan asılılığın azaldılması istiqamətində, o cümlədən daxili çaylar üzərində su anbarlarının tikintisi, alternativ sulardan istifadənin genişləndirilməsi, suya qənaətedici suvarma texnikası və texnologiyalarının tətbiqi, suvarma suyundan səmərəli istifadə mexanizminin hazırlanması, su itkilərinə, çayların sel və daşqın sularının zərərli təsirinə qarşı mübarizə tədbirlərinin aparılması, eyni zamanda kadr potensialının gücləndirilməsi hesabına 2030-cu ildə aşağıdakılara nail olmaq hədəflənməkdədir:

– Rusiya Federasiyası, İran İslam Respublikası və Gürcüstanla transsərhəd su ehtiyatlarının və obyektlərinin birgə idarə edilməsi üzrə ikitərəfli əməkdaşlıq davam etdirilərək və bu sahədə daha sıx əməkdaşlıq yaradılmasına, İran İslam Respublikası ilə Araz çayı üzərində inşa olunmuş "Xudafərin” və "Qız qalası” hidroqovşaqlarının tikintisi və birgə istismarı üzrə əməkdaşlıq davam etdirilərək bu hidroqovşaqlarda toplanan suların və istehsal olunan enerjinin birgə istifadəsinin həyata keçirilməsinə, suvarma suyundan səmərəli istifadə edilməsi və su itkilərinin qarşısının alınması məqsədilə müasir suvarma texnikası və texnologiyasının tətbiq sahəsinin suvarılan torpaqların 60 %-dən çoxunu əhatə etməsinə, ümumi sututumu 1 milyard m3 olan 16 ədəd su anbarının layihə sənədlərini hazırlamaqla tikintisinə başlanılması, tikintiləri yarımçıq qalmış 2 ədəd su anbarında işlərin tamamlanması hesabına 124 milyon m3 su yığılmasının təmin edilməsinə, mütərəqqi suvarma texnikasının və texnologiyasının tətbiqinə əsaslanan iri təsərrüfatların və aqroparkların yaradılması. Görüləcək bu və bir sıra əlavə tədbirlər ardıcıllıqla davam etdiriləcəkdir.

Qeyd edilənləri nəzərə alaraq onu deyə bilərik ki, həyata keçirilmiş və gələcək onilliklərdə nəzərdə tutulan tədbirlər dövlət başçısı İlham Əliyevin meliorasiya sahəsinə diqqət və qayğısının əyani təzahürüdür.

**Əhməd ƏHMƏDZADƏ,**
**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri.**
www.mst.gov.az

# AZƏRBAYCANDA "COVİD-19" PANDEMİYASI: tibbi və hüquqi aspektlər

**Aynurə Əliyeva,**
**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Hospitalı, həkim-oftolmoloq, tibb elmləri üzrə fəlsəfə doktoru.**
e-mail: draynura@hotmail.com
telefon:+99412 404 08 08

**Fatimə Hüseynova,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası"nın dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: lawer_afatima@rambler.ru
telefon:+99450 206 24 42

**Etibar Əliyev,**
**Beynəlxalq Nəqliyyat Akademiyasının həqiqi üzvü, Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" YUNESKO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru.**
e-mail: a-etibar@rambler.ru
telefon:+99450 220 24 42

*Məqalədə Azərbaycanda yayılmlş "COVİD-19" pandemiyasının tibbi və hüquqi aspektləri barədə məsələ nəzərdən keçirilir. Qeyd olunur ki, "pandemiya" anlayışının məna yükü altında böyük ərazini, regionu, ölkəni və s. məkanları tutan yoluxucu xəstəlik-epidemiyabaşa düşülür. Ölkədə bu infeksiya xəstəliyinə qarşı Azərbaycan Respublikasının Prezidenti və Hökumət səviyyəsində ciddi və effektiv mübarizə tədbirləri həyata keçirilir. Respublika ərasisində xüsusi karantin rejimi tətbiq edilmiş və məsuliyyət tədbirləri sərtləşdirilmişdir.*

**Açar sözlər:** COVİD-19, epidemiya, koronavirus infeksiyası, pandemiya, tibbi təhlükəsizlik, əhalinin sağlamlığı, gigiyena qaydaları, karantin rejmi, hüquqi məsuliyyət.

Dünyada təhlükəli bir kabus – "COVİD-19" koronavirus infeksiya kabusu cərəyan edir. Bu infeksiya növü sərhəd tanımayaraq Yer planetinin, demək olar ki, bütün ölkələrini bürümüşdür. Xəstəliyin yayılma sürəti qlobal xarakter daşıyır, çox ciddidir və artıq pandemiya formasını almışdır [10.2].

Terminoloji lüğətlərdə göstərildiyi kimi, "pandemiya" anlayışının məna yükü altında böyük ərazini, regionu, ölkəni və s.məkanları tutan yoluxucu xəstəlik-epidemiya başa düşülür [4, s.355].

Hal-hazırda dünya koronavirus xəstəliyindən əziyyət çəkir: acınacaqlı və faciəvi vəziyyət yaranmış, çoxsaylı insan tələfatı vardır, sağlamlıq təhlükə altındadır, tibbi təhlükəsizlik durumu ağırlaşıb, ölkələr bir-birlərinə sərhədlərini bağlayır, kütləvi elmi, mədəni, idman, oyun, incəsənət və digər sferalarda tədbirlər təxirə salınır, iqtisadi əlaqələr məhdudlaşdırılır, real turizm sektoru iflasa uğrayıb, tədris, təlim-tərbiyə müəssələrinin fəaliyyəti müvəqqəti dayandırılıb, formaseptiv sənaye risk altına düşüb, dünya iqtisadiyyatı böhranla üzləşib və vurulan ziyanın məbləği yüz milyardlarla dolları ötür və s. [10.5]. Onun törədə biləcəyi mənfi təsirlər qaçılmazdır.

Sözügedən virusa yoluxma hallarına dünyanın 210 ölkəsində rast gəlinir.Statistik göstəricilərə əsasən, qeyd etmək lazımdır ki, Yer planetində koronavirus infeksiyasına yoluxmanın 30.04.2020-ci il tarixə olan ümumi nəticələri belədir [10.6]:

– 3.232.532 nəfər – yoluxanlar (1);
– 228.513 nəfər – ölənlər (2);
– 1.008.029 nəfər – sağalanlar (3);
– 1.995.990 nəfər-aktiv daşıyıcılar (4).

Dünyada infeksion xəstəlik olan "COVİD-19" pandemiyasının daha çox yayıldığı ölkələr üzrə analoji məlumatları təqdim edirik:

– ABŞ – 1.064.572 (1), 61.669 (2), 147.411 (3), 855.492 (4);
– İspaniya – 236.899 (1), 24.275 (2), 132.929 (3), 79.695 (4);
– İtaliya – 203.591 (1), 27.682 (2), 71.252 (3), 104.657 (4);
– Fransa – 166.420 (1), 24.087 (2), 48.228 (3), 94.105 (4) və s.

Bizim ölkəmizdə və qonşu dövlətlərdə isə koronavirus infeksiyasının mənzərəsinə dair göstəricilər aşağıdakı kimidir :

– Azərbaycan – 1.767 (1), 23 (2), 1.267 (3), 476 (4);
– Rusiya – 106.498 (1), 1.073 (2), 11.619 (3), 93.806 (4);
– Ukrayna – 10.046 (1), 261 (2), 1.238 (3), 8.907 (4);
– Qazaxıstan – 3.273 (1), 25 (2), 819 (3), 2.429 (4);
– İran – 93.657 (1), 5.957 (2), 73.791 (3), 13.909 (4);
– Türkiyə – 117.589 (1), 3.081 (2), 44.040 (3), 70.468 (4);
– Gürcüstan – 539 (1), 6 (2), 178 (3), 355 (4) .

Göründüyü kimi, Azərbaycanda koronavirus xəstəliyinə qarşı aparılan qabaqlayıcı və preventiv tədbirlər nəticəsində infeksiyaya yoluxmanın dinamik amplitudası çox kiçikdir və bu ilkin nəticələr ümidvericidir. Belə ki, göstərilən statistik rəqəmlərə riyazi kontekstdə faiz nisbəti ilə müqayisəli şəkildə nəzər salsaq, məlum olur ki, dünyada koronavirus yoluxmasından ölənlərin sayı ölkələr üzrə Fransa–14.5%, İtaliya–13.6%, İspaniya-10.2%, ABŞ–5.8%, Azərbaycanda isə 1.3% təşkil edir. Bu o deməkdir ki, ölkədə "COVİD-19" pandemiyasına qarşı aparılan mübarizə tədbirləri qənaətbəxşdir və həmin tədbirlər gücləndirildikcə, yoluxmadan ölüm faktı azalmaqla, sağalanların sayı daha da artar.

Koronavirus pandemiyasının tibbi aspektlərinə nəzər salaq. Bütün dünyanı narahat edən koronavirus hadisəsi ilə bağlı müxtəlif informasiyalar yayılır. Vəziyyətin mürəkkəbliyi, hazırda bütün dünyada təhlükəli alov hesab edilən "COVİD-19" koronavirusuna qarşı vaksinin olmaması ilə bağlıdır. Lakin vaksinin icadı istiqamətində alimlər tərəfindən edilən cəhdlər, sözsüz ki, davam etməkdədir. Qeyd olunmalıdır ki, koronaviruslar hələ 2003-cü ildə Şiddətli Kəskin Respirator Sindromu (SARS – Severe Acute Respiratory Syndrome) növündə, 2012-ci ildə isə digər növ Orta Şərqdə Tənəffüs Sindromu (MERS-Middle East Respiratory Syndrome) formasında özünü epidemiya olaraq büruzə vermişdir. Koronavirus ailəsi atipik pnevmaniyanın (SARS) törədicisi kimi tanınır. Düzdür, H1N1 (quş qripi) ilə müqayisədə bu virus daha yolxucudur. Koronavirusa yoluxan şəxsin sağlamlıq şansı aşağı düşsə də, yoluxan xəstə bütün hallarda vəfat etmir, sağalır.

Biologiya və tibb ədəbiyyatında verilən məlumatlara görə, yeni koronavirusun əmələ gətirdiyi xəstəlik prosesi dövrünü 4 mərhələyə bölmək mümkündür:

– birinci mərhələ 7 gündən 10 günə qədər davam edir və "virusemiya" adlanır. İlkin dövrdə bu, daha çox adi soyuqdəyməni xatırladır;

– ikinci mərhələdə situasiya 9-cu gündən başlayaraq 14-cü günə qədər davam edən bir müddətdə kəskin dəyişir. Çünki bu vaxt orqanizmlərin epitel hüceyrələrinin zədələnməsi prosesi başlayır. Nəfəs yollarının anatomik məkanında mikroorqanizmlərin və bakteriyaların kolonizasiyası baş verir, bu isə xəstəni ölümə doğru aparan bir mərhələdir;

– üçüncü mərhələdə, əgər xəstəlik nəzarət altına alınmasa, infeksiyaya yoluxmuş insanda kəskin tənəffüs çətinliyi sindromu və ya kardiogen olmayan ağciyər ödemi başlayır. Burada artıq insan süni nəfəs aparatına qoşulmadan yaşaya bilməz;

– xəstəliyin dördüncü mərhələsi isə artıq immunosupressiya dövrüdür. Bu isə insanın anadangəlmə və qazanılmış immunitetinin zədələnməsi deməkdir. Eyni zamanda xəstəliyə təhlükəli "Pseudomonas aeruginosa" çubuqları və göbələklər kimi aqressiv patogenlər də qoşulur [10.2].

Məlumdur ki, koronavirusa yoluxanlar, əsasən, xroniki xəstəlik (diabet-şəkər, təzyiq, ürək çatışmazlığı və s.) səbəbindən immuniteti zəifləmiş şəxslər, yaşlılar və uşaqlar ehtimal olunur. Buna görə də, həmin yaş qrupuna daxil olan şəxslər virusdan qorunmaq və ona qalib gəlmək üçün daha diqqətli olmalı, immun sistemini gücləndirməli, sanitar-epidemioloji davranış qaydalarına ciddi riayət etməlidirlər.

İmmunitetin gücləndirilməsi üçün düzgün qidalanma, çoxlu təmiz hava qəbul etmə, stress halından uzaq olmaq lazımdır. Eyni zamanda orqanizmdə "C" vitamininin səviyyəsini artıran meyvə-tərəvəzlərin qəbul edilməsi vacibidr: məsələn, portağal, naringi, limon, soğan, zəncəfil, innab, itburnu, arı südü, arı zəhəri, propolis və s.

Koronavirus infeksiyası, mahiyyətcə, insan orqanizmində sətəlcəmə (pnevmaniyaya) səbəb olur, daha sonra, bir çox yeni virus növləri kimi, antibiotik müalicəyə reaksiya göstərmir. Yer kürəsində baş qaldıran koronavirus xəstəliyinin kliniki simptom və əlamətləri, əsasən, hərarətdir. Tibbi müayinələr zamanı bəzi pasiyentlərdə döş qəfəsi rentgenoqrafiyalarının nəticələrində hər iki ağ ciyərdə infiltrasiya və tənəffüs çatışmazlığı müşahidə olunur [10.5]. Bu virus fauna (heyvanlar) aləmi arasında yayılmlş böyük bir viruslar qrupuna aiddir.

Bəşəriyyətə çox qədim zamanlardan bəlli olan yoluxucu infeksiyalar (vərəm, zökəm, qara yara, qarın yatalağı, leptospiroz, taun, tulyaremiya, Donuz qripi, Ebola virusu, Zika virusu və s.) və müxtəlif xəstəliklər, məsələn, səhhətə və ya insanların yaşayış komfortuna xələl gətirən "quru göz sindromu" xəstəliyi [9, s.15] mövcuddur və onlara qarşı daim müayinə, diaqnostika, müalicə, profilaktika və reabilitasiya tədbirləri görülür.İnsanlar arasında, digər viruslar kimi, koronavirusa da yoluxma üsulları müxtəlifdir və onlara, əsasən, aşağıdakılar aiddir:

– damcı vasitəsilə yoluxma-xəstə öskürdükdə, asqırdıqda bəlğəm, hava və tüpürcəklə mikrobların yayılaraq ətrafdakı şəxslərin tənəffüs yollarına düşməsi;

– təmas vasitəsilə yoluxma-xəstə şəxs tərəfindən məişət və digər əşya və predmetlərdən istifadə edildikdə digər şəxslərlə əllə görüşdükdə, öpüşdükdə sağlam adamların yoluxması;

– toz vasitəsilə yoluxma-virus molekullarının xəstənin bəlğəmi, tüpürcəyi ilə ətraf mühitə düşməsi, quruması və tozlara qarışaraq həmin hava ilə nəfəs alan şəxslərin yuxarı tənəffüs yollarına düşməsi;

– qida vasitəsilə yoluxma-qida və ərzaq məhsulları ilə virus molekullarının insan orqanizminə düşməsi [8, s.136-137].

Yaranma ocağı Çin Xalq Respublikasının mərkəzi Hubey əyalətinin Uhan şəhəri sayılan və 2019-cu ilin dekabr ayının ortalarında aşkar olunan naməlum virus mənşəli pnevmaniya xəstəliyinə 11 fevral 2020-ci il tarixindən COVİD-2019 adı verilib. Yeni "COVİD-19" (bu termin bəzən "2019-nCoV" kimi də adlanır) koronavirus infeksiyası dünyada şaxələnməkdə davam edərək, əhatə dairəsi və coğrafiyası xeyli genişlənmiş, kütləvi şəkildə bütün ölkələrdə yayılmlşdır. Təbii ki, koronavirus xəstəliyi Azərbaycandan da yan keçməmişdir [10.3;10.4].

"COVİD-19" pandemiyasına qarşı mübarizənin hüquqi aspektləri ilə bağlı qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Konstitusiyasında (bundan sonra–Konstitusiya) təsbit olunmuş normaya əsasən (maddə 39), hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır [1, s.12].

Hüquq ədəbiyyatı səhifələrində göstərildiyi kimi, sözügedən hüquq yeni nəsil hüquqlar sırasına aiddir və ciddi ətraf mühit problemləri (tibbi təhlükəsizlik səviyyəsinin yüksəldilməsi, epidemiya hallarının qarşısının alınması, ekoloji təhlükəsizliyin təmin edilməsi, sağlam ətraf mühitin qorunması və s.) ilə bağlı olaraq aktuallaşmışdır [6, s.128-129].

Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunmasının ilkin hüquqi əsası qismində Konstitusiyanın 41-ci maddəsi [1, s.12-13] çıxış etməklə hər kəsin sağlamlığının qorunması və tibbi yardım almaq hüququna təminat verir. Bu norma öz-özlüyündə təşkilati-hüquqi və mülkiyyət formasından aslı olmayaraq fəaliyyət göstərən səhiyyə infrastrukturunun inkişafı üçün zəruri tədbirlərin görülməsi, sanitariya-epidemiologiya salamatlığına, tibbi təhlükəsizliyə təminat verilməsi, habelə tibbi sığortanın müxtəlif növləri üçün imkanların yaradılmasına təkan verən başlıca hüquqi baza rolunu oynayır [7, s.181].

Tibb hüququnun bir vektoru qismində sağlamlığın qorunması hüququnu bəyan edən Konstitusiya, vətəndaşlığından aslı olmayaraq, onu hər bir insanın hüququ kimi müəyyənləşdirir və aşağadakı aspektləri əhatə edir:

– sağlamlığın qorunması hüququ sosial-iqtisadi hüquqlar sırasına aiddir;

– bu subyektiv potensial imkan insan həyatının mühüm sahəsini əhatə edir;

– sözügedən hüquqi quruma münasibətdə baza müddəalarının tövsiyə formalarına yol verilməsi mümkündür;

– sağlamlığın qorunması hüququnun realizasiyası iqtisadiyyatın və maddi ehtiyatların durumundan daha çox aslıdır [7, s.181-182].

Qeyd etmək vacibdir ki, əhalinin sağlamlığının qorunması sahəsində və onun hüquqi təminatına dair müvafiq normativ-hüquqi baza formalaşmışdır[5]. Bu kontekstdə "Əhalinin sağlamlığının qorunması haqqında", "Sanitariya-epidemioloji salamatlıq haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklərlə mübarizə haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında"və s. qanunlar, eləcə də digər çoxsaylı normativ hüquqi aktlar sanitariya qanunvericiliyinin tərkib hissəsi kimi çıxış edir [8, s.127].

Bununla belə, ölkəmizdə koronavirus xəstəliyinin yayılması, onun yarada biləcəyi təhlükənin qarşısının alınması, təcili təsirli profilaktik və təxirəsalınmaz tədbirlərin operativ və çevik şəkildə həyata keçirilməsi məsələsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət

mərkəzindədir, əhalinin sağlamlığı onun fəaliyyətinin Ana xətdidir.Məhz möhtərəm Prezidentin göstərişi və tapşırığı əsasında, bu məqsədlə 2020-ci il yanvarın 28-də Baş Nazirin sədrliyi ilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah (bundan sonra–Operativ Qərargah) yaradılmışdır [10.3]. Nazirlər Kabinetinin sərəncamı ilə 30.01.2020-ci il tarixdə "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilmişdir [10.2;10.3] və nəzərdə tutulmuş tibbi təhlükəsizlik tədbirləri həyata keçirilməkdədir.

Belə ki, bütün iş yerlərində, eləcə də təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin nəzarətə götürülməsi virus əleyhinə dezinfeksiya edilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.Gigiyena və epidemiologiya mərkəzlərinin mütəxəssisləri tərəfindən maarifləndirici təlimlərin keçirilməsi sistemli xarakter almışdır. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) regional bölmələri xüsusi hazırlıq vəziyyətinə gətirilməklə gücləndirilmiş iş rejmində çalışır, virusun geniş yayılmaması üçün zəruri və təxirəsalınmaz tədbirlər həyata keçirilir. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Analitik Ekspertiza Mərkəzinin nəzdində fəaliyyət göstərən laboratoriyalarda idxal-ixrac və ölkədə istehsal olunan qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə müayinələr aparılması, baytar-sanitar və fitosanitar təhlükəsizliyin təmin edilməsi gerçəkləşdirilir.

Ümumiyyətlə, Qida Təhlükəsizliyi İnstitutunun Baytarlıq Laboratoriyası ölkədə epidemioloji və epizootik sabitliyin qorunması üçün bütün zəruri avadanlıq, vasitə və peşəkar kadrlarla təmin olunmuşdur.

Qeyd etmək lazımdır ki, analoji tədbirlər digər mərkəzi icra hakimiyyəti orqanları (Səhiyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi və s. orqanlar) tərəfindən də uğurla həyata keçirilir.

Sonra Nazirlər Kabineti tərəfindən "Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" 30.03.2020-ci il tarixdə 120 nömrəli qərar qəbul edildi [10.3]. Bu qərara əsasən, insanların həyat və fəaliyyəti üçün zəruri olan iş və xidmət sahələrindən başqa digər istiqamətlər üzrə fəaliyyət 31 mart 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək dayandırılmışdır.

Azərbaycanda koronavirus təhlükəsi ilə bağlı vəziyyətə tam və ciddi nəzarət olunur, sərhəd-keçid məntəqələrində, o cümlədən hava limanlarında sanitar kordon gücləndirilmiş iş rejmində qorunur, genişmiqyaslı dezinfeksiya tədbirləri həyata keçirilir və Dövlət Başçısı tərəfindən bu iş xüsusi diqqətdə saxlanılır, vətəndaşları koronavirusdan qorumaq üçün düşünülmüş addımlar atılır. Belə ki, vətəndaşların sağlamlığının qorunması dövlət siyasətinin tərkib hissəsidir. Ölkəmizdə səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən biridir. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti və müəyyənləşdirdiyi qabaqlayıcı preventiv tədbirlər bu sahədə kəmiyyət və keyfiyyət göstəricilərinin xeyli yaxşılaşmasına səbəb olmuşdur.Koronavirus pandemiyasına

qarşı kəsərli və effektiv mübarizə aparılması, onun törədə biləcəyi fəsadların və ağır nəticələrin azaldılması və təcili izoliyasiya işlərinin görülməsi, koronavirusun iqtisadiyyatımıza zərərli təsirinin azaldılması istiqamətində Dövlət Başçısı tərəfindən təxirəsalınmaz və misilsiz tədbirlər görülür. Belə ki, Bakı şəhərində və regionlarda yeni hospital və xəstəxanalar yaradılır, tibb müəssisələri və səhiyyə ocaqları müasirləşdirilir, innovativ tibbi ləvazimatlarla təmin olunur.

Xüsusilə qeyd etməliyik ki, Sumqayıt Kimya Sənaye Parkında tibbi maska istehsalı üzrə müəssisə yaradılmışdır; həmçinin dezinfeksiya vasitələrinin istehsalına başlanılmışdır. Fiziki və hüquqi şəxslərə, sahibkarlara kompensasiya verilməsi, sosial yardım göstərilməsi, vergi, bank kreditlərinə və kommunal ödəmələrdə güzəştlər edilməsi, subsidiyaların ayrılması və s. bu kimi tədbirlərin həyata keçirilməsi təqdirəlayiq haldır.Bütün bu sadalananlar dövlətin hüquqi təbiətindən irəli gələn tədbirlər kimi dəyərləndirilir və Prezidentin yürütdüyü humanizm siyasətinin tərkib hissəsidir; yeri gəlmişkən, yaşı 65-dən yuxarı olan 176 nəfər məhkumun bu yaxınlarda əfv olunması buna bariz nümunədir.

"COVİD-19" pandemiyasının qlobal xarakter alaraq, bütün planetdə yayılması hadisəsi dövlətlərarası beynəlxalq universal təşkilatların da diqqət mərkəzindədir. Birləşmiş Millətlər Təşkilatı (BMT) koronavirusun yayılmasına qarşı öz narahatlığını bildirərək, Fövqəladə Yardım Fondundan 03.03.2020-ci il tarixdə 15 milyon dollar ayırıb. Bu vəsait səhiyyə sahəsində fəaliyyət göstərən və təhlükəli xəstəliklərə qarşı mübarizə aparılması əsas məqsədlərindən biri olan Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və UNİCEF-ə virusun yayılmasına nəzarət tədbirləri, yoluxma hallarının araşdırılması və milli laboratoriyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün verilir [10.2].

ÜST koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasının yolları ilə bağlı yaydığı açıqlamada bildirilir ki, aşağıdakı qaydalara riayət etməklə hər kəs özünün və başqalarının sağlamlığını qoruya bilər:

1. Əllərinizi spirt əsaslı bir məhsulla mütəmadi olaraq silmək və ya sabunla yumaq əsas qaydalardan biridir.Spirt tərkibli məhsullar və ya sabun əllərin səthindəki bakteriya və virusları öldürür;

2. Öskürən və ya asqıran insanlardan ən azı bir metr məsafə saxlayın. Çünki kiçik virus damcıları sərbəst olaraq ətrafa yayılmaqla yoluxma riskini artırır;

3. Mümkünsə əllərinizlə gözlərinizə, burnunuza və ağzınıza toxunmayın. Çünki əllərdəki viral hissəciklər göz, burun və ya ağıza daxil ola və xəstəlik yarada bilər;

4. Tənəffüs-gigiyena qaydalarına ciddi əməl edilməlidir. Bunun üçün öskürəndə və ya asqıranda ağzınızı və burnunuzu salfetlə örtün. İstifadə olunan salfet dərhal atılmalıdır;

5. Özünüzü pis hiss edirsinizsə, evdə qalın. Hərarət, öskürək və ya nəfəs almaqda çətinlik çəkirsinizsə, ən qısa müddətdə həkimə müraciət edin, sağlamlıq klinikasının göstərişlərinə əməl edin.

Əgər ölkəmizdə ÜST-nin "COVİD-19" infeksiyasından özünü qorumağın və xəstəliyin yayılmasının qarşısının alınmasının yolları ilə bağlı verdiyi tövsiyələrə ciddi əməl edilərsə, bununla da hər kəs özünün və digər şəxslərin sağlamlığını qoruya bilər.

ÜST-nin baş direktoru, doktor Tedros Adhanom Gebreyesus koronavirus epidemiyasına qarşı mübarizədə hökumətləri mü-

vafiq nazirliklərlə sıx əməkdaşlıq şəraitində çalışmağa çağırıb. Azərbaycan Respublikası və ÜST arasında uzunmüddətli səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Bu kontekstdə Azərbaycan Respublikası Hökumətinin dünyada koronavirus infeksiyasının yayılması riskinin qarşısının alınması istiqamətində qlobal həmrəylik nümayiş etdirərək, beynəlxalq birliyin səylərinə töhfə məqsədilə ÜST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVİD-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qəbul etdiyi qərar təqdirəlayiqdir.

Həmçinin, 2020-ci il 9-13 mart tarixlərində ÜST-nin aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuş, koronavirusla bağlı vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət verərək, bu istiqamətdə müəyyən tövsiyələr vermişlər; həmin tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

ÜST-nin baş direktoru pandemiyaya qarşı görülmüş tədbirlərə yüksək qiymət verərək, dünya dövlətləri sırasında Azərbaycanı nümunəvi ölkə kimi dəyərləndirmişdir.

Koronavirus xəstəliyinə qarşı yetərli mübarizə aparılması üçün zəruri vasitələrin (steril və qeyri-steril əlcəklər, baxillər, tibbi maskalar, respiratorlar və s.) ölkəyə idxalına Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.03.2020-ci il tarixli 84 nömrəli qərarı ilə rüsum və vergilərin ödənilməsində müəyyən güzəşt və azadolmalar tətbiq olunmuşdur [10.1].

Azərbaycan Respublikası Prezidentinin 19.03.2020-ci il tarixli "Azərbaycan Respublikasında əhalinin saglamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən, "Koronavirusla Mübarizəyə Dəstək Fondu" yaradılmışdır. Fondun məqsədi Azərbaycan Respublikasında koronavirus infeksiyasının yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir [10.7]. Dövlət Başçısı İlham Əliyev, I vitse-Prezident xanım Mehriban Əliyeva, digər fiziki və hüquqi şəxslər həmrəylik göstərərək bu Fonda müəyyən könüllü ödəmələr, ianələr ediblər.

Onu da qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə 10.04.2020-ci il tarixdə Türk Şurasının videokonfrans vasitəsilə Fövqəladə Zirvə Görüşü keçirilmişdir [10.8]. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Macarıstan və Türkiyənin dövlət nümayəndələrinin virtual formada iştirak etdiyi Zirvə Görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunmuşdu və ÜST-nin baş direktoru da bu konfransa qatılmışdı. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində "COVİD-19" pandemiyasına həsr olunmuş toplantı-Zirvə Görüşünü keçirmişdir. Konfransda qeyd olunmuşdur ki, Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır; məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır.Sonra Zirvə Görüşünün Yekun Bəyannaməsi qəbul edildi.

"COVİD-19" pandemiyasının ciddiliyi nəzərə alınaraq, Nazirlər Kabineti tərəfindən "Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" 02.04.2020-ci il tarixli

124 nömrəli qərar qəbul edilmişdir [10.3]. Bu qərarla tətbiq edilən xüsusi karantin rejimi çərçivəsində 05 aprel 2020-ci il saat 00:00-dan 20 aprel 2020-ci il saat 00:00-dək ölkə ərazisində hərəkət məhdudiyyətləri müəyyən olunmuşdur.

Bəzi orqanların və kütləvi informasiya vasitələrinin əməkdaşları istisna olmaqla, bütün digər şəxslərin yaşayış yerini tərk etmələrinə aşağıdakı hallarda yol verilməsi müəyyənləşdirilmişdir:

– təxirəsalınmaz tibbi zərurət və müalicə almaqla əlaqədar;

– ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar;

– yaxın qohumlarının dəfnində iştirakla əlaqədar.

Bu şəxslər yaşayış yerini müəyyən müddətə tərk etmək üçün icazə almaq məqsədilə Elektron Hökumət İnformasiya Sisteminə SMS göndərməklə nail olurlar. Bu işin operativ və sadələşdirilmiş formada həyata keçirilməsi üçün "icazə.e-gov.az" portalı, 8103 SMS sistemi, yarana biləcək çətinliklərlə bağlı 9108 "ASAN" Xidmətin Çağrı Mərkəzi fəaliyyət göstərir.

Daha sonra Nazirlər Kabineti yuxarıda adıçəkilən qərara (02.04.2020-ci il , №124) 04 aprel 2020-ci il tarixli 126 nömrəli qərarla dəyişiklik edərək, kənd təsərrüfatı və yardımçı sahələrdə fəaliyyət göstərən şəxslərin hərəkəti ilə bağlı məsələlərin hüquqi tənzimlənməsini qaydaya saldı. Eləcə də koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə, Nazirlər Kabinetinin 18.04.2020-ci il tarixli 144 nömrəli qərarı əsasında xüsusi karantin rejiminin müddəti 04 may 2020-ci il saat 00:00-dək uzadılmışdır [10.3].

Hökumətin qərarında təsbit olunduğu kimi, hərəkət məhdudiyyətlərinin tətbiqi qaydalarının pozulması halları xüsusi karantin rejiminin pozulması kimi qiymətləndirilməklə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (İXM) və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (CM) nəzərdə tutulmuş hüquqi məsuliyyətə səbəb olacaqdır.

Ölkədə karantin rejiminin tələblərinin fiziki və hüquqi şəxslər tərəfindən yerinə yetirilməsinə müvafiq nəzarəti Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi aidiyyəti qurumlarla həyata keçirir.

Məsuliyyət tədbirlərinin gücləndirilməsi və sərtləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında" 17.03.2020-ci il tarixli Qanun, eləcə də "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 17.03.2020-ci il tarixli 27-QD nömrəli Qanun imzalanmışdır [10.1].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə edilmiş dəyişikliklə CM-ə aşağıda göstərilən məzmunda139-1-ci maddə əlavə olunmuşdur [2]:

**Maddə 139-1.** Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması

139-1.1. Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması xəstəliklərin yayılmasına səbəb olduqda və ya xəstəliklərin yayılması üçün real təhlükə yaratdıqda –

iki min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və

ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

139-1.2. Eyni əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda –

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmçinin, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilərək 211-ci maddə yeni redaksiyada verilmişdir [3]:

**Maddə 211.** Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması

Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulmasına görə –

fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər iki min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

Göründüyü kimi, ölkəmizdə koronavirusa qarşı həm qanunvericilik, həm də real həyatda praktik cəhətdən effektiv mübarizə aparılır. Karantin normalarını pozan, tibbi heyətin normal iş fəaliyyətinə mane olan hər bir şəxsə qarşı qanunvericiliyin tələblərinə uyğun şəkildə ciddi tənbeh tədbirləri həyata keçirilir.

Eyni zamanda, koronavirus pandemiyasının törədə biləcəyi mənfi nəticələrin azaldılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin “Koronavirus (COVİD-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroidtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” 19.03.2020-ci il tarixli 1950 nömrəli Sərəncamı diqqətəlayiqdir. Bu Sərəncam pandemiyadan zərər çəkməsi ehtimal olunan sahə və subyektlərə dövlət dəstəyinin göstərilməsi baxımından, olduqca əhəmiyyətlidir.

Buna görə də, "COVİD-19" pandemiyasına qarşı aparılan mübarizədə hər bir kəs təmkin nümayiş etdirməli, psixoloji xidmətdən faydalanaraq , təşfişə düşməməli, özünütəcrid formasında karantin rejiminin tələblərinə riayət etməklə özünü və ailə üzvlərini qorumalı və bu işə yaxından köməklik göstərməlidir. Həmçinin, nəzərə almaq lazımdır ki, gigiyena qaydalarına əməl etməklə koronavirusa qalib gəlmək mümkündür.

Xüsusilə, qeyd olunmalıdır ki, koronavirus infeksiyasına qarşı aparılan qətiyyətli mübarizədə həkimlərin, tibb işçilərinin, polis əməkdaşlarının və digər dövlət qulluqçularının xidmətləri Dövlət Başçısı tərəfindən yüksək qiymətləndirilir.

Koronavirusla mübarizə kontekstində I vitse-Prezident xanım Mehriban Əliyevanın həmvətənlərimizə müraciəti diqqətəlayiqdir, onun "Evdə qal"aksiyasına çağırışı cəmiyyətdə, sanki, şüara çevrilmişdir və xalq kütləsi tərəfindən yüksək səviyyədə alqışlanır.

Prezident İlham Əliyevin dəfələrlə söylədiyi kimi, hər bir insan birlik və həmrəylik nümayiş etdirməklə koronavirusla mübarizədə zəruri qaydalara əməl edərsə, o zaman aparılan mübarizənin və görülən tədbirlərin dəyəri də yüksək olacaq, koronavirus infeksiyası geniş vüsət almayacaq və ölkəmiz yaranmış bu fors-major vəziyyətindən az itkilərlə ötüşəcək. Bir sözlə, "Biz birlikdə güclüyük və

bütün sınaqlardan üzüağ çıxacağıq" tezisi hər bir vətəndaşın konstitusion vəzifəsi və öhdəliyi kimi diqqət mərkəzində olmalıdır. Dövlət öz vətəndaşının yanındadır.

Azərbaycanda "COVİD-19" pandemiyasına qarşı Dövlət Başçısının göstərdiyi səylər, atdığı düşünülmüş addımlar və əldə olunmuş nəticələr onu deməyə əsas verir ki, koronavirus infeksiyası ilə bağlı vəziyyət sabitləşməyə doğru gedir, onun tədricən tam aradan qalxma ehtimalı müşahidə olunur və postpandemiya dövrünün ilkin təzahürləri özünü büruzə verməkdədir.

### İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 416 s.
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli. Bakı: «Hüquq Yayın Evi», 2016, 392 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. II cild/Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "ÇIRAQ" nəşriyyatı, 1999, 412 s.
5. Bioetika: sənədlər...terminlər... / Layihənin elmi rəhbəri və tərtibçi: A.Mustafayeva. Bakı, "ELM" nəşriyyatı, 2009, 336 s.
6. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı, "Nurlar" nəşriyyatı, 2019, 352 s.
7. Fatimə Etibar qızı Hüseynova. Sağlamlığın qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi və milli qanunvericilik. Bakı, "Kooperasiya" nəşriyyatı, 2016, 232 s.
8. Mustafazadə A.İ., Aslanov Z.N. Tibb hüququ. Dərs vəsaiti. Bakı, "ELM" nəşriyyatı, 2017, 204 s.
9. Алиева Айнура Этибаровна. Синдром сухого глаза. Монография. Баку, изд-во "Кооперация", 2016, 154 с.
10. Elektron informasiya resursları (URL – Uniform Resourse Locator):

10.1. www.e-qanun.az;
10.2. www.azerbaijan-news.az;
10.3. www.kabmin.gov.az;
10.4.www.respublika-news.az;
10.5. www.xalqqazeti.com;
10.6. www.worldometers.info/coronavirus/;
10.7. www.covid19fund.gov.az/az/;
10.8. www.president.az .


## ПАНДЕМИЯ "COVID-19" В АЗЕРБАЙДЖАНЕ:
### медицинские и правовые аспекты


**Айнура Алиева,**
**Центральный таможенный госпиталь Государственного таможенного комитета Азербайджанской Республики, врач-офтальмолог, доктор философии по медицинских наук.**
электронная почта: draynura@hotmail.com
телефон: +99412 404 08 08

**Фатима Гусейнова,**
**Бакинский государственный университет, Юридический факультет, Кафедра международного частного права и европейского права, доцент, доктор философии по праву.**
электронная почта: lawer_afatima@rambler.ru
телефон: +99450 206 24 42

**Этибар Алиев,**
**действительный член Международной транспортной академии, доктор юридических наук, профессор кафедры «Права человека и информационное право» ЮНЕСКО Юридического факультета Бакинского государственного университета.**
электронная почта a-etibar@rambler.ru
телефон: +99450 220 24 42

В статье рассматриваются медицинские и правовые аспекты пандемии COVID-19 в Азербайджане.Отмечается, что под смысловым значением термина «пандемия» понимается распространение на большую территорию, регион, страну и т.д. инфекционной болезни – эпидемия. В стране против этого инфекционного заболевания на уровне Президента Азербайджана и Правительства Азербайджанской Республики осуществляется строгий контроль и принимаются серьезные и эффективные меры. На территории Республики обьявлен специальный карантийный режим, усилена юридическая ответственность физических и юридических лиц.

**Ключевые слова:** COVID- 19, эпидемия , коронавирусная инфекция, пандемия, медицинская безопасность, здравоохранение, правила гигиены, карантинный режим, юридическая ответственность.

## PANDEMY "COVID-19" IN AZERBAIJAN:
## medical and legal aspects

**Ainura Aliyeva,**
**Central Customs Hospital of the State Customs Committee of the Republic of Azerbaijan, ophthalmologist, doctor of philosophy in the field of medical sciences.**
e-mail: draynura@hotmail.com
phone: +99412 404 08 08

**Fatima Huseynova,**
**Baku State University, Faculty of Law Department of International Private Law and European Law, Associate Professor, doctor of philosophy in the field of law.**
e-mail: lawer_afatima@rambler.ru
phone: +99450 206 24 42

**Aliyev Etibar Ali oglu,**
**Full member of the International Transport Academy, Doctor of Law, Professor of the Department of Human Rights and Information Law of UNESCO, Law Faculty of Baku State University.**
e-mail: a-etibar@rambler.ru
phone: +99450 206 24 42

The article discusses the medical and legal aspects of the COVID-19 pandemic in Azerbaijan. It is noted thatthe meaning of the term "pandemic" is spread over a large area,

region, country, etc. infectious disease - epidemic is understood.

The President of the Republic of Azerbaijan and the Government of the Republic of Azerbaijan against this infectious disease in the country, serious and effective control measures are being implemented at the national level. A special quarantine regime has been declared on the territory of the Republic, legal liability of individuals and legal entities has been strengthened.

**Key words:** COVID-19, epidemic, coronavirus infection, pandemic, medical safety, public health, hygiene rules, quarantine regime, legal liability.

## AZERBAYCAN'DA PANDEMİ "COVID-19":
## tibbi ve hukuku yönler

**Ainura Aliyeva,**
**Azerbaycan Cumhuriyeti Devlet Gümrük Komitesi Merkez Gümrük Hastanesi, göz doktoru, tıp bilimleri alanında felsefe doktoru.**
e-posta : draynura@hotmail.com
telefon: +99412 404 08 08

**Fatima Hüseynova,**
**Bakü Devlet Üniversitesi, Hukuk Fakültesi, Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Anabilim Dalı, doçent, hukuk alanında felsefe doktoru.**
e-posta: lawer_afatima@rambler.ru
telefon: +99450206 24 42

**Aliyev Etibar Ali oğlu,**
**Uluslararası Ulaştırma Akademisi üyesi, UNESCO İnsan Hakları ve Enformasyon Hukuku Anabilim Dalı profesörü, Bakü Devlet Üniversitesi, hukuk üzre elmler doktoru.**
e-posta: a-etibar@rambler.ru
telefon: +99450220 24 42

Makale Azerbaycan'daki COVID-19 salgınının tıbbi ve hukuku yönlerini tartışıyor. "Pandemi" teriminin anlamının geniş bir alana , bölgeye , ülkeye , vb. bulaşıcı hastalık - salgın anlaşılmaktadır.Ülkedeki bu bulaşıcı hastalığa karşı Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı ve Azerbaycan Cumhuriyeti Hükümeti terefinden ulusal düzeyde ciddi ve etkili kontrol tedbirleri uygulanmaktadır. Cumhuriyet topraklarında özel bir karantina rejimi ilan edilmiş, bireylerin ve tüzel kişilerin hukuki sorumluluğu güçlendirilmiştir.

**Anahtar kelimeler:** COVID-19, salgın, koronavirüs enfeksiyonu, pandemik, tıbbi güvenlik, halk sağlığı, hijyen kuralları, karantina rejimi, yasal sorumluluk.

# BRANDING A CITY AS A SOCIO-CATIVE PRACTICECOMMUNI

**Valentin Pereheida,**
**Taras Shevchenko National University of Kyiv, Ukraine.**
e-mail:9915264@ukr.net

*The speech is about branding of Ukrainian cities as a communicative practice aimed at the development of new images, identities and associations. It is proved that in the conditions of urbanization of modern life, city branding is important and promising for the development of domestic tourism in Ukraine.*

**Key words:** branding, city identity,image of the city, domestic tourism in Ukraine.

**The relevance of research.** The vast majority of Ukrainians, namely 69% (as of 01/01/17), live in cities. Therefore, the present, and especially the future of Ukraine, is closely linked to urbanism. In this general demographic trend, domestic tourism is also developing in Ukraine - it is becoming largely urban. Kiev, Kharkov, Odessa, Kamenets-Podolskyi, Lutsk, Chernihov are just a small fraction of the large number of tourist-attractive cities that the map of Ukraine abounds in.

The development of urban tourism requires a meaningful core - it is the brand of the city. The classic definition of this intangible entity was given by the American Marketing Association: a brand is the name, term, sign, symbol, design, or combination of all, identifying the goods or services of a particular seller or group of sellers, as well as distinguishing goods or services from the goods or services of competitors (Keller, 2005).

Therefore, the brand of the city is immanently suggestive and associated with a steady set of associations that arise in the mind when it comes to the relevant territory. Most famous cities in the world have the brand that is perceived organically and self-evidently: Paris is a city of romance, Hong Kong is a city of trade. For many cities, it is impossible to formulate a one-word brand because these cities are multifaceted, and they are changing rapidly, for instance Glasgow.

Strong brands of Ukrainian cities are gradually being formed as modern social constructs. For post-Soviet cities, in particular Ukrainian cities, the problem of branding is complex and relevant, given that in the conditions of developing their own statehood, reconstruction of national memory, they not only have to produce their own unique positioning, but also to overcome the consequences of the planned economy, depreciation of the province against the background of the metropolitan union socialist realism in architecture, the destruction of cultural monuments and the and suchlike.

**The purpose of the research** is to explore the branding potential of the city as a factor of the development of tourism in Ukraine.

This purpose is achieved through the solution of the following research tasks: to study professional sources on the topic; perform empirical research; analyze the results of primary and secondary studies; to draw the conclusions regarding the branding potential of the city as a factor of tourism development in Ukraine.

**The object of the research** is branding of Ukrainian cities.

**The subject of the research** is the methodological bases of branding of Ukrainian cities, communication tools of the brand in domestic tourism in Ukraine.

**Research methods.** The researchwork was conducted during 2012–2018. The literary method was used for study printed and electronic sources, which presented the views of researchers on the problem. Thus, the works of K. Keller, A. Bezlyubchenko, A. Zavalny, V. Kryvosheyin, N.Stepanyuk, etc. were analyzed. During 2012–2018 we conducted primary empirical studies: 435 individual interviews with Ukrainian domestic tourists and a Google poll (more than 900 respondents), a discourse analysis of over 800 reviews and posts of tourists in the UAnet segment was performed.

**The level of study of the problem.**

The issues of urban development and urban branding are actively discussed in various fields of knowledge.

The authors of the textbook «Urbanistics» (2015), specialists in urban planning, in the typical plan of the city development mark the following positions:

– demographic prediction;
– decision of the city-forming complex of the city;
– planning of the sectoral structure of the economy, determining the goals and prospects of economic and industrial development of the city;
– prospects of socio-cultural development;
– the program of ecological development of the city (Bezlyubchenko,2015).

In our opinion, this list lacks socio-communication programs, in particular the branding of the city.

As you know, «brand» is derived from the English «brand», which means «brand». Economist N. Stepanyukrecalls, that long time ago the right to «brand» was deserved only by high-quality goods, then they stood out among themselves like them. The brand of the city is a complete set of features, original characteristics of the city, imaginative representations, interpretations that make it possible to identify this city among others in the eyes of the target groups.

The brand should perform the following functions:

1) identify the city among others;
2) create a sense of attachment to the target audiences, identity with the city,
3) be the warrantor of the quality of the city.

To obtain the desired result, it is necessary that the brand performs all functions in a comprehensive manner (Stepanyuk, 2014).

Sociologist V. Kryvosheyin, identifies image and brand in many respects: «... Image as purposefully structured image acquires evaluative and motivational content, thanks to which it influences the behavior of people, the bearers of this image, on their attitude to real events. With regard to the city, it is expedient to consider the image as an intangible

asset of the respective territory, contributing together with other resources to the sustainable development of the self-governing territory» (Kryvosheyin, 2014).

Western researchers are developing techniques of measuring the potential of urban brands. S. Anholt proposed a set of six basic criteria, namely:

1) international importance (contribution of the city to world progress);
2) location (picturesque and climate of the area);
3) potential (economic and educational opportunities of the city that can be offered to its guests, expatriates and business representatives);
4) rhythm of life (number of attractive activities and entertainments that can be found in this city);
5) conditions (availability of necessary living conditions and degree of infrastructure development for living in the city);
6) people (general security and friendly attitude of city residents to guests and emigrants) (Basyuk, 2010).

Modern works on branding and urbanism are interesting and useful, but now they have little regard for the problem of branding for the development of domestic tourism in Ukraine.

**Branding the cities of the world: hands-on experience.** Wehave followed the experience of branding of several cities in the world, trying to identify theessence of brands, patterns of their success or failure.

New York is an eclectic human mass and the place where everyone, regardless of gender, age and religion, is able fulfill their dream. NYC first stands for «opportunities» that are evident in everything from skyscrapers to ubiquitous customer service. This combination is so exciting that it is flawlessly branded on any object, from a baseball cap to a coffee cup. The roots of the «I love New York» can be traced back to the 1970s, when the city went through a phase of self-awareness and made messages about why it should come. New York has spent several decades running a series of PR campaigns to build reputation.

Sydney made the most of the 2000 Olympics by coordinating business, tourism and profile development for the entire city. The result is a logo and a brand that informs about a successful metropolis by the ocean, with a friendly, leisurely atmosphere and a good climate.

The history of formation of London brandwasmore complex and less successful. The values of the London brand are focused. The city has systemic problems in transport management, law enforcement, environmental protection. For comparison, the New York brand reflects progress; the London brand speaks of uncertainty. An obvious example is the expressionless and non-expressive logo of the 2012 Olympics.

Toronto's identity is not particularly strong either. Launched in 2005, the Toronto Unlimited brand has not brought together the various faces of the city, including tourism and business, and has not created a message about Toronto being a 24-hour city by nature.

Today experts said that Jerusalem also needs rebranding. The ancient «golden Jerusalem» is the capital of the world's largest religions, to which everyone has immanent claims. But the brand must have

one purpose, so today we are talking about the need to find a modern unique discourse of the city. Short remarks on branding of well-known cities testify: in the conditions of urbanization, branding of cities remains an actual and complex problem, a factor of competition and communications.

**The problem of branding of Ukrainian cities.**

Discussion of this issue, as well as attempts to solve it, at one time intensified in the context of the organization of the European Football Championship EURO-2012. Then the official logos of Ukrainian cities were developed, which, however, caused an ambiguous evaluation of experts. For example, the world-famous cities that can be found only in one picture: the Eiffel Tower - Paris, the Colosseum - Rome, the Statue of Liberty - New York, Big Ben - London.

It was also about the fact that the brand of the city is shaped by people, not created by designers from scratch. That is why the project «Brand of the City is a matter for the citizens» was launched, which was positioned as a non-profit, non-political, built on a bottom-up principle.

Also, then official brands were created for the host cities. For example, Donetsk presented itself as a city of «strength and beauty». The combination of these opposites in the concept was graphically depicted in the symbols of coal and rose, which identified Donetsk as an industrial center, and at the same time as the greenest of the industrial cities of Europe. But EURO-2012 is over, and with it the activity.

**Bilimsel ve pratik önemi.** Devlete karşı ihanete yönelik cezai sorumluluğun belirlenmesinde yabancı ülkelerin deneyimlerinin incelenmesi, Azerbaycan Cumhuriyeti ceza mevzuatının iyileştirilmesi ile ilgili bir takım sorunları çözecektir.

**Anahtar Kelimeler:** İhanet, ceza hukuku, devlet güvenliği, egemenlik, toprak bütünlüğü, suç, devlet sırrı, casusluk.

# AZƏRBAYCANIN MİLLİ HÜQUQ SİSTEMİNDƏ GÖMRÜK HÜQUQUNUN STATUSU

**Qulu Novruzov,**
**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, hüquq üzrə fəlsəfə doktoru,dosent.**
e-mail:www.acca.gov.az

**Fatimə Hüseynova,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi Beynəlxalq Xüsusi Hüquq və Avropa hüququ kafedrası,hüquq üzrə fəlsəfə doktoru, dosent.**
e-mail:lawer_ afatima@rambler.ru

*Məqalədə Azərbaycanın milli hüquq sistemində gömrük hüququnun tutduğu yer və onun sisteminə dair məsələ nəzərdən kezirilir. Qeyd olunur ki, gömrük hüququ milli publik hüquq sisteminin iqtisadi hüquq sahəsinə daxildir.*

*Gömrük hüququnun sisteminə doktrinal anlayış formulə edilir: gömrük hüququnun sistemi dedikdə gömrük işi üzrə fəaliyyət sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının öz aralarında qarşılıqlı əlaqə nəzərə alınmaqla, onların predmet meyarı əsasında institut və subinstitutlar üzrə elmi zəmində qruplaşdırılması başa düşülür.*

**Əsas süzlər:** milli hüquq sistemi, gömrük hüququ, gömrük işi, gömrük hüququnun sistemi, gömrük tənzimlənməsi, gömrük-hüquq normaları, gömrük-hüquq münasibətləri.

Gömrük hüququnun sisteminə dair doktrinal anlayış formulə edilir: gömrük hüququnun sistemi dedikdə gömrük işi üzrə fəaliyyət sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının üz aralarında qarşılıqlı əlaqə nəzərə alınmaqla, onlarln predmet meyarı əsasında institut və subinstitutlar üzrə elmi zəmində qruplaşdırılması başa düşülür.

Hər şeydən əvvəl qeyd etməliyik ki, gömrük hüququ milli iqtisadi hüquq sisteminin formalaşmaqda olan tərkib hissəsidir. Təbii ki, burada belə bir sual meydana çıxır: gömrük hüququ tərkib hissə kimi milli hüquq sistemində hansı statusa malikdir?

Məlum olduğu kimi, hər bir dövlət öz milli hüquq sisteminə malikdir. Azərbaycan Respublikası da öz tarixi müstəqilliyini bərpa etdikdən sonra milli hüquq sistemini formalaşdırmışdır. Milli hüquq sistemi iki hissədən ibarətdir: publik hüquq, xüsusi hüquq [2,s.142-143].

Publik hüquq dövlət hakimiyyəti ilə bağlı olan münasibətləri nizama salan hüquq normalarının məcmusundan ibarətdir. Publik hüquqa daxildir: konstitusiya (dövlət) hüququ, inzibati hüquq, cinayət hüququ, ekologiya hüququ, iqtisadi hüquq və b.

Xüsusi hüquq isə, əsasən, hakimiyyət səlahiyyətlərinə malik olmayan, azad və bərabərhüquqlu mülkiyyətçi kimi çıxış edən şəxslərin – fiziki və hüquqi şəxslərin mənafeyinə xidmət edərək, onların tələbatını ödəyir və təmin edir; məsələn, mülki hüquq xüsusi hüquqa aiddir.

Beləliklə, qeyd edə bilərik ki, dövlət idarəetmə sistemində yaranan ictimai münasibətlərin əsas qrupunu tənzimləyən və başlıca məqsədi ölkədə iqtisadi suverenliyi və iqti-

sadi təhlükəsizliyi, azad rəqabət və bazar iqtisadiyyatını qorumaqdan ibarət olan iqtisadi hüquq Azərbaycan Respublikasının milli hüquq sistemində "publik hüquq hissəsinə aiddir.

Azərbaycan Respublikasında gömrük xidmətinin təyinatı ölkənin iqtisadi suverenliyi və iqtisadi təhlükəsizliyi, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini hüquqazidd əməllərdən qorumaqdan ibarətdir. Belə ki, gömrük fəaliyyətinin həyata keçirilməsi prosesində müəyyən qrup ictimai münasibətlər əmələ gəlir; spesifik xarakterə malik olan bu münasibətləri tənzimləmək formalaşmaqda olan gömrük hüququnun başlıca funksiyası sayılır. Gömrük hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər isə iqtisadi münasibətlərin bir hissəsini təşkil edir. Bu spesifik normaların həmçinin genişlənməsi öz növbəsində iqtisadi hüquq çərçivəsində gömrük hüququnun formalaşmasına gətirib çıxarır. Buna görə gömrük hüququ özünə milli hüquq sisteminin digər sahələrində deyil, məhz iqtisadi hüquq sahəsində yer tutmuşdur; həm də ona görə ki, dövlətdaxili hüququn digər sahələri gömrük fəaliyyəti ilə bağlı ictimai münasibətləri tənzimləməyə qadir deyildir. Bu münasibətləri yalnız milli hüquq sisteminin müstəqil sahəsi sayılan iqtisadi hüquq, daha dəqiq desək, onun tərkibində formalaşmaqda olan gömrük hüququ nizamlamaq iqtidarındadır. Buna görə də, hesab edirik ki, gömrük hüququ milli publik hüquq sisteminin [3,s.65] iqtisadi hüquq sahəsinə daxildir.

Lakin qeyd etməliyik ki, hüquq sistemində gömrük hüququnun tutduğu yer hüquq doktrinasında (elmində) diskussiya doğuran ən mübahisəli məsələlərdən biridir. Hüquqşünas alimlər bu məsələ barədə yekdil fikir söyləmirlər. Belə ki, bəzi müəlliflərə görə, gömrük hüququ ya inzibati hüququn yarımsahəsi, ya da inzibati hüququn institutu sayılır [6,s.13].

Digər müəlliflər isə gömrük hüququna qanunvericilik sahəsi kimi baxırlar. Hüquqşünas alimlərdən A.N.Kozırin məsələyə bu cür yanaşaraq göstərir ki, gömrük hüququ qanunvericilik sahəsidir. Qanunvericilik sahəsi kimi gömrük hüququ gömrük münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusudur [8,s.6-10].

Müəlliflər arasında eləsinə rast gəlinir ki, həmin müəllif gömrük hüququna kompleks hüquq sahəsi kimi baxır; bu hüquq sahəsi gömrük orqanları və şəxslər arasında yaranan münasibətləri tənzimləyir ki, bu münasibətlər şəxslərin gömrük sərhədindən mal və nəqliyyat vasitələri keçirmələri barəsində əmələ gəlir [7,s.12].

Bəzi alimlər gömrük hüququna formalaşmaqda olan yeni hüquq sahəsi kimi baxırlar. Onların fikrincə, gömrük sferasında yaranan müvafiq ictimai münasibətlərin mövcud olması gömrük hüququnun müstəqil hüquq sahəsi kimi fərqləndirilməsinin şərtləridir [10,s.10].

Fikrimizcə, gömrük hüququnu iqtisadi hüququn yarımsahəsi hesab etmək, belə hüquqi modelin yaradılması məsələyə ən düzgün və ağlabatan yanaşmadır. Belə ki, iqtisadi hüququn nizamasalma predmetinə daxil olan iqtisadi münasibətlər həm də gömrüklə bağlı yaranır. Unutmaq olmaz ki, gömrük fəaliyyəti iqtisadi münasibətlərin yarandığı sahələrdən biridir.Hüquq ədəbiyyatı səhifələrində qeyd olunduğu kimi , gömrük işi iqtisadiyyatın baza institutlarından biri sayılır [9,s.152]. Heç də sirr deyildir ki, mallar və nəqliyyat vasitələri gömrük sərhədindən keçirilərkən gömrük ödənişlərinin alınması zamanı iqtisadi münasibətlər yaranır. Digər tərəfdən, gömrük istənilən ölkənin iqtisadi sərhədlərinin qorunmasında böyük

rol oynayır. Yaddan çıxarmamalıyıq ki, gömrük ölkənin iqtisadi sərhədlərini mühafizəetmə sistemidir. Azərbaycanın gömrük xidməti bazar iqtisadiyyatı şəraitində ölkədə həyata keçirilən iqtisadi islahatlar, xarici iqtisadi əlaqələrin liberallaşdırılması, sosial-iqtisadi inkişafın sürətlənməsində mühüm rol oynayır [4,s.108-180].

Gömrük fəaliyyəti bilavasitə təsərrüfat subyektlərinin maraqlarına toxunur. Onlar xarici iqtisadi fəaliyyət iştirakçıları olub ixrac və idxal əməliyyatları aparırlar, yəni xaricə mal ixrac və xaricdən mal idxal edirlər. Xarici iqtisadi fəaliyyət iştirakçılarının (subyektlərinin) apardıqları idxal-ixrac əməliyyatları isə, təbii ki, iqtisadi hüquqla tənzimlənməlidir. Bundan ötrü müstəqil hüquq sahəsi olan iqtisadi hüququn tərkibində gömrük hüququ kimi yarımsahə ayrılır. Hüquq sistemində gömrük hüququnun tutduğu yer məhz bu cür müəyyən olunmalıdır. Bu səbəbdən, zənnimizcə, gömrük hüququnu müstəqil və ya kompleks hüquq sahəsi kimi tanımaq iqtisadi münasibətlərin müasir inkişaf dövrü kontekstində reallığı əks etdirmir və tutarlı elmi-məntiqi zəminə söykənmir.

**Gömrük hüququnun sistemi.** Qeyd etmək lazımdır ki, gömrük işi sahəsində fəaliyyətin təmin olunması sistem şəklində, sistemli metod əsasında həyata keçirilir (“sistem ifadəsi yunanca “sistema – tam, hissələrdən ibarət olan deməkdir).

Bildiyimiz kimi, sistemli yanaşma və yaxud sistemli metod ümumi anlayış və kateqoriya təsnifatına aiddir. Sistemli tədqiqatın ümumi mahiyyəti ondan ibarətdir ki, o, mürəkkəb hadisələrin – tərkib hissələri orqanik vəhdətdə və qarşılıqlı fəaliyyətdə olan sistemlərin hərtərəfli təhlilinə əsaslanır. Deyilənləri eyni zamanda gömrük fəaliyyətinin həyata keçirilməsi prosesində əmələ gələn ictimai münasibətlərin hüquqi tənzimlənməsi probleminə də şamil etmək mümkündür. Fəlsəfi nöqteyi-nəzərdən yanaşdıqda, sistem – bir-biri ilə münasibətdə və əlaqədə olan, bütövlük (vahidlik, tamlıq) təşkil edən elementlərin məcmusudur [11,s.435].

Hüququn sistemi (ingiliscə – “system of law) dedikdə onun daxili strukturu, quruluşu və təşkili başa düşülür [2,s.139; 13,s.790-791].

Hüquq nəzəriyyəsində düzgün olaraq qeyd edilir ki, hüquq sahəsinin sisteminin tədqiqinə, hər şeydən əvvəl, nəzərdən keçirilən sistemin struktur elementləri və meyarları haqqında məsələnin həllindən başlamaq lazımdır [5].

Sistemin strukturu dedikdə sistemin tərkib elementlərinin vahidliyi (bütövlüyü) və qarşılıqlı fəaliyyəti başa düşülür. Struktur isə sistemin məqsədyönlü fəaliyyət göstərməsini və dayanıqlığını təmin edən elementlərin həmin sistemdə əlaqə üsulu deməkdir. Element dedikdə müəyyən funksiyaların yerinə yetirilməsi məqsədilə təşkil olunmuş sistemin tərkib hissəsi başa düşülür. Belə nəzəri sistemin normal işləməsinin mühüm prinsipial şərti həmin sistemin tərkib hissələrinin əsas parametrlər, zaman, məkan və təsir üsulları üzrə qarşılıqlı, uzlaşdırılmış fəaliyyət göstərməsidir. Tərkib hissələrin bütün parametrlər üzrə qarşılıqlı əlaqələndirilməsi sistemin yüksək dərəcədə işlək olmasını təmin edir.

Belə məntiqi yanaşmanı, təbii ki, gömrük hüquq yarımsahəsi sisteminin tədqiqinə də aid etmək olar. Lakin nəzərə almaq lazımdır ki, hüquq yarımsahəsi konkret hüquq sahəsindən törəmə olsa da, müəyyən özünəməxsus xüsusiyyətlərə malikdir.

Gömrük hüququnun sistemi milli hüquq doktrinasında az tədqiq olunan məsələlərdən biridir. Görünür, bu, gömrük hüququnun

hələ ki, təşəkkültapma mərhələsində olması və nisbətən "cavan hüquqi qurum hesab edilməsi ilə bağlıdır [12,s.82].

Qeyd etmək lazımdır ki, gömrük hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər yalnız gömrük-hüquq normaları ilə tənzimlənir; bu normalar xaotik və qarışıq şəkildə deyil, onlar arasında daxili qarşılıqlı dialektik əlaqə nəzərə alınmaqla ayrı-ayrı hüquq institutları və hüquqi qurumlar üzrə düzlənirlər ki, bunun da nəticəsində gömrük hüququnun tamlığı və bütövlüyü təmin olunur. Gömrük-hüquq normalarının belə düzümünə, başqa sözlə, onların hüquq institutları və digər hüquqi qurumlar (subinstitut, bölmə və s.) üzrə qruplaşdırılmasına gömrük hüququnun sistemi deyilir. Gömrük hüququnun sistemi onu ifadə edir ki, müvafiq ictimai münasibətləri tənzimləyən gömrük-hüquq normaları bir-birinin ardınca müəyyən quruluş üzrə, sistemli şəkildə düzlənir.

Gömrük hüququnun sistemini təhlil edərkən onun struktur elementlərini üç səviyyədə fərqləndirmək lazımdır:

– gömrük hüququ bütövlükdə iqtisadi hüququn yarımsahəsi olmaqla eyni zamanda müstəqil yarımsistemlərə və ya hissələrə (bloklara) bölünür ;

– hər bir blok (hissə), öz növbəsində, müvafiq struktur elementlərə – hüquq institutlarına ayrılır;

– ayrı-ayrı hüquq institutlarında konkret hüquqi göstərişlər (hüquq normaları) cəmləşir.

Struktur elementlər gömrük hüququnun sisteminin quruluşuna, onun ümumi görünüşünə və panoramasına bilavasitə təsir göstərir.

Gömrük hüququnun sistemi yuxarıda göstərdiyimiz qrup (bloklar və hüquq institutları) üzrə bölünmüş gömrük-hüquq normalarının elmi təşkil olunmuş məcmusundan ibarətdir. Gömrük-hüquq normalarının öyrənilməsi, elmi əsaslarla işlənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edən nəzəri və praktiki məsələdir. Gömrük hüququnun sistemi müasir dövrdə problem məsələ kimi, həmçinin gömrük haqqında qanunvericiliyin kodifikasiyası ilə sıx surətdə bağlıdır; belə kodifikasiya normativ materialın düzgün sistemləşdirilməsi əsasında həyata keçirilməlidir. Belə ki, ümumi hüquq nəzəriyyəsinə görə, nəzəri, pedaqoji və praktiki səbəblər qüvvədə olan hüququn müəyyən hissələrə bölünməsi zərurətinə gətirib çıxarır.

Gömrük-hüquq normalarının müvafiq hüquq institutları və daha sonra vahid normativ baza üzrə diferensiasiyası və düzlənməsi müxtəlif təsnifat meyarları əsasında mümkün ola bilər. Belə meyarlar qismində predmet meyarı, prosessual meyar və digər meyarları göstərmək olar.

Gömrük hüququnun sisteminin müəyyənləşdirilməsində predmet meyarı əsas götürülə bilər. Belə ki, əgər hüquq sahəsinin (və yaxud hüquq yarımsahəsinin) predmeti, məlum olduğu kimi, onun funksiyalarını müəyyənləşdirərsə, onda predmet meyarı gömrük hüququnun sisteminin funksional quruluşunu şərtləndirir və gömrük-hüquq normalarını üç əsas hissə (qrup) üzrə təsnif edir:

– gömrük mühafizə obyektlərini müəyyənləşdirən gömrük-hüquq normaları qrupu (hüquq institutları);

– gömrük fəaliyyəti subyektlərini müəyyənləşdirən hüquq institutları üzrə gömrük-hüquq normaları;

– gömrük fəaliyyətinin həyata keçirilməsi metodlarını təyin edən gömrük-hüquq normaları (hüquq institutları).

Sözügedən hüquq institutlarını təşkil edən gömrük-hüquq normalarını konkret hüquq institutunun tərkibində subinstitut və ya yarıminstitutlar üzrə də qruplaşdırmaq olar.

Göstərilən bölgü mütləq deyil, şərti xarakter daşısa da, gömrük hüququnun sisteminin müəyyən olunmasında institusional element kimi əsas götürülə bilər və onu gömrük fəaliyyətinə nəzarət sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normaları bloku (institutu) tamamlaya bilər; buraya gömrük hüquq doqmasından müvafiq qaydaların (gömrük hüququnun əsas anlayışlarını və kateqoriyalarını, hüquqi standartları, məhfum aparatını və s. müəyyənləşdirən hüquq normalarının) daxil edilməsi mümkündür.

Prosessual meyar üzrə gömrük hüququnun prosessual sistemini formalaşdırmaq mümkündür. Bu meyar əsasında gömrük fəaliyyəti sahəsində konkret fərdi işlərin həll olunması xarakteri üzrə hüquqi normalar ayrıla, maddi gömrük-hüquq normaları fərqləndirilə bilər; bu məsələ də prosessual gömrük hüququ üçün, xüsusilə, əhəmiyyətlidir. Prosessual gömrük-hüquq normaları gömrük hüququnun ayrıca bir blokunda cəmləşir; belə gömrük hüquq institutlarına aşağıdakıları aid etmək olar: gömrük qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə icraat, inzibati şikayət və iddia, gömrük aktlarının (gömrük nəzarətindən keçməli olan malların yoxlanılması, nəqliyyat vasitələrinə daxilolma və s.) həyata keçirilməsi, digər icraat və prosedur hərəkətlər [14]. Bu institutlar öz növbəsində daha xırda hüquqi qurumlara – subinstitutlara (yarıminstitutlara) bölünür.

Gömrük hüququnun prosessual sistemi gömrük fəaliyyəti sahəsində qanunçuluğun möhkəmləndirilməsinə “xidmət edən gömrük-hüquq normalarını geniş prosessual normalar qrupundan ayıraraq sistem şəklinə salır; belə sistem gömrük-hüquq normalarının düzgün və effektli tətbiq olunmasına, realizə edilməsinə əlverişli imkan yaradır. Lakin gömrük hüququnun əsas sistemi kimi “funksional sistem daha vacib və əhəmiyyətli rol oynayır; çünki o, iqtisadi hüququn sözügedən gömrük hüququ yarımsahəsində “gömrük aləminin coğrafi reallıqlarını və gömrük-hüquq normalarının diferensiasiyasını daha aydın formada təqdim edir.

Beləliklə, şərh olunanları nəzərə alaraq, gömrük hüququnun sisteminə aşağıdakı kimi doktrinal anlayış formulə edə bilərik:

– gömrük hüququnun sistemi dedikdə gömrük işi üzrə fəaliyyət sahəsində ictimai münasibətləri tənzimləyən hüquq normalarının öz aralarında qarşılıqlı əlaqə nəzərə alınmaqla, onların predmet meyarı (əlaməti) əsasında institut və subinstitutlar üzrə elmi zəmində qruplaşdırılması başa düşülür.

Gömrük hüququnun sistemini eyni zamanda onu təşkil edən ümumi gömrük-hüquq normalarının gömrük fəaliyyəti sferasında konkret “tətbiqolunma meyarına görə fərqləndirmək olar. Bu baxımdan, gömrük hüququnun sistemi iki hissəyə ayrılır: ümumi hissə, xüsusi hissə.

Əslində, gömrük hüququnun sisteminin ümumi və xüsusi hissələrə bölünməsi digər şərt və meyarlarla (nizamasalma predmeti, hüquqi tənzimetmə metodu, kifayət dərəcədə gömrük-hüquq normalarının mövcudluğu və s.) yanaşı, onun ayrıca yarımsahə kimi iqtisadi hüququn tərkibində formalaşmasını şərtləndirir.

Gömrük hüququnun [ingiliscə-customs law-13,s.847] ümumi hissəsi özündə elə hüquq normalarını birləşdirir ki, həmin normalar ümumi xarakterli qaydalar müəyyənləşdirir. Odur ki, ümumi hissənin normalarını gömrük hüququ ilə tənzimlənən bütün münasibətlərə tətbiq etmək mümkündür.

Ümumi hissə ayrı-ayrı gömrük-hüquq institutlarından ibarətdir. Belə institutlara aiddir: gömrük hüququnun prinsipləri institutu, gömrük hüququnun subyektləri institutu,gömrük xidməti institutu,gömrük hüqu-

qunun mənbələri institutu,gömrük işi sahəsində məsuliyyət institutu və s.

Gömrük hüququnun xüsusi hissəsi isə ayrı-ayrı konkret məsələləri tənzimləyən hüquq normalarından ibarətdir ki, bu normalar müxtəlif gömrük-hüquq institutları üzrə qruplaşdırılır [14].Söhbət aşağıdakı gömrük-hüquq institutlarından gedir: gömrük ödənişləri institutu, gömrük rəsmiləşdirilməsi institutu, gömrük ekspertizası institutu, xüsusi gömrük prosedurları institutu, gömrük auditi institutu və s. Bu kimi gömrük-hüquq institutlarının məcmu halında birləşməsi gömrük hüququnun xüsusi hissəsi adlanır.

### İstifadə edilmiş sənədlər


1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi / Buraxılışa məsul: Bəhruz Cəbrayıl oğlu Kərimov, hüquq üzrə fəlsəfə doktoru. Bakı: "Hüquq Yayın Evi nəşriyyatı, 2018, 232 s.
2. Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları.Dərslik.Bakı, 2018, s.139,142-143.
3. Ədəbiyyat səhifələrində də qeyd edilir ki, gömrük hüququ publik-hüquqi xarakterli hüquq normalarının məcmusundan ibarətdir: məsələn, Халипов С.В. Таможенное право. Учебник. М., 2006, с. 65.
4. Əliyev A.Ə. Azərbaycanın xarici ticarət-iqtisadi əlaqələri. Bakı, 2001, s.108-180.
5. Алексеев С.С. Общая теория права. Том 2. М., 1982.
6. Бахрах Д.И. Таможенное право как институт административного права // Государство и право. 1995, № 3, с. 13.
7. Воробьев Ю.А.Основы таможенного дела.М.,1995,с.12.
8. Козырин А.Н. Таможенное право России. Общая часть. М., 1995, с.6-10.
9. Салминен Э.О., Борозна А.А., Икаев Ю.К., Икаева Т.П. Международное и таможенное право России.Учебное пособие. СПб.,ПРОФИКС,2007,с.152.
10. Таможенное право. Учебное пособие / Под ред. В.Г. Драганова, М.М. Рассолова. М., 2001, с.10.
11. Философский энциклопедический словарь. М., 1980, с.435.
12. Чернявский А.Г. Таможенное право. Учебник / А.Г.Чернявский – М.: Издательство «ЮСТИЦИЯ», 2016, 556 с.
13. Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.790-791,847.
14. URL:www.customs.gov.az ; www.dgk.gov.az


## ЮРИДИЧЕСКИЙ СТАТУС ТАМОЖЕННОГО ПРАВА В НАЦИОНАЛЬНО-ПРАВОВОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНА


**Кулу Новрузов,**
**начальник Академии Государственного таможенного комитета Азербайджанской Республики, доктор философии по праву, доцент.**
электронная почта: www.acca.gov.az

**Фатима Гусейнова,**
**Бакинский Государственный Университет, Юридический факультет, кафедра Международного частного права и Европейского права, доктор философии по праву, доцент.**
электронная почта: lawer_ afatima@rambler.ru



В статье рассматривается вопрос о юридическом статусе таможенного права в национально-правовой системе Азербайджана.Отмечается, что таможенное право является подотраслью экономического права национальной публичной правовой системы.

Сформулирована доктринальная концепция о системе таможенного права: под системой таможенного права понимается группировка правовых норм, регулирующих общественные

отношения в сфере таможенного дела,которые упорядечены на научной основе по правовым институтам и субинститутам по предметным критериям, с учетом их взаимосвязей.

**Ключевые слова:** национальная правовая система, таможенное право, таможное дело, система таможенного права, таможенное регулирование, таможенно- правовые нормы, таможенно-правовые отношения.

## AZERBAYCAN ULUSAL HUKUK SİSTEMİNDE GÖMRÜK HUKUKUNUN STATUSU

**Kulu Novruzov,**
**Azerbaycan Cumhuriyeti Devlet Gömrük Komitesi Akademisi başkanı, hukuk üzre felsefe doktoru , doçent.**
e-posta: www.acca.gov.az

**Fatima Hųseynova,**
**Bakı Devlet Universitesi, Hukuk Fakültesi, Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Bölümü, hukuk üzre felsefe doktoru, doçent.**
e-posta: lawer_ afatima@rambler.ru

Makale, gömrük hukukunun Azerbaycan'ın ulusal hukuk sistemindeki yerini ve sistemi sorununu ele alır ve gömrük hukukunun ulusal kamu hukuk sisteminin ekonomi hukuk alanınıın bir parçası-alt bölümü olduğunu kaydeder.

Gömrük hukuku sisteminin doktrin kavramı formule edilmiştir: gömrük hukuku sistemi altında, konunun bilimsel temeli dayanarak, gömrük alanında halkla ilişkileri enstitü-subenstitü üzre düzenleyen hukuk normların gruplandırılması anlaşılmaktadır.

**Anahtar Kelimeler:** Ulusal hukuk sistemi, gömrük hukuku, gömrük işi, gömrük hukukunun sistemi, gömrük düzenlemesi, gömrük-hukuk normları, gömrųk-hukuk ilişkileri.

## STATUS OF CUSTOMS LAW IN THE NATIONAL LEGAL SYSTEM OF AZERBAIJAN

**Kulu Novruzov,**
**Chairman of the Academy of the State Customs Committee of the Republic of Azerbaijan, Doctor of Philosophy in law, Associate Professor.**
e-mail: www.acca.gov.az

**Fatima Huseynova,**
**Baku State University, Faculty of Law, Department of International Private Law and European Law, Doctor of Philosophy in Law, Associate Professor.**
e-mail: lawer_ afatima@rambler.ru

The article addresses the place of customs law in the national legal system of Azerbaijan and the issue of the system, and notes that customs law is part of the economic law of the national public law system.

The doctrinal concept of the customs law system is formulated: the customs law system refers to a grouping of legal norms regulating social relations in the field of customs, which are scientifically ordered by legal institutes and sub-institutes according to subject criteria, taking into account their interconnections.

**Key words:** national legal system, customs law, customs business, customs law system, customs regulation, norms of customs law, customs legal relations.

UOT 343.1

# MƏHKƏMƏ HÖKMLƏRİNİN (DİGƏR YEKUN QƏRARLARININ) MÜBAHİSƏLƏNDİRİLMƏSİ DİSPOZİTİV HÜQUQ KİMİ

**Cəfərov Qəhrəman Vaqif oğlu,**
**Bakı Dövlət Universitetinin "Cinayət prosesi" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: elizade.memmedov@mail.ru

*Cinayət prosesinin dövlət orqanı (vəzifəli şəxs) olmayan subyektlərinin isə öz prosessual hüquqlarından istifadə imkanları, bir qayda olaraq, onların iradə muxtariyyəti ilə bağlıdır. Proses iştirakçısının ona qanunla verilmiş prosessual hüquqdan öz arzusu və öz iradəsi ilə istifadə edə bilmə imkanı cinayət-prosessual hüquqda dispozitivlik prinsipinin təzahürü kimi çıxış edir. Məhkəmə hökmlərinin (digər yekun qərarlarının) mübahisələndirilməsi hüququ da məhz yuxarıda qeyd edilən meyara görə, dispozitiv xarakterli hüquqlardandır.*

**Açar sözlər:** cinayət mühakimə icraatı, prinsip, hüquq, dispozitivlik, iradə azadlığı, subyekt, məhkəmə qərarı, mübahisələndirmə.

Cinayət mühakimə icraatının iştirakçılarının öz funksiyalarını realizə edə bilmələri üçün qanunvericiliklə onlara bir sıra prosessual hüquqlar verilir. Dövlət orqanlarının vəzifəli şəxsləri olan proses iştirakçıları (təhqiqatçı, müstəntiq, prokuror) və hakimlər onlara qanunla verilmiş bəzi hüquqlardan öz mülahizələrinə görə, bəzi hüquqlardan isə öz vəzifə səlahiyyətlərindən irəli gələn öhdəliklərin yerinə yetirilə bilməsi üçün istifadə edirlər. Cinayət prosesinin dövlət orqanı (vəzifəli şəxs) olmayan subyektlərinin isə öz prosessual hüquqlarından istifadə imkanları, bir qayda olaraq, onların iradə muxtariyyəti ilə bağlıdır. Proses iştirakçısının ona qanunla verilmiş prosessual hüquqdan öz arzusu və öz iradəsi ilə istifadə edə bilmə imkanı cinayət-prosessual hüquqda dispozitivlik prinsipinin təzahürü kimi çıxış edir. Məhkəmə hökmlərinin (digər yekun qərarlarının) mübahisələndirilməsi hüququ da məhz yuxarıda qeyd edilən meyara görə, dispozitiv xarakterli hüquqlardandır.

Azərbaycan Respublikasında cinayət işini və ya cinayət təqibi ilə bağlı digər bir materialı mahiyyəti üzrə həll etmiş birinci instansiya məhkəmələrinin hökmləri (digər yekun qərarları) apellyasiya, kassasiya və əlavə kassasiya qaydasında mübahisələndirilə bilər.

Milli hüquq ədəbiyyatında, haqlı olaraq qeyd edilir ki, şikayət etmə azadlığı apellyasiya icraatının əsas xüsusiyyətlərindən biridir. Məsələn, F.Abbasova göstərir ki, apellyasiya icraatı qaydasında məhkəmə qərarlarına yenidən baxılması apellyasiya şikayətinin və ya protestinin mövcudluğunda mümkündür. Müvafiq apellyasiya məhkəməsinə müraciət etmək hüququnun

subyektləri və onların bu hüququnun həcmi CPM-in 383.1-ci və 383.2-ci maddələri ilə tənzimlənir. Hər bir subyekt öz hüquqları barəsində müstəqil sərəncam vermək hüququna malikdir. Belə ki, hökmdən hansı qaydada şikayətin verilməsi (qismən, tam, cinayət prosesinin digər iştirakçıları ilə birlikdə və ya müstəqil olaraq) və bunun üçün hansı əsasların (dəlillərin) göstərilməsi yalnız bu subyektin özündən asılıdır [1;2].

Bu fikirlə razılaşsaq da, müəyyən qədər dəqiqləşmənin edilməsini məqsədəuyğun hesab edirik. Belə ki, fikrimizcə, söhbətin məhkəmə qərarlarının mübahisələndirilməsindən getdiyi halda "şikayət azadlığından" təkcə apellyasiya instansiyası məhkəməsinin xüsusiyyəti kimi yox, kassasiya və əlavə kassasiya qaydasında icraata xas olan bir element kimi də nəzərdən keçirmək lazımdır.

Qüvvəyə minməmiş məhkəmə hökmünün (digər yekun qərarın) apellyasiya qaydasında mübahisələndirilməsinə dair dispozitiv hüquqdan aşağıdakı şəxslər istifadə edə bilərlər:

1) məhkum edilmiş şəxsin mənafeyinə aid hissədə – məhkum edilmiş şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

2) bəraətin dəlil və əsaslarına aid hissədə – bəraət almış şəxs, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

3) tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilməsinə dair – yetkinlik yaşına çatmamış şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

4) tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair – barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilmiş şəxsin qanuni nümayəndəsi və müdafiəçisi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü;

5) zərər çəkmiş şəxsin mənafelərinə aid hissədə – zərər çəkmiş şəxs (xüsusi ittihamçı) və onun nümayəndəsi;

6) mülki iddiaya dair hissədə – mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri;

7) hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair hissədə – hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.

Təcrübədən seçilmiş Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının 1-1(102)-29/14 №-li iş üzrə 16 yanvar 2014-cü il tarixdə qəbul etdiyi qərarında da qeyd edildiyi kimi, apellyasiya instansiyası məhkəməsi tam hüquqlu məhkəmə kimi çıxış edir, işə təkrarən mahiyyəti üzrə baxır, birinci instansiya məhkəməsinin yekun qərarını qüvvədə saxlamaq, onu dəyişdirmək və ya ləğv edərək, əvəzinə yeni qərar qəbul etmək səlahiyyətlərindən istifadə etməklə ədalət mühakiməsini həyata keçirir. Apellyasiya icraatı birinci instansiya məhkəməsinin hələ qanuni qüvvəyə minməmiş hökmünün (digər yekun qərarının) qanuniliyinin və əsaslılığının yenidən araşdırılmasını nəzərdə tutur. Bu zaman araşdırılan məhkəmə aktı tam və ya qismən yoxlanılır. Yoxlama obyekti olan məhkəmə aktının təftişi həmin qərarın işin faktiki hallarına, qüvvədə olan maddi-hüquqi və prosessual hüquq nor-

malarının tələblərinə uyğunluğu meyarı əsasında aparılır. Başqa sözlə, apellyasiya instansiyası məhkəməsi həm cinayət qanunvericiliyinin (Cinayət Məcəlləsinin həm Ümumi, həm də Xüsusi hissəsinin normalarının), həm də qüvvədə olan cinayət-prosessual qanunvericiliyinin (Cinayət-Prosessual Məcəllənin və zəruri hallarda digər qanunlar, yaxud normativ-hüquqi aktlarda nəzərdə tutulan prosessual hüquq qaydalarını) normalarını tətbiq edən, habelə işin faktiki hallarını araşdıran və müəyyən edən məhkəmə instansiyasıdır. Apellyasiya instansiyası məhkəməsi, birinci instansiya məhkəməsi kimi, işin faktiki hallarının düzgün müəyyən edilməsində maraqlıdır və bunun üçün məsuliyyət daşıyır.

Proses iştirakçıları tərəfindən məhkəmə hökmlərinin (digər yekun qərarın) apellyasiya icraatı qaydasında mübahisələndirilməsi üçün özlərinin dispozitiv xarakterli şikayət vermək hüququndan istifadə edərkən nəzərə almalıdırlar ki, apellyasiya instansiyası məhkəməsi tərəfindən birinci instansiya məhkəməsində məhkəmə baxışı zamanı təqdim olunmamış yeni tələblərə, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, baxılmır. Qüvvədə olan cinayət-prosessual qanunvericiliyə görə, apellyasiya instansiyası məhkəməsinə yalnız iki halda yeni sübutlar təqdim edilir:

– cinayət prosesinin iştirakçıları yeni sübutların birinci instansiya məhkəməsinə təqdim edilməməsini onlardan asılı olmayan səbəblə əsaslandırdıqda;

– birinci instansiya məhkəməsi bu sübutların tədqiqini obyektiv səbəb olmadan rədd etdikdə (CPM-in 397.3-cü maddəsi).

Digər heç bir halda apellyasiya instansiyası məhkəməsində yeni sübutların tədqiqinə yol verilmir [3].

Başqa sözlə, apellyasiya şikayəti vermə ilə bağlı qanunla nəzərdə tutulmuş prosessual hüquq dispozitiv xarakterli olsa da, hüdudsuz deyildir. Cinayət prosesi iştirakçısı bu hüquqdan istifadə edib-etməyəcəyinə öz arzusu ilə qərar verə bilsə də, bu hüqudan istifadə edərkən mübahisələndirə biləcəyi məsələlərin dairəsinin müəyyən edilməsi zamanı onun arzu və istəkləri ancaq birinci instansiya məhkəməsində məhkəmə baxışı zamanı araşdırma predmeti olmuş məsələlərlə məhdudlaşır. Burdan da belə bir nəticə çıxarmaq olar ki, hüququn dispozitivliyi heç də onun hüdudsuzluğu anlamına gəlmir.

Bununla belə, cinayət prosesi iştirakçısı apellyasiya şikayəti vermək hüququndan istifadə etməklə, özü üçün arzu olunan kifayət qədər əhəmiyyətli nəticələr əldə edə bilər. Bunun səbəbi ondadır ki, apellyasiya instansiyası geniş səlahiyyətlərə, yəni işə baxarkən həm hökm, həm də qərar çıxarmaq hüququna malikdir. Kassasiya instansiyasından fərqli olaraq, apellyasiya məhkəməsi ittiham daxilində sanksiyada nəzərdə tutulmuş həddə təyin edilmiş cəzanı ağırlaşdıra bilər. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" 12 may 2009-cu il tarixli Qərarına əsasən, qanunverici tərəfindən AR CPM-də müvafiq dəyişikliklər edilənə qədər CPM-in 397.1 və

397.2-ci maddələrinin tətbiqi zamanı aşağıdakılar nəzərə alınmalıdır:

– apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsi tərəfindən cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsini hər bir halda, o cümlədən müvafiq olaraq apellyasiya şikayətinin və ya protestinin dəlillərində bu barədə tələb irəli sürülməsə də yoxlamalıdır;

– cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarına riayət edilməsinin yoxlanılmasından sonra CPM-in 403-405-ci maddələrində nəzərdə tutulmuş hallar və səbəblər müəyyən edildikdə, apellyasiya icraatı məhkum edilmiş və ya bəraət almış şəxsin və ya onun müdafiəçisinin verdiyi apellyasiya şikayəti və yaxud mahiyyətcə həmin şəxslərdən hər hansı birinin xeyrinə dövlət ittihamçısının verdiyi apellyasiya protesti üzrə keçirilərsə, apellyasiya instansiyası məhkəməsi göstərilən şəxsin vəziyyətini yaxşılaşdırmaqla birinci instansiya məhkəməsinin yekun qərarını dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər; apellyasiya icraatı mahiyyətcə məhkum edilmiş və ya bəraət almış şəxsin ziyanına dövlət ittihamçısının verdiyi apellyasiya protesti və ya xüsusi ittihamçının verdiyi apellyasiya şikayəti üzrə keçirilərsə, apellyasiya instansiyası məhkəməsi apellyasiya müraciətinin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin yekun qərarını məhkum edilmiş və ya bəraət almış şəxsin vəziyyətini ağırlaşdırmaqla da dəyişdirə və ya ləğv edərək yeni qərar qəbul edə bilər; lakin bunun üçün əsas apellyasiya müraciətinin dəlillərində göstərilməmişdirsə, qərar işə baxan apellyasiya instansiyası məhkəməsinin bütün hakimləri tərəfindən yalnız yekdilliklə qəbul oluna bilər.

Əvvəldə qeyd etdiyimiz kimi, kassasiya şikayəti verməklə məhkəmə hökmlərinin və digər yekun qərarlarının mübahisələndirilməsi hüququ da dispozitiv xarakterlidir. Qüvvədə olan cinayət-prosessual qanunvericiliyin müddəalarına əsasən, bu dispozitiv hüquqdan aşağıdakı proses iştirakçıları istifadə edə bilər:

1) məhkum edilmiş, bəraət almış təqsirləndirilən şəxs, onun müdafiəçisi və ya qanuni nümayəndəsi;

2) zərər çəkmiş şəxs (xüsusi ittihamçı), onun qanuni nümayəndəsi və ya nümayəndəsi;

3) mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri;

4) barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi, xəstəliyin xüsusiyyəti ona öz hüquqlarından istifadə etməyə mane olmadıqda isə həmin şəxsin özü;

5) barəsində tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilmiş və ya qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinə göndərilmiş yetkinlik yaşına çatmayan şəxsin özü, onun qanuni nümayəndəsi və ya müdafiəçisi;

6) barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.

Kassasiya icraatının qarşısında cinayət mühakimə icraatının ümumi vəzifələri ilə yanaşı, aşağıdakı xüsusi vəzifələr də durur:

– məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarlarının kassasiya qaydasında mübahisələndirilməsinin əsaslarının olub-olmamasının müəyyən edilməsi;

– kassasiya şikayəti və ya kassasiya protestinin ilkin öyrənilməsi yolu ilə hökm və ya qərarın kassasiya qaydasında mübahisələndirilməsi perspektivlərinin müəyyən edilməsi;

– kassasiya şikayəti və ya protestinə mahiyyəti üzrə baxılması və müvafiq qərarın qəbul edilməsi [1].

Kassasiya institutu bu və ya digər formada Qədim Roma quldarlıq dövlətinin hüquq tarixindən tutmuş müasir dövrümüzə qədər böyük bir yol keçmişdir. Kassasiya icraatı Çar Rusiyası dövründə olmaqla yanaşı öz mövcudluğunu keçmiş SSR İttifaqı dövründə də qoruyub saxlamışdır. Hazırda kassasiya icraatı dünyanın bir çox dövlətlərinin (Rusiya, Fransa, Türkiyə, Avstriya, Almaniya və s.), o cümlədən Azərbaycan Respublikasının da hüquq sistemində mövcuddur. Azərbaycan Respublikasında kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest və təqdimatlara baxır [3].

Təcrübədən seçilmiş Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının 1-1(102)-35/13 №-li iş üzrə qəbul etdiyi 18 aprel 2013-cü il tarixli qərarında qeyd edildiyi kimi, kassasiya instansiyası məhkəməsi birinci və apellyasiya instansiyası məhkəmələrindən fərqli olaraq, hər hansı bir faktın baş verib-verməməsini müəyyən etmir və yalnız həmin məhkəmələr tərəfindən müəyyən edilmiş hallara əsasən cinayət və cinayət-prosessual qanunvericiliyinin normalarının düzgün tətbiq edilib-edilməməsi məsələlərinə öz münasibətini bildirir. Kassasiya instansiyası məhkəməsi apellyasiya instansyası məhkəməsinə apellyasiya şikayətinə və ya apellyasiya protestinə məhkəmə istintaqı aparılmaqla, yaxud da bunsuz baxılması haqda göstəriş vermək, habelə özü bu barədə qərar qəbul etmək səlahiyyətində deyil.

Odur ki, adları yuxarıda sadalanan proses iştirakçıları məhkəmə hökmlərini, yaxud digər yekun qərarlarını kassasiya qaydasında mübahisələndirmək istədikdə, nəzərə almalıdırlar ki, onlar müvafiq hüquqdan istifadə etməklə, yalnız birinci instansiya və apellyasiya məhkəmələri tərəfindən müəyyən edilmiş hallara əsasən maddi və prosessual-hüquqi normaların düzgün tətbiq edilməməsi məsələsini mübahisələndirə bilərlər. Onlar barəsində bəhs olunan müvafiq hüquqdan istifadə etməklə hər hansı bir faktın baş verib-verməməsini mübahisələndirmək imkanına malik deyildirlər.

Nəhayət, qeyd edilməlidir ki, əlavə kassasiya qaydasında məhkəmə qərarlarını mübahisələndirmək imkanı da dispozitiv xarakterli hüquq kimi çıxış edir. Əlavə kassasiya qaydasında icraat cinayət prosesinin müstəsna mərhələsi olub, kassasiya instansiyası məhkəməsinin qəbul etdiyi qərarlara və kassasiya icraatı zamanı yoxlanılmış məhkəmə hökm və qərarlarına yenidən baxılmasına yönəlmişdir. Bu icraat Konstitusiyada təsbit olunmuş vətəndaşların məhkəməyə təkrar müraciət etmək hüququ-

nun həyata keçirilməsi vasitələrindən biridir.

Əlavə kassasiya qaydasında şikayət vermək hüququ aşağıdakı proses iştirakçıları üçün nəzərdə tutulmuşdur:

1) zərər çəkmiş şəxs və ya onun nümayəndəsi;

2) mülki iddiaçı və ya onun nümayəndəsi;

3) mülki cavabdeh və ya onun nümayəndəsi;

4) barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi;

5) məhkum və ya onun xahişi ilə CPM-in 92.1-ci maddəsində nəzərdə tutulmuş tələblərə cavab verən, cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatda iştirak etmək üçün vəkillik kollegiyasının müvafiq qurumunun orderini almış vəkil-müdafiəçi malikdir.

Azərbaycan Respublikasının cinayət prosesində bəraət almış şəxsin əlavə kassasiya şikayəti vermək hüququ nəzərdə tutulmamışdır. Belə ki, CPM-in ilk qəbul edildiyi zaman əlavə kassasiya şikayəti vermək hüququ yalnız məhkuma aid edilmişdi, lakin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 19 mart 2002-ci il tarixli qərarında ifadə edilmiş hüquqi mövqeyə əsasən, bu halda Azərbaycan Respublikası Konstitusiyasının 25, 68 və 127-ci maddələrinin tələblərindən irəli gələn zərər çəkmiş şəxsin və mülki iddiaçının əlavə kassasiya qaydasında şikayət vermək və belə icraatda iştirak etmək hüququ CPM-in 87.6.14, 89.4.12 və 422.3-cü maddələri ilə məhdudlaşdırılırdı. Bunu nəzərə alaraq, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə etmişdir ki, Konstitusiyanın 94-cü maddəsinin I hissəsinə uyğun olaraq, CPM-ə müvafiq dəyişikliklər etsin.

Bu tövsiyədən uzun müddət sonra – 10 iyun 2011-ci il tarixdə CPM-in 422.3-cü maddəsində əlavə kassasiya şikayəti vermək hüququ olan subyeklərin dairəsi zərər çəkmiş şəxs, mülki iddiaçı və onların nümayəndələrinin hesabına genişləndirilmişdir. 11 dekabr 2012-ci il tarixdə bu subyektlərin sırasına mülki cavabdeh, 29 noyabr 2016-cı il tarixdə isə barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi də əlavə edilmişdir. Lakin bəraət almış şəxs bütün sadalanan əlavələrdən sonra da əlavə kassasiya şikayəti vermək hüququ olan şəxslərə aid edilməmişdir. Odur ki, hazırda bəraət almış şəxsin yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququndan yalnız apellyasiya və kassasiya instansiyalarında icraat kontekstindən bəhs etmək mümkündür [2].

## Ədəbiyyat:


1. Abbasova F. Cinayət prosesi. Xüsusi hissə. Yenidən işlənmiş 3-cü nəşr. Dərslik. Bakı: Hüquq Yayın Evi, 2019, 524 s.
2. Bayramova K. Bəraət almış şəxsin yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququ haqqında // Qanun, 2019, № 07 (297), s. 72-77.
3. Cahangirova Ş. Cinayət mühakimə icraatında məhkəmənin hökmlərinə və digər yekun qərarlarına yenidən baxılması məsələləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, 2019, № 67, s. 105-108.

# ОСПАРИВАНИЕ ПРИГОВОРОВ (ИНЫХ ИТОГОВЫХ РЕШЕНИЙ) СУДА КАК ДИСПОЗИТИВНОЕ ПРАВО

**Джафаров Кахраман Вагиф оглы,**
**доцент кафедры «Уголовный процесс» Бакинского государственного университета, доктор философии по праву.**
электронная почта: elizade.memmedov@mail.ru

Диспозитивность подразумевает идею автономии воли субъекта, но вместе с тем имеет четкие пределы, очерченные правовыми нормами. В уголовном судопроизводстве диспозитивность выражается в отдельных правах, во-первых, указанных в законе участников уголовного процесса, которые действуют в личных интересах, во-вторых, в правах иных заинтересованных лиц. Именно данные права являются формой проявления диспозитивного начала на различных стадиях производства по уголовному делу. Вместе с тем, следует отметить, что не все права, закрепленные в законодательстве для участников уголовного процесса, защищающих, либо представляющих личные, либо представляемые интересы в уголовном судопроизводстве, имеют сугубо диспозитивный характер. Для сугубо диспозитивных процессуальных прав характерны ряд исключительных признаков. В первую очередь диспозитивному процессуальному праву всегда должна корреспондировать безусловная обязанность органа, ведущего уголовный процесс, придерживаться должной формы поведения, указанного в законе (например, принять какое либо процессуальное решение, либо воздержаться от совершения тех или иных процессуальных действий и т. д.). Вторым признаком диспозитивных прав, является факт того, что они всегда направлены на защиту частных интересов в уголовном процессе. Защищаемые частные интересы могут быть как личными, так и представляемыми, но они всегда имеют частных характер. Наконец, для того чтобы отнести то или иное процессуальное право к числу диспозитивных прав, реализация данного права должна существенно повлиять на начало, продолжение и окончание производства по уголовному делу. Учитывая вышеперечисленные критерии в статье права участников уголовного процесса на обжалование приговоров, либо иных итоговых решений суда, также рассмотрены в качестве диспозитивных.

**Ключевые слова:** уголовное судопроизводство, принцип, право, диспозитивность, автономия воли, субъект, судебное решение, оспаривание.

# CHALLENGE OF SENTENCES (OTHER FINAL DECISIONS) OF THE COURT AS A DISPOSITIVE RIGHT

**Jafarov Kahraman Vagif oglu,**
**Associate Professor of "Criminal Procedure" Department of Baku State University, Doctor of Philosophy in Law.**
e-mail: elizade.memmedov@mail.ru

Dispositivity implies the idea of autonomy of the will of the subject, but at the same time has clear limits outlined by legal rules. In criminal proceedings, dispositivity is expressed in separate rights, first, those specified in the law of the participants in criminal proceedings, who act in the personal interest, and second, in the rights of other persons concerned. It is these rights that are a form of manifestation of dispositive start at various stages of criminal proceedings. However, it should be noted that not all the rights enshrined in the law for participants in criminal proceedings who defend, either representing personal or represented interests in criminal proceedings, are purely dispositive. Purely dispositive procedural rights are characterized by a number of exceptional features. First of all, the dispositive procedural right should always be matched by the unconditional obligation of the body conducting criminal proceedings to adhere to the proper form of conduct specified in the law (for example, to take a procedural decision, or to refrain from carrying out dispositive procedural actions, etc.). The second sign of dispositive rights is the fact that they are always aimed at protecting private interests in criminal proceedings. Protected private interests can be both personal and representative, but they are always private. Finally, in order to make a procedural right a dispositive right, the exercise of that right must have a significant impact on the commencement, continuation and termination of criminal proceedings. Taking into account the above criteria in the article of the right of participants in criminal proceedings to appeal sentences, or other final decisions of the court, are also considered as dispositive right.

**Key words:** criminal procedure, principle, law, dispositivity, autonomy of will, subject, court decision, challenge.

**UOT 343.1.**

## MAHKEME KARARLARININ TARTIŞILMASI (DİĞER KARARLAR)
## isteğe bağlı bir hak olarak-dispozitiv hukuk kimi

**Jafarov Kahraman Vagif oglu,**
**Bakü Devlet Üniversitesi "Ceza Muhakemesi" Bölümü,öğretim üyesi, hukuk üzre felsefe doktoru.**
e-posta: elizade.memmedov@mail.ru

Eyalet dışı organların (yetkililerin) cezai takibatın usule ilişkin haklarını kullanması olasılıkları genellikle özerklikleri ile ilişkilidir. Bir araştırmaya katılan kişinin kendi iradesini kullanabilmesi ve kendisine yasa ile tanınan usule ilişkin hakları kullanma yetkisi ceza hukukunda yer değiştirme ilkesinin bir tezahürüdür. Yukarıda belirtilen kriterlere göre, kararlara itiraz etme hakkı (diğer nihai kararlar) da mahrumiyet niteliğindedir.

**Anahtar Kelimeler:** Ceza adaleti, ilke, hukuk, eğilim, irade özgürlüğü, konu, mahkeme kararı, dispozitiv hukuk , itiraz.

UOT 34: 341.33

# ETNİK MÜNAQİŞƏLƏR ZAMANI UŞAQ HÜQUQLARININ MÜDAFİƏSİ: DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ MÜSTƏVİSİNDƏ

**Orucova Esmira Əlişan qızı,**
**AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Dövlət təhlükəsizliyinin hüquqi təminatı şöbəsinin böyük elmi işçisi.**
e-mail:orucovaesmira@mail.ru

*Məqalənin əsas tədqiqat predmetini dünyanın müxtəlif ərazilərində baş verən etnik münaqişələr və bu münaqişələr zamanı pozulmuş uşaq hüquqlarının müdafiəsi ilə bağlı beynəlxalq hüquq normalarının araşdırılması təşkil edir. Məqalədə göstərilən faktoloji materiallara əsasən Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində işğal olunmuş ərazilərin sakinləri - günahsız müharibə qurbanları olan,qəbul olunmuş beynəlxalq hüquq normalarına zidd olaraq işgəncələrə, qeyri-insani rəftara, təhqirlərə məruz qalmış uşaqların hüquqlarının müdafiəsi ilə bağlı hüquqi təfsirlərin verilməsinə cəhd göstərlib.*

*Həmçinin silahlı münaqişələr zamanı uşaq hüquqlarının müdafiəsi sahəsində dövlətlərin öhdəlikləri və əməkdaşlıqları beynəlxalq hüququn qarşısında duran ən aktual problemlərdən bəhs edilir.*

**Açar sözlər:** Dağlıq Qaqrabağ münaqişəsi, etnik münaqişə, uşaq hüquqları, silahlı münaqişə, beynəlxalq hüquq, humanitar hüquq normaları,Cenevrə Konvensiyası, Uşaq Hüquqları haqqında Konvensiya, mülki əhali.

XX əsrin sonlarına doğru bəşəriyyəti bürüyən bir təhlükə meydana çıxdı. NATO-nun 1991-ci ildə qəbul olunmuş "Yeni strateji konsepsiya" adlı layihəsində göstərilirdi ki, artıq təşkilat üzvləri üçün ən başlıca təhlükə: qeyri-sabitliyin əsas elementlərindən biri olan etnik münaqişələrdir. "Münaqişə" sözü latın mənşəli "conflictus"dan götürülüb, qarşı-qarşıya duran qüvvələrin, mənafelərin, baxışların toqquşması, sonu siyasi mübarizə ilə nəticələnən kəskin mübahisə deməkdir. Münaqişələrin təsnifatına sosial, siyasi, dövlətlərarası, millətlərarası və s. münaqişlər daxildir. Bunların arasında ən ağırı millətlərarası münaqişələrdir [1].

Alman alimi R.Darendorfa görə münaqişələrin inkişaf və həlli mexanizmi sosial subyektlərin maraqlarında latent və aşkar ziddiyyətləri üzə çıxarır [15, s.78].

Professor N.Kosolapova görə isə münaqişə iştirakçılarından biri digərlərinin maraqlarının məhdudlaşdırılması hesabına öz məqsədinə çata bilər [9, s.36 ].

Bəşəriyyət tarixində məhz etnik münaqişələr daha fundamentaldır, digərləri isə ikinci dərəcəli rol oynayır. Bunun səbəbi etnik eyniləşdirmənin insanın və cəmiyyətin

həyatında xüsusi əhəmiyyəti ilə bağlıdır. Beləliklə, etnik münaqişələr müxtəlif tarixi dövrlərdə, sinifli cəmiyyətdən qabaqkı dövrdə də digər münaqişlərə nüfuz edib. Tarixə nəzər salsaq, bütün müharibələrin çox və ya az dərəcədə etnik əsası olduğunu görərik.

XX əsrin 90-cı illərin əvvəllərindən formalaşan "etnik münaqişə"lər anlayışı dünya təhlükəsizlik sistemində xüsusi hərbi, zorakı üsulların istifadəsinə əsaslanan qarşıdurmalar şəklində öz təsirini sürətlə genişləndirərək, dövlətin başqa dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri miqyasına çıxır [1].

"Etnik münaqişələr"etnik əlamətlərə görə əsasən fərqlənən qrupların, icmaların müxtəlif sosial-iqtisadi, siyasi mənafelər uğrunda toqquşması hesab edilərsə, Fransa inqilabından sonra formalaşmağa başlayan millət-dövlət (state-nation) adlı qurumlar (yəni dünya dövlətləri) arasında gedən bütün müharibələri ona aid etmək olar.

Müasir dünyada etnik münaqişələrin fərqli xarakterlərdə və formada göstərmədiyi yer, demək olar ki, yoxdur. Elə XX əsrdə insan hüquqları və demokratiya mərkəzlərindən sayılan ABŞ-da XVII-XVIII əsrlərdə bir hissəsi məhv edilib, digər hissəsi isə rezervasiya adlanan yerlərə salınan, hətta genosidə məruz qalmalarından danışılan hinduların vaxtı ilə əllərindən alınmış torpaqlarının geri qaytarılması cəhdləri, Latın Amerikasında ayrı-ayrı dövlətlərin sərhəd mübahisələri, 11 sentyabr 2001-ci il hadisələrinə görə yerli əhalinin ABŞ müsəlman icmasına qarşı hücumları da etnik münaqişələrin təzahürləridir.

Avropada isə anqlo-sakson köklü Böyük Britaniyada uzun sürən Olster-Şimali İrlandiya ziddiyyəti, 1992-ci ildə unitar ətraziyə malik olan Belçikanı federal əraziyə çevirmiş flamand-vallon ixtilafı, fransada Korsika Breton, bask millətçi qruplarının fəaliyyətini, 1995-ci ildə İtaliyanın şimalında "Padaniya Respublikası" adlı qurumun elan edilməsi faktını, İspaniyada Kataloniya və Qalisiya məsələlərini Qərbi Avropadakı etnik parçalanmalara aid etmək olar [2].

Nəhayət, Fələstin və Afrikada soyqırım xarakterli kütləvi insan qırğınları,Yuqoslaviya və keçmiş Sovet respublikaları ərazisində baş vermiş etnik münaqişələr beynəlxalq münasibətlər sisteminə böyük zərbələr vurdu.

Coğrafi ərazidən asılı olmayaraq baş verən müharibələr və silahlı münaqişələrdən ən çox ziyan çəkən uşaqlardır. İkinci Dünya Müharibəsindən sonra təxminən 130 silahlı münaqişə baş verib. XX əsrin birinci onilliyində müharibə və silahlı münaqişələr zamanı 2 milyon uşaq həlak olub [11]. Hərbi şəraitdə incə məxluq olan, daima qayğıya və diqqətə ehtiyacı olan uşaqlar ağır depressiya keçirir, aclığa, səfalətə, yoluxucu xəstəliklərə məruz qalırlar. Onlar yaxınlarının, əzizlərinin faciəvi ölümünü, dağıdılmış, viran qalmış evləri, ağır vəziyyətdə olan yaralıları gördükləri üçün nevroza məruz qalırlar. Belə vəziyyətlərdə onlarda psixopataloji reaksiyalar müşahidə olunur.

Qeyd etdiyimiz kimi silahlı münaqişələrdən ən çox əziyyət çəkən hərbi əməliyyatlarda iştirak etməyən mülki əhali, o cümlədən uşaqlardır. Təxmini hesablamalara görə son dövrlərdə dünyada baş verən silahlı münaqişələr zamanı 6 milyon uşaq şikəst olub.

2006-cı ildə BMT Baş katibinin uşaqlar və silahlı münaqişlər haqqında məsələlər

üzrə xüsusi nümayəndəsinin göstərişi üzrə hazırlanmış məruzədə bir il ərzində 18 milyon uşağın münaqişələr zamanı qaçqın və məcburi köçkünə çevrilməsi göstərilmişdir. Deməli, müasir silahlı münaqişlərin əsas qurbanları uşaqlardır [8].

BMT-nin 2019-cu il 2 avqust tarixli silahlı münaqişlər zamanı uşaqların vəziyyətinə həsr edilmiş 8591 saylı iclasında BMT baş katibi Antoniu Quterreşin "Uşaqlar silahlı münaqişlərdə" mövzusunda rəsmi məruzəsində (S/2019/509) son illərdə dünyanı bürüyən silahlı münaqişələr zamanı uşaq hüquqlarının qorunması ilə bağlı qəbul olunmuş qətnamələrə əməl olunmadığını, uşaq hüquqları ilə bağlı qəbul olunmuş öhdəliklərin kobud şəkildə pozulduğunu vurğulayıb. Baş katib qeyd edib ki, silahlı münaqişələrin ilkin zorakılıq qurbanları uşaqlardır. Aldıqları xəsarətlər onları uşaqlıqlarından və yetkin həyatlarından məhrum edir, ağır, mənəvi iztirabları daima onların ruhunda silinməz izlər buraxaraq, ömrü boyu onları narahat edir. O, təkcə 2018-ci il ərzində silahlı münaqişələr zamanı acınacaqlı vəziyyətə düşmüş 50 milyon uşağın humanitar müdafiəyə ehtiyacı olduğunu da bildirmişdir [17].

Silahlı münaqişələr zamanı mülki əhalinin, o cümlədən uşaqların hüquqi vəziyyəti 1907-ci il tarixli Quru müharibələrinin adət və qanunları haqqında Haaqa Konvensiyası, 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və 1977-ci il 8 iyun tarixli Cenevrə Konvensiyalarına I və II Əlavə Protokollarda müəyyən edilir.

Roma statutunun ciddi cinayətlərindən hesab etdiyi cinayətlərdən biri də işğalçı ölkənin əhalisinin müəyyən hissəsini işğal etdiyi əraziyə köçürməsi, yaxud işğal altında ərazinin sakinlərinin hamısını və ya bir hissəsinin həmin ərazinin hüdudlarından kənara deportasiya olunmasıdır. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına əlavə olunan və beynəlxalq silahlı münaqişə qurbanlarının himayəsinə həsr edilən 1977-ci il 8 iyun tarixli I Protokolun V hissəsinin, II bölməsinin 85 (4) (a) maddəsində nəzərdə tutulur ki, IV Cenevrə Konvensiyasının III hissəsinin, III bölməsinin 49-cu maddəsinin tələblərini pozmaqla, işğalçı dövlətin öz mülki əhalisinin bir hissəsini işğal etdiyi ərazinin əhalisinin hamısını, yaxud bir hissəsini deportasiya etməsi beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulmasıdır[5, s.329,189].

Uşaq hüquqları haqqında çoxsaylı beynəlxalq hüquqi sənədlərin, o cümlədən 1989-cü il 20 noyabr tarixli Uşaq Hüquqları Haqqında Konvensiyanın qəbul edilməsinə baxmayaraq, XX əsrin sonları sözün əsl mənasında uşaqların toxunulmazlıq statusundan məhrum edilməsi ilə əlamətdar olmuşdur. Etnik münaqişə zonalarında bəzi uşaqlar münaqişənin, bəziləri isə dəhşətli cinayətlərin qurbanlarına çevrildilər. Uşaq Hüquqları Haqqında Konvensiyasının 37 maddəsinin a) bəndində göstərilir ki, iştirakçı dövlətlər silahlı münaqişələr zamanı onlara tətbiq edilən və uşaqlara aidiyyəti olan beynəlxalq humanitar hüquq normalarına hörmət bəsləməyi və onlara əməl olunmasını təmin etməyi öhdələrinə götürürlər [5, s.23]. Həmin Konvensiyanın 38-ci maddəsinin I bəndinə görə silahlı münaqişədə iştirak edən dövlətlər hərbi zonalarda yerləşən uşaqların müdafiəsini təmin etmək və onlara qayğı göstərmək məqsədi ilə bütün zəruri tədbirlər öhdəliyini

həyata keçirməlidirlər [7,s.24]. Təəssüf ki, münaqişələrin əksəriyyətində uşaqların müdafiəsinə dair bu və digər beynəlxalq sənədlərin müddəaları kobudcasına pozulmuşdur.

Müasir dövrdə uzun sürən münaqişlərdən hesab olunanı Yaxın Şərqdə baş verən, hələ də davam edən Fələstin-İsrail münaqişəsidir. Daima atəş altında, psixoloji gərginlik və stress vəziyyətində yaşayan fələstinli uşaqlar qeyri-sabit vəziyyətdən əziyyət çəkirlər. Fələstin-İsrail münaqişəsi nəticəsində, işğal olunmuş Fələstin ərazisində təkcə 2008-ci ilin dekabr ayının 27-dən 2009-cu ilin yanvar ayının 18-nə kimi aparılmış döyüş əməliyyatlarında 431 fələstinli uşaq həlak olub. Bu müddət ərzində Qəzza sektorunda 1871 fələstinli uşaq yaralanıb [14].

XX əsrin sonlarına doğru Qafqaz dünyanın ən qaynar etnik münaqişələr zonasına çevrilmişdi. Keçmiş Sovet İttifaqının dağılması ərəfəsində və sonra Qafqaz regionunda silahlı etnik münaqişələr geniş vüsət aldı. Abxaziya, Cənubi Osetiya, Çeçenistanda baş verən münaqişələr zamanı təbii ki, ən çox əziyyət çəkən mülki əhalinin ən həssas qrupu olan uşaqlar oldu [8].

XX əsrdə bütün dünyanı bürüyən terrorizm, xarici işğal, təcavüz silahlı münaqişələr Azərbaycandan da yan keçmədi. Hərbi təcavüz nəticəsində işğal olunmuş Dağlıq Qarabağdan, həmçinin Ermənistanla həmsərhəd olan yaşayış məntəqələrindən 700 min nəfərdən çox yerli əhali məcburi köçkün həyatı yaşamağa məhkum olunaraq, ölkənin 62 şəhər və rayonunda, 1600-dan çox sıx məskunlaşma obyektində, yataqxana, pansionat və sağlamlıq düşərgələrində məskunlaşdı. 30 ildən artıqdır ki, ölkəmiz terroru dövlət səviyyəsində dəstəkləyən Ermənistanın separatçı və millətçi rejimi tərəfindən həyata keçirilən xüsusi təhlükə növü ilə üz-üzə qalıb. Erməni silahlı birləşmələri tərəfindən aparılmış hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi işğal edilib. 1 milyon insan (son statistikaya görə, əhalinin artımı nəticəsində 1 milyon 200 min nəfər) elementar haqlarından məhrum edilərək, qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyətində qalıblar.

Münaqişə nəticəsində qəbul olunmuş beynəlxalq humanitar hüquq normalarına zidd olaraq 20 mindən çox insan qətlə yetirilib;

50 mindən artıq şəxs yaralanmış, əlil olub;

3889 şəxs itkin düşüb, onların 71 nəfəri uşaqdır;

Şahid ifadələrinə görə 871 şəxsin əsir-girov götürülməsi barədə məlumatlar daxil olub, onların 29 nəfəri uşaqdır;

Əsir və girovluqdan azad edilmiş 1480 şəxsin 224 nəfəri də uşaqdır [3].

Silahlı münaqişələr şəraitində mülki şəxs silahlı qüvvələrin və ya münaqişə tərəflərin, digər silahlı qruplaşmanın üzvü olmayan hər hansı şəxsdir. Mülki şəxslər hərbi əməliyyatlarda fəal iştirak etməyən insanlardır. Mülki əhali rəqib üçün birbaşa təhlükə kəsb etmədiyindən hücuma məruz qala bilməz. Lakin bu qaydalar Dağlıq Qarabağ münaqişəsi zamanı həyata keçirilmiş aktiv hərbi əməliyyatlar dövründə, Azərbaycan ərazilərinin işğalı vaxtı kobudcasına pozulub. Belə ki, 12 may 1994-cü ildə atəşkəs elan olunandan sonra da mülki əhaliyə, o cümlədən uşaqlara qarşı beynəlxalq humanitar hüquq normalarının pozulması hallarına təsadüf olunur.

Atəşkəs elan olunandan bu günə kimi 32 nəfər azərbaycanlı uşaq erməni terrorunun qurbanı olub. Onlardan 13 nəfəri həlak olub, 19 nəfəri isə ağır yaralanıb.2017-ci il iyul ayının 4-də Füzuli rayonunun Alxanlı qəsəbəsi Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən təxribat nəticəsində minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulub. Nəticədə 14 aylıq körpə Zəhra Quliyeva və nənəsi 1967-ci il təvəllüdlü Sahibə Quliyeva qətlə yetirilib.

BMT Baş Assambleyasının qəbul etdiyi 1974-cü il 14 dekabr tarixli "Fövqəladə şəraitdə və silahlı münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi haqqında" Bəyannamənin I maddəsində göstərilir ki, mülki əhaliyə xüsusilə də əhalinin ən zəif təbəqəsi olan uşaqlara çoxsaylı iztirablar verməklə hücum edilməsi ... bu kimi hərəkətlər qadağan olunmalıdır [12, s.1-104].

Silahlı münaqişə zonalarında mülki əhalinin müdafiəsi ilə bağlı normalar beynəlxalq humanitar hüquq sahəsinə daxil edilir və qeyd etdiyimiz kimi beynəlxalq humanitar hüququn normaları baş verdiyi ərazidən asılı olmayaraq, adətən münaqişə başladığı andan sona çatana qədər tətbiq edilməlidir. Bu, həmçinin etnik münaqişələrə də aiddir.

Beynəlxalıq humanitar hüquq normalarının təsbit olunduğu Müharibə Zamanı Mülki Əhalinin Qorunması Haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının I bölməsinin 3-cü maddəsinin b) bəndinə və III bölməsinin I hissəsinin 34-cü maddəsinə görə girovlar götürülməsi qadağan olunub. I bölməsinin 3-cü maddəsinin 2-ci bəndinə görə isə yaralılar toplanıb, onlara qayğı göstərilməlidir [5, s.167, 182, 168]. Beynəlxalq humanitar hüquq normalarına hər zaman olduğu kimi riayət etməyən erməni tərəfi nəinki yaraladıqları uşaqlara qayğı göstərməyib, hətta onları girov götürdükdən sonra nəyinsə müqabilində, müəyyən məqsədlərdə istifadə etmək üçün mülki şəxslərə satıblar. 31 mart1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı ermənilərin Tunel adlanan ərazidə güllələboran etdikləri uşaqlardan, həmin rayonun Çorman kənd sakini 3 yaşlı Quliyeva Aygün Qara qızını böyük bacısı və 4 qardaşı ilə birlikdə girov götürüb, işğal olunmuş Vəng kəndində birlikdə saxlayıblar. 11 gündən sonra Aygünü bir erməni qadına veriblər. Bu günə kimi 3 yaşlı Aygünün taleyi naməlum olaraq qalır.

Erməni tərəfi ərazilərimizi işğal edən zaman girov götürdüyü uşaqlara qarşı Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə"sinin 2, 3, 5, 9 və 17-ci maddələri, 1974-cü il 14 dekabr tarixli "Hərbi Münaqişələr və Fövqəladə Hallar Zamanı Qadın və Uşaqların Müdafiəsi Haqqında Bəyannamə"nin, 1948-ci il 9 dekabr tarixli "Soyqırım Cinayətlərinin Qarşısının Alınması və Cəzalandırılması Haqqında Konvensiya"nın tələbləri, 1949-cu il 12 avqust tarixli "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarını,həmin Konvensiyalara əlavə olunan və Beynəlxalq silahlı münaqişə qurbanlarının himayəsinə həsr edilən 1977-ci il 8 iyun tarixli Protokolun (I Protokol ) IV hissəsini kobud şəkildə pozub. Çoxsaylı faktlar sübut edir ki, separatçı və işğalçı ermənilər işğal zamanı girov götürdükləri mülki əhaliyə, o cümlədən uşaqlara münasibətdə beynəlxalq humanitar hüququn

bütün norma və prinsiplərini kobud surətdə pozublar. Belə ki, erməni təcavüzü zamanı azyaşlılar girov götürülərək, uzun müddət qeyri-insani şəraitdə saxlanmılmış, təhqirlərə, işgəncə və əzablara məruz qalmış, yaralı və xəstələrə heç bir tibbi yardım göstərilməmişdir. 31 mart 1993-cü il Kəlbəcər rayonu erməni silahlı birləşmələri tərəfindən işğal olunan zaman həmin rayonun sakini Məmişova İmarət Məmmədəli qızı (1962) 2 azyaşlı övladı – Məmişov Taleh Ələsgər oğlu (1994) və Məmişov Yadigar Ələsgər oğlu (1992) ilə birlikdə girov götürüb, Xankəndinə aparılıb. Ermənilər Xankəndində 8 yaşlı oğlu Talehi güllələyib, 10 yaşlı Yadigarı isə xüsusi qəddarlıqla işgəncələrə məruz qoyublar.

1993-cü ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin radiokəşfiyyat xidməti tərəfindən əldə olunmuş materiala əsasən, həmin zaman Ermənistanın Vardenis rayonundakı qərargah radiostansiyasından Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya bölgədəki bütün səyyar radiostansiyalara çatdırılmaq üçün təcili əmr verilmişdi. Əmrdə əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarını, o cümlədən uşaqları təcili məhv edib basdırmaq tələb olunurdu. Tələsmələrinə səbəb azərbaycanlılara qarşı törətdikləri cinayətlərin izlərini həmin vaxt döyüş bölgələrinə gələn beynəlxalq təşkilatlardan gizlətmək olmuşdu [4, s.330].

Qəbul olunmuş beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozan ermənilər 26 fevral 1992-ci ildə Xocalını işğal edən zaman 3 azyaşlı uşağı ilə birlikdə1964-ci il təvəllüdlü Hüseynova Mehriban Allahverdi qızını da girov götürüb, bu günə kimi azad etməyiblər. Mehribanın 5 yaşlı böyük övladı Hüseynov Rəcəb Elxan oğlunu İrəvan Mərkəzi İstintaq Təcridxanasında saxlanılan zaman qəsdən acından öldürüblər [6, s.301-302 ] .Həmin təcridxanada saxlanılan azərbaycanlı əsir və girovların izahatlarından məlub olub ki, uşaq dünyasını dəyişənə kimi “çörək” deyə fəryad edib.

200 ilə yaxın müddət ərzində erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsi olan “Xocalıya gedən yol” adlandırılan, erməni silahlı birləşmələri və Azərbaycan vətəndaşları olan, ermənilərin yaşadıqları kəndlərin erməni sakinləri tərəfindən 16 fevral 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində törətdikləri qətliam zamanı mülki əhaliyə, həmçinin uşaqlara qarşı daha amansız olublar.

Müharibə Zamanı Mülki Əhalinin Qorunması Haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının II bölməsinin Uşaqların mənafelərinə dair tədbirlər adlanan 24-cü maddəsindən irəli gələn müddəlar kobud şəkildə pozulmuşdur [5, s,178-179]. Belə ki, 31 mart 1993-cü ildə Kəlbəcər rayonunun işğalı zamanı həmin rayonun Çobangərəkməz kənd sakinin Zeynalov Davud Museyib oğlunun 4 övladı-Zeynalov Məhəmməd, Zeynalov Nizami, Zeynalova Təranə və 8 yaşlı kiçik oğlu Zeynalov Fariz Tunel adlanan yerdə ermənilər tərəfindən girov götürülüb. Şahid ifadələrinə görə girov götürülmüş uşaqlar işğal olunmuş Xankəndində saxlanılıb və bu günə kimi azad olunmayıblar. Həmin gün işğal olunmuş ərazidən canlarını qurtarıb, qaçarkən Zeynalovlar nəslindən olan 22 nəfər uşaq və gəncin də girov

götürülməsi faktı girovluqdan azad edilmiş şəxslər tərəfindən təsdiq edilsə də, erməni tərəfi faktları inkar etdiyi üçün onlar da bu günə kimi azad edilməyiblər [6, s.667-668].

1941-ci ildə nasist Almaniyası tərəfindən işğal olunmuş Latviyada, Riqa şəhərindən 18 kilometr aralıda Salaspils şəhərinin ərazisində "Salaspils" ölüm düşərgəsi salınıb. Faşist rejiminin bütün mümkün qəddarlıqları, normal insan düşüncəsinə sığışmayan işgəncələr məhz bu düşərgədə tətbiq olunub. Digərlərindən fərqli olaraq bu düşərgədə azyaşlı uşaqlar saxlanılıb. 19 hektara yaxın ərazidə yerləşən "Salaspils" ölüm düşərgəsində ilk vaxtlar yəhudilər, daha sonra isə qadınlar, uşaqlar saxlanılıb. Bəzi anaların gözü qarşısında uşaqlarına ölümcül hala düşənə qədər işgəncələr verilib. Bəzi uşaqların gözü qarşısında anaları işgəncələrlə qətlə yetirilib [17]. Alman nasistlərinin törətdikləri vəhşilikləri eynisini azərbaycanlı uşaqlara qarşı tətbiq edən ermənilər 26 fevral 1992-ci ildə törətdikləri Xocalı faciəsi zamanı günahsız mülki əhaliyə, o cümlədən uşaqlara qarşı görülməmiş qəddarlıq və vəhşilik nümayiş etdiriblər. Belə ki, uşaqlar diri-diri yandırılmış, gözləri çıxarılmış, başları kəsilmiş, meyitləri üzərində görülməmiş təhqiramiz hərəkətlər edilmişdi. Xüsusi amansızlıqla qətlə yetirilmiş uşaqlardan 13 nəfərinin meyidi görülməmiş təhqirlərə məruz qalmışdır. Faciə zamanı 25 uşaq hər iki valideynini itirib. Girov götürülmüş Xocalı sakinləri Əmirova Xəzangül Təvəkkül qızı (1983), Əmirova Nigar Təvəkkül qızı (1988) və Əmirov Vüsal (1991) Təvəkkül oğlunun gözləri qarşısında anaları Rayanı, 7 yaşlı bacısı Yeganəni güllələyib, atası Əmirov Təvəkkül Baxış oğlunun üzərinə benzin tökərək yandırıblar. Bütün bunlar uşaqların gözləri qarşısında baş verib. Hazırda onlar Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsindəki Qızıl Qum pansionatında məskunlaşıblar.

II Dünya Müharibəsi zamanı Osvensem ölüm düşərgəsində saxlanılan əsirlərin, daha doğrusu azyaşlı uşaqların üzərində insanlığa sığmayan eksperimentlər apamış, həkim-cəllad Yozef Mengelenin davamçısı olan erməni "həkimi", hazırda Ermənistan ordusunun polkovniki, terrorçu və həkim-faşistlər yetişdirməklə məşğul olan, ölkəsinin ən ali mükafatları ilə təltif olunmuş Aida Serobyan Kəlbəcər rayonunun işğalı zamanı girov götürdükləri Gülcamal Quliyevanın girovluqda anadan olmuş oğlu Arzu Hacıyevə naməlum tərkibli iynələr vurmuşdur. Sonradan Gülcamal erməni girovluğunda dünyaya gətirdiyi övladı ilə birlikdə azad edilmişdir. Erməni həkimin vurduğu iynələrin nəticəsində Arzu Hacıyev ömürlük şikəst olmuş və 2003-cü ildə dünyasını dəyişmişdir [3].

Yaxın dövrlərə kimi uşaq hüquqlarının müdafiəsi yerli və milli səviyyədə həll edildiyi halda son zamanlar onların problemləri beynəlxalq hüquqda müzakirə predmeti kimi qiymətləndirildi. Daha çox köməyə və diqqətə ehtiyacı olan uşaqlar böyüklərə nisbətən müharibənin və münaqişənin təsirini öz üzərlərində daha çox hiss edirlər. Uşaqlar ailə, cəmiyyət və qanunların təminat verdiyi müdafiədən böyüklərə nisbətən daha çox asılıdırlar. Gələcək nəsillər üçün acı nəticələr verə biləcəyi səbəbindən silahlı münaqişə və müharibələr uşaqların müdafiəsini məhv

edir. Buna görə də silahlı münaqişələr zamanı uşaq hüquqlarının müdafiəsi sahəsində dövlətlərin öhdəlikləri və əməkdaşlıqları beynəlxalq hüququn qarşısında duran ən aktual problemlərdəndir.

Artıq 30 ilə yaxındır ki, Azərbaycan Respublikası Ermənistanla müharibə şəraitində yaşayır. Ərazilərimizin 20 faizinin işğal olunması nəticəsində xalqımız humanitar fəlakətin ən ağır faktoru olan əsir, girov, itkin problemi ilə üz-üzə qalıb. Təbii ki, bu fəlakətdən də ən çox əziyyət çəkən işğal olunmuş ərazilərin sakinləri, xüsusilə də azyaşlılar olub. Bəzilərinin valideynləri, bəzilərinin özləri itkin düşüb. Girov götürülüb, qəbul olunmuş beynəlxalq hüquq normalarına zidd olaraq olmazın işgəncələrə, qeyri-insani rəftara məruz qaldıqdan sonra azad ediliblər. Onlar indiyə kimi psixoloji gərginlik, mənəvi iztirablar içində yaşamaq məcburiyyətindədirlər. Hər bir münaqişə, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində mülki əhaliyə, xüsusilə də məsum uşaqlara qarşı cinayətlər törətmiş canilər cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Əks təqdirdə məsuliyyət dünya dövlətlərinin üzərinə düşür. Günahkarların məsuliyyətə cəlb edilməsi məqsədi ilə dünya dövlətləri ciddi tədbirlər görməlidirlər. Beləliklə, etnik münaqişələr zamanı uşaq hüquqlarının müdafiəsi sahəsindəki boşluqların üzə çıxarılması və bu sahədə təkmilləşmələrə nail olmaq üçün yeni təfsirlərin verilməsinə ehtiyac vardır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Dağlıq Qarabağ problemi: müasir milli-etnik münaqişələr kontekstində /http//azerworld.info/modules/news
2. Dünyanı bürüyən real təhlükə: etnik münaqişələr /www.kitab.az/cgi
3. human.gov.az/az/view- page/27/%C6%8FS%C4%B0R%2C+G%C4%B0ROV+V%C6%8F+%C4%B0TK%C4%B0N +D%C3%9C%C5%EM%C3%9C%C5%9EL%C6%8FR
4. Humanitar Dəhlizdə Həyata Keçirilən Missiya. Bakı, "Qismət", 2013, s.29.- 445 səh.
5. Müharibə Zamanı Mülki Əhalinin Qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara 1977-ci il 8 iyun tarixli Əlavə Protokollar.
6. Orucova E. "Bizi əsirlikdən qurtarın". Bakı-2006, 680 s.
7. Uşaq Hüquqları haqqında Konvensiya http://scfwca.gov.azstore/media/U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20BMT%20Konvensiyas%C4%B1.pdf 34.
8. Дети в чрезвычайных ситуациях /http;//nature/web.ru/db/msg.html?mid=1166666&s=122102000
9. Косолапов Н. Конфликты постсоветского пространства: проблемы дефиниции и типологии //МЭ и МО, 195, № 12, 72 с.
10. ООН и защита гражданских лиц в вооруженном конфликте //www.un.org./russian/hr/civilians/index.html
11. Права человека и вооруженные конфликты: Учебник для вузов /Под ред. В.А.Карташкина. М., 2001, с.1-104 .
12. Санистебан Л.С. Основы политической науки /Перевод с испанского В.Л.Заболотного. М.: М.П.Владан, 1992, 119 с.
13. Сотни тысяч детей систематически используются в преступных целях /http://duhnews.narod.ru/articles/3/2 d030212 children.Html
14. Dareddorf R. Gesellschaft und Freiheit. Munchen, 1965, 122 p.
15. Makili-Aliyev K.Enforcement of ninternational law in the Nagorno-Karabakh Conflict. Tbilisi: UNIVERSAL, 2008, p.206.
16. militera.lib.ru/docs/0/pdf/latvija.pdf
17. undocs.org/pdf?symbol=ru/S/PV.8591

**UOT 34: 341.33**

## ЭТНИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ ЗАЩИТА ПРАВ ДЕТЕЙ:
### в контексте Нагорно-карабахского конфликта

**Оруджева Эсмира Алишан кызы,**
**старший научный сотрудник отдела правового обеспечения государственной безопасности Института права и прав человека НАНА.**
электронная почта: orucovaesmira@mail.ru

Основным предметом исследования является изучение международно-правовых норм, касающихся этнических конфликтов, происходящих в мире, и защиты прав детей, нарушаемых во время данных конфликтов. Согласно фактологическим материалам, в статье представляются правовые объяснения, связанные с защитой прав жителей территорий, оккупированных в результате военной агрессии Армении против Азербайджана, а в частности - детей, ставших жертвами войны, пыток, бесчеловечного обращения и оскорблений, что противоречит принятым нормам международного права.

Наряду с этим, в статье говорится об обязательствах и сотрудничестве государств в области защиты прав ребенка во время вооруженных конфликтов в качестве одной из наиболее актуальных проблем, стоящих перед международным правом.

**Ключевıе слова:** Нагорно-карабахский конфликт, этнический конфликт, права ребенка, вооруженный конфликт, международное право, нормы гуманитарного права, Женевская конвенция, Конвенция о правах ребенка,гражданское население.

**UOT 34: 341.33**

## ETNİK SONUÇLAR ÇOCUK HAKLARININ KORUNMASI:
### Dağlık Karabağ çatışması bağlamında

**Orujova Esmira Alishan kyzy,**
**ANAS Hukuk ve İnsan Hakları Enstitüsü Devlet güvenliğinin yasal destek Bölümü kıdemli araştırmacısı.**
e-posta: orucovaesmira@mail.ru

Makalenin ana odağı, dünyanın çeşitli yerlerindeki etnik çatışmalarla ilgili uluslararası yasal normların incelenmesi ve bu çatışmalarda ihlal edilen çocuk haklarının korunmasıdır.

Makalede sunulan gerçeklere göre, işgal altındaki bölgelerin sakinleri, Ermenistan'ın Azerbaycan'a karşı askeri saldırganlığı sonucu - masum savaş mağduru, işkence, insanlık dışı muamele ve istismarın uluslararası hukuka aykırı olan çocukların haklarının korunması için yasal açıklamalar sağladı.

Ayrıca, devletlerin silahlı çatışmalarda çocuk haklarının korunması alanındaki taahhütleri ve işbirliği, uluslararası hukukun karşılaştığı en acil sorunlardır.

**Anahtar Kelimeler:** Dağlık Karabağ çatışması, etnik çatışma, çocuk hakları, silahlı çatışma, uluslararası hukuk, insancıl hukuk, Cenevre Sözleşmesi, Çocuk Hakları Sözleşmesi, sivil nüfus.

**UOT 34: 341.33**

## ETHNICAL CONSEQUENCES PROTECTION OF CHILDREN'S RIGHTS: In the context of the Nagorno-Karabakh conflict

**OrujovaEsmiraAlishankyzy,**
**Senior Researcher of the Department of Legal Security of State Security of the Institute of Law and Human Rights of ANAS.**
e-mail: orucovaesmira@mail.ru

The main subject of the study is investigated of international legal norms relating to ethnic conflicts occurring in the world, and the protection of the rights of children violated during these conflicts. According to factual materials, the article provides legal explanations related to the protection of the rights of residents of territories occupied as a result of the military aggression of Armenia against Azerbaijan, and in particular - children who have been victims of war, torture, inhuman treatment and insults, which contradicts the accepted norms of international law.

Along with this, the article refers to the obligations and cooperation of states in the field of protecting the rights of the child during armed conflicts as one of the most pressing problems facing international law.

**Key words:** The Nagorno-Karabakh conflict, ethnic conflict,child rights, armed conflict, international law, norms of humanitarian law, Geneva Convention, Convention on the Rights of the Child, civilians.

*UOT 34; 343.53; 343.532*

# QİDA TƏHLÜKƏSİZLİYİNİN CİNAYƏT-HÜQUQİ VASİTƏLƏRLƏ MÜHAFİZƏSİNİN ÜMUMİ XARAKTERİSTİKASI

**İsbəndiyarov Qələndər Köçəri oğlu, Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutu "Cinayət hüququ və Cinayət prosesi" şöbəsinin böyük elmi işçısı.**
e-mail: q.isbandiyarov@gmail.com
tel:+99455 258 51 51.

*Məqalədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 200 və 200-2-ci maddələrinə müvafiq olaraq qida təhlükəsizliyi cinayətinin müqayisəli təhlil metoduna əsaslanaraq bir sıra xarici ölkələrin cinayət qanunlarında pis keyfiyyətli qidaların dövriyyəini qadağan edən və cinayət məsuliyyəti nəzərdə tutan normaların onların cinayət qanunvericiliyinin ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər fəslində təsbit edilməsininelmi nəzəri və elmi təcrübi aspektləri araşdırılır.*

*Pis keyfiyyətli məhsul istehsalının "açıq" və "latent" təhlükəliliyi, yaniqida məhsullarının keyfiyyət problemləri ilə bağlı məlumatlar və müstəqil ekspertlərin əldə etdiyi nəticələr ilə bu cinayətlərin dinamikasına dair rəsmi statistik məlumatlarla müqayisəsi yüksək latentliyin mövcud olmasına əsas verən uyğunsuzluqlar nəzərdən keçirilir və istehlakçı məfhumuna anlayış verilir.*

**Əsas sözlər:** ərzaq təhlükəsizliyi,cinayət-hüquqi vasitələr,keyfiyyətsiz məhsul,ictimai təhlükəsizlik,keyfiyyətsiz qida məhsullarının dövriyyəsi,cinayətlərin dinamikası,müqayisəli təhlil,istehlakçı konsepsiyası, pis keyfiyyətli "açıq" və "latent" məhsul,cinayət məsuliyyəti.

Azərbaycan Respublikasında qida təhlükəsizliyinin bilavasitə cinayət-hüquqi mühafizəsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 200 və 200-2-ci maddələri (2) ilə təmin olunur. CM-in 200.1-ci maddəsi istehlakçıların öz istəyinə uyğun miqdarda, ölçüdə və istehlak xüsusiyyətləri olan mal və xidmətləri əldə etmək hüququna, CM-in 200.3-cü maddəsi isə istehlakçının bilavasitə keyfiyyətli mal əldə etmək hüququna qəsd edən iki müstəqil cinayət tərkibi kimi nəzərdə tutulmuşdur. CM-in 200-2-ci maddəsi Genetik Modifikasiya Olunmuş (bundan sonra-GMO) texnologiyalarının inkişafı ilə bağlı yaranan təhlükəli tendensiyalarla cinayət-hüquqi mübarizə tədbiri olaraq 28 aprel 2015-ci il tarixli qanunla CM-ə əlavə edilmişdir. Hazırki məqalə CM-in 200.1-ci maddəsilə nəzərdə tutulmuş cinayətlərin ümumi səciyyəsinə həsr olunmuşdur.

1996-cı ilin noyabr ayında Romada qida problemləri ilə bağlı keçirilən Dünya Qida Sammitində "qida təhlükəsizliyi" anlayışı "bütün insanların sağlam və aktiv həyat tərzi keçirmələri üçün istənilən vaxt kifayət miqdarda keyfiyyətli qida əldə etmə imkanı"(21)kimi müəyyən edilmişdir. Qida təhlükəsizliyinin

üç əsas kriteriyası fərqləndirilir: qida sabitliyi (istənilən zaman ehtiyaca uyğun qidanın tapılan olması); qida əldə etmək imkanı (qidanın coğrafi, fiziki və maddi cəhətdən əlçatan olması); qidanın keyfiyyəti (insan orqanizminin tələbatlarına uyğun olması, o cümlədən həyat və sağlamlıq üçün təhlükəsizliyi).

Baxılan cinayətlərin bilavasitə əsas obyekti istehsalçı və ya satıcı ilə istehlakçı arasında yaranan iqtisadi münasibətlər kimi müəyyən olunur (6, s.84; 7, s.227). Azərbaycan Respublikası CM-dən fərqli olaraq bir çox ölkələrin cinayət qanunlarında pis keyfiyyətli qidaların dövriyyəsini qadağan edən normalar cinayət qanununun ictimai təhlükəsizlik əleyhinə cinayətlər fəslində yerləşdirilmişdir, məsələn, Rusiya Federasiyası CM-in 318-ci maddəsi (19), Gürcüstan Respublikası CM-in 251-ci maddəsi (15). Fikrimizcə, məsələnin bu cür həlli doğru variant sayılmalıdır. Məsələ ondadır ki, insanların həyat və sağlamlığını təhdid edən qida təhlükəsizliyi cinayətləri zəmin olaraq iqtisadi münasibətlər sferasında törədilsə də, onun ictimai təhlükəliliyinin dərəcəsi istehlakçıların həyat və sağlamlığına zərər vurulması ilə şərtlənir. Müqayisə üçün, iqtisadi münasibətlər zəminində şəxsə aldatma yolu ilə maddi ziyan vurulması dələduzluq (mülkiyyət əleyhinə cinayət) tərkibi yaradır. Analoji məntiqlə, iqtisadi zəmində istehlakçıların həyat və sağlamlığına təhlükə törədilməsi ictimai təhlükəsizlik əleyhinə cinayətlər fəslində yerləşdirilməli və deməli, onun bilavasitə əsas obyekti ictimai təhlükəsizlik olmalıdır.

Pis keyfiyyətli məhsul istehsalının açıq və latent təhlükəliliyini fərqləndirmək lazım gəlir. Pis keyfiyyətli məhsullar bir halda insan sağlamlığında dərhal təhlükəli fəsadlar törətməklə özünü açıq bəlli edirsə, başqa hallarda öz təhlükəliliyini dərhal birüzə vermir. Əksər hallarda istehsalçı və idxalçıları belə əməllərə davamlı olaraq sövq edən də məhz bu amildir ki, onların istehsal və ya idxal etdiyi pis keyfiyyətli məhsul dərhal ağır nəticələrəsəbəb olmur. Lakin aydındır ki, istehlakçının mütəmadi olaraq pis keyfiyyətli yeyinti məhsulları qəbul etməsi orqanizmin tədricən zəhərlənməsinə, ağır xəstəliklər üçün zəmin yaranmasına səbəb olur. Ölkə üzrə səhiyyə statis-tikasında ürək-damar, onkoloji xəstəliklərin, şəkərli diabetin yayğınlığın göstərən rəqəmləri şərh edən əksər ekspertlər həmin xəstəliklərin bu miqyasda yayılmasının əsas səbəbi kimi qida faktorunu qeyd edirlər.

Təhlil olunan əməlin ictimai təhlükəliliyinin digər aspekti onun haqsız rəqabətə yol açması, vicdanlı sahibkarların işinə zərər vurması ilə səciyyələnir. Pis keyfiyyətli, o cümlədən saxta məhsul istehsal edən şəxslər bu fəaliyyətiqanuni çərçivədə (vergi uçotuna durmaq, lisenziya almaq və sair) və ya qanunsuz həyata keçirmələrindən asılı olmayaraq, məhsulu ucuz başa gətirdiyinə görə vicdanlı sahibkarlar qarşısında üstünlüyə malik olur və deməli qiymət rəqabətində onlara üstün gəlirlər. Bu isə vicdanlı sahibkarların gəlirlərinin azalması və sonunda mümkün müflisləşməyə yol açır. Dövriyyədən çıxan hər bir vergi ödəyicisi isə dövlət büdcəsi üçün itki və qanuni məşğulluğun zəifləməsi (işsizlərin sayının artması) deməkdir.

Nəhayət, qida məhsullarının keyfiyyət problemləri ilə bağlı internet resurslarından əldə edilmiş məlumatlar və müstəqil ekspertlərin araşdırma nəticələri ilə bu cinayətlərin dinamikasına dair rəsmi statistik mə-

lumatların (bax: Cədvəl 1) müqayisəsi baxılan sahədə yüksək latentliyin mövcud olmasına əsas verir.

Təhlil olunan cinayətlərdən zərər çəkənlər istehlakçılardır. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il tarixli qanuna əsasən, istehlakçı dedikdə, şəxsi tələbatını ödəmək məqsədi ilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxs nəzərdə tutulur. Qanunun bu cür definisiya verməsi müştəri (alıcı) və istehlakçı anlayışlarını fərqləndirmək zərurəti doğurur. Belə ki, müştəri məhsulu bilavasitə alan şəxs, istehlakçı məhsulu bilavasitə qəbul edən şəxsdir. Əməldən zərər çəkən şəxs həm məhsulu alan şəxsin özü, həm də digər şəxslər (ailə üzvləri, hədiyyə edilmiş şəxs və sair) ola bilər. Fikrimizcə, bu məsələdə Rusiya Federasiyasının analoji qanunvericiliyinin mövqeyi daha dolğun sayılmalıdır. Belə ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqda" 7 fevral 1992-ci il tarixli Rusiya Federasiyasının qanunu istehlakçı anlayışını "mal və xidmətləri şəxsi, ailə, ev və yasahibkarlıq fəaliyyəti istisna olmaqla digər ehtiyaclar üçün sifariş edən, əldə edən şəxs" kimi müəyyən edir (20). Göründüyü kimi, RF qanunvericiliyi bu tərifl ə istehlakçı anlayışını məhsulu öz və ya digər şəxslərin istehlakı üçün əldə edən alıcı (müştəri) anlayışı ilə bərabərləşdirir. Hesab edirik ki, analoji tərif Azərbaycan Respublikasının eyni adlı – "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il tarixli qanununda da təsbit olunmalıdır. Buna görə, hazırkı tədqiqat çərçivəsində"istehlakçı" dedikdə biz mal və xidmətləri özünün və ya digər şəxslərin bilavasitə istehlakı üçün sifariş verən, qiymətini ödəyən və əldə edən hər hansı şəxsi nəzərdə tuturuq.

CM-in 200.1-ci maddəsilə nəzərdə tutulan cinayətin obyektiv cəhəti malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıların xeyli miqdarda aldadılması ilə təzahür edir. Artıq qeyd olunduğu kimi, qida təhlükəsizliyinin kriteriyalarından biri də istehlakçıların öz mülahizəsi ilə lazımi hesab etdiyi miqdar, ölçü və hesabda mal və ya xidmətləri əldə etməsindən ibarətdir. İstehlakçıların bu faktorlardan hər hansı biri üzrə aldadılması o deməkdir ki, istehlakçı öz ehtiyaclarını və xərclərini şəxsi imkanlarına görə planlaşdırmaq imkanından bu və ya digər dərəcədə məhrum edilir. Məsələn, son vaxtlar istehlakçılar supermarketlərin piştaxtalarında olan qiymətlərlə kassa çekində olan qiymətlər arasında fərqin olmasından çox sayda şikayət edirlər. Aydındır ki, istehlakçının öz hesabını piştaxtalarda olan qiymətlərə uyğun götürdüyü halda, kassa çekində daha yüksək məbləğlə qarşılaşması onları çətin vəziyyətə sala bilər. Bu cür cinayətkar fəaliyyət isə, öz növbəsində, cinayətin obyektiv cəhətini təşkil edən hərəkətlərdən birini (hesabda aldatma) təşkil edir.

Malın (xidmətin) ölçüsünə və ya çəkisinə görə aldatma dedikdə, müqavilə şərtlərini, yaxud alqı-satqı münasibətlərində qəbul olunmuş normaları pozmaqla istehlakçının əldə etməyi gözlədiyi miqdar və ya ölçüdə mal və ya xidmətləri əldə edə bilməməsi, yəni istehlakçının haqlı olduğu miqdarın bir qismindən məhrum edilməsi başa düşülür.

Malın (xidmətin) istehlak xüsusiyyətinə görə aldatma, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 19 sentyabr 1995-ci il

tarixli qanunun 13-cü maddəsinə əsasən istehlakçıların mal və xidmətlərin müvafiq parametrləri, xassələri, mənşə ölkəsi, qiyməti və sair lazımi göstəriciləri haqda dolğun məlumat almaq və bu məlumat əsasında öz qərarını müəyyən etmək hüququ qəsdlə səciyyələnir.

CM-in 200.1-ci maddəsinin obyektiv cəhətini təşkil edən hərəkətlər istehlakçılara xeyli miqdarda (300 manatdan artıq) zərərin vurulduğu halda cinayət məsuliyyəti doğurur. İstehlakçının xeyli miqdardan az məbləğdə aldadılması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 447-ci maddəsilə məsuliyyətə səbəb olur. Nəzərə alınmalıdır ki, müvafiq mal və xidmətlərin satışı ilə məşğul olan təşkilatlar və ya fiziki şəxslər istehlakçıların aldadılması ilə mütəmadi məşğul olduqları hallarda davam edən hüquqaziddproses yaranır.Bu cür cinayətkar əməllərisə xeyli sayda istehlakçıların xırda məbləğlərdə aldadılması şəklində həyata keçirildiyindən, istehlakçıların xeyli və ya külli miqdarda (üç min manatdan artıq məbləğdə) aldadılması tərkibini yarada bilir. Məsələn, çox sayda istehlakçı eyni bir müəssisə tərəfindən ayrı-ayrı vaxtlarda aldadıldığına dair müvafiq orqana müraciət etmişdirsə, toplanmış materiallar həmin müəssisənin və ya şəxsin əməlində miqdar əlamətinə görə cinayət tərkibi olduğuna dəlalət edə bilər.

CM-in 200.2-ci maddəsi baxılan əməlin ağırlaşdırıcı hallarını müəyyən edir ki, bunlara aiddir: əməlin təkrarən; qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və külli miqdarda ziyan vurmaqla törədilməsi. Cinayətin təkrarlıq əlamətinin şərtləri CM-in 16-cı maddəsi ilə müəyyən olunur. Həmin maddəyə görə, CM-in eyni bir maddəsi ilə nəzərdə tutulmuş, yaxud CM-in Xüsusi hissəsində birbaşa göstərilən hallarda iki və ya daha çox maddəsi ilə nəzərdə tutulmuş əməllərin iki və ya daha çox dəfə törədilməsi, əgər təqsirkar şəxs əvvəl törətdiyi cinayətə görə məhkum olunmamış, məhkumluğu götürülməmiş və ya ödənilməmiş, yaxud cinayət məsuliyyətindən azad olunmamışdırsa, təkrarlıq əlaməti yaradır. İstehlakçıları aldatma davam edən cinayətdir, yəni vahid qəsdlə əhatə olunmaqla eynicinsli hərəkətlərdən ibarət olduğundan, onun ayrı-ayrı epizodları təkrarlıq əlaməti yaratmır. Lakin ayrı-ayrı istehlakçıların aldadılması yekun nəticədə istehlakçılara üç min manatdan artıq məbləğdə ziyan vurulmasında ifadə olunursa, bu fakt əməlin ağırlaşdırıcı hal üzrə (CM-in 200.2.3-cü maddəsi) tövsifinitələb edir.

Mal satan və ya əhaliyə xidmət göstərən təşkilatlar tərəfindən istehlakçıların aldadılması əksər hallarda qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə əlamətini yaradır. Belə ki, əksər hallarda müəssisə rəhbərliyi, maddi məsul şəxslər, satış menecerləri və satıcılar istehlakçıların aldadılmasına dair ümumi razılığa əsasən fəaliyyət göstərirlər. Belə hallarda iştirakçıların əməlinin tövsifində CM-in 34-cü maddəsinə istinad olunmur, onların əməli CM-in 200.2.1-ci maddəsilə əhatə olunur.

Cinayətin subyekti 16 yaşa çatmış anlaqlı şəxs ola bilər. Subyekt xüsusidir - mal satan və ya əhaliyə xidmət göstərən təşkilatlar, yaxud ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər. Lakin həmin sahəyə aidpraktikanın öyrənilməsi əksər istehlakçıların qanunsuz sahibkarlıq çərçivəsində aldadılmasının da geniş yayılmış olduğunu göstərir. Buna görə, hesab edirik

ki, CM-in 200.1-ci maddəsinin subyekti ümumiləşdirilməli, qanunsuz sahibkarlıq fəaliyyəti həyata keçirən şəxslər tərəfindən istehlakçıların aldadılması müvafiq şərtlər daxilində CM-in 192 (qanunsuz sahibkarlıq) və 200-cü maddələri ilə məcmu tövsif edilməldir.

Cinayətin subyektiv cəhəti birbaşa qəsdlə səciyyələnir. Mal satan və ya əhaliyə xidmət göstərən təşkilatların rəhbərliyi və ya məsul işçiləri, habelə ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər istehlakçıları aldatdığını bilir və bunu arzu edir.Cinayətin əsas motivi tamah niyyətidir.

CM-in 200.3-cü maddəsi müstəqil cinayət tərkibi müəyyən edir. Bu cinayətin də bilavasitə əsas obyekti iqtisadi fəaliyyət sahəsində yaranan münasibətlərdir. Əlavə obyekt qismində istehlakçıların həyat və sağlamlığı (9, s.77; 11, s. 65), əmlak mənafeləri, habelə müvafiq sektorda (sahədə) fəaliyyət göstərən vicdanlı sahibkarların iqtisadi maraqları (iqtisadi mənafeləri) cinayətkar qəsdə məruz qalır.

Qida təhlükəsizliyi sahəsində törədilən cinayətlərin CM-in 200.3-cü maddəsilə əhatə olunduğunu tam, hərtərəfli və dürüst müəyyən etmək üçün, həmin cinayətin əlavə obyektləri dəqiq müəyyən edilməlidir, əks halda, cinayətlərin tövsifi praktikasında səhvlərin olması qaçılmazdır. Bəzi müəlliflər bu cinayət bir obyekti əməl kimi qiymətləndirərək qeyd edirlər ki, onun fakultativ və əlavə obyektlərinin fərqləndirilməsi süni problemlərə yol açır (8, s.96; 10, s.57).Fikrimizcə, məsələyə bu cür yanaşma doğru sayıla bilməz. Belə olan halda, məsələn, ehtyatsızlıqdan zərərçəkmişin ölümünə səbəb olan pis keyfiyyətli qidanın istehsal və ya satışını CM-in 200.4-cü maddəsi ilə yanaşı CM-in 124-cü maddəsi ilə məcmu halda tövsif etmək lazım gələrdi. CM-in 200.4-cü maddəsi ehtiyatsızlıqdan insan ölümünə dair xüsusi normadır. Ümumi qaydaya görə, xüsusi normanın tətbiqi ümumi normanın tövsifə qoşulmasını istisna edir. Bundan başqa, xüsusi normalar ümumi normanın təsbit edildiyi Cinayət Məcəlləsinin fəslindən fərqli fəsillərində müəyyən olunur. Belə hallarda cinayətin bilavasitə əsas obyekti xüsusi normanın yerləşdiyi CM fəslinə, fakultativ və ya əlavə obyekti isə ümumi normanın təsbit olunduğu fəslə əsasən müəyyən olunur.

Cinayət əməlinin zərər vurduğu ayrı-ayrı ictimai münasibətlərin tam müəyyən edilməsi sayəsində tövsifin dolğunluğuna nail oluna bilər. Yalnız bundan sonra konkret cinayətin CM-in 200.3-cü maddəsinin dispozisiyası ilə əhatə olunub-olunmadığını qət etmək mümkündür. Məsələn, qida təhlükəsizliyinin pozulması ilə bağlı cinayətlər bəzi hallarda saxta sənəd dövriyyəsi, vəzifəli şəxslərin öz qulluq mövqeyindən sui-istifadəsi kimi cinayətlərlə müşayiət olunur ki, belə cinayət əməllərinə ayrıca hüquqi qiymət vermək lazım gəlir. Bir çox ölkələrin cinayət qanunvericiliyində qida təhlükəsizliyi ilə bağlı sənəd saxtalaşdırılması və ya vəzifə cinayətləri qida təhlükəsizliyinə görə məsuliyyət müəyyən edən normalara bilavasitə daxil edilmişdir. Məsələn, Qazaxstan Respublikası CM-in 306-cı maddəsi ("Təhlükəsizlik tələblərinə cavab verməyən məhsulların buraxılışı və ya satışı, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi") belə məhsul, iş və xidmətlər üçün qanunsuz olaraq uyğunluq sənədlərinin verilməsi və bu sənədlərin isti-

fadəsini cinayət tərkibinə daxil etmişdir (17). Aydındır ki, belə olan halda sənəd saxtakarlığına görə məsuliyyət müəyyən edən ümumi normaya müraciət etməyə ehtiyac qalmır.

Cinayətin predmeti pis keyfiyyətli qida məhsuludur. Qidaməhsulu həm insan əməyi ilə becərilərək, emal olunaraq və ya hazırlanaraq, həm də təbiətdən hazır şəkildə əldə olunaraq istehlakçılara çatdırıla bilər.“Qida təhlükəsizliyi haqqında” qanun layihəsində qida məhsulu aşağıdakı kimi müəyyən olunur: insanların qidalanması üçün nəzərdə tutulan emal olunmamış, yarımemal olunmuş və ya tam emal olunmuş məhsullar, o cümlədən xüsusi təyinatlı qida məhsulları, qida əlavələri, bioloji aktiv qida maddələri, qida xammalı, içkilər (spirtli və spirtsiz), içməli su (qablaşdırılmış), saqqız və qida məhsullarının ilkin istehsalı və emalı zamanı qida məhsullarına əlavə edilən su və digər maddələr. Bu anlayışa yem məhsulları, insan istehlakı üçün nəzərdə tutulmamış diri heyvanlar, məhsulun yığımına qədər bitkilər, dərman vasitələri, ətriyyat-kosmetik vasitələr, tütün və tütün məhsulları, narkotik və psixotrop maddələr və çirkləndirici maddələr daxil deyil (22).

Məhsulun keyfiyyətinə dair ümumi tələblər “İstehlakçıların hüquqlarının qorunması haqqında” 19 sentyabr 1995-ci il tarixli (3), “Yeyinti məhsulları haqqında”18 noyabr 1999-cu il tarixli (5), “Standarlaşdırma haqqında” 17 may 2019-cu il tarixli qanun (4) və müvafiq orqanların sahə aktları ilə tənzim olunur. Lakin bu qanunların heç birində “pis keyfiyyətli məhsul” anlayışı konkret formulə edilməmişdir. Bununla belə, Azərbaycan Respublikasının “Yeyinti məhsulları haqqında” qanununun 16-cı maddəsi istifadəyə yararsızlığın kriteriyalarını aşağıdakı kimi müəyyən edir:

– qida təhlükəsizliyi sahəsində müvafiq texniki normativ hüquqi aktlarla müəyyən olunmuş təhlükəsizlik və minimum keyfiyyət tələblərinə cavab verməyən;

– üzərində aşkar istifadəyə yararsızlıq əlamətləri (korlanma, dağılma, zədələnmə) müşahidə edilən;

– mənşəyi məlum olmayan, saxtalaşdırılmış;

– üzərində saxlanma müddəti göstərilməyən və ya saxlama müddəti ötmüş;

– markalanmasına dair məcburi tələblərə cavab verməyən(5).

Həmin qanunun 1-ci maddəsinə əsasən, yeyinti məhsullarının minimum keyfiyyəti – yeyinti məhsullarının insanların istifadəsinə yararlı olmasına zəmanət verən orqanaleptik, fiziki və (və ya) kimyəvi xüsusiyyətlərin məcmuyudur.

Qeyd edək ki, “Qida təhlükəsizliyi haqqında” qanun lahiyəsinin 11-ci maddəsi qida təhlükəsizliyinə dair tələbləri daha əhatəli şəkildə müəyyən etməklə, eyni zamanda, keyfiyyətsiz qida anlayışını da formulə etməyə imkan verir. Belə ki, həmin qanun lahiyəsinin normalarına əsasən, aşağıdakı hallarda qida məhsulu təhlükəli hesab olunmalıdır:

– qida məhsulları indiki, habelə gələcək nəsillərin həyat və sağlamlığı üçün qısamüddətli və ya uzunmüddətli dövrdə birbaşa və ya dolayı yolla zərərli olduqda;

– qida məhsulları aşkar korlanma, dağılma, çürümə əlamətlərinin olması, habelə tərkibindəki radioloji, toksikoloji, fiziki, kimyəvi və mikrobioloji maddələrin və onların birləşmələrinin qalıq səviyyəsi qida təhlükəsizliyi

sahəsində texniki normativ hüquqi aktlarda müəyyən edilən səviyyədən artıq olması səbəbindən insan istehlakı üçün yararsız olduqda;

– qida məhsullarının tərkibində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarla qadağan olunmuş inqrediyentlər aşkarlandıqda.

Əlamətdar haldır ki, yeni qanun lahiyəsində "pis keyfiyyətli", "keyfiyyətsiz" və ya "yararsız" məfhumları deyil, məhz "təhlükəli qida" anlayışı istifadə olunur.

Cinayətin obyektiv cəhəti pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi üzündən zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasında ifadə olunur. İstehlakçıları aldatmaqla onlara pis keyfiyyətli məhsul satılması CM-in 200.3-cü maddəsində göstərilən nəticələri doğurmadığı və üç yüz manatdan yuxarı məbləğdə ziyan vurulması ilə törədildiyi hallarda əməl CM-in 200.1-ci maddəsi ilə tövsif edilir. Qeyd olunan nəticələrin baş verməsi məbləğdən asılı olmayaraq CM-in 200.3-cü maddəsinin tərkibini yaradır.

Cinayətin obyektiv cəhəti bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya satışı qismində hərəkətlərin hər hansı biri ilə yaranır.

Məhsul istehsalı dedikdə, istehsal prosesinin tam başa çatması, məhsulun satış və ya tədarük üçün tam hazır vəziyyətə gətirilməsi nəzərdə tutulur. İstehsal prosesi tam başa çatmadan məhsulda hər hansı qüsurun olması məsuliyyət predmeti deyildir, belə ki, həmin qüsurlar istehsalın sonraklı mərhələlərində aradan qaldırıla bilər. Digər tərəfdən, istehsalçının anbarına pis keyfiyyətli hazır məhsulun olması da özlüyündə məsuliyyət predmeti deyildir. İstehsalçı bu məhsulu satışa buraxmaq niyyətində olmaya, utilizasiya üçün ayırmış ola bilər. Bunun əksini yalnız birbaşa dəlillərlə sübut etmək mümkündür.

Texnoloji tərəqqi, xüsusən kimya sənayesinin sürətli tərəqqisi qida məhsulları sahəsində də təhlükənin miqyasını ildən-ilə böyütməkdədir. Qidalara xüsusi tam, rəng, qoxu və sair istehlak xüsusiyyətləri vermək, bununla da məhsulun mal görünüşünü, cəlbediciliyini artırmaq üçün istehsalçılar bəzi hallarda təhlükəli üsullara əl atırlar, yəni istehsal prosesində onlardan istifadə edirlər. Azərbaycan Respublikası CM-in hazırkı redaksiyasında bu əməlin qabaqcıl dünya praktikasına uyğun tövsif edilməsi üçün normanın olmadığı bir daha qeyd olunmalıdır.

Məhsulun satışa buraxılması – onun tədarük üçün yüklənməsi, satış üçün yola salınması, distrübütorlara təhvil verilməsi və sair bu kimi satış niyyətinə dəlalət edən hərəkətləri nəzərdə tutur. Məhsulun artıq satışda olması istehsal sexlərində növbəti partiyaların hazırlanmasının məhz satış üçün nəzərdə tutulduğuna dəlalət edir.

Məhsulun satışı – onun istehsalçının anbarından alıcıya təqdim edilməsi, yaxud topdan və ya pərakəndə satış mağazalarından realizasiya olunması deməkdir. İstənilən halda, CM-in 200.3-cü maddəsində göstərilən nəticələrin baş verməsi üçün məhsul müştəri tərəfindən alınmalı və istehlak olunmalıdır. Konkret kriminal nəticənin baş vermədiyi hallarda, pis keyfiyyətli məhsulun istehsalı, satışa buraxılması və ya satılması Azərbaycan Respublikası İXM-in 447-ci maddəsilə inzibati məsuliyyətə səbəb olur.

Həmçinin nəzərə alınmalıdır ki, AR CM-in təhlil olunan normaları özlüyündə pis keyfiyyətli məhsul istehsalı və satışına qarşı

deyildir. Məsələn, yararlılıq müddəti keçmiş un məmulatları adətən heyvan yemi kimi istifadə olunmaq üçün alınır. İstehsalçı müəssisə keyfiyyəti pisləşmiş məhsulu alıcılara heyvan yemi, gübrə qismində və sair məqsədlərlə istifadə olunmaq üçün təkilf edə bilər. Məhz buna görə, AR CM-in 200.3-cü maddəsinə zəruri şərt daxil edilmişdir – malın keyfiyyətsiz olmasının gizlədilməsi. "İstehlakçıların hüquqlarının qorunması haqqında" 19 sentyabr 1995-ci il tarixli qanunun 13-cü maddəsinə əsasən istehlakçının mal və ya xidmət barədə zəruri və düzgün məlumat almaq hüququ vardır və bu məlumatı vermək istehsalçının və ya satıcının vəzifəsidir. Həmçinin nəzərə alınmalıdır ki, əksər hallarda müştərilər məhsulun keyfiyyəti ilə maraqlanmadan adəti üzrə onu əldə edirlər. Bu zaman satıcının susması da aldatma hesab olunur. Yəni, aldatma həm aktiv, həm passiv yollarla törədilə bilər.

Pis keyfiyyətli məhsul istehsalı uzanan və ya davam edən əməl şəklində təzahür edə bilər. Pis keyfiyyətli məhsul daimi işləyən sexdə və ya başqa istehsal obyektində sənaye üsulu ilə, yaxud ev şəraitində kustar üsulla hər hansı dövr ərzində hazırlanır. Bu cür cinayət əməlləri AR CM-in 200-cü maddəsinin tərkibini yaratmadığı hallarda AR İXM-in 447-ci maddəsilə inzibati məsuliyyətə səbəb olur. AR CM-in 200.3-cü maddəsində göstərilən nəticələrin baş verdiyi hallarda istehsal və ya satışın hansı həcmdə həyata keçirilməsi əhəmiyyət kəsb etmir. Belə cinayət əməlləri zərərçəkmişin sağlamlığına az ağır və ya ağır zərər vurulduğu anda başa çatmış sayılır. Belə nəticələr baş vermədən, əməlin hansı həcmdə törədilməsindən asılı olmayaraq, AR CM-in 200.3-cü maddəsilə məsuliyyət yaranmır.

Qeyd edək ki, əksər ölkələrin qanunvericiliyi belə əməlləri xüsusi qaydada kriminallaşdırır. Məsələn, Gürcüstan Respublikasının CM-in "Saxtalaşdırma" adlanan 197-ci maddəsi aldatma yolu ilə saxta məhsul istehsalına görə ayrıca məsuliyyət müəyyən edir. Bu maddənin 3-cü bəndinə əsasən, eyni əməllərin insan həyat və sağlamlığı üçün təhlükə törədə bilməsinə görə beş ildən yeddi ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Başqa sözlə, bu əməllərin kriminal sayılması üçün insan sağlamlığına faktiki zərər vurulması tələb olunmur, belə zərərin real olma imkanı özlüyündə cinayət məsuliyyətinin yaranmasına kifayətdir. Əməlin insan ölümü və ya digər ağır nəticələrə səbəb olmasına görə qeyd olunan maddənin 4-cü bəndi ilə yeddi ildən on ilədək müddətə azadlıqdan məhrumetmə cəzası müəyyən edilmişdir (15). Göründüyü kimi, qonşu ölkədə qida təhlükəsizliyi ilə bağlı cinayətlər kifayət qədər sərt cəzalarla təhdid olunur. Müqayisə etibarı ilə, AR CM-in çox yumşaq mövqedə olması qeyd olunmalıdır. Təbii ki, təkcə cinayət cəzalarını gücləndirməklə qida təhlükəsizliyi sahəsində yüksək nəticələr əldə etmək mümkün deyil. Bununla belə, əksər ölkələrin təcrübəsində olduğu kimi, pis keyfiyyətli qidaların dövriyyəsinin potensial təhlükəliliyinə görəkifayət qədər sərt cəzalar olmalıdır.

Məsələn, Bolqarıstan Respublikası CM-in 350-ci maddəsinə əsasən, ümumi istifadəyə yönələn qida məhsulları və içkiləri onların tərkibinə sağlamlıq üçün təhlükəli maddələrin düşməsi və ya tərkibdə belə maddələrin yaranmasına səbəb olan üsullarla istehsal edənlər, habelə belə məhsulları satanlar, satışa təklif edənlər və ya başqa üsulla dövriyyəyə buraxanlar beş ilədək azadlıqdan məhrum

etmə ilə cəzalandırılır (14). Almaniya CM-in 314-cü maddəsinə uyğun olaraq, ictimai satış və ya istehlak üçün nəzərdə tutulan predmetləri zəhərləyənvə ya onların tərkibinə sağlamlıq üçün təhlükəli maddələr qatan, yaxud belə predmetləri satan və ya digər üsulla dövriyyəyə buraxan şəxslər bir ildən 10 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır (12). Argentina Respublikası CM-in 200-cü maddəsiictimai istehlak və ya kollektiv istifadə üçün nəzərdə tutulan içməli suyu, qida və ya dərman ləvazimatlarını sağlamlıq üçün təhlükəli üsulla zəhərləmə və ya saxtalaşdırmağa görə 3 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edir (13). Norveç CM-in 153-cü maddəsinə əsasən,ümumi istifadə və ya satış üçün nəzərdə tutulan məhsullara zəhərləyici və ya digər təhlükəli vasitələr qatılması, əgər həmin məhsulların öz təyinatı üzrə istifadəsi insan ölümü və ya sağlamlığına zərər vurulmasını labüd edirsə, yaxud digər üsulla zəhərlənmə törədərək həyat və sağlamlıq üçün təhlükə doğurur və ya buna səbəb olursa,21 ilədək müddətə azadlıqdan məhrum etmə cəzasına səbəb ola bilər(18). Fransa CM-in 221-5-ci maddəsi analoji əməllərə görə 30 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutur (16).

Ümumilikdə, dünya ölkələrin qida təhlükəsizliyi ilə cinayət-hüquqi mübarizə praktikasının müqayisəli təhlilindən aşağıdakı nəticələr hasil olur:

– qabaqcıl ölkələrin təcrübəsində təhlükəli qida istehsalı və ya realizəsinin insan həyat və sağlamlığına zərər vurmaq təhlükəsinin olması özlüyündə cinayət məsuliyyətinin yaranması üçün əsasdır;

– pis keyfiyyətli qidaların insan həyat və sağlamlığına zərər vurmasına görə AR CM-lə müqayisədədaha ciddi cəzalar nəzərdə tutulmuşdur;

– cəzaların ciddi olması hüquq subyektlərinin nəzərində bu cür əməllərin yüksək ictimai təhlükəliliyinin başa düşülməsi üçün şərtdir.

Son bir neçə ildə aşkarlanmış cinayətlərin tövsif praktikasından məlum olur ki, AR CM-də Gürcüstan Respublikasının CM-in 197-ci maddəsinə analoji normanın olmaması səbəbindən istintaq orqanları CM-in 313-cü maddəsinə istinad etməli olurlar. Halbuki qida təhlükəsizliyi ilə bağlı vəzifə səlahiyyətlərindən sui-istifadə, sənəd saxtakarlığı və digər bu kimi əməllərin Gürcüstan, Qazaxıstan Respublikalarının və Rusiya Federasiyası cinayət qanunvericiliyinin misalında olduğu kimi, vahid norma ilə əhatə olunması məqbuldur.

Buna görə, AR CM-in İqtisadi fəaliyyət sahəsində cinayətlər fəslinə aşağıdakı məzmunda 193-2-ci maddənin əlavə edilməsini məqsədəuyğun hesab edirik:

**“Qida məhsullarına dair məlumatları saxtalaşdırma**

193-2.1. İstehsalçı və ya satıcı tərəfindən qida məhsullarının keyfiyyətinə və ya istehlak xüsusiyyətlərinə dair yanlış məlumatların təqdim edilməsi, habelə müvafiq orqanlar tərəfindən belə məlumatların doğruluğunu təsdiq edən rəsmi sənədlərin verilməsi, tamah niyyətilə törədildikdə - ...

193-2.2. Eyni əməllər insanların həyat və sağlamlığı üçün təhlükəli olduqda – ...

193-2.3. Eyni əməllər insan sağlamlığna zərər vurulmasına və ya digər ağır nəticələrə səbəb olduqda – ...”.

Xatırladaq ki, dərman vasitələrinin qanunsuz dövriyyəsini nəzərdə tutan AR CM-

in 200-2-ci maddəsində cinayət tərkibi məhz bu cür qurulmuşdur.Hesab edirik ki, həmin maddənin nümunəsində analoji normalar həmçinin qida məhsulları ilə bağlıtəsbit edilməlidir.

CM-in 200.3-cü maddəsi insan sağlamlığına az ağır və ya ağır zərər vurulmasına görə məsuliyyət müəyyən etsə də, zəhərlənmə hallarının əksəriyyətində zərərçəkmiş şəxslər sağlamlığa yüngül zərərvə ya zərər sayılmayan sağlamlıq pozuntularına məruz qalırlar. Ölkə üzrə rəsmi statistik məlumatlardan il ərzində zəhərlənmə hallarının, zərər çəkənlərin və ölüm hallarının sayı barədə məlumat almaq mümkündür. Zəhərlənməyə məruz qalan digər şəxslərin sağlamlığına hansı dərəcəli zərər vurulması barədə açıq resurslardan məlumat tapmaq isə mümkün olmamışdır. Fikrimizcə, pis keyfiyyətli qidaların törətdiyi ictimai təhlükəli nəticələrə görə cinayət məsuliyyəti zərərin dərəcəsinə görə qradasiya olunmalıdır. Bu məsələdə Gürcüstan və ya Qazaxstanın Respublikalarının cinayət qanunlarındaolduğu kimi üç pilləli qradasiyanı məqbul hesab edirik: 1) insan sağlamlığına yüngül və ya az ağır zərər vurulması; 2) ağır zərərin vurulması; 3) insan ölümü və ya digər ağır nəticələr müvafiq olaraq cinayəti ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı halları kimi nəzərdə tutulmalıdır.

Məsələn, Qazaxstan CM-in 306-cı maddəsi pis keyfiyyətli qidaların sağlamlığa hər hansı dərəcədən ziyan vurulmasını kriminallaşdırmaqla, xəsarət dərəcəsinə uyğun olaraq cinayət məsuliyyətini differensiasiya etmişdir. Tərəfimizdən son illərin mətbuatında nəzərdən keçirilmiş zəhərlənmə hallarının əksəriyyətində zərərşəkmiş şəxslərin ilkin tibbi yardımla xilas edildiyi qeyd olunur. Adətən, belə xəbərlərdə hüquqmühafizə orqanlarının araşdırmaya başladığı, bəzi üzrə cinayət işinin başlandığı qeyd olunsa da, konkret işin sonrakı aqibəti barədə internet resurslarından məlumat tapmaq olmur. Kütləvi informasiya vasitələrinin ciddi işlədiyi ölkələrdə mətbuat orqanları belə işləri nəzarətə götürür, rəsmi araşdırmanın nəticələri barədə ictimaiyyətə məlumat verirlər. Analoji praktika ölkəmizdə mövcud olmadığından, biz konkret hadisələrlə bağlı cinayət işinin başlanması, başlanmış cinayət işlərinin nə ilə nəticələnməsi haqda asanlıqla məlumat əldə edə bilmirik. Bu vəziyyət sadəcə müstəqil tədqiqatçıların işinin çətinləşdirmir, həm də cinayətkarlığın profilaktikası işinə xələl yetirir. Belə ki, bilə-bilə təhlükəli qida istiehsal edən və ya satan hüquqi və fiziki şəxslərin məsuliyyətə cəlb edilməsi, cəzalandırılması haqda xəbərlər digər şəxslər tərəfindən analoji cinayətlərin törədilməsinə qarşı preventiv rol oynamalıdır.

Fikrimizcə, kütləvi qida zəhərlənməsi hallarında bütün aidiyyatlı dövlət orqanlarının birgə komissiya şəklində araşdırma aparması təmin edilməlidir. Zəhərlənmənin səbəbi (zəhərlənməyə səbəb olan toksik maddələr və ya mikroorqanizmlər, onların qidanın tərkibinə hansı üsulla düşməsi və sair) konkret müəyyən edilməli, belə hallar gələcəkdə təkrarlanmaması üçün zəhərlənmənin səbəbi köklü şəkildə aradan qaldırılmalıdır.

Cinayətin subyekti pis keyfiyyətli məhsul istehsalı, satışı və ya xidmət göstərilməsini həyata keçirən, 16 yaşa çatmış anlaqlı şəxs ola bilər.

Pis keyfiyyətli məhsul istehsalı və ya satışına görə məsuliyyətin yaranması üçün şəxs məhsulun pis keyfiyyətli olduğunu bil-

məli, buna baxmayaraq, həmin məhsulu realizə etmək niyyəti ilə hərəkət etmiş olmalıdır. Cinayət tamah motivi ilə törədilir. Nəticələrə münasibətdə şəxsin təqsiri ehtiyatsızlıq formasında təzahür edir. Şəxs ictimai təhlükəli nəticələrin baş verəcəyini lazımi diqqət və ehtiyatlılıq göstərməklə görməli olduğu halda belə nəticələrin baş verəcəyini görmür.

Pis keyfiyyətli məhsul istehsalı və ya satışı bir neçə şəxs tərəfindən razılaşdırılmış qaydada və ya mütəşəkkil şəkildə həyata keçirildikdə qrup əlaməti cəzanı ağırlaşdıran hal kimi nəzərə alınır. Belə ki, CM-in 200-cü maddəsində pis keyfiyyətli məhsul istehsalı və ya satışına münasibətdə qrup əlaməti cinayətin ağırlaşdırıcı halı kimi müəyyən edilməmişdir.

Qida təhlükəsizliyi sahəsində qabaqcıl ölkələrin təcrübəsinin müqayisəli öyrənilməsi göstərir ki, bu sahədə qanunçuluğa nail olmaq üçün hüquqi məsuliyyət tədbirlərini gücləndirmək və onun dönməzliyini təmin etməklə yanaşı, əhali arasında ümumi maarifləndirmə işlərinin aparılmasına, mal və xidmət sferasında çalışan insanların hüquq mədəniyyəti və hüquq düşüncəsinin yüksəldilməsinə ciddi ehtiyac var. Statistikadan göründüyü kimi, qidadan zəhərlənmə hallarının bir çoxu məişət zəminində (əhalinin şəxsi istehlak üçün hazırladığı konservlər, hisə verilmiş məhsullar və sair) baş verdiyindən, televiziya və internet resursları vasitəsilə belə məhsulların təhlükəsiz hazırlanması üsullarına dair maarifləndirmənin aparılması vacibdir. Qabaqcıl ölkələrin cari və tarixi təcrübəsiqida təhlükəsizliyini təmin etməyin əsas vasitəsinin məhz qabaqlayıcı tədbirlər olduğunu göstərir. Müvafiq orqanlar tərəfindən istehsal və satış prosesinə, xidmət sferasına, xüsusən ictimai iaşə müəssisələrində xidmətin keyfiyyətinə daimi nəzarət, qüsurların vaxtında müəyyən edilib aradan qaldırılması, yüksək texnologiyalara əsaslanan laborator müayinələr, istehlakçılarla fəal əlaqələr, müraciətlərə operativ baxış bu sahədə təhlükəsizliyin təmin edilməsi üçün təməl şərtlərdir.

Qida təhlükəsizliyi sahəsində cinayət-hüquqi məsuliyyətin gücləndirilməsi qabaqcıl ölkələrin təcrübəsi ilə yanaşı, aşağıdakı yerli reallıqlarla əsaslandırılır:

– qida təhlükəsizliyi tələblərinə riayət olunmaması ilə bağlı əməllərin geniş yayılmış olması;

– azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalarla belə əməllərə qarşı mübarizənin effektiv olmaması.

Tədqiqat işində qida təhlükəsizliyinin mühafizəsi sahəsində cinayət hüquq normalarının təkmilləşdirilməsinə ehtiyac olması həm cari reallıqlar, həm də qabaqcıl ölkələrin analoji qanunvericiliyinə müqayisəli istinadlar etməklə əsaslandırılmışdır.

Qida məhsulları sahəsində saxtakarlığın geniş yayılmasını nəzərə alaraq, CM-in "İqtisadi fəaliyyət sahəsində cinayətlər" fəslinə aşağıdakı məzmunda yeni maddənin əlavə olunması məqsədəuyğun sayılmışdır:

**"Maddə 193-2. Qida məhsullarına dair məlumatları saxtalaşdırma**

193-2.1. İstehsalçı və ya satıcı tərəfindən qida məhsullarının keyfiyyətinə və ya istehlak xüsusiyyətlərinə dair yanlış məlumatların təqdim edilməsi, habelə müvafiq dövlət orqanları tərəfindən belə məlumatların doğruluğunu təsdiq edən rəsmi sənədlərin verilməsi, tamah niyyətilə törədildikdə – ...

**Cədvəl 1**

| İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehasal etmə və satma | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cinayətlərin sayı** | 21 | 10 | 19 | 10 | 6 | 13 | 14 | 11 | 22 | 8 | 18 |
| İqtisadi cinayətlərin ümumi | 3.8 | 1.6 | 1.9 | 1.2 | 0.9 | 1.2 | 0.9 | 0.4 | 2.4 | 0.8 | 1.5 |
| **Cinayət törətmiş şəxslərin sayı** | 14 | 12 | 9 | 6 | 4 | 16 | 13 | 10 | 7 | 5 | 6 |
| Cins tərkibi (faizlə): **kişilər** | 87,4 | 92,0 | 92,9 | 92,6 | 91,4 | 93,5 | 92,7 | 92,4 | 92,0 | 92,3 | 94,9 |
| **Qadınlar** | 12,6 | 8,0 | 7,1 | 7,4 | 8,6 | 6,5 | 7,3 | 7,6 | 8,0 | 7,7 | 5,1 |
| **Cinayət məsuliyyətinə cəlb** | 13 | 12 | 9 | 6 | 3 | 13 | 12 | 8 | 7 | 3 | 6 |
| Cinayət məsuliyyətinə cəlb | | | | | | | | | | | |
| **14-17 yaşda** | - | - | 4 | - | - | 1 | - | 4 | 2 | 2 | 1 |
| **18-24 yaşda** | 11 | 35 | 33 | 33 | 24 | 34 | 32 | 93 | 53 | 39 | 33 |
| **25-29 yaşda** | 44 | 53 | 41 | 44 | 53 | 63 | 83 | 137 | 93 | 69 | 60 |
| **30 yaş və yuxarı** | 382 | 361 | 319 | 420 | 425 | 473 | 540 | 917 | 541 | 475 | 412 |

193-2.2. Eyni əməllər insanların həyat və sağlamlığı üçün təhlükə törətdikdə – ...”.

İstinad olunan ölkələrin təcrübəsinə əsaslanaraq, pis keyfiyyətli qida dövriyyəsi ilə bağlı cinayətlərin iqtisadi cinayətlər fəslində deyil, İctimai təhlükəsizlik əleyhinə cinayətlər fəslində, aşağıdakı məzmunda nəzərdə tutulması məqsədəuyğun sayılmışdır:

**“Qida təhlükəsizliyi tələblərinə cavab verməyən məhsulların istehsalı və ya satışı**

Qida təhlükəsizliyi tələblərinə cavab verməyən məhsulların istehsalı, emalı, satış üçün buraxılması və ya satışı, yaxud xidmətlərin göstərilməsi, habelə belə məhsul və xidmətlərə dair uyğunluq sənədlərinin verilməsi vəistifadəsi, insan sağlamlığına yüngül və ya az ağır zərər vurulması təhlükəsi törətdikdə – ...

Eyni əməllər insan sağlamlığına yüngül və ya az ağır zərər vurulmasına səbəb olduqda – ...

Eyni əməllər sağlamlığa ağır zərər vurulması və ya digər ağır nəticələrə səbəb olduqda – ...”.

Təklif olunan normaların qəbul edildiyi təqdirdə, təhlükəli qida dövriyyəsi ilə bağlı cinayət əməlləri vahid normalarla əhatə olunacaq, bununla da, hüquqmühafizə orqanları və məhkəmələr vəzifə cinayətlərinə dair ümumi normalara istinad etmək məcburiyyətində qalmayacaqlar. Bundan əlavə, yeni normalarda cəza sanksiyaları (xüsusən, cərimə cəza sanksiyaları) iqtisadi subyektlərə lazımi səviyyədə çəkindirici təsir göstərməsi və ümumiyyətlə, ictimaiyyətin nəzərində belə əməllərin xüsusi təhlükəli olduğuna dair anlayış yaranması üçün kifayət edəcək dərəcədə sərt olmalıdır.

### İstifadə olunmuş ədəbiyyat

### Azərbaycan Respublikasının normativ aktları


1.Azərbaycan Respublikasının Konstitusiyası / http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının 1999-cu il tarixli Cinayət Məcəlləsi / http://e-qanun.az/code/11
3.“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının 19 sentyabr 1995-ci il tarixli Qanunu / http://www.e-qanun.az/framework/9479
4.“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının 17 may 2019-cu il il tarixli Qanunu / http://www.e-qanun.az/framework/42881
5.“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının 18 noyabr 1999-cu il tarixli Qanunu / http://www.e-qanun.az/framework/98


### Xüsusi ədəbiyyat


6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. CM-in 190-353-cü maddələrinin şərhi. Bakı, Hüquq Yayın Evi, 2018. – 800 s.
7. İmanlı M.N. Cinayət hüququ. Xüsusi hissə. Bakı, 2019. – 768 s.
8. Агафонов А.В. Уголовная ответственность за производство, хранение, перевозку либо сбыт товаров и продукции, выполнение работ или оказание услуг, не отвечающих требованиям безопасности: Дис… канд. юрид. наук. – Екатеринбург, 2001. -229 с.
9. Белецкий И.А. Уголовная ответственность за нарушение правил безопасности при производстве работ или оказании услуг. Дисс…на соиск..уч..ст..канд.юрид..наук. Омск, 2017. – 190 с.
10. Рагозина И.Г. Уголовная ответственность за производство, хранение, перевозку либо сбыт товаров и продукции, выполнение работ или оказание услуг, не отвечающих требованиям безопасности: Дисс. … канд. юрид. наук. – Омск, 2001. – С.57.
11. Шеина И.А. Уголовно-правовые меры противодействия производству, хранению, перевозке либо сбыту товаров и продукции, выполнению работ или оказанию услуг, не отвечающих требованиям безопасности. Дисс…на соиск..уч..ст..канд.юрид..наук. Москва, 2016. – 178 с.


### Xarici ölkələrin qanunvericilik aktları


12. Almaniya Federativ Respublikasının Cinayət Məcəlləsi / https://constitutions.ru/?p=5854
13. Argentina Respublikasının Cinayət Məcəlləsi / https://constitutions.ru/?p=5847
14.Bolqarıstan Respublikasının Cinayət Məcəlləsi/ http://ugolovnykodeks.ru/2011/11/ugolovnyj-kodeks-bolgarii/
15.Gürcüstan Respublikasının Cinayət Məcəlləsi / https://matsne.gov.ge/ka/document/download-/16426/143/ru/pdf
16.Fransa Respublikasının Cinayət Məcəlləsi /https://constitutions.ru/?p=5859
17.Qazaxstan Respublikasının Cinayət Məcəlləsi/ https://zakon.uchet.kz/rus/docs/K1400000226
18.Norveçin Cinayət Məcəlləsi /https://www.litres.ru/a-v-zhmenya/ugolovnoe-zakonodatelstvo-norvegii/chitat-onlayn/page-4/
19.Rusiya Federasiyasının Cinayət Məcəlləsi / https://www.uk-rf.com
20.Собрание законодательства Российской Федерации. - 1996. - № 3. - Ст. 140; 1999. - № 51. - Ст.6287.


### Mətbuat materialları


21.Qida təhlükəsizliyi: izahlı və ümumi məlumat (1avqust 2016) / https://fed.az/az/iqtisadiyyat-/qida-tehlukesizliyi-izahi-ve-umumi-melumat-234
22.“Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının qanun lahiyəsi / http://ask.org.az/wp-content/uploads/2019/02/Qanun-layih--si_final.pdf


### Rəsmi statistika


23.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları /https://www.stat.gov.az/-source/crimes/

UOT 34; 343.53; 343.532

## CEZA HUKUKİ YASAL ÇEVREYLE GIDA GÜVENLİĞİ KORUMA GENEL ÖZELLİKLERİ

**ISBANDIYAROV BAŞKANINI VARDIR,**
**Kıdemli Araştırma Görevlisi, Ceza Hukuku ve Ceza Muhakemesi Bölümü, Hukuk ve İnsan Hakları Enstitüsü, Azerbaycan Ulusal Bilimler Akademisi.**
e-posta: q.isbandiyarov@gmail.com,
tel:+99455 258 51 51.

Makale, düşük kaliteli gıdaların dolaşımını yasaklayan ve Azerbaycan Cumhuriyeti Ceza Kanunu'nun 200 ve 200-2 maddesi, gıda güvenliği suçlarının karşılaştırmalı analizi uyarınca ceza hukukunun kamu güvenliğine karşı ceza mevzuatı ile ilgilidir. Araştırmanın teorik ve bilimsel pratik yönleri araştırılmaktadır.

Kötü kalite ürünlerin "açık" ve "gizli" tehlikeleri, yani belirli ürünlerin kalite sorunları ve bağımsız uzmanlar tarafından elde edilen sonuçlar bakımından bu suçların dinamikleri hakkındaki resmi istatistiklerle karşılaştırmalar incelenmiştir.

**Anahtar Kelimeler:** Gıda güvenliği, cezai yasal araçlar, kalitesiz ürünler, kamu güvenliği, kalitesiz gıda ürünleri, suç dinamikleri, karşılaştırmalı analiz, tüketici kavramı, kalitesiz "açık" ve "gizli" ürünler, cezai sorumluluk.

УДК 34; 343.53; 343.532

## ОБЩАЯ ХАРАКТЕРИСТИКА ЗАЩИТЫ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ УГОЛОВНО-ПРАВОВЫМИ СРЕДСТВАМИ

**ИСБЕНДИЯРОВ ГАЛАНДАР КОЧАРИ ОГЛУ,**
**старшый научный сотрудник отдела уголовного права и уголовного процесса Института права и прав человека Национальной Академии Наук Азербайджана.**
e-mail: q.isbandiyarov@gmail.com
tel:+99455 258 51 51.

В представленной статье, основываясь на сравнительном анализе преступлений сферы продовольственной безопасности в соответствии со статьями 200 и 200-2 Уголовного кодекса Азербайджанской Республики, проводится исследование теоретических и научных аспектов уголовного законодательства ряда зарубежных стран, запрещающих оборот некачественных продуктов питания и предусматривающих уголовную ответственность в нормах уголовного законодательства в Главе преступлений против общественной безопасности.

Рассматривается опасности «явности» и «латентности» производства некачественных продуктов, т.е. сравнение информации связанной с проблемами качества пищевых продуктов и результатов полученными независимыми экспертами с официальной статистикой динамики этих преступлений, а также подозрения, дающие основание существования высокой латентности, дается определение понятию потребителя.

**Ключевые слова:** продовольственная безопасность, уголовно-правовые средства, некачественные продукты, общественная безопасность, оборот некачественных продуктов питания, динамика преступлений, сравнительный анализ, концепция потребителя, «проявление» и «латентность» некачественных продуктов, уголовная ответственность.

**UDC 34; 343.53; 343.532**

## GENERAL CHARACTERISTIC OF THE PROTECTION OF FOOD SECURITY BY CRIMINAL –LEGAL MEANS

**ISBANDIYAROV GALANDAR KOCHARI OGLU,**
**Senior Scientific Researcher on the Department of Criminal Law and Criminal Procedure of Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences.**
e-mail: q.isbandiyarov@gmail.com
tel: :+99455 258 51 51.

In the presented article, based on a comparative analysis of food security crimes in accordance with Articles 200 and 200-2 of the Criminal Code of the Republic of Azerbaijan, a study is made of the theoretical and scientific aspects of the criminal law of a number of foreign countries prohibiting the circulation of substandard food products and providing for criminal liability in criminal law in the chapter on crimes against public safety.

The dangers of “manifestation” and “latency” of the production of substandard products, i.e. a comparison of information related to food quality problems and results obtained by independent experts with official statistics on the dynamics of these crimes, as well as suspicions that give rise to the existence of high latency, defines the concept of the consumer.

**Key words:** food security, criminal – legal means,substandard products, public safety,the circulation of substandard food products,dynamics of crimes,comparative analysis,the concept of the consumer,“manifestation” and “latency” of the unquality products,criminal liability.

UOT: 34:323.28

# BEYNƏLXALQ TERRORÇULUĞA QARŞI MÜBARİZƏ: BU MÜBARİZƏNİN YARANMA SƏBƏBLƏRİ VƏ TİPOLOGİYASI

**Kələşova Xəyalə Xəqani qızı,**
**Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutu "Dövlət təhlükəsizliyinin hüquqi təminatı" şöbəsinin böyük elmi işçisi.**
e-mail: xayala_kalashova@yahoo.com

*Terrorçuluq ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədi ilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə deməkdir.Terrorçuluğa qarşı mübarizə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən və digər qanunvericilik aktlarından ibarətdir*

**Əsas sözlər:** terrorçuluq, qanunvericilik, insan hüquqları, qanunçuluq, profilaktik tədbirlər, terror aktları, beynəlxalq terrorçuluq, ictimai təhlükəsizlik.

Hər şeydən əvvəl qeyd etməliyik ki,terrorçuluq ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyəti orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədi ilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər (terror aktı) törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə deməkdir. Terrorçuluğa qarşı mübarizə haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən və digər qanunvericilik aktlarından ibarətdir. Terrorçuluğa qarşı mübarizənin zəruri qüvvələrlə, vasitələrlə təmin edilməsini, habelə terrorçuluğa qarşı mübarizə sahəsində rəhbərliyi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir [1]. Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə bir sıra məqsədlərlə həyata keçirilir:

1) insan hüquqları və azadlıqları, cəmiyyətin və dövlətin təhlükəsizliyinin təmin edilməsi;

2) terrorçuluğun aşkar edilməsi, qarşısının alınması və terrorçuluq nəticəsində gözlənilən zərərin minimuma endirilməsi;

3) terrorçuluğun yaranması və həyata keçirilməsi səbəbinin və şəraitinin habelə terrorçuluğun maliyyələşdirilməsi və digər yardımlar edilməsi hallarının aşkar və ləğv edilməsi.

Azərbaycan Respublikasında terrorçuluğa qarşı mübarizə bir sıra prinsiplərə əsaslanır:

1) qanunçuluğun təmin edilməsi;

2) terror fəaliyyətinin həyata keçirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş cəzanın labüdlüyü;

3) terrorçuluğa qarşı mübarizə zamanı açıq və gizli metodların əlaqələndirilməsi;

4) hüquqi, siyasi, sosial-iqtisadi və təşkilati profilaktik tədbirlərin kompleks istifadəsi;

5) terror fəaliyyəti nəticəsində təhlükəyə məruz qalmış şəxslərin hüquqlarının müdafiəsinin üstünlüyü;

6) terrorçuluq əleyhinə aparılan əməliyyatlara cəlb olunmuş qüvvələrin idarə edilməsində təkbaşçılıq;

7) terrorçuluq əleyhinə aparılan əməliyyatların həyata keçirilməsində iştirak edən şəxsi heyətin, o cümlədən bu məqsədlə istifadə edilən texniki üsulların və taktikanın elan edilməsində minimal aşkarlıq [6].

XX əsrdə törədilmiş terror aktlarının sayının dinamikasının təhlili göstərir ki, 1990-cı ildə terror aktlarının ümumi sayı azalıb, lakin terror aktlarının qurbanlarının ümumi sayı xeyli artıb.Ən başlıcası terrorçuluğun dünyanın ictimai-siyasi və iqtisadi həyatına təsiri dəyişib. Əvvəllər terrorçuluq ayrı-ayrı ölkələrə, bölgələrə xas olan yerli problem sayılırdısa, 1990-cı ildən etibarən terrorçuluq artıq qlobal problemə çevrilmişdir.

Terror aktlarının və terror fəaliyyətinin özünün bir neçə formalarıvar. Onlardan biri siyasi terrorçuluqdur. Siyasi terrorçuluq dünya tarixində1970-ci ildən bəri epizodik məqamlardan dünyada sabit bir fon halına keçmişdir. Siyasi terrorçuluğa misal olaraq 1972-ci ildə Münhen olimpiadasında İsrail dövlətini təmsil edən idmançıların Fələstinli terrorçular tərəfindən güllələnməsi, 1978-ci ildə isə İtaliyanın keçmiş baş naziri A.Moronun İtaliya təyinatlı marksist-solçu qruplaşma “Qırmızı briqada” dəstəsinin üzvləri tərəfindən öldürülməsini misal göstərmək olar.

Tədqiqatçılar terrorçuluğun inkişafının əsas səbəbini Soyuq müharibə dövründə kapitalist və kommunist düşərgələri arasında qarşıdurmanın yaranması faktorunda görürdülər. 1980-ci ildə artıq qeyri-ideoloji “İslam” terrorçuluğu, 1982-ci ildə Livanda üzvləri həm mülki şəxslərdən, həm də silahlı qanadı olan şiə inanclı insanların birliyindən “Hizbullah” partiyası, 1987-ci ildə isə “Həmas” adlı Fələstinli hərbiləşdirilmiş təşkilat və siyasi partiya yaranmışdır. 1990-cı ildə Soyuq müharibə başa çatandan sonra terrorun siyasi mübarizə metodu kimi azalacağı gözlənilirdi. Lakin heç də belə olmadı. Bir tərəfdən inkişaf etmiş ölkələrdə terror aktlarının sayının kəskin azalması, İtaliya, Almaniya və Yaponiyada radikal-sol terrorçuluğun, İrlandiya və İspaniyada isə millətçi terror təşkilatlarının yaranması dövlətin milli təhlükəsizliyinə həqiqi bir təhdid kimi qəbul edildi. Digər tərəfdən isə, Yaxın Şərq, Kolumbiya və Seylonda millətçi və dini dəyərlərə əsaslanan terror təşklatlarının sayı kəskin artdı [8].

2001-ci ildən dünya terrorçuluğa qarşı qlobal mübarizəyə səfərbər olmuşdur. Azərbaycan da bir çox ölkələr kimi mübarizədə ön yerdədir.Azərbaycan Respublikasının beynəlxalq antiterror koalisiyasının ən fəal üzvlərindən biri kimi tanınmasında mühüm

rol oynayan dövlət təhlükəsizlik orqanları son illər terrorçuluqla mübarizədə önəmli nailiyyətlər əldə etmişdir. Nəticə etibarilə, həyata keçirilmiş qabaqlayıcı tədbirlər nəticəsində "Əl-Qaida Qafqaz","Camaat əl- Müvahiddun","İmam Mehdinin Şimal Ordusu", "Meşə qardaşları", "Sumqayıt camaatı", "Sahil camaatı" kimi silahlı birləşmənin üzvləri zərərsizləşdirilmişlər. Azərbaycan terrorçuluqdan ən çox əziyyət çəkmiş ölkələrdəndir [3].

Belə ki, müxtəlif beynəlxalq terror təşkilatlarının üzvlərinin sığınacaq tapdıqları Azərbaycanın işğal olunmuş əraziləri silah və narkotik vasitələrinin tranziti, çirkli pulların yuyulması üçün istifadə edilir. Hazırda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü klassik müharibələrdən bir çox aspektlərə görə fərqlənir. Bunlardan biridə Ermənistanın müharibəsinin yazılmamış qanunlarından kənara çıxaraq öz təcavüzkar əməllərini dövlət səviyyəsində həyata keçirilən terrorla dəstəkləməsidir. Erməni terrorçu qruplardan "Daşnaksütyun", "ASALA","MAQ""Erməni birliyi", "Erməni azadlıq cəbhəsi", və başqa terror təşkilatlarını qeyd etmək olar. Təkcə 1989-1994-cü illərdə erməni terrorçuları tərəfindən Azərbaycan ərazisində 373 terror aktı törədilmiş, nəticədə 1568 nəfər ölmüş, 1808 nəfər yaralanmışdır.

Terrorçuluğun iqtisadi terrorçuluq növü əsasən ağır sosial iqtisadi çətinliklər nəticəsində yaranır və aşağı sinfin nümayəndələri bu terror növündən istifadə edir. Həmişə terror hədəfi kimi iqtisadi qurumlar seçilir. Müasir dövrdə terror təşkilatları iqtisadi terror növündən mütəmadi yararlanırlar və mübarizə hədəfinə iqtisadi cəhətdən ziyan vurmaq üçün iqtisadi infrastrukturları məhv edirlər. Yaxın Şərqin bir sıra terror təşkilatlarının regionda yerləşən qərb banklarını partlatmasını misal göstərmək olar [2].

İdeoloji terrorçuluq müəyyən ideologiyanın yayılmasını təmin etmək üçün həyata keçirilən terrorçuluqdur və 2 formada"Siyasi ideoloji terrorçuluq"və "Dini-ideoloji terrorçuluq" formaları kimi özünü büruzə verir. Siyasi ideoloji terrorçuluq siyasi ideologiyanı yaymaq üçün həyata keçirilən terrorçuluq növüdür. Dini-ideoloji terrorçuluq isə dini ideologiyanı yaymaq üçün həyata keçirilən terrorçuluqdur. Ölkə ərazisinə müxtəlif yollarla daxil olmuş və ölkədə mövcud olan dinə qarşı təbliğat aparan, ölkənin dünyəvi quruluşuna qarşı çıxan və öz dini ideologiyasını yaymaq istəyən dini missionerlər tərəfindən həyata keçirilir [7].

Terrorçuluğun "Dini terrorçuluq" növü müxtəlif dini təriqətlərə sitayiş edən qrupların qarşıdurması zamanı meydana çıxır. Məsələn, İrlandiyada katolik-protestant qarşıdurması, Kəşmirdə bir sıra dini radikal təşkilatlar tərəfindən həyata keçirilən terror aktları və s.Sektant terrorçuluq isə bır sıra totalitar xarakterli sektalar tərəfindən həyata keçırilir. Məsələn, ABŞ-da "Menson dəstəsi", Yaponiyada "Aum Simike" qrupu və s.

Terrorçuluğun irqi terrorçuluq növü mövcud irqi üstünlüyü qorumaq üçün müxtəlif sosial qruplar arasında baş verən mübarizənin nəticəsində yaranan və irqi ayrı-seçkilik yaradan terror növüdür. ABŞ-da "Ku-Klus-Klan" təşkilatının zəncilərə qarşı etdiyi zorakılıqlar, Almaniyada nasistlərin alman irqini başqalarından üstün tutaraq qeyri-almanlara qarşı etdiyi zorakılıqlar bu qəbildəndir.

Dövlət terrorçuluğu bir dövlət tərəfindən düşünülmüş və məqsədyönlü şəkildə digər dövlətin ərazisində həyata keçirilən zorakılıq metodudur. Əsas məqsəd reallıqda təsir

göstərəbilmədiyi və ya geosiyasi, siyasi, iqtisadi, ideoloji maraqlar naminə həmin dövləti öz təsiri altına salmaq və ya ümumilikdə məhv etməkdir. Ümumiyyətlə, dövlət terrorçuluğu siyasi dövlətlər tərəfindən strategiya formasında işlənib hazırlanır və həyata keçirilir.

Etnik və ya milli terrorçuluq isə hər hansı bir dövlətdə yaşayan etnik qrupların,milli azlıqların,həyata keçirdiyi terror aktı növüdür. Terrorçuluğun bu növünə Bask seperatçılarını misal göstərmək olar.

Terrorçuluğun kriminal terrorçuluq növü narkotik ticarəti, silah qaçaqmalçılığı, reket fəaliyyəti və digər gəlirli sahələr üzərində nəzarəti ələ keçirmək üçün həyata keçirilən terror növüdür.

Terrorçuluğun sosial terrorçuluq növü cəmiyyətdə baş verən sosial-siyasi münaqişələr zəminində formalaşaraq özünü 2 formada büruzə verir:

1. Sol inqilabi terrorçuluq;
2. Sağ inqilabi terrorçuluq.

İdeoloji cəhətdən sol (marksizm, leninizm, sosializm,maoçuluq) təmayüllərə əsaslanan sol terrorçuluğun əsas məqsədi iş adamlarına, dövlət məmurlarına, iqtidar partiyaları liderlərinə və s. şəxslərə qarşı mübarizə aparmaqdır.Ənənəvi milli siyasi, həmçinin keçmiş milli tarixi dəyərlərə əsaslanan sağ terrorçuluğun əsas məqsədi liberallara və milli azlıqların nümayəndələrinə qarşı mübarizə aparmaqla yekcins və sərt rejimli dövlət yaratmaqdır [9].

Daxili terrorçuluq bir ölkənin ərazisində həyata keçirilən terror aktıdır. Terror aktını həyata keçirilənlər və terror aktının qurbanları eyni ölkə vətəndaşlarıdır. Bu terrorçuluq növündə terror aktları Əlcəzairdə, Türkiyə və başqa ölkələrdə baş verib. Məsələn Əlcəzairdə daxili terrorçuluq "Silahlı İslam Qrupu" tərəfindən həyata keçirilir. Təşkilatın əsas məqsədi Əlcəzairdə mövcud hakimiyyəti devirməklə islam dövləti yaratmaqdır.Xarici terrorçuluq isəterror təşkilatları və terrorçu şəxslər tərəfindən xarici ölkə vətəndaşlarına, beynəlxalq təşkilat nümayəndələri və digərlərinə qarşı həyata keçirilən terrorçuluq növüdür. Məsələn,"Əl-Qaidə", "ASALA".

Müasir dövrdə beynəlxalq terrorçuluq mövzusunun aktuallaşmasının bir neçə səbəbi var. İlk növbədə beynəlxalq terrorçuluq beynəlxalq arenada beynəlxalq təhlükə halındadır, və bütün səylər bu problemin həllinə yönəlmişdir. Qeyd etmək lazımdır ki, BMT, İnterpol, ATƏT, NATO, MDB, ADT, GUAM və digər təşkilatlar beynəlxalq terrorçuluqla ciddi mübarizə aparırlar [4].

Beynəlxalq terrorçuluq mövzusunun aktuallaşmasının ikinci səbəbi insan hüquqları məsələsidir. Belə ki, fundamental insan hüquqlarının qorunması müxtəlif beynəlxalq Konvensiyalarla müəyyən olunub. İnsanın ali hüququ olan yaşamaq hüququnun əlindən alınmaması üçün bütün səylər insan hüquqlarını kobud şəkildə pozan bu problemin həllinə qarşı birləşdirilib.Azərbaycan terrorçuluq səviyyəsinin az olduğu ölkələr sırasında yer alıb. Bu barədə Böyük Britaniyanın İqtisadiyyat və Sülh İnstitutunun "Global Terrorism İndex 2019" reytinqində deyilir. Azərbaycan bu reytinqdə 103- cü yerdə qərarlaşıb.Terrorçuluq səviyyəsinə görə təhlükəli ölkələr Əfqanıstan, İraq, Nigeriya və Suriya hesab olunub. Qeyd olunub ki, terrorçuluq nəticəsində ölüm halları dörd il ardıcıl azalmaqdadır. Belə ki, 2018-ci ildə 103 ölkədə 1 terror aktı törədilib, 71 ölkədə isə ölüm qeydə alınıb. Terrorçuluq səviyyəsinə görə ən təhlükəsiz ölkələr sırasına Belarus,

Rumıniya, Xorvatiya, Kuba kimi ölkələr yer alıb [5].

Terrorçuluq ekstremizmin təzahürlərindən biri olmasına baxmayaraq, ekstremizmin digər formalarından onunla fərqlənir ki, bir qayda olaraq terrorçuluğun bütün təzahürləri hüquqaziddir. Müxtəlif ölkələrdə uzun illərdir baş verən terror hadisələri son zamanlarda sürətlə inkişaf edərək "Beynəlxalq terrorçuluğa"çevrilmiş və dünya ictimaiyyətində təşvişlə izlənən nəticələrə səbəb olmuşdur. Terrorçuluğa görə cinayət məsuliyyəti ilk dəfə Azərbaycan Respublikasında 21 oktyabr 1994-cü il tarixli Qanun ilə müəyyən edilmişdir. Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyində də "Terrorçuluq" cinayəti ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər bölməsində verilmişdir.Müasir beynəlxalq hüquq doktrinası beynəlxalq terrorçuluq cinayətinə birmənalı olaraq beynəlxalq cinayət kimi baxır.

**İstifadə olunmuş ədəbiyyaт**


1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı- 2018, 228 səh.
2. P. Darabadi .Əsrin əvvəllərində Bakıda terrorizm. Bakı-2000,208 səh.
3. T. Quliyev. "Olaylar" "Terrorçuluqla mübarizə prioritetdir".Bakı- 2012,4 səh.
4. Ə. Nəbiyev .Beynəlxalq terrorçuluq. Bakı- 2011, 281 səh.
5. https://azvision.az/news/195495/-azerbaycan-terrorculuq-seviyyesinin-az-oldugu-olkeler-sirasindadir--.html
6. http://www.e-qanun.az/framework/3855
7. Алексей Кудрявцев Викторович. "Исламский терроризм: история болезни". Независимая газета. Москва, 2002, 189 с.
8. С.Е. Метелев.Современный терроризм и методы антитеррористической деятельности. ОМСК, 2008, 332 с.
9. N. Malcolm. International Law (5th Edition). Cambridge University Press,2003,8 p.


**УДК: 34:323.28**

## БОРЬБА С МЕЖДУНАРОДНЫМ ТЕРРОРИЗМОМ: ПРИЧИНЫ И ТИПОЛОГИЯ ВОЗНИКНОВЕНИЯ ЭТОЙ БОРЬБЫ

**Калашова Хаяла Хагани кызы,**
**старший научный сотрудник отдела "Правовое обеспечение государственной безопасности" Института права и прав человека Национальной Академии Наук Азербайджана.**
Электронная почта: xayala_kalashova@yahoo.com

Терроризм означает уничтожение людей с целью нарушения общественной безопасности, создания паники среди населения или влияния на принятие решений органами государственной власти или международными организациями, причинение вреда их здоровью, причинение значительного имущественного ущерба или угрозы возникновения других общественно опасных последствий, совершение взрыва, пожара или иного действия (террористического акта), а также совершение с этой целью таких действий.Законодательство о борьбе с терроризмом состоит из Конституции Азербайджанской Республики, межгосударственных договоров, подписанных Азербайджанской Республикой, настоящего Закона и других законодательных актов Азербайджанской Республики.Обеспечение борьбы с терроризмом необходимыми силами и

средствами, а также руководство в сфере борьбы с терроризмом осуществляет уполномоченный орган исполнительной власти Азербайджанской Республики.

**Ключевые слова:** терроризм, законодательство, права человека,законность,профилактические меры , террористические акты,международный терроризм,общественная безопасность.

**UDC:34:323.28**

## FIGHT AGAINST TERRORISM: CAUSES AND TYPOLOGY OF THIS FIGHT

**Kalashova Khayala Khaqani qizi,**
**Senior Research Fellow on the Department "The legal provision of state security" of Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences.**
e-mail: xayala_kalashova@yahoo.com

Terrorism means the destruction of people for the purpose of violating public security, creating panic among the population or influencing decision-making by public authorities or international organizations, causing harm to their health, causing significant property damage or the threat of other socially dangerous consequences, committing an explosion, fire or other action( terrorist act), as well as committing such actions for this purpose.Legislation on combating terrorism consists of the Constitution of the Republic of Azerbaijan, interstate agreements signed by the Republic of Azerbaijan, this Law and other legislative acts of the Republic of Azerbaijan.Providing with the necessary forces and means, as well as leadership in the fight against terrorism is carried out by the authorized body of Executive power of Azerbaijan Republic.

**Key words:** terrorism, legislation,human rights,legality, preventive measures,acts of terror,international terrorism,public safety.

**UOT: 34: 323.28**

## ULUSLARARASI TERÖRİZMLE MÜCADELE: mücadelenin nedenleri ve tipolojisi

**Kalashova Khayala Khagani,**
**Azerbaycan Ulusal Bilimler Akademisi Hukuk ve İnsan Hakları Enstitüsü Devlet Güvenliği Hukuki Güvence Bölümü, kıdemli araştırmacısı.**
e-posta: xayala_kalashova@yahoo.com

Terörizm, insanları öldürmek, sağlığına zarar vermek, önemli maddi hasara yol açmak veya kamu güvenliğini zayıflatmak, kamu paniği yaratmak veya kamu yetkilileri veya uluslararası kuruluşlar tarafından karar almayı etkilemekle tehdit eden bir patlamadır. terörizmle mücadele mevzuatı Azerbaycan Cumhuriyeti Anayasası, eyaletler arası anlaşmalar ve Azerbaycan Cumhuriyeti'nin diğer yasama işlemlerinden oluşur.

**Anahtar Kelimeler:** Terörizm, mevzuat, insan hakları, yasallık, önleyici tedbirler, terör eylemleri, uluslararası terörizm, kamu güvenliği.

# О НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСАХ АЗЕРБАЙДЖАНА В СИСТЕМЕ СОВРЕМЕННЫХ МЕЖДУНАРОДНЫХ ЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ

**Эльза Э. Ахмедова,**
**старший преподаватель Аз. Гос. Эконом. Университета.**

*В статье отмечается необходимость для каждого государства не только уделять внимание международным политико-экономическим отношениям, но и неуклонно отстаивать собственные национальные интересы. При этом делается акцент на кардинальные реформы в различных областях, преимущественно в экономической сфере нашего государства. Подчеркивается, что с их помощью были успешно реализованы и продолжают реализовывать крупномасштабные проекты как регионального, так и межконтинентального значения. В этой связи рассматриваются также тенденции и особенности расширения и укрепления возможностей Азербайджана в сфере мировой торговли, продвинувшие процесс интеграции нашей страны в международное сообщество в аспекте зашиты и безопасности нацио-*

**Ключевые слова:** Азербайджанская Республика; система современных международных экономических отношений; защита и безопасность национальных интересов; взаимовыгодное и равноправное экономическое сотрудничество и партнёрство; значение иностранных инвестиций; становление нового экономического миропорядка и др.

Не требует особых доказательств то обстоятельство, что среди основных тенденциях современных международных, в том числе экономических, отношений и мировой политики, были и остаются, такие направления, как а) глобализация и ее влияние на современные международные отношения, б) транснационализация мировой политики, демократизация и превращение ее в основное требование мировой политики, в) региональная интеграция и интенсификация межгосударственных экономических связей; г) формирование нового равноправного экономического миропорядка, и некоторые другие (1).

Эти направления имеют существенное значение для каждого государства, тем более для вновь возникших стран, со дня образования, в своей деятельности постоянно уделять особое внимание внешнеэкономическим связям, международным политико-экономическим отношениям в целом, придавать первостепенное значение участию в системе современных международных отношений, неуклонно отстаивать в них национальные интересы.

Характерно, что для нынешних субъектов международных отношений, независимо от формы их устройства, способа их возникновения, охрана национальных интересов имеет ключевое значение, как при вступлении их во взаимные связи, так и в целом, в контексте развития меж-

государственных торговых, финансовых, экономических, политических, культурных и иных отношений.

Что касается теорий современных международных отношений, то они, как известно, всесторонне анализируют реалии и тенденции развития международного сообщества по различным направлениям, по различным аспектам межгосударственных связей, субъекты и объекты разнообразным международным отношениям.

В интересах взаимовыгодного, равноправного сотрудничества и парт-нерства Азербайджан последовательно осуществляет и связывает национа-льные интересы с пересекающимися и сталкивающимися интересами госу-дарств мира, для получения международных гарантий своей независимости и безопасности, предпринимает усилия по многим направлениям развития.

Большое значение в укреплении независимости, защите государственных интересов имеет его богатый экономический потенциал и благоприятная геополитическая позиция. Эти факторы создают прочную основу для проведения эффективного и целенаправленного внешнеполитического и внешнеэкономического курсов, отвечающих интересам национальной государственности Азербайджана.

Но реализация имевшегося начального потенциала и благоприятных условий требовала их максимального использования, серьезного анализа происходящих в мире процессов, а также выверенных с учетом интересов нашей страны, всесторонне обоснованных и учитывающих все нюансы предпринимаемых шагов.

Азербайджанская Республика, избравшая путь строительства правового, демократического государства с рыночной экономикой, последовательно пытается, с пользой для себя, использовать прошедшие испытания в мировой практике, общечеловеческие ценности, привлекает передовую технологию и финансовые возможности развитых стран, налаживает с ними взаимовыгодное сотрудничество и партнёрство для придания импульса своим широким экономическим возможностям (2).

Несмотря на то, что серьезным тормозом в этом позитивном процесс являются политические и экономические проблемы, усугубленные армян-ским сепаратизмом в Нагорном Карабахе и военной агрессией Армении, сопровождавшие внешнеполитическую и внешнеэкономическую деятель-ность, национальные интересы азербайджанского государства, реализуются в целях обеспечения его территориальной целостности и безопасности, политической и экономической интеграции в мировое сообщество.

Как справедливо отмечается некоторыми авторами в современной азербайджанской доктрине международного права «…кардинальное требование внешнеполитической деятельности нашего государства – урегулирование Нагорно-Карабахского конфликта исключительно в рамках территориальной целостности Азербайджана, на основе фундаментальных норм и стандартов современного международного права. Целенаправлен-ность такой позиции очевидна, поскольку в настоящее время, в эпоху глобализирующихся процессов, в международных от-

ношениях, мировая политика это не эмоции и не абсурдные амбиции, которые демонстрирует армянская сторона, а возможности, конкретные и конструктивные тенденции политико-экономического сотрудничества и партнёрства. Понятно, что такие прагматические и взаимовыгодные ценности как мир, обеспечение всеобщей безопасности и другие универсальные явления, имеют повышенную ценность» (3).

Результатами проводимой Азербайджаном последовательной политики являются, как известно, не только членство в таких авторитетных международных организациях, как ООН, ОБСЕ и ОИК, принятие в Совет Европы, установление тесных контактов с Евросоюзом, НАТО и другими организациями, но и проведение активной внешней политики по развитию взаимовыгодных, равноправных отношений в рамках этих структур. Наше государство, расположенное на выгодном географическом пространстве, создает для себя и своих партнеров всесторонние, в том числе экономические условия, для максимального использования своей позиции, проводит необходимые конкретные мероприятия в целях обеспечения национальных интересов и безопасности.

Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Ölkənin iqtisadiyyatında özəl sektorun üstünlük qazanması, neft hasilatının və gəlirlərinin məqsədyönlü idarə olunması ilə yanaşı, qeyri-neft sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməsi də Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini təşkil edir.

Son illərdə sahibkarlıq fəaliyyətindən gələn gəlirlərin artırılması, bazar iqtisadiyyatı sisteminin təkmilləşdirilməsi və özəl mülkiyyətin əsaslarının möhkəmləndirilməsi yüksək inkişaf tempinə malikdir ki, buna da əsas səbəb qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, müxtəlif dövlət proqramları həyata keçirilərək iqtisadiyyatın ayrı-ayrı sahələrinə dövlət qayğısının artırılması və iqtisadiyyatın idarə edilməsinə müasir yanaşmanın ortaya qoyulması olub. Gəlirlərin artımının inflyasiyanı ciddi şəkildə üstələməsi həm son istehlaka, həm də yığıma yönəldilən vəsaitlərin effektiv artımına gətirib çıxarıb. Biznes mühitinin dinamik inkişafı ilə bağlı onu da xatırladaq ki, respublikada təkcə yerli sərmayədarlar üçün deyil, həm də xarici investisiyalara əlverişli mühit yaradılıb. Biznesə başlama prosedurları əsaslı şəkildə sadələşdirilib, vergi qanunvericiliyində çoxlu güzəştlər müəyyən edilib, sahibkarlığın və ixracın təşviqinə yönələn tədbirlər reallaşdırılıb.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan bu gün ölkəmizdə keçirilən müxtəlif beynəlxalq tədbirlərlə qlobal problemlərin müzakirəyə çıxarıldığı dialoq məkanına çevrilib. Bütün dünya indi ölkəmizi mədəniyyətlərin təmas yeri, tolerantlıq, multikulturalizm ünvanı kimi tanıyır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü humanitar təşəbbüslər Azərbaycandan qloballaşan dünyamıza humanizm ideyalarının yayılmasına, müasir dünyamızda ümumbəşəri dəyərlərin üstünlük qazanmasına xidmət edir. Son bir neçə ildə Azərbaycanda "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları kimi mühüm mədəniyyət tədbirlərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin dünyada tanınması, ölkəmizi görmək istəyən xarici qonaqların sayının artması nəticəsində milli iqtisadiyyatımızda turizm istiqamətinin formalaşması cənab İlham Əliyevin həyata keçirdiyi dövlət quruculuğu prosesinin təntənəsidir.

Bu gün gərgin fəaliyyəti ilə daim humanizm meyarına söykənən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva böyük və çoxşaxəli işi ilə mərhəmət, xeyirxahlıq təmsilçisi kimi insanların düşüncə və yaddaşında daimi, bənzərsiz bir iz buraxıb. İctimai-siyasi, elmi yaradıcılığı, xeyriyyəçilik fəaliyyəti ilə təkcə Azərbaycanda yox, dünya miqyasında qadınlar üçün əsl nümunəyə çevrilən Mehriban xanım Əliyeva bu gün ölkəmiz barədə həqiqətlərin dünyaya çatdırılması istiqamətində möhtəşəm işlər görür.

Çoxşaxəli layihələrində Heydər Əliyev ideallarını rəhbər tutmaqla yanaşı, həm də insanlığın və bəşəriyyətin nicatına xidmət edən nəcib missiya həyata keçirmişdir. Bu məsuliyyətli missiya ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli siyasi davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin inamla davam etdirdiyi strateji siyasi kursun həyata keçirilməsinə, bu siyasətin hər bir vətəndaşın həyatında qabarıq hiss olunmasına xidmət edir. Xa-

tırlatmaq lazımdır ki, dövlətimizin başçısının 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi bu mənada cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılanmışdır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə milyonların sevgisini qazanmış bir şəxsiyyətin təyin olunması haqlı olaraq Azərbaycanın dövlət idarəçiliyi sistemində keyfiyyətcə yeni və uğurlu mərhələnin başlanğıcı kimi dəyərləndirilmişdir.

Yeni vəzifəsində cəmiyyətə ilk mesajlarını vermiş Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva demişdir: “Mən əminəm ki, vəzifədən asılı olmayaraq insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır... Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu, bütün dövlət qurumlarında çalışan insanların əsas borcudur və vəzifəsidir”.

Mehriban Əliyeva öz fəaliyyəti ilə önəmli bir tarix yazır. Onun yazdığı tarixin hər sətri insanlara sevgi ilə doludur. Onun həyat düsturu özünün bu sözləri ilə ifadə oluna bilər: “Xoş söz, xoş niyyət, xeyirxah əməl”.

Bu gün Azərbaycanda çox vacib irimiqyaslı beynəlxalq tədbirlər keçirilir və hər bir belə tədbirin təşkili ən yüksək rəylər qazanır. Biz hər bir məsələyə çox məsuliyyətlə yanaşırıq və Azərbaycanın maraqlarını, beynəlxalq imicini üstün tutaraq, ölkəmiz və xalqımız üçün layiqli nailiyyətlər əldə etməyə çalışırıq. Son illər Azərbaycanın paytaxtında bir çox böyük beynəlxalq idman yarışları – həm Avropa, həm də dünya çempionatları keçirilir. Ümumi rəyə görə bu tədbirlər təşkilati baxımdan çox yüksək səviyyədə hazırlanır və keçirilir. 2015-ci ildə Bakıda Birinci Avropa Oyunları böyük uğurla keçirilmişdi. Bu Oyunlar Avropanın Olimpiya tarixində yeni səhifə açmışdı. Bu oyunlarda idmançılarımız 21 qızıl,15 gümüş, 20 bürünc olmaqla 56 medal qazandılar. Ümumi rəyə görə, Azərbaycan dövləti Birinci Avropa Oyunlarını Olimpiya Oyunları səviyyəsində təşkil etmişdir. IV İslam Həmrəyliyi Oyunları da mükəmməl hazırlanmışdır və keçirilmiş Oyunlar kimi tarixdə qaldı. İdmançılarımız 75 qızıla, 50 gümüşə, 37-si isə bürüncə sahib olmaqla ümumilikdə 162 medal qazanaraq birinci yeri tutdular. Bütün bunlar Azərbaycan idmanının sürətli inkişafından və dövlətin idmana olan diqqət və qayğısından xəbər verir. Nəcib əməlləri ilə xeyirxahlıq və mərhəmət ünvanına çevrilən, eləcə də hər bir azərbaycanlının qürur yeri, fəxri və vüqarı olan Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın

rəhbərliyi ilə qarşıya qoyulan yeni zirvələr fəth ediləcək, daim Azərbaycanımızın adı və üçrəngli Bayrağı yüksəklərdə dalğalanacaqdır. Mehriban xanımın Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi də səmərəli fəaliyyəti diqqəti cəlb edir. Olimpiya Oyunlarında medal qazanmış idmançılara Heydər Əliyev Fondunun fərdi təqaüdçüsü adının verilməsi də idmanın inkişafına diqqət və qayğısının, bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə verilən töhfənin bariz nümunəsidir. Bütün bunlarla yanaşı, Mehriban Əliyeva dövlət başçısının ona həvalə etdiyi vəzifələri də uğurla yerinə yetirərək Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsinə ləyaqətlə xidmət edib. Mehriban Əliyeva respublikamızın Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin silahdaşı kimi dövlətimizə və xalqımıza layiqincə xidmət edəcək, Azərbaycanın çiçəklənməsinə öz töhfəsini verəcək. İndiyə qədər olduğu kimi, bundan sonra da növbəti uğurlara və nailiyyətlərə imza atacaq.

Mehriban Əliyevanın bütün çıxışları, müsahibələri özünün zənginliyi, dərin məzmunu, yenilikçi düşüncəsi ilə böyük maraq doğurur. Bu, fitri istedad sahibinin milli-bəşəri ideallara sadiqliyi, dünya cəmiyyətinə nikbin baxışlarının məntiqi ifadəsidir. Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Unutmayaq ki, bütün bunlar əfsanəvi bir qəhrəman tərəfindən deyil, zərif, incə təbiətli, həm də güclü, aydın təfəkkürə, təxəyyülə malik olan qadının – ölkənin Birinci xanımı Mehriban xanım Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir.

Artıq davamlı inkişaf yolunda inamla irəliləyən Azərbaycanı qarşıda daha möhtəşəm uğurlar gözləyir. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz reallıqdır. Dövrün tələbinə uyğun olaraq təkmilləşmə, yeniləşmə dövlət siyasətimizin əsasını təşkil edir. Səylərin birləşdirilməsi fonunda qarşıya qoyulan hər bir məqsədə yüksək səviyyədə nail olmaq mümkündür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu fikirlərini xatırlatmaq istərdik: “Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar”.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoyub. Dövlətimiz öz iqtisadi nailiyyətləri ilə dünyanın qabaqcılları sırasındadır. Qazandığımız hər bir uğur həm də onu təsdiqləyir ki, alternativi olmayan Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

**Etibar ƏLİYEV,**
**iqtisad elmləri üzrə fəlsəfə doktoru.**
www.respublica-news.az

# RİYAZİYYAT BÜTÜN ELMLƏRİN AÇARIDIR

**Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə qurumu olan UNESCO 3 sentyabr 2019-cu ildə Paris şəhərində, hər ilin 14 mart tarixinin Beynəlxalq Riyaziyyat Günü kimi qeyd edilməsi haqqında qərar qəbul etmişdir. Bununla əlaqədar fikirlərimizi oxucuların diqqətinə çatdırırıq.**

Dövrümüz elm və texnikanın tərəqqisi əsasında bəşəriyyətin maddi və mənəvi həyatında baş verən mühüm dəyişikliklərlə əlamətdardır. Elm və texnika cəmiyyətin həyatında getdikcə daha böyük rol oynayır, onun inkişafı üçün hədsiz imkanlar açılır. Məlumdur ki, qloballaşmanın tüğyan etdiyi müasir dövrdə, hər bir ölkənin qapısını döyməkdə olan müxtəlif növ böhranların, insan artımı ilə bağlı yaranmış ərzaq qıtlığının, getdikcə özünü daha çox büruzə verən təbii fəlakətlərin və hər bir regionda meydana çıxan digər problemlərin müsbət həlli elmin inkişafı ilə birbaşa əlaqədardır. Digər tərəfdən, hər bir ölkənin iqtisadi, hərbi və siyasi qüdrəti onun elmi potensialından və bu potensialın səmərəli istifadəsindən asılıdır.

Elm sahələri arasında riyaziyyatın özünəməxsus yeri vardır. Ən qədim elmlərdən biri olan riyaziyyat elmi biliklər sistemində mühüm yer tutur. O, dünyanın öyrənilməsində və dəyişdirilməsində, insanların praktiki fəaliyyətində çox böyük rol oynayır. Bu elmin beynəlxalq aləmdə geniş adı "Matematika" (yeri gəlmişkən, deyək ki, bizim dil üçün bu ad daha münasibdir) yunanca "mathema" sözündən olub, "biliklənmə, elmlənmə" mənasını verir. Sonralar bizdə bu elmi "riyaziyyat" adlandırıblar ki, bunun da mənası (ərəb dilindən götürülmüş) "tərbiyə", "məşq" deməkdir. Riyaziyyat, bizi əhatə edən dünyanı anlamağa kömək edən qanunauyğunluqların sirlərini açır. İnsan oğlu dünyaya gələndən onu əhatə edən sirli ətraf aləmi dərk etməyə çalışmış, yaşamaq və öz şəraitini yaxşılaşdırmaq üçün daim düşünmüş, beynində alqoritmlər qurmuş və düşündüklərini həyata keçirmək üçün addımlar atmışdır. İki min ildən çoxdur ki, riyaziyyat gerçəkliyin dərk edilməsində insan tədqiqatının əsas hissəsindən birinə çevrilmişdir. Riyaziyyat elmi ucsuz-bucaqsız bir aləmdir, nəhayətsiz bilik dəryasıdır. Bu bilklər aləmindən baş çıxarmaq üçün dərin zəka, gərgin düşüncə, güclü məntiq, mücərrəd təfəkkür prosesi tələb olunur. Bundan qorxmaq lazım deyil, cəsarətlə bu bilik dəryasına baş vuranları o, heç də pis qarşılamır, onunla xoş rəftar edir, ona nəinki həyatda gərəkli olur, onun həyatının bəzəyinə çevrilə bilir, onunla sevimli dost olur, düşüncə tərzinə təsir edir... Heç də təsadüfi deyil ki, bəzi böyük şəxsiyyətlər öz məntiqi düşüncə qabiliyyətini inkişaf etdirmək üçün riyaziyyat elmi ilə məşğul olmuş, onu öyrənməyə xüsusi səy göstərmişlər. O da təsadüfi deyil ki, bu elmi çox zaman "əqlin gimnastikası" adlandırırlar.

Müasir elm, riyazi metodların xüsusi tədqiqat proseslərinə getdikcə daha çox nüfuz etməsi ilə xarakterizə olunur. Riyaziyyat dünyanı dərk etməyin metodu və dilidir. Riyaziyyat həyatımıza nizam gətirən, təfsirdə (izahda) özbaşınalığa yol verməyən dəqiq bir elmdir. Riyaziyyat - nizam və sərt məntiqin təcəssümüdür. O, ətrafımızdakı dünyanı anlamağa, onun qanunları haqqında daha çox məlumat əldə etməyə kömək edir. Çünki bu

qanunlar, məhz riyaziyyatda hökm sürən qaydalara tabe olur.

Riyaziyyatı öyrənərək riyazi düşüncə tərzini, ümumiləşdirmə və təhlil etmək bacarığını inkişaf etdiririk. Nizamlılıq tapmağı öyrənirik, tez düşünmək və qərar vermək bacarığına yiyələnirik. Məntiqi düşünmək, əsaslandırmaq, düşüncələri düzgün və aydın şəkildə formalaşdırmaq, düzgün məntiqi nəticələr çıxarmaq, əvvəlcədən planlaşdırma, yaddaşda bir neçə ardıcıl addım saxlamaq bacarıqlarını formalaşdırırıq. Konseptual və mücərrəd düşünmə bacarıqlarını, ardıcıl və məntiqi olaraq mürəkkəb anlayışlar və ya əməliyyatlar qurmaq və onları yadda saxlamaq bacarığını inkişaf etdiririk.

Riyaziyyat - təbiətdə baş verən proseslərin obyektiv xassələrini və onlar arasındakı əlaqələri əks etdirən riyazi modelləri öyrənən bilik sahəsidir. Məhşur rus riyaziyyatçısı, akademik Kolmoqorovun tələbələrindən biri olmuş Vladimir Andreyeviç Uspenski yazırdı: "Riyazi model insan təfəkkürünün nəticəsi olsa da, o, obyektiv araşdırma mövzusuna çevrilə bilər. Onun xüsusiyyətlərini bilməklə, bu modelin əks etdirdiyi prosesin xüsusiyyətlərini öyrənirik". Bundan əlavə, riyaziyyat obyektiv aləmin ən müxtəlif hadisələrini təsvir etmək üçün əlverişli yollar təqdim edir və beləliklə, elm dili rolunu oynayır. Nəhayət, riyaziyyat insanlara dünyanı öyrənmək və dərk etmək metodlarını, həmçinin nəzəri və praktiki problemlərin tədqiqat üsullarını təqdim edir.

Bəşəriyyətin məlum inkişaf tarixinə və mərhələlərinə uyğun olaraq riyaziyyat elmi formalaşmış, şaxələnmiş və inkişaf etmişdir. Kainatın da özünün sanki riyazi obyekt olması və oradakı sonsuz simmetriyalar, çeşidli formalar və hadisələr də onun "riyazi dildə" yazılmasına bir sübutdur.

Tarixçilər, filosoflar və siyasətçilər tərəfindən bəşər tarixinin eralara bölünməsi, əslində insan zəkasının yüksək forması olan riyaziyyatın etdiyi böyük kəşflər arasındakı müddətlə ölçülsə daha yaxşı olardı. Çünki bəşər tarixində insanların qarşısına çıxan ən böyük problemlər məhz riyaziyyatın tətbiqi ilə həll edilmişdir. Zəruri ehtiyacların ödənilməsi üçün zəmanəyə uyğun (və bəzən onu qabaqlayan) texnologiyaların yaranması və təkmilləşdirilməsi məhz riyaziyyatın tətbiqi sayəsində mümkün olmuşdur.

Riyaziyyat bizi düşünməyə, təhlil etməyə məcbur edir. Riyaziyyatda yanlış yoxdur. Bütün düsturlar və teoremlər ciddi isbat olunur. Riyaziyyat məntiqi düşünmə qabiliyyətini inkişaf etdirir və bu da öz növbəsində insanın maraqla yaşamasına səbəb olur. Riyaziyyat məntiqi təfəkkürü, problemləri müstəqil həll etmək bacarığını, mahiyyəti tez dərk etmək və həyati məsələlərdə ən uyğun və sadə bir yanaşma tapmaq bacarığını inkişaf etdirir. Həmçinin, riyaziyyat, şəxsiyyətin intellektual inkişafında böyük rol oynayır. Sovet yazıçısı Veniamin Aleksandroviç Kaverin demişdi: "Müstəqil təfəkkürə gedən ən qısa yol riyaziyyatdır".

Əgər XVIII əsrin axırlarına qədər riyaziyyat əsasən mexanika və astronomiyada, XIX əsrdə isə fizikanın müxtəlif sahələrində tətbiq olunur və bu elmlərdən qidalanırdısa, hazırda riyazi metodlar ən müxtəlif elm sahələrinə - iqtisadiyyat, dilçilik, biologiya, kimya, tibb və s. sahələrə dərin nüfuz edir. "Riyazi dilçilik", "Riyazi biologiya", "Riyazi iqtisadiyyat", "Riyazi informatika" kimi terminlər artıq adi, heç kimi təəccübləndirməyən terminlər olmuşdur.

XXI əsr texnologiyanın sürətlə inkişaf etdyi bir əsrdir. Biz, əhalinin sosial rifahının inkişafının əsas istiqaməti kimi cəmiyyətin zamanla ayaqlaşaraq inkişaf etdiyi bir infor-

masiya cəmiyyətində yaşayırıq. Riyaziyyat bütün müasir texnologiyaların və elmi tədqiqatların əsasını təşkil edir, biliklərə əsaslanan iqtisadiyyatın zəruri bir hissəsidir. Müasir informasiya və kommunikasiya texnologiyalarının (İKT) yaradılması ilk növbədə riyazi fəaliyyətə əsaslanır. Bütün vətəndaşlar üçün riyazi savad – mədəniyyətin, sosial, şəxsi və peşəkar səriştənin zəruri bir elementidir. Riyaziyyat, XXI əsrdə hər hansı bir ölkənin inkişafında vacib bir element, innovativ və texnoloji potensialın əsası ola bilər. Fikrimizcə, riyazi təhsil əslində dövlət proqramının mövzusu olmalıdır. Dövlətin istənilən strateji istiqaməti riyazi üsulların köməyi ilə onun yüksək səviyyədə əsaslandırılmasını tələb edir.

Reallığın dərk olunması prosesində riyaziyyatın rolu getdikcə artır. Müasir dövrdə elə bir bilik sahəsi yoxdur ki, orada riyazi anlayışlar və metodlar bu və ya digər dərəcədə istifadə edilməsin. Hazırda riyaziyyat çox fərqli bilik sahələrini vahid bir sistemə birləşdirir.

Riyaziyyat yalnız tətbiqi məsələləri həll etmək üçün güclü bir vasitə və universal bir elm dili deyil, eyni zamanda ümumi mədəniyyətin bir elementidir. Riyaziyyat fundamental bir elmdir, onun metodları fizika, kimya, biologiya, astronomiya və s. kimi bir çox təbiət elmlərində geniş istifadə olunur. Həmçinin, riyaziyyat əsas sosial və ekoloji məsələləri anlamaqda mühüm rol oynayır. Burada iqlim dəyişikliyinə və bioloji müxtəlifliyin azalmasına qarşı mübarizə, dəniz səviyyəsinin yüksəlməsi, dünya əhalisinin artımının proqnozlaşdırılması və bununla əlaqəli qida ehtiyaclarının meydana gəlməsi kimi məsələlər nəzərdə tutulur.

Riyaziyyatı iki tamamlayıcı hissəyə bölmək olar – nəzəri və tətbiqi riyaziyyata. Nəzəri hissə daxili riyazi quruluşları dərindən təhlil etməklə məşğuldur, yəni nəzəri riyaziyyat, riyaziyyatın mövcud strukturunu təkmilləşdirir, onun daxili tələbatından irəli gələn ehtiyacları ödəməklə, ciddi analizlərin aparılmasını həyata keçirir. Tətbiqi hissə digər bilik sahələri üçün öz modellərini təqdim edir. Tətbiqi riyaziyyat əsasən praktikanın riyaziyyat qarşısında qoyduğu problemləri həll etməklə məşğuldur. Bu zaman əsas məsələ öyrənilən obyekt və ya prosesin abstrakt modelini qurmaq və bu modelə riyazi metodlar tətbiq edərək obyekt və ya proses haqqında lazımi informasiya almaqdan ibarətdir. Onun köməyi ilə kəşflər edilir, nümunələr aşkar edilir, hadisələr proqnozlaşdırılır. Bu mənada riyaziyyatın insan həyatındakı əhəmiyyətini olduğu kimi qiymətləndirmək çox çətindir.

Qeyd etmək lazımdır ki, riyaziyyatda bu bölgü nisbi xarakter daşıyır. Məsələn, ellipsin xassələri, İohann Kepler tərəfindən planetlərin trayektoriyasını müəyyənləşdirmək üçün bu xassələrdən istifadə etdiyi vaxtdan min beş yüz ildən çox əvvəl yunanlar tərəfindən öyrənilmişdi. Nisbilik nəzəriyyəsinin riyazi aparatı bu nəzəriyyənin Albert Eynşteyn tərəfindən yaradılmasından otuz il əvvəl mövcud idi. Digər tərəfdən, bir çox sırf riyazi nəzəriyyələr mexanika, fizika və digər elmlərin tələbatı əsasında yaranmışdır.

Riyazi üsullardan istifadə etməklə hər hansı bir mürəkkəb layihəni reallaşdırmaq üçün sınaqdan əvvəl bahalı və həyati təhlükəsi olan təcrübələr aparmağa ehtiyac yoxdur. Məsələn, astronavtları orbital stansiyasına çatdırmaq üçün yerdən qalxan bir kosmik gəminin orbitasının parametrlərini riyazi üsulların köməyi ilə əvvəlcədən hesablaya bilərik. Raketin yer səthindən kosmosa göndərilməsi üçün riyazi hesablamaların vasitəsilə lazımlı bütün parametrləri əvvəlcədən təxmin

edərək təhlükəsiz və etibarlı şəkildə uçuşu təmin etmək olar.

Riyazi hesablamaların tətbiqini hər yerdə görmək mümkündür – idarə etdiyiniz avtomobildə, kompüterdə və ya başqa portativ cihazlarda. Bütün binaların, tikintilərin öz ağırlığı altında dağılmamasının səbəbi, məhz tikinti üçün lazım olan bütün verilənlərin əvvəlcədən riyazi düsturların vasitəsilə hesablanmasıdır.

Bu da bir həqiqətdir ki, tibb və səhiyyənin bir çox sahələri də müasir riyazi üsulların tətbiqi sayəsində inkişaf etməkdədir. Məsələn, tibbi cihazların hazırlanmasında, müəyyən bir müalicənin effektivliyinə dair məlumatların təhlilində riyazi statistikadan geniş istifadə olunur. Hətta hava proqnozunda da riyazi modellərdən istifadə edilir. Bir sözlə, riyaziyyat elminin sayəsində bu gün biz bütün texnologiyalara sahibik, şəhərlər qururuq, kosmosu araşdırırıq və mədəniyyətimizi inkişaf etdiririk! Kompüterləşmə, məlumatlandırma, internet, sosial şəbəkələr sürətlə həyatımıza daxil olub. Kompüterlə işləmək üçün isə məntiq, məlumatı sistemləşdirmək, sorğularınızı sosial şəbəkələrdə və axtarış sistemlərində dəqiq təqdim etmək və formalaşdırmaq bacarığı lazımdır.

Əsas riyazi qanunlar və müasir dünyada onlardan istifadə etmək bacarığı olmadan hər hansı bir peşəyə yiyələnmək çox çətindir. Rəqəmlər və onlarla aparılan əməliyyatlarla yalnız maliyyəçilər və mühasiblər məşğul olmur. Xüsusi riyazi biliklərə sahib olmadan bir astronom ulduza qədər olan məsafəni və onu müşahidə etmək üçün ən uyğun vaxtı təyin edə bilməz, molekulyar bioloq bir gen mutasiyası ilə necə davranacağını anlaya bilməz. Mühəndis həyəcan siqnalını və ya video nəzarət sistemini tərtib edə bilməz, proqramçı əməliyyat sisteminə bir yanaşma tapmaqda çətinlik çəkər.

Riyaziyyat haqqında danışdıqca qarşıya belə bir sual çıxır: "Riyaziyyat nədir?"

Birincisi, bunu əsas tutmaq lazımdır ki, riyaziyyat – dünya və onun qanunauyğunluqlarını açmaqda, təbiət və cəmiyyət hadisələrini öyrənməkdə, kainatın sirlərini aşkar etməkdə qüdrətli bir alətdir, vasitədir. "Riyaziyyat – kəmiyyət və miqdar haqqında elmdir. Rəqəmlə ifadə edilə bilən hər şey riyaziyyata aiddir". Riyaziyyat – "real aləmin (həyatın) fəza formalarının və kəmiyyət əlaqələrinin (münasibətlərinin)" öyrənilməsinə əsaslanan bir elmdir. Elmin böyük korifeylərindən biri olan Qalileo Qaliley demişdir ki, dünya riyaziyyat dilində yazılmış əzəmətli bir kitabdır, onu ancaq həmin dilə yiyələnən oxuyub öyrənə bilər.

XVII əsrin əvvəllərinə qədər riyaziyyat əsasən ədədlər, sabit kəmiyyətlər, sadə həndəsi fiqurlar haqqında elm idi. Onun əhatə dairəsi ticarət, kənd təsərrüfatı, astronomiya, memarlıqdan ibarət idi. XVII-XVIII əsrlərdə təbiət elminin inkişafına olan ehtiyaclar – naviqasiya, astronomiya, ballistika və s. – dəyişən kəmiyyətlərin riyaziyyata daxil olmasına, onların arasında funksional asılılıq şəklində əlaqənin qurulmasına, diferensial və inteqral hesabının inkişafına səbəb oldu.

XIX-XX əsrlərdə riyaziyyat, abstraksiyanın yeni mərhələlərinə yüksəldi. Adi kəmiyyətlərə və ədədlərə müasir cəbrdə öyrənilən cisimlərin xüsusi bir halı kimi baxılırdı. Böyük rus alimi Lobaçevskinin ideyalarının təsiri ilə Evklid fəzasının ümumi halı olan "fəzaların" öyrənilməsinə başlanılır. Bu dövrdə, eyni zamanda, riyaziyyatda zəruriliyi təcrübə ilə müəyyən edilən yeni sahələr inkişaf etməyə başlayır: mürəkkəb dəyişənli funksiyalar nəzəriyyəsi, qruplar nəzəriyyəsi, proyektiv həndəsə, riyazi məntiq, funksional analiz, çoxluqlar nəzəriyyəsi və s. Bu sahə-

lərdə elmi tədqiqatların aparılması ədədi üsullarla bağlıdır. Bunlarla əlaqədar, XIX-XX əsr ədədi üsulların inkişafı ilə xarakterizə olunur, onlar müstəqil bir elm sahəsinə – hesablama riyaziyyatına çevrilir.

Riyaziyyatın özünün inkişaf ehtiyacları, elmin müxtəlif sahələrinin “riyaziləşdirilməsi”, riyazi metodların tətbiqi fəaliyyətin bir çox sahəsinə nüfuz etməsi, kompüter texnologiyalarının sürətli inkişafı bir sıra yeni riyazi istiqamətlərin: oyunlar nəzəriyyəsi, informasiya nəzəriyyəsi, qrafika nəzəriyyəsi, diskret riyaziyyat, optimal idarəetmə nəzəriyyəsinin yaranmasına səbəb olmuşdur.

XX əsr ümumi texnoloji tərəqqi üçün səciyyəvi olan elə mürəkkəb texniki sistemlərin yaranması ilə fərqlənir ki, onları idarə etmək vəzifələri bəzi hallarda insanın fizioloji imkanlarını üstələyir. İdarə olunmayan və ya təsadüfi amillərin təsiri ilə çətin vəziyyətlərdə təcrübə və intuisiya kifayət deyil: qəbul etdiyiniz qərarlar üçün möhkəm bir elmi əsas lazımdır, nəzarət proseslərini, riyazi təsviri, riyazi modelləşdirmə və idarəetmə sistemlərinin riyazi-statistik təhlilini öyrənmək üçün analitik metodlara ehtiyac var. Texnoloji tərəqqinin nəticəsində elə bir informasiya axını yaranıb ki, çap olunan bütün məqalələrin alimlər tərəfindən izlənməsi mümkün deyil. Təbii ki, praktiki ehtiyaclar artıq yeni tədqiqat metodlarının həyata keçirilməsini tələb edir.

Riyaziyyatın sürətli inkişafı, onun texnoloji prosesslərdə geniş yayılması, kompüter texnologiyalarının meydana çıxması, bir çox elmlərin “riyaziləşməsinə” səbəb oldu.

Hazırda riyaziyyatın istifadə olunmayacağı insan fəaliyyət sahəsini göstərmək çətindir. Həqiqi ədədlər çoxluğunun ümumiləşdirilməsi kompleks ədədlər çoxluğunun yalnız formal ümumiləşdirilmə mənasına malik olmadığına, həqiqi fiziki kəmiyyətlərin təsvirində də tətbiq oluna biləcəyinə əsas verdi. Bu nöqteyi-nəzərə əsasən riyazi fizikanın – hidrodinamika, aerodinamika, elektrik mühəndisliyi, radiotexnikanın və s. müxtəlif məsələlərinin həllində böyük uğurlar əldə edildi. Sosial elmlər arasında riyaziyyatdan ən çox iqtisadiyyatda istifadə olunur. Dahi alman filosofu İmmanuil Kantın fikrincə, elm - yalnız riyaziyyatdan istifadə edərkən kamilliyə çatır. İqtisadi problemlərdə hesablamaların mürəkkəbliyi müəyyən amillərin artması ilə bağlıdır. Formalaşdırma sadəcə lazımlı bir texnikadır, öyrənilən fenomenin əsas xüsusiyyətlərini aydın şəkildə vurğulamağa imkan verir. Xətti proqramlaşdırma metodlarının, işgüzar oyunların istifadəsi bizə optimal həllər (maksimum mənfəət və ya minimum xərc) axtarışı ilə əlaqəli böyük bir iqtisadi problem həll etməyə imkan verir. İqtisadiyyat və tibb, hüquqşünaslıq və mülki aviasiya - bütün bu elmlər və bir çoxları inkişafından irəli gələn problemlərin böyük bir qismini həll etmək üçün riyazi metodlardan istifadə edirlər.

Burada bir neçə nümunə göstərmək olar, məsələn, müxtəlif mülki təyyarə sistemlərinin sıradan çıxması və okeanların dibində vulkanların yaranması. Yaranan suallara cavab vermək üçün eyni riyazi statistik metodlardan istifadə olunur. Didona məsələsi və meşə yanğınlarının söndürülməsi və ya sahələrin çilənməsi ilə bağlı mülki aviasiyada ortaya çıxan məsələlərin həlli, funksionalın şərti ekstremumunun tapılmasını tələb edir, yəni burada variasiya hesabından istifadə olunur. Məhşur alman alim-filosofu, kibernetik Georq Klaus “Kibernetika və Fəlsəfə” adlı kitabında yazırdı: “Kepler tərəfindən planetlərin hərəkət nəzəriyyəsinin inkişafından başlayaraq sovet alimləri tərəfindən Maya dilinin (Klassik Maya dili – Maya dili ailəsinə aid ən qədim

yazılı dildir. Klassik Maya dövrünə aid kitabələrin əsas dili) deşifrə edilməsinə qədər davam edən elmi təcrübə, elm tarixinin gedişatı göstərir ki, bu və ya digər problemi riyaziyyatın köməyi olmadan həll etmək çox çətindir".

Riyaziyyat da daxil olmaqla bütün elmlər, dünyanın müəyyən cəhətlərini və əlaqələrini öz üsullarının köməyi ilə əks etdirir. Hər bir elm, hadisələrin səbəblərini və mahiyyətini dərindən açan, obyektiv dünyanın qanunlarına nüfuz edən ümumiləşdirici nəzəriyyələr qurur. Eyni zamanda, alimlər daim ümumi anlayışlar, abstraksiyalar, məntiqi və fəlsəfi kateqoriyalarla fəaliyyət göstərmək məcburiyyətindədirlər. Riyazi anlayışların mücərrəd təbiəti, riyaziyyatda nəticələrinə universallıq və zərurət xarakteri verən məntiqi dəlillərin müstəsna rolu, reallığa və təcrübəyə münasibətdə böyük dərəcədə müstəqillik, onun inkişafında simvolizmin rolu - bütün bunlar riyaziyyatın fəlsəfi məsələlərinə marağı artırır. Bir riyaziyyatçı, abstraksiya, ümumiləşdirmə, idealizasiya, sonlu, sonsuz, forma, məzmun, kəmiyyət, keyfiyyət, oxşarlıq, fərqlilik, ziddiyyət və bir çox fəlsəfi anlayışlar olmadan öz fikrini ifadə edə bilməz.

Məhşur yunan alimi Pifaqor hesab edirdi ki, riyaziyyatla məşğul olmaq insan ruhunun təmizlənməsinə xidmət edir.

Riyaziyyatda əsas fəlsəfi məsələ - riyazi anlayışların, aksiomaların, nəzəriyyələrin, qaydaların və nəticələrin obyektiv aləmlə olan əlaqəsi haqqında məsələdir. Bu məsələnin həlli riyaziyyatın inkişafı prosesində yaranan digər fəlsəfi sualların həllinə də təsir göstərir. Məhşur alman fiziki, kvant mexanikasının yaradıcılarından biri Verner Heyzenberq "Fizika və fəlsəfə" adlı əsərində yazırdı: "Təbiətşünaslıqda ümumi qanunların əsas anlayışları ən yüksək dəqiqliklə müəyyən edilməlidir və bu yalnız riyazi abstraksiyanın köməyi ilə mümkündür".

Qeyd edək ki, riyaziyyata əsaslanan kompüter elmləri və mühəndislik XXI əsrdə getdikcə əhəmiyyətli bir yer tutduğundan, bu sahələrdə inkişafa nail olunmasında riyaziyyatın tətbiqi mühüm rol oynayır və bu da, öz növbəsində, avtomatlaşdırılmaya artan tələbatın ödənməsinə və internet vasitəsilə informasiyaların əldə etmə imkanının təmin edilməsinə öz təsirini göstərməkdədir.

Ən fundamental səviyyədə, riyaziyyat kainatı idarə edən qanunları dərk etməyimizin əsasını qoyur. Bu, həm də cəmiyyətimizdəki texnoloji tərəqqini müəyyən edən amildir. Riyaziyyatın kompüter elmlərində, internet şəbəkəsində və kompüterlərin istifadə etdiyi güclü alqoritmlərə əsaslanan texnologiyalarda tətbiqi cəmiyyətdə əsl inqilab yaratmışdır.

Beləliklə, riyaziyyatın elm, texnologiya və innovasiya sahəsindəki rolunu və tətbiqini nəzərə alaraq, riyaziyyat haqqında maarifləndirmənin artırılması və bu sahədə təhsilin qlobal səviyyədə dərinləşdirilməsi, süni intellekt, iqlim dəyişikliyi kimi fəaliyyət sahələrində, həmçinin, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə insanların yaşam tərzinin keyfiyyətinin yüksəldirilməsi istiqamətində qarşıda duran məsələlərin həllində və hədəflərə çatmasında əsas rol oynadığını qeyd etmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət sahələri üzrə qurumu olan UNESKO, Riyaziyyatın cəmiyyət həyatındakı rolunu və üzv ölkələrin müraciətlərini nəzərə alıb, 2019-cu il sentyabrın 3-də, hər ilin 14 mart tarixinin Beynəlxalq Riyaziyyat Günü kimi qeyd olunması haqqında qərar qəbul etmişdir. Qeyd etmək lazımdır ki, həmin gün indiyə qədər P ədədi günü kimi qeyd olunurdu.

Beynəlxalq Riyaziyyat Cəmiyyətinin UNESCO ilə beynəlxalq səviyyədə uzlaşdırılmış təbliğat və maarifləndirmə fəaliyyət proqramları çərçivəsində əməkdaşlıqların davam etdirilməsinin vacibliyini və Beynəlxalq Riyaziyyat Gününün təşkili və əlaqəli tədbirlərdə iştirakı üçün tərəfdaşların cəlb edilməsində Beynəlxalq Riyaziyyat Cəmiyyətinin aparıcı rolunu qeyd etmək lazımdır.

Bu qərarın qəbul edilməsi UNESKO-ya əsas elm sahələrində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə dair missiyasına geniş imkanlar yaradacaq, fundamental elmlər üzrə Beynəlxalq Proqramın nüfuzunu artıracaqdır. Beynəlxalq Riyaziyyat Günü UNESKO-nun "Elmin bəşəriyyətin inkişafında rolu" adlı böyük proqramının məqsədlərinə nail olmağa kömək edəcək. Bu proqramla bağlı UNESKO-nun fəaliyyətinin əsas istiqaməti "Elm, texnologiya və innovasiyaların inkişafı, yayılması və tətbiqi məqsədilə institusional və insan resurslarının gücləndirilməsi"ndən ibarətdir. Həmçinin, Beynəlxalq Riyaziyyat Günü UNESKO-nun bəşəriyyətin inkişafına dair elmi və texniki potensialının dünya səviyyəsində gücləndirilməsi məqsədinə nail olmasına imkan yaradacaqdır.

Beynəlxalq Riyaziyyat Günü davamlı inkişaf üçün elm, cəmiyyət və təbiət arasında yeni körpülər qurmağa şərait yaradacaq və tədqiqatçılar, vətəndaşlar, yüksək vəzifəli şəxslər, şirkət rəhbərləri və qeyri-hökumət təşkilatları arasında yeni əlaqələrin qurulmasına təkan verəcək. Beynəlxalq Riyaziyyat Gününü qeyd etməklə, elm adamları, vətəndaşlar və liderlər arasında dialoqun qurulmasına və yüksək səviyyədə davam etdirilməsinə nail olmaq mümkündür.

Qeyd edək ki, UNESKO, 2000-ci ili Ümumdünya Riyaziyyat ili, 2005-ci ili Beynəlxalq Fizika ili, 2009-cu ili Beynəlxalq Astronomiya ili, 2011-ci ili Beynəlxalq Kimya ili, 2014-cü ili Beynəlxalq Kristaloqrafiya ili, 2015-ci ili Beynəlxalq İşıq ili elan etməklə dünyada elmin inkişafında həlledici rol oynamışdır.

Düşünürük ki, fənlərarası xarakter daşıyan Riyaziyyat bütün əvvəlki beynəlxalq bayramları bir araya gətirəcək və beləliklə, Beynəlxalq Riyaziyyat Günü indiyədək əldə olunmuş nailiyyətlərin daha da möhkəmlənməsini təmin edəcəkdir.

Hesab edirik ki, Beynəlxalq Riyaziyyat Gününün hər il qeyd edilməsi müasir riyaziyyatın surətli inkişafına müsbət təsir göstərəcək, onun bəşəriyyətin tərəqqisində rolunu artıracaqdır.

Üzv olan dövlətlər, hökumətlərarası və qeyri-hökumət təşkilatları, universitetlər, tədqiqat mərkəzləri, təşkilatlar, məktəblər və digər tərəflər bu günün qeyd olunmasında fəal iştirak etməlidirlər.

14 mart – Beynəlxalq Riyaziyyat Günü bu il ilk dəfədir ki, bayram kimi qeyd edilir. Həmin gün dünya riyaziyyatçılarının bayramıdır. Fürsətdən istifadə edib Azərbaycan riyaziyyatçılarını bu bayram münasibətilə ürəkdən təbrik edir, onlara möhkəm cansağlığı, ölkəmizdə Riyaziyyat elminin inkişafı naminə daha böyük uğurlar arzu edirik.

Riyaziyyatsız həyat olmamış, yoxdur və olmayacaqdır!

**Misir Mərdanov,**
**AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor.**

**Aynur Həsənova,**
**riyaziyyat üzrə fəlsəfə doktoru, dosent.**

**Səbinə Salmanova,**
**AMEA Riyaziyyat və Mexanika İnstitutunun əməkdaşı.**

www.respublica-news.az

# AZƏRTAC-100: BİR ƏSRLİK YOLA BEŞ FƏRQLİ ZAMAN NÖQTƏSİNDƏN BAXIŞ

*İlk xəbəri 1920-ci il martın 2-də işıq üzü görmüş Azərbaycan Dövlət İnformasiya Agentliyi haradan haraya gəlib*

**Aslan Aslanov,**
**AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın vitse-prezidenti.**
www.xalqqazeti.com

Son yüz il bəşər tarixinə çox təlatümlü dövr kimi daxil olub: Rusiyada bolşevik inqilabından sonra Sovet imperiyasının yaranması və süqutu, İkinci Dünya müharibəsi, soyuq savaş illəri... Bu hadisələr dünyanın siyasi xəritəsinin bir neçə dəfə dəyişməsi, görünməmiş fəlakətlər və iztirablarla, nəhayət, 29 il əvvəl 14 respublikanın dövlət müstəqilliyini bərpa etməsi ilə nəticələndi. Yetmiş il sürən imperiya əsarətindən sonra başımız üzərində azadlıq günəşi doğdu. Çətin sınaqlardan keçən, vaxtilə Hamletsayağı "olum, ya ölüm" sualı qarşısında qalan, hələ də Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasına çıxa bildi. Qalibiyyət və sarsıntıların, tənəzzül və tərəqqinin bir-birini əvəzlədiyi bir əsrlik yolun salnaməsini məhz Xalq Cümhuriyyətinin yadigarı olan AZƏRTAC yazdı. İnternetin olmadığı uzaq və yaxın keçmişdə baş verənlər barədə onun yaydığı xəbərlər saralmış qəzet səhifələrində, müasir Azərbaycanın keçdiyi inkişaf yolu və qazandığı uğurlar isə agentliyin saytında arxivləşib. Yüz il əvvəl məhdud bir çərçivədə fəaliyyətə başlayan AZƏRTAC haradan haraya gəlib. Hesab edirəm ki, zamanın beş fərqli nöqtəsindən baxış bir əsrlik inkişaf yolu barədə tam və aydın təsəvvür yarada bilər.

### Yolun başlanğıcı və ilk milli xəbər agentliyinin cəmi 58 gün sürən müstəqilliyi

Müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları milli xəbər agentliyi yaradılmasının zəruriliyini yaxşı anlayırdılar. Hökumət bu məsələni 1919-cu il martın 3-də müzakirəyə çıxardı. Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin məruzəsi dinlənildi və Azərbaycan Teleqraf Agentliyinin (Acansının) təşkili maarif naziri Nəsib bəy Usubbəyova tapşırıldı.

Hökumətin qərarı, təxminən, bir ilə yaxın kağız üzərində qaldı. Səbəblər dəqiq məlum olmasa da (həmin dövrdən günümüzə çox az sənəd gəlib çıxıb), ovaxtkı siyasi-iqtisadi şəraitdən çıxış edərək müəyyən mülahizələr yürütmək olar. Bir tərəfdən dövlətçilik ənənələrinin olmaması və maliyyə sıxıntıları, digər tərəfdən daxili və xarici təhdidlər nəzərdə tutulan planların icrasını çətinləşdirirdi. Geosiyasi vəziyyətə gəlincə, obrazlı desək,

1918–1920-ci illərin Azərbaycanı dalğaların döyəclədiyi tənha adanı xatırladırdı. Ona çoxlu göz dikilmişdi, ingilis generalı Tomson qoşunu ilə gəlib Bakıda oturmuşdu və Cümhuriyyət hakimiyyətini tanımaq istəmirdi. Belə bir mürəkkəb vaxtda xəbər agentliyi kimin gözünə görünərdi?

Cümhuriyyət rəhbərləri savadlı, ziyalı insanlar idi. Onlar sözün, xüsusən informasiyanın rolunu, necə böyük gücə malik olduğunu bilirdilər. Ona görə də teleqraf acanslığının yaradılmasında israrlı idilər və bu məsələyə yenidən qayıdıldı. 1920-ci il fevralın 2-də hökumət AZƏRTAC-ın əsasnaməsini müəyyən dəyişikliklərlə parlamentə çıxarmaq barədə növbəti qərar qəbul etdi.

Arxiv materiallarından belə məlum olur ki, o vaxt respublikada yeganə informasiya mənbəyi Bakı Sahil Radiostansiyası (simsiz teleqraf) idi. Onun da cəmi üç aparatı vardı: ikisi qəbuledici, biri həm qəbuledici, həm də ötürücü. Bu iki aparat sutkada 70 mindən çox söz qəbul edə bilmirdi. Azərbaycan haqqında xəbərlər isə yalnız bir aparatla ötürülürdü. Necə deyərlər, dəryada bir damla. Halbuki ermənilər teletayp alaraq Azərbaycanı ləkələyən, gözdən salan, iftira dolu yazıları Avropada – Fransa, Almaniya kimi ölkələrdə yayırdılar.

Teleqraf acanslığının yaradılması üçün həm maliyyə vəsaiti və texniki avadanlıq, həm də ixtisaslı kadrlar lazım idi. Təbii ki, yenicə ayaq üstə duran respublikanın mükəmməl agentlik təşkil etməsini düşünmək sadəlövhlük olardı. Agentliyin texniki bazası, yaradıcı heyəti barədə əldə yetərincə sənəd olmadığından, bununla bağlı mühakimə yürütmək çətindir. Lakin görünən odur ki, dövlət işlərinin başdan aşdığı çox mürəkkəb bir şəraitdə milli xəbər agentliyini təşkil etmək mümkün oldu və mühüm bir işin təməli qoyuldu.

Nəhayət, parlamentdəki müzakirələrdən bir həftə sonra – martın 1-də AZƏRTAC fəaliyyətə başladı və ertəsi gün onun ilk xəbəri işıq üzü gördü. Agentlik respublikada baş verən hadisələri, hökumətin gördüyü işləri əks etdirən gündəlik bülletenlər də hazırlayıb həm respublika daxilində, həm də xaricdə yayırdı.

Bu, Azərbaycanın səmasında qara buludların getdikcə sıxlaşdığı vaxtlar idi. Çox keçmədən Azərbaycan bolşevik işğalına məruz qaldı və Cümhuriyyət hökuməti süquta uğradı. Milli Teleqraf Acanslığı cəmi 58 gün fəaliyyət göstərsə də, adını tarixə yazdıra bildi. Artıq bünövrə qoyulmuşdu, ilk cığırlar açılmışdı...

### Yetmiş illik sovet rejiminin AZƏRTAC-ın taleyində qoyduğu ağ-qara izlər

Ötən əsrin 20-ci illərinədək dünyaya bir çox imperiyalar gəlib getmişdi. O vaxtlar işğalın üzərinə diplomatiya pərdəsi çəkməyə ehtiyac duyulmurdu. Azərbaycanın işğal olunduğu, SSRİ-nin tarix səhnəsinə çıxdığı zamanlarda isə dünya dəyişmişdi və imperiya ambisiyalarına bər-bəzəkli don geyindirmək lazım gəlirdi. Məkrli siyasət saxta bəyanatlarla pərdələnirdi.

1920-1922-ci illəri bəzi tarixçilər ikinci Respublika dövrü kimi səciyyələndirirlər. Bu, əsasən ondan irəli gəlir ki, Azərbaycan Respublikası SSRİ-nin tərkibinə qatılanadək Xalq Cümhuriyyətinin mütərəqqi kursunu qismən də olsa, davam etdirmişdi. O vaxt

atılan addımlar sırasına rəsmi informasiya agentliyinin yaradılması da aid edilə bilər. Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun 1920-ci il 9 iyun tarixli dekreti ilə Mərkəzi Mətbuat Kollegiyası yaradıldı və Rusiya Teleqraf Agentliyinin Qafqaz diyar şöbəsinin Azərbaycan bölməsi (AZQAFROSTA) kollegiyaya daxil edildi. Təxminən bir il sonra AZQAFROSTA müstəqil quruma – Azərbaycan Teleqraf Agentliyinə çevrildi. Agentliyin ilk direktoru Qubad Qasımov jurnalist təcrübəsinin olmadığını etiraf edir və xatirələrində yazırdı ki, informasiyanı yaymaq üçün texniki imkanlar da son dərəcə məhdud idi. O vaxt Bakı küçələrindən birində yəqin ki, çoxlarımızın eşitmədiyi "İşıq" qəzeti peyda oldu. İnsanlar böyük ekranın qarşısına yığışaraq agentliyin xəbərlərini buradan oxuyurdular.

Keçmiş SSRİ dövründə hadisələrin gedişindən asılı olaraq Azərbaycanın milli informasiya agentliyi müxtəlif aqibətlə üzləşirdi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, onun adını yeddi dəfə dəyişmişdilər. Hətta bir vaxt üç Cənubi Qafqaz respublikasının informasiya agentlikləri ZaqTA adı altında birləşdirilmişdi. Adlar dəyişsə də, mahiyyət dəyişmirdi. Sovetlər ittifaqına daxil olan bütün respublikaların informasiya agentlikləri kimi, Azərbaycan Teleqraf Agentliyi də Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) filialı statusunda fəaliyyət göstərirdi. Xəbərlər Bakıya Moskvadan morze əlifbası ilə ötürülürdü.

Yetmiş illik tariximizin ziddiyyətlərinə, AZƏRTAC-ın taleyində qoyduğu ağ-qara izlərə baxmayaraq, agentlik dövrün salnaməsini yazmaqda davam edirdi. O qədər də geniş olmayan müxbir şəbəkəsi respublikanın həyatını öz gücü və bacarığı daxilində işıqlandırırdı.

İkinci Dünya müharibəsi illəri üzərində ayrıca dayanmağa ehtiyac duyuram. Müharibə, təbii fəlakət, ekstremal hallar şəraitində işləmək xəbər agentliyinin və onun müxbirlərinin fəaliyyətində kulminasiya nöqtəsidir. Biz dünya təcrübəsində də, öz təcrübəmizdə də şahidik ki, hətta dövlət strukturları iflic vəziyyətinə düşdükləri vaxtlarda xəbər agentlikləri işləyir, hər bir vəchlə informasiya əldə etməyə və müxtəlif yolla yaymağa çalışır.

1941-1945-ci illərə gəlincə, AZƏRTAC-ın hərbi müxbirləri qızğın döyüşlərin getdiyi ön cəbhədən reportajlar göndərirdilər. Agentlik informasiya işini iki istiqamətdə aparırdı: həm döyüş xəttindən, həm də insanların arxa cəbhədəki fədakar əməyindən bəhs edən materiallar hazırlayırdı. Bu yazılar yerli mətbuatda və cəbhə qəzetlərində yer alırdı.

### Azərbaycanın və AZƏRTAC-ın həyatında dönüş nöqtəsi

Respublikamız keçmiş SSRİ-nin tərkibində olduğu 70 ildə bir-birindən kəskin fərqlənən iki dövr yaşadı. 1970-ci illərədək durğunluğun, kosmopolit əhval-ruhiyyənin hakim kəsildiyi Azərbaycan Sovet İttifaqının geridə qalmış ucqarlarından biri sayılırdı.

1969-cu ilin iyun plenumu, respublikaya milli ruhlu, yüksək təşkilatçılıq bacarığına və yenilməz iradəyə malik rəhbərin – Heydər Əliyevin təyin edilməsi Azərbaycanın həyatında dönüş nöqtəsi oldu. Çox keçmədən həyatın ritmi dəyişdi, hər bir sahədə, o cümlədən mətbuatda görünməmiş inkişaf başladı.

O vaxtdan xalqın qəlbində yer tutan, sonradan dünya şöhrətli dövlət xadimləri sırasında

yer alan Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər, eyni zamanda, milli ruhun və milli özünüdərkin dirçəliş dövrü kimi də səciyyəvidir. Bu dahi şəxsiyyət hələ yarım əsr bundan əvvəl mətbuatın, informasiyanın insanların vahid məqsədə yönəldilməsindəki səfərbəredici rolunu hamıdan yaxşı görürdü. Buna görə də mətbuata, jurnalistlərə fərqli münasibət bəsləyir, xüsusi həssaslıqla yanaşırdı. O, mətbuata açıqlığı ilə də seçilirdi. Birinci katib işlədiyi vaxtlarda "Literaturnaya qazeta"da "Qoy, ədalət zəfər çalsın" sərlövhəsi ilə dərc olunmuş məşhur müsahibəsi bütün ittifaqa səs salmışdı. İlk dəfə idi ki, heç kimin danışmağa cəsarət etmədiyi nöqsanlar birinci şəxs tərəfindən mətbuatda açıq şəkildə tənqid olunurdu.

Heydər Əliyevə qədər arxa planda qalan AZƏRTAC da istər respublika, istərsə də İttifaq miqyasında öncül mövqelərə çıxmağa başladı, SİTA-nın informasiya buraxılışlarını qəbul edib Cənubi Qafqaz respublikalarına ötürən mərkəzə çevrildi. Rus dilində göndərilən həmin materialları ana dilimizə operativ surətdə çevirmək lazım gəlirdi. Ustad tərcüməçi, gözəl ziyalı Bağır Seyidzadənin rəhbərlik etdiyi tərcümə redaksiyası bu gərgin işin öhdəsindən məharətlə gəlir, müxtəlif sahələrə dair informasiyaları yerli oxuculara yüksək səviyyədə təqdim edirdi. Agentliyin əməkdaşları, həmçinin müxbir briqadalarının tərkibində xarici ölkələrə gedir, bilavasitə hadisə yerindən xəbərlər hazırlayıb göndərirdilər.

Çox keçmədən AZƏRTAC-ın texniki təchizatını yaxşılaşdırmaq istiqamətində mühüm addımlar atıldı. Heydər Əliyevin şəxsi nüfuzu hesabına müttəfiq respublikaların informasiya agentlikləri arasında Ukrinformdan sonra məhz AZƏRTAC kompüterlə təchiz edildi. Agentlik həm maddi-texniki bazasına, həm də yaradıcılıq potensialına görə birincilər sırasına çıxmağa nail oldu.

Sovet dövründə imkanlar bütün cəhətdən məhdud idi. Rusiya istisna olmaqla, digər 14 respublika, necə deyərlər, Moskvanın əlinə baxırdı. Direktivlər Kremldən gəlirdi, büdcəni mərkəzi hökumət ayırırdı. Rəhbərin məharəti mövcud imkanlar daxilində mümkün olanı, bəlkə ondan da artığını etmək idi. Bunu yalnız Heydər Əliyev kimi fenomen siyasətçi, dövlət xadimi edə bilərdi və etdi. Məhz onun hakimiyyətdə olduğu 1969-1982-ci illərdə Azərbaycanla bərabər, AZƏRTAC da böyük inkişaf yolu keçdi.

Uzaq keçmiş barədə bu qədər. İndi də keçək ən yeni tariximizə.

### AZƏRTAC ciddi sınaq qarşısında: Qanlı Yanvar, Qarabağ müharibəsi və xaos illəri

Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın qara günləri başladı. Bir tərəfdən Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, bu iddialar fonunda Dağlıq Qarabağda baş qaldıran separatizm, digər tərəfdən mərkəzi hakimiyyətin ayrı-seçkilik siyasəti və qərəzli yanaşması vəziyyəti günbəgün kəskinləşdirirdi. Sürətlə cərəyan edən hadisələrin kulminasiya nöqtəsi 1990-cı ilin 20 yanvarı oldu.

Sovet ordu hissələrinin Bakıya hücumu ərəfəsində Azərbaycan Televiziyasının enerji bloku partladıldı. Qanlı hadisələrin ertəsi günü qəzetlərin nəşri dayandırıldı. Radio və televiziya işləmir, qəzetlər çıxmır, xarici ra-

diostansiyaların dalğaları vurulurdu. Respublika tam informasiya blokadasına alınmışdı. Nə etməli? AZƏRTAC-ın müxbirləri çıxış yolunu xəbər bülletenləri hazırlayıb Bakının müxtəlif yerlərində divarlara yapışdırmaqda görürdülər. Bu iş qaranlıq düşəndən sonra görülürdü. İmperiya əsgərləri səhər açılan kimi vərəqələri cırıb atsa da, əhali baş verənlərdən qismən də olsa, xəbər tuta bilirdi. 20 Yanvarın dəhşətli həqiqətlərini əks etdirən fotovitrin də eyni aqibəti yaşadı.

1990-cı illərin əvvəlində Ermənistanın Azərbaycana hərbi təcavüzü də pik nöqtəsinə çatmışdı. Bir milyondan çox azərbaycanlı doğma yurd-yuvasından qovulmuşdu, torpaqlarımızda elan olunmamış müharibə gedirdi. Özünümüdafiə qüvvələri təpədən-dırnağadək silahlanmış amansız düşmən qarşısında tab gətirə bilmir, şəhər və kəndlərimiz bir-birinin ardınca işğal olunurdu. Erməni faşistləri Xocalı şəhərində əsrin ən dəhşətli soyqırımlarından birini törətdilər.

Bu hadisələr fonunda yaranmış hakimiyyət boşluğu nəticəsində Azərbaycan dalana dirənmişdi. Rəsmi məlumatlar birtərəfli idi, respublika rəhbərliyi və dövlət strukturları baş verənləri xalqdan gizlədirdi. Əsas xəbər qaynağı olan AZƏRTAC daha bir çətin imtahan qarşısında qalmışdı. Agentliyin müxbirləri cəbhə bölgələrinə, məcburi köçkünlərin məskunlaşdığı çadır düşərgələrinə gedərək materiallar hazırlayır, yaranmış fəlakətli və dramatik vəziyyət barədə həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa çalışırdılar. Bu sıraya agentliyin "Azərbaycan" nəşriyyatı ilə birgə hazırladığı kitablar da daxildir. Erməni şovinistlərinin və separatçılarının məkrli niyyətlərindən qaynaqlanan hadisələrin mahiyyətini açıb göstərən bu nəşrlərdə ilk dəfə olaraq, sovet rəhbərliyinin anti-Azərbaycan siyasəti də ifşa edilirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu. Azadlığın şirin və acı tamı – paradoks olsa da, xalqımız bir müddət bu iki duyğunu eyni vaxtda yaşamalı oldu. Dövlət müstəqilliyinin kağız üzərində qalması bir yana, kreslo düşkünü olan naşı rəhbərlər Azərbaycanı uçurum kənarına gətirib çıxardılar, xalqı vətəndaş müharibəsinin alovuna atdılar.

Daha bir paradoks. İqtidarda olanlar özlərini demokrat adlandırsalar da, azad sözün, azad fikrin qarşısına sədd çəkirdilər. Dövlətin inhisarında olan KİV-də, o cümlədən AZƏRTAC-da xalqımızın böyük oğlu Heydər Əliyevin adını çəkmək yasaqlanmışdı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən təxminən bir il sonra – 1992-ci il dekabrın 18-də AZƏRTAC-ın tarixi adı bərpa olundu. Lakin informasiyanın cəmiyyətdə və dövlət həyatında oynadığı roldan bixəbər olan keçmiş iqtidarın etinasızlığı ucbatından agentlik çox ağır günlər yaşayırdı. Cüzi büdcə vəsaiti nəinki müasir texnika almağa, heç işçilərin maaşını ödəməyə yetmirdi. Maddi-mənəvi sıxıntılara baxmayaraq, AZƏRTAC yaşayır, onun fədakar əməkdaşları peşə borclarını vicdanla yerinə yetirirdilər.

Bu çətin vəziyyət ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışınadək davam etdi.

**Dövlət siyasətinin informasiya təminatı: Heydər Əliyev AZƏRTAC-a etibar edirdi**

Mənim həyatımın böyük hissəsi AZƏRTAC-la bağlıdır: 100 illik yolun təx-

minən 30 ili gözümün önündə keçib. Oxucu yazımın bundan sonrakı hissəsini bir qərinəlik inkişaf yolunun canlı şahidinin və iştirakçısının qeydləri kimi qəbul edə bilər.

Xalqımızın ulu öndəri Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a üstünlük verir, ona etibar edir, xüsusi qayğı ilə yanaşırdı. Odur ki, respublika rəhbərliyinə qayıdışından az sonra – 1995-ci il martın 3-də agentliyin yenidən təşkil edilməsi haqqında fərman imzaladı. Sənədə əsasən, AZƏRTAC-a dövlət informasiya orqanı statusu verildi, yetərincə büdcə vəsaiti ayrıldı.

Bunun ardınca, 1996-cı il iyunun 29-da digər sənəd – AZƏRTAC-ın işinin yaxşılaşdırılması haqqında Prezident sərəncamı imzalandı. Agentlik üçün müasir texnika alındı, xaricdə ilk müxbir məntəqələri açıldı. Nəhayət, AZƏRTAC-ın fəaliyyətinin təkmilləşdirilməsi haqqında 2000-ci il 17 yanvar tarixli fərmana əsasən, agentliyin maddi-texniki bazasının müasir tələblər səviyyəsinə çatdırılması, xarici ölkələrdəki müxbir məntəqələrinin zəruri texniki avadanlıqla təchiz olunması, əməkdaşların əməkhaqlarının 50 faiz artırılması qərara alındı.

Ümumiyyətlə, 1995-2002-ci illərdə ulu öndər agentliyimizlə bağlı 6 fərman və sərəncam imzalamışdı. Bu, Heydər Əliyevin dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a verdiyi önəmin, onun xüsusi əhəmiyyətini və rolunu nəzərə almasının bariz göstəricisidir. Bu diqqət və qayğı, eyni zamanda, Heydər Əliyevin agentliyə inam və etibarından qaynaqlanırdı. Biz də öz növbəmizdə onun etimadını doğrultmaq üçün gecə-gündüz bilmədən çalışırdıq.

Mənə ulu öndərimizin 1993-cü il iyunun 11-də Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin binasında xarici diplomatlarla keçirdiyi ilk görüşündən başlayaraq, dövlət və hökumət başçıları, yüksək səviyyəli nümayəndə heyətləri ilə, demək olar, bütün görüşlərini, xarici səfərlərini, apardığı danışıqları işıqlandırmaq xoşbəxtliyi nəsib olub. ABŞ, Böyük Britaniya, Fransa kimi nəhəng dövlətlərin liderlərinin, dünyaca məşhur siyasətçilərin, yazıçıların Heydər Əliyev haqqında necə heyranlıqla danışdıqlarının, onun Azərbaycan, ümumilikdə, türk dünyası qarşısında xidmətlərini necə yüksək qiymətləndirdiklərinin şəxsən şahidiyəm. Eşitdiyim, bloknotuma köçürdüyüm bu fikirlər sonradan AZƏRTAC-ın xətti ilə nəşr olunan "Dünyanı heyran qoyan insan" adlı kitaba çevrildi.

Bu da bir fenomendir: Ulu öndər nə yazdığım, necə yazdığımla şəxsən maraqlanırdı. Məni tez-tez yanına çağıraraq istiqamət verir, tövsiyələrini çatdırırdı. O vaxtlar Azərbaycan mətbuatında dövlət başçısının fəaliyyətini işıqlandırmaq ənənəsi və təcrübəsi olmadığından bu, əsl jurnalistika dərsləri idi. Ondan əvvəl respublikaya rəhbərlik edənlərin keçirdikləri görüşlərdən, apardıqları danışıqlardan qayıdan müxbir informasiya hazırlamaqda olmazın çətinlik çəkirdi. Çünki iqtidarda olan şəxslərin heç bir dövlətçilik təcrübəsi yox idi. Adi protokol qaydalarından tutmuş, danışıqlaradək heç bir prosedur beynəlxalq standartlara uyğun gəlmirdi, diplomatiya çərçivələrinə sığmırdı. Bir neçə quru cümlədən ibarət xəbər təbii ki, oxucunu qane edə bilməzdi. İnformasiyanın kasadlığı rəhbərlə xalq arasında sanki qara pərdə çə-

kirdi. Belə bir şəraitdə hansı siyasi publisistikadan söhbət gedə bilərdi? Azərbaycan mətbuatında siyasi publisistika janrının əsasları 1993-cü ildən sonra – Heydər Əliyevin hakimiyyəti illərində qoyuldu.

Hesab edirəm ki, bu, ayrıca bir söhbətin mövzusudur.

### Heydər Əliyevin jurnalistika dərsləri

Ulu öndərimizin ən müxtəlif mövzulardakı çıxışları, nitqləri, dövlət və hökumət başçıları ilə apardığı yüksək səviyyəli danışıqlar fikrin ifadə tərzi, səlis və təmiz dili, aydın məntiqi baxımından siyasi publisistikanın bənzərsiz nümunələridir. O, qabaqcadan yazılmış hazır mətnlərdən istifadə etməzdi, auditoriyanın havasına köklənərdi. Biz hər biri bitkin publisistik əsər təsiri bağışlayan bu çıxışları şifahi nitqdən yazılı mətnə çevirərək mətbuata, radio və televiziyaya göndərərdik. Onları oxucuya yubanmadan çatdırmaq üçün çox vaxt səhərədək işləyərdik.

Bu yerdə çoxlarının bilmədiyi maraqlı bir məqamı da vurğulamaq yerinə düşər. Ulu öndər çıxışlarının mətbuat üçün hazırlanan mətnlərini şəxsən nəzərdən keçirir, redaktə xarakterli düzəlişlər edirdi. Yadımdadır, gecəyarısı zəng vurur, hansısa sözü, yaxud cümləni dəyişməyi tapşırırdı.

Həmin nitq və çıxışların AZƏRTAC tərəfindən yayılmış mətnləri görkəmli filosof-alim, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu, "Azərnəşr" tərəfindən nəfis tərtibatda çapdan buraxılan "Müstəqilliyimiz əbədidir" adlı çoxcildliyin 46 kitabına daxil edildi və biz, haqlı olaraq, bununla qürur duyuruq. Fəxr edirik ki, bu şanlı tarixi AZƏRTAC-ın kollektivi yazdı. Hesab edirəm ki, Heydər Əliyevin dərin məzmunlu nitq və çıxışları siyasi publisistikanın ən gözəl örnəyi kimi Jurnalistika fakültəsində tədris oluna bilər və mütləq olunmalıdır.

Həmin vaxtlar xarici səfərlərdə Prezidenti müşayiət edən həmkarlarım da təsdiqləyərlər ki, Heydər Əliyev bizə jurnalistika dərsi keçərdi: informasiyanı nədən başlamaq, əsas məqamı və faktı ikinci dərəcəlidən necə seçmək lazım gəldiyini səbirlə izah edərdi. Biz jurnalistikanın, xüsusən siyasi publisistikanın müasir standartlarını, dövlət başçısının fəaliyyətini lazımi səviyyədə işıqlandırmağın incəliklərini Heydər Əliyev məktəbindən beləcə zərrə-zərrə öyrənirdik.

Bir qədər əvvəl qeyd etdiyim kimi, ulu öndər dövlət həyatı ilə bağlı bütün məsələləri işıqlandırmağı AZƏRTAC-a etibar etmişdi. O, dövlət başçısının gündəlik fəaliyyəti üzərindən keçmişin mirası olan "sirr" pərdəsini götürmüşdü. Deyirdi: hara getsəm, kiminlə görüşsəm, nə danışsam, hamısını yazın, olduğu kimi yazın ki, xalq hər mətləbdən agah olsun.

Heydər Əliyev müstəqil Azərbaycanın rəhbərliyinə çox mürəkkəb vaxtda qayıtmışdı. Qarşıda respublikanı dərin siyasi-iqtisadi böhrandan çıxarmaq, düşmənin hərbi təcavüzünü dayandırmaq, Azərbaycanı dünyada tanıtmaq, milli maraqları qorumaq kimi çətin vəzifələr dayanırdı. Odur ki, xalq xilaskar gözündə gördüyü rəhbərin fəaliyyətini ən xırda detallarınadək bilmək istəyirdi. Bu haqlı marağı nəzərə alan ulu öndər xalqı tam məlumatlandırmaq missiyasını AZƏRTAC-a həvalə etdi.

Əsası həmin vaxtlarda qoyulmuş ənənə bu gün də davam etdirilir və Prezidentin mətbuat katibi, rəsmi informasiya işinin pe-

şəkarı Azər Qasımovun səyləri sayəsində yeni çalarlarla zənginləşdirilir. Agentlik Prezident İlham Əliyevin çıxış və nitqlərini, görüşlərini, xarici ölkələrə və bölgələrə səfərlərini, apardığı danışıqları bütün təfərrüatı ilə işıqlandırır, miqyasından və həcmindən asılı olmayaraq, elə həmin gün oxucuya çatdırır. Bu, eyni zamanda, AZƏRTAC-ın birbaşa funksiyasıdır və onun statusundan irəli gəlir. Çünki o, həm də xalqın tarixi salnaməsini yazan bir media qurumudur. Yeri gəlmişkən, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə "Azərnəşr" tərəfindən buraxılan "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin indiyədək işıq üzü görmüş 95 kitabı da AZƏRTAC-ın materialları əsasında hazırlanıb.

## AZƏRTAC qlobal informasiya məkanında

"AZƏRTAC-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır". Bu sitat Prezident Heydər Əliyevin 2000-ci ildə agentliyin 80 illik yubileyi münasibətilə kollektivimizə ünvanladığı təbrik məktubundan götürülüb. Həmin vaxtdan etibarən ulu öndərimizin proqram xarakterli tövsiyəsi fəaliyyətimizin prioritet istiqamətlərindən birini təşkil edib. Ötən 20 ildə kollektivimiz bu hədəfə doğru inadla və inamla irəliləyib, ürəkaçan nəticələrə nail olub. Mövzu çox geniş olduğundan bir neçə xarakterik məqamı qeyd etməklə kifayətlənəcəyəm.

İnformasiyanın dünya siyasətinə təsirinin artdığı, xəbər istehsalçılarının gündən-günə çoxaldığı, sosial şəbəkələrin həyatımıza daxil olduğu bir vaxtda beynəlxalq media məkanında yer tutmaq heç də asan deyil. Öz təcrübəmiz əsasında deyə bilərəm ki, bunun üçün davamlı iş aparmaq, ilk növbədə, etibarlı və dürüst xəbər qaynağı kimi tanınmaq, həmkarların inam və etimadını qazanmaq lazımdır.

AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında bütün qitələrdən olan aparıcı agentliklər, o cümlədən TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası), TELAM (Argentina), SPA (Səudiyyə Ərəbistanı), Ukrinform (Ukrayna), BELTA (Belarus), Kazinform (Qazaxıstan) və digər nüfuzlu xəbər yayımçıları var. Biz, həmçinin Dünya Xəbər Agentlikləri Konqresi Şurası və Avropa Xəbər Agentlikləri Alyansı (EANA) çərçivəsində Associated Press, Reuters, Press Association, DPA agentlikləri ilə sıx əməkdaşlıq edirik.

2004-cü ildə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA), 2008-ci ildə Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilən AZƏRTAC, eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

Agentliyin həyatında ən əlamətdar hadisələrdən biri 2016-cı ildə baş verdi. Prezident

İlham Əliyevin himayəsi, birinci xanım Mehriban Əliyevanın dəstəyi, Heydər Əliyev Fondunun və AZƏRTAC-ın təşkilatçılığı ilə Bakı eyni vaxtda iki mötəbər beynəlxalq təşkilatın əsas forumlarına – Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına yüksək səviyyədə evsahibliyi etdi, agentliyimiz hər iki qurumun rəhbəri seçildi. Bununla da Azərbaycanın və AZƏRTAC-ın adı dünya mətbuat tarixinə həmişəlik yazıldı.

Beş qitəni, 80 ölkəni və dünyanın 100-dən çox aparıcı xəbər agentliyini təmsil edən 200 nümayəndənin iştirak etdiyi bu forumlar yaddaşlarda dərin iz qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin konqresin açılışında iştirakı, geniş nitq söyləməsi, daha sonra iştirakçıların bir qrupunu qəbul etməsi bu qlobal forumlara xüsusi ahəng verdi. Dövlətimizin başçısının açılış nitqində qeyd etdiyi kimi, Dünya Xəbər Agentlikləri Konqresinin Bakıda keçirilməsi müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisidir.

AZƏRTAC dünya xəbər məkanına getdikcə daha inamla çıxır, informasiya nəhəngləri ilə bir sırada addımlayır. Bu, təbii ki, dinamik inkişaf edən Azərbaycana artan maraqla, ölkəmizin dünyada söz və nüfuz sahibinə çevrilməsi ilə şərtlənir. Xarizmatik lider olan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan durmadan müasirləşir və modernləşir. Ölkəmizdə aparılan islahatlar dünyanın diqqətini cəlb edir və yüksək dəyərləndirilir. Bu yeniləşmə ab-havası ölkə mediasına da sirayət edir. Dövlətimizin başçısının dəstəyi sayəsində AZƏRTAC ən müasir informasiya texnologiyaları ilə təchiz olunub. Agentliyin rəhbərliyi və nümayəndələri yüksəksəviyyəli media forumlarında mütəmadi iştirak etmək imkanı qazanıb. Eyni zamanda, dünyanın bir çox informasiya nəhəngləri müasir Azərbaycanın milli informasiya agentliyi ilə əməkdaşlıqda maraqlıdır. Mən bu sırada Çinin ingilisdilli "China Daily" qəzetini xüsusi qeyd etmək istərdim. Ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə son bir neçə ayda öz saytında AZƏRTAC-ın iki böyük həcmli analitik məqaləsini yayıb. Beləliklə, Yer kürəsində milyonlarla insan Prezident İlham Əliyevin yürütdüyü siyasət, Azərbaycanın uğurları, ölkəmizdə həyata keçirilən islahatlar barədə ilk mənbədən ətraflı məlumat əldə edib.

Əməkdaşlıq etdiyimiz agentliklər Azərbaycanla bağlı xəbərləri istisnasız olaraq AZƏRTAC-dan alırlar. Bir qədər əvvəl dediyim kimi, onların arasında Çin kimi nəhəng ölkənin əsas informasiya yayımçısı – Sinxua agentliyi də var. Prezident İlham Əliyev 2018-ci ilin sentyabrında agentliyin nazir statusunda baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü zamanı Sinxua ilə AZƏRTAC-ın əməkdaşlığını yüksək qiymətləndirdi. Çinli həmkarlarımızın Bakıya həmin səfərindən sonra agentliklərimiz arasında xəbər mübadiləsi daha da gücləndi. Əməkdaşlığımızın nəticəsi olaraq, AZƏRTAC "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platformasının təsisçi üzvü statusuna, bu nəhəng platformanın bütün imtiyazlarından istifadə etmək hüququna yiyələndi.

Bu mövzuya bir faktla yekun vurmaq istərdim: təkcə ötən il AZƏRTAC-ın üzv olduğu beynəlxalq və regional media qurumlarının, tərəfdaşlıq etdiyi milli informasiya agentliklərinin saytlarında Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, elmi mədəni və digər sahələrdə qazandığı uğurlara dair 15 minə yaxın xəbəri, videosu və fotosu yayılıb.

Azərbaycan kiçik və gənc dövlətdir, üstəlik, Ermənistanla müharibə vəziyyətində yaşayır. Düşmən bizə qarşı həm də informasiya müharibəsi aparır. Erməni təbliğat maşınının var gücü ilə yalan tirajladığı belə bir taleyüklü vaxtda Azərbaycan və Dağlıq Qarabağ haqqında tarixi həqiqətlərin dünyaya çatdırılması milli mətbuatımızın bir nömrəli vəzifəsidir. Biz bunun ən gözəl nümunəsini Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr zamanı gördük. Azərbaycan Prezidenti İlham Əliyev tarixi faktlara və təkzibolunmaz arqumentlərə söykənərək Ermənistanın baş naziri Nikol Paşinyanın yalan və uydurmalarını, saxta erməni mifini darmadağın etdi. Şahmat dili ilə desək, mat vəziyyətinə düşən Paşinyan dövlətimizin başçısının dərin məntiqi qarşısında söz tapmaqda aciz qaldı.

Prezidentimiz biz jurnalistlərə də, sözün yaxşı mənasında, dərs verdi. Göstərdi ki, informasiya savaşında qətiyyətli olmaq, müdafiə taktikasından hücum taktikasına keçmək zamanıdır. Münxendəki panel müzakirədən nəticə çıxaran AZƏRTAC bu istiqamətdə fəaliyyətini daha da gücləndirməyə başlayıb. Beynəlxalq media qurumlarında təmsilçilik, dünya KİV-ləri ilə tərəfdaşlıq əlaqələri bizə Azərbaycan həqiqətlərini mümkün qədər geniş coğrafiyada yaymaq imkanı yaradır və bundan maksimum yararlanmağa çalışırıq.

**AZƏRTAC internet əsrində: zamanın çağırışı və müasir trendlər**

İnternetin Azərbaycana ayaq açması ilə media, xüsusən elektron informasiya vasitələri qarşısında hüdudsuz imkanlar açıldı. Xəbər buraxılışının həm həcmi, həm də operativliyi təsəvvürəgəlməz dərəcədə artdı. Təkcə bir faktı qeyd etmək kifayətdir: əgər veb-saytımız yaradılanadək biz gündə ən çoxu 60-70 xəbər buraxa bilirdiksə, indi bu göstərici on dəfədən çox artıb. AZƏRTAC hər gün 700-ə yaxın informasiya, video və foto xəbər hazırlayaraq öz kanalları ilə yayır.

Bu il AZƏRTAC-ın veb-saytının da yubileyidir. Agentlik ilk veb-resursunu 2000-ci ildə işə salıb. İlk vaxtlar saytımız üç dildə - Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərirdi. Sonradan veb-resursumuz zamanın tələblərinə uyğun olaraq dəfələrlə yenilənib, yeni dizayn və texnologiyalarla təqdim edilib. Hazırda agentliyin beş veb-resursu və iki veb-servisi (interaktiv xəritə), üç mobil tətbiqi var.

Sözsüz ki, ölkənin əsas informasiya təchizatçısı kimi AZƏRTAC-ın veb-resursu etibarlı və kiber hücumlara davamlı olmalıdır. Biz həyati əhəmiyyətə malik bu sınaqdan da üzüağ çıxdıq. 2016-cı ilin Aprel döyüşləri zamanı saytımız erməni hakerlərinin aramsız hücumlarına məruz qaldı. Lakin onlar nə qədər çalışsalar da, veb-resursumuza zərər vura bilmədilər.

Hazırda agentliyin saytı 8 dildə fəaliyyət göstərir. Eyni zamanda, videoların yayımı

üçün beş dildə veb-resursumuz var. Altı il bundan öncə biz "Uşaq bilik portalı" yaratdıq. Bu sırada fotosaytımızı və zəif görənlər üçün resursları da qeyd etmək olar.

Veb-resurslarla yanaşı, yeni trendlərə də xüsusi önəm veririk. Sosial şəbəkələrin yeni peyda olduğu vaxtlarda belə təsəvvür yaranmışdı ki, ənənəvi media mövqelərini və aktuallığını itirəcək. Sonradan çoxlarına aydın oldu ki, sosial şəbəkə jurnalistika deyil. Müəllifi olmayan xəbər imzasız məktuba bənzəyir. Buna görə də tam əminliklə demək olar ki, sosial şəbəkələr heç vaxt peşəkar jurnalistikanı əvəz edə bilməz. Lakin düşünürəm ki, ənənəvi media onlayn platformalardan istifadə etməlidir, yəni, orada həm onun auditoriyası cəmlənib, həm də düzgün istifadə etdikdə sosial şəbəkələr potensial informasiya mənbəyidir.

AZƏRTAC sosial şəbəkələrdə işin qurulmasına hələ 2011-ci ildə başlayıb, bununla bağlı struktur yaradılıb. Hazırda bizim 30-dan çox sosial şəbəkə və messenger profilimiz var. Onların dinamik artımına nail olmaq prioritetlərimizdən biridir.

Müasir dövrdə sosial şəbəkələr və mobil texnologiyalar tandemi informasiya işinə çox güclü təsir göstərir. Xəbər agentliyi olaraq, bu iki texnoloji tendensiyanı diqqətdə saxlayırıq. Bütün veb-resurslarımızın əlçatan və istifadəçi üçün rahat olmasını təmin etmişik və bu istiqamətdə müntəzəm iş aparırıq. Nəticə göz qabağındadır: 2018-ci illə müqayisədə 2019-cu ildə mobil cihazlar vasitəsilə bizim informasiya resurslarına müraciət 50 faiz, videolara baxış isə 75 faiz artıb. "YouTube" kanallarımızda videoxəbərlərə baxışların 83 faizi mobil cihazların payına düşür.

Son statistikaya nəzər salsaq görərik ki, Azərbaycanda 5 milyona qədər aktiv mobil internet istifadəçisi var. Təxminən 3,2 milyon insan mütəmadi olaraq "Facebook" və "Instagram"dan istifadə edir. "Facebook"dan istifadənin 96 faizi mobil cihazların payına düşür. Bu, bir dünya tendensiyasıdır. 2019-cu ilin statistikasına əsasən, qlobal miqyasda 98 faiz "Facebook" istifadəçisi öz profillərinə mobil cihazlardan daxil olur. Bu da öz növbəsində informasiyanın istehsalı və istehlakı, təqdimatı, sürəti kimi parametrlərə təsir göstərir, bizi mobil resurslarımızı daha cəlbedici etməyə, daha təkmil platformaya çevirməyə yönəldir.

Zamanın digər bir çağırışı multimedia və videoxəbər istehsalıdır. AZƏRTAC-da videoxəbər xidməti 2010-cu il aprelin 22-də Prezident İlham Əliyevin Sərəncamına əsasən yaradılıb. Yeni texnologiyaların tətbiqinin önəmini vurğulayan dövlətimizin başçısı bu sahənin inkişafını vacib hesab edib. Ölkə üzrə ilk ixtisaslaşmış videoxəbər studiyası məhz AZƏRTAC-da tətbiq olundu və biz ənənəvi informasiya materialları ilə yanaşı, videoxəbərlər də yaymağa başladıq. O vaxtdan 10 il keçib və videoformatın qlobal miqyasda trend olduğunu artıq hamı görür. Məhz gələcəyə hədəflənmiş həmin addım bu gün agentliyimizi videoməhsul istehsalçıları sırasında öncül yerlərə çıxarıb. İndi bizim ayrıca videoportalımız var. AZƏRTAC regionda yeganə agentlikdir ki, 5 dildə (Azərbaycan, ingilis, rus, fransız və alman) video yayır. Mühüm dövlət tədbirləri, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın səfərləri, iştirak etdikləri tədbirlər, keçirdikləri görüşlər barədə video-

lar saytımızla yanaşı, "YouTube" kanallarımızda da yayılır. Videosaytımızda indiyədək minlərlə müsahibə və reportaj yerləşdirilib. Burada ölkə həyatının hər bir sahəsinə aid videomateriallar tapmaq mümkündür.

Günümüzün müəyyən trendlərini sosial şəbəkələr diktə edir. Bu, özünü əsasən informasiyanın 10 il öncə ağlasığmaz görünən təqdimat formalarında büruzə verir. Məsələn, "Instagram"da "Tarixçə" üçün hazırlanan videoformat sırf mobil cihazların ekran ölçülərinə hesablanıb. Sosial şəbəkə və mobil cihaz tandemi multimedia jurnalistikasına tamamilə yeni yanaşmalar gətirir. Agentliyimiz bu trendi də nəzərə almaqla, həmin formatlardan geniş istifadə edir. Təsadüfi deyil ki, videolarımız agentliyin sosial şəbəkələrində ən populyar məhsullardan biridir.

Biz videoxəbərlə yanaşı, digər multimedia məhsulları hazırlayırıq. Buraya infoqrafika, slaydşou, videoqrafika, "360" videolar aiddir. Videolarda xarici dillərdə mətnin nitqə neyron çevrilməsinin Amazon texnologiyasından istifadə edirik. Şirkətin agentliyimizə təqdim etdiyi bu proqram təminatı özüöyrənən texnologiyaya əsaslanır. Süni intellekt informasiya agentlikləri üçün də əlçatan olub. Xəbərlərin və hətta videoların süni intellekt tərəfindən hazırlanması günümüzün reallığıdır. AZƏRTAC gələcək fəaliyyətini məhz belə qabaqcıl texnologiyaların tətbiqinə yönəltmək niyyətindədir.

Görülən işlərin müsbət nəticələri xəbərlərə baxış sayında real əksini tapır. 2019-cu ildə agentliyimizin veb-resurslarında, sosial şəbəkələrdəki səhifələrində və üzvü olduğu beynəlxalq media təşkilatlarının portallarındakı xəbər, foto və videolarına müraciətlərin sayı 73 faiz yüksəlib. Bu, hətta proqnozları xeyli üstələyib. Eyni tendensiya videoxəbərlərə baxışlarda da müşahidə edilir.

### Ölkə mediasında AZƏRTAC-ın yeri və rolu barədə bəzi düşüncələr

İnformasiya güclü silahdır. O, müsbət mənada səfərbəredici təsirə, mənfi mənada dağıdıcı gücə malikdir. Məkrli niyyət güdən xəbər xalqları, dinləri üz-üzə qoya, münaqişələr, qarşıdurmalar yarada bilər. Təsadüfi deyil ki, feyk xəbərlər bu gün dünyanı narahat edən qlobal problemə çevrilib.

Azərbaycana gəlincə, ümummilli lider Heydər Əliyev milli mətbuatımızın üç əsas prinsipini müəyyənləşdirib: dövlətçiliyə xidmət, azərbaycançılıq ideologiyasının təbliği və ümumbəşəri dəyərlərə hörmət. AZƏRTAC Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedir. Onun ölkə mətbuatında yeri və rolu, ilk növbədə, bu meyarlarla qiymətləndirilməlidir.

Bu gün Azərbaycanda söz və mətbuat azadlığı tam təmin olunub. Xəbər agentliklərinin, qəzet və jurnalların, teleradioların ümumi sayı 5 mini, internet portallarının sayı 20 mini ötür. Belə bir vaxtda heç bir hal istisna olunmur. Kimsə qrup mənafelərindən, kimsə şəxsi maraqlardan çıxış edə bilər. Yaxud bir başqası ucuz sensasiya arxasınca qaçır, bu yolla auditoriya toplamağa, reytinq qazanmağa çalışır.

Mətbuat azadlığı, İKT-nin yaratdığı hədsiz imkanlar həyatımızda çox şeyi dəyişib və dəyişməkdədir. Fəqət, informasiyanın yüz il əvvəl olduğu kimi, bu gün də dəyişməz

meyarları var. Bu, xəbərin dürüstlüyü, obyektivliyi və qərəzsizliyidir. KİV-lər arasında kəskin rəqabətə baxmayaraq, AZƏRTAC bu prinsiplərə daim sadiqdir. O, heç vaxt yoxlanılmamış, dəqiqləşdirilməmiş xəbər yaymır, sensasiya, yaxud süni reytinq arxasınca qaçmır. Əvəzində oxucu inamı və etibarı qazanır. "Əgər AZƏRTAC yazıbsa, deməli, düzdür", – insanların dilindən eşitdiyimiz bu sözlər bizim ən böyük mükafatımız, uğur göstəricimizdir.

İnternet xəbər məkanını qloballaşdırıb. İndi dünyanın istənilən nöqtəsində istənilən saytı izləmək mümkündür. Az qala səmadakı ulduzların sayından çox olan saytlar arasında parlamaq, diqqət çəkmək heç də hər agentliyə nəsib olmur. AZƏRTAC bu baxımdan ölkəmizin xəbər agentlikləri arasında çoxlarından irəli getsə də, Azərbaycan həqiqətlərini dünyaya daha çox çatdırmaq üçün bütün mümkün vasitələrə əl atır. 150-dək xarici xəbər agentliyi ilə qurulan əməkdaşlıq əlaqələri, getdikcə genişlənən informasiya mübadiləsi, beynəlxalq media qurumlarında fəal təmsilçilik bu qəbildəndir.

AZƏRTAC-ın ölkə mediasında yerini və rolunu səciyyələndirən əsas amillərdən biri vaxtilə ulu öndərimizin, sonradan isə Prezident İlham Əliyevin ona ayırdığı diqqət, Birinci vitse-prezident Mehriban Əliyevanın verdiyi dəstəkdir. Bu diqqət və dəstək sayəsində agentliyimiz ən müasir texnologiya ilə təchiz olunub. Hazırda xarici ölkələrdə AZƏRTAC-ın 21 müxbir məntəqəsi fəaliyyət göstərir. Xüsusi müxbirlərimiz fəaliyyət göstərdikləri ölkələrin mətbuatında Azərbaycanla bağlı yazılarla müntəzəm çıxış edirlər. Prezidentin sərəncamına əsasən inşa olunmuş yeni ofisimiz yaxın vaxtlarda kollektivimizin istifadəsinə veriləcək.

Əlbəttə, AZƏRTAC-ın bugünkü hər bir uğurunun arxasında gərgin iş və yaradıcılıq axtarışları ilə yanaşı, ilk növbədə, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, ölkəmizin dünyada artan nüfuzu, həyatın bütün sahələrini əhatə edən köklü islahatlar dayanır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Dünya İqtisadi Forumunun illik "İnklüziv inkişaf indeksi" hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında üçüncü yerə yüksəlib. Agentliyimizin kollektivi də öz fəaliyyətini ölkəmizin misilsiz inkişafına uyğun qurmağa, informasiya işini beynəlxalq standartlar səviyyəsinə çatdırmağa çalışır. Əldə olunan nailiyyətlərlə kifayətlənməyərək bütün qüvvə və bacarığını dövlətimizin başçısının milli mətbuatımız qarşısında qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsinə səfərbər edir. Yeniləşmək və yenə də yeniləşmək – bu gün üçün də, gələcək üçün də hədəfimiz budur.

Beləliklə, AZƏRTAC-ın bir əsrlik inkişaf yoluna zamanın beş fərqli nöqtəsindən baxmağa çalışdıq. Onun Xalq Cümhuriyyəti və sovet dönəmində, ulu öndərimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövrdə keçdiyi yola qısaca nəzər saldıq. Nəhayət, oxucunu bu günümüzün AZƏRTAC-ı ilə tanış etdik. Tarixə hətta ötəri baxışdan aydın görmək olur ki, ictimai-siyasi quruluşdan, dövrlərin ziddiyyətlərindən, bir-birini əvəzləyən tənəzzül və dirçəlişdən asılı olmayaraq, bu 100 illik yol Vətənə və xalqa xidmət, jurnalistikanın əzəli və əbədi dəyərlərinə sədaqət yoludur.

# MÜASİR AZƏRBAYCAN, DAVAMLI İNKİŞAF, YÜKSƏLƏN RİFAH, GÜCLÜ DÖVLƏT

*Bu, aparılan islahatların prioritet hədəfləridir*

**Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu siyasətin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında etibarlı təminat yaradır. Bu baxımdan yola saldığımız 2019-cu il dövlətimiz və xalqımız üçün ümumilikdə keçən dövrün uğurlu davamı kimi ölkədə gedən zəncirvari inkişaf proseslərinin mühüm bir halqası olaraq xüsusi əlamətdarlığı ilə yadda qaldı. Ölkə tarixinə isə islahatlar ili kimi düşdü, inkişaf, sabitlik yolu ilə inamla irəliləyən respublikamız üçün uğur salnaməsinin daha bir parlaq səhifəsinə çevrildi.**

Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Çünki bu islahatlar insanların həyat səviyyəsini yaxşılaşdırır, ölkəmizin iqtisadiyyatını sürətləndirir, "İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik" – deyən ölkə başçısı çıxışlarında Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayır, qeyd edir ki, "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır. Ümumiyyətlə, əvvəlki illərdə də respublikamızda bir çox islahatlar həyata keçirilib. Lakin indiyədək heç vaxt 2019-cu ildə olduğu kimi eyni vaxtda kompleks və genişmiqyaslı addımlar atılmayıb. Ötən ildə əldə olunan iqtisadi uğur və dəyişiklikləri bir neçə istiqamətdə qruplaşdıra bilərik. Birinci qrupa sosial istiqamətdə atılan inqilabi addımlar, ikinciyə kölgə iqtisadiyyatına qarşı tədbirlər, üçüncüyə iqtisadiyyatı idarəetmə mexanizmində struktur və kadr dəyişiklikləri, dördüncü qrupa isə qeyri-neft sektorunun inkişafı sahəsində görülən işlər daxildir.

Hələ 2018-ci il prezident seçkiləri və seçildikdən sonra Azərbaycan Prezidentinin konseptual çıxışı artıq islahatların yeni dönəminin başlanğıcı, növbəti illərin proqram və planlarının anonsu idi. Diqqətlə çox vacib məqamı qeyd etmək lazımdır ki, cənab Prezidentin gələcək inkişafın konsepsiyasını anons edən çıxışı heç də seçkiöncəsi təbliğat və yaxud kampaniya xarakterli deyil, seçkidən dərhal sonraya təsadüf edən qarşıya qoyulan vəzifələrin konkret icrası ilə bağlı idi və planlı şəkildə proqramın icrası da çox düşünülmüş nəzəri və praktiki cəhətdən son dərəcə real əsaslandırma üzrə mərhələlərlə həyata keçirilməyə başlandı. Əvvəlcə sözsüz ki, sosial-iqtisadi sahədə vaxt baxımından daha vacib islahatlara başlanıldı, eyni zamanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsini və yaşam səviyyəsinin daha yaxşılaşdırılmasını nəzərdə tutan ardıcıl tədbirlər həyata keçirildi. Bu, əhalinin imtiyazlı hissəsinin və sosial müdafiəyə ehtiyacı olanların sosial-maddi vəziyyətinin yaxşılaşdırılması, qeyri-neft sektoru və iqtisadiyyatın bütün ənənəvi və yeni spektrləri üzrə inkişafı, eyni zamanda kiçik, orta və iri biznes sahəsinin inkişafı, investisiya mühitinin saflaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi, vergi, gömrük və digər əlaqəli sistemdə aparılan ciddi islahatlarla müşayiət olundu. Mart və sentyabr aylarında əməkhaqlarının, pensiyaların, sosial müavinətlərin və təqaüdlərin artımını nəzərdə tutan 2 sosial paketin icrasına başlandı. Minimum əməkhaqqı 1 ildə 2 dəfə artırılaraq 130 manatdan 250 manata, minimum pensiya isə 116 manatdan 200 manata çatdırıldı. Birinci göstərici ilk dəfə olaraq ölkə üzrə müəyyən edilmiş yaşayış minimumu göstəricisinə nəinki çatdı, sentyabrın 1-də hətta onu keçdi də. Paralel olaraq, bütün müavinətlər də yüksəldildi və yeni müavinət növlərinin tətbiqinə başlanıldı ki, dövlət büdcəsindən maliyyələşən elm, müdafiə, təhlükəsizlik, hüquq-mühafizə, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, sənaye, tikinti və faydalı qazıntılar, nəqliyyat və rabitə, iqtisadi fəaliyyət sahələrində, habelə dövlət orqanlarında çalışan işçilərin də aylıq əməkhaqları dövlət başçısının müvafiq sərəncamları ilə artırıldı.

Möhtərəm Prezidentimiz qeyd edir ki, dünyada gedən proseslər bizi də narahat edir. Dünyada yeni münaqişə ocaqları, yeni gərginlik yerləri yaranır. Mövcud problemlər öz həllini tapmır, əksinə, yeni problemlər əlavə olunur. Demək olar ki, dünyanın bütün yerlərində – Avropada, Afrikada, Asiyada, Latın Amerikasında, bizim bölgəmizdə, postsovet məkanında müəyyən gərginlik müşahidə olunur. Bəzi hallarda bu gərginlik daha şiddətli formalar alır. Ancaq Azərbaycan uzun illər ərzində sabitlik yolu ilə gedir. Ölkəmizdə mövcud olan sabitlik Azərbaycan xalqının iradəsi ilə təmin edilir. Bizim apardığımız siyasət xalq tərəfindən dəstəklənir. Siyasət konkret işlərlə ölçülür. Bizim siyasətimizin təməlində konkret işlər, real inkişaf, söz yox, əməl dayanır və verilən hər bir söz həyatda öz əksini tapır. Ona görə də xalq tərəfindən bizə göstərilən etimad yüksək səviyyədədir və sabitliyin, əmin-amanlığın əsas şərtləri məhz budur. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. İslahatlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. “Adətən çox köklü iqtisadi və siyasi islahatlar böyük problemlər də gətirir. Yəni, bu islahatlar bəzi hallarda, daha doğrusu, bir çox hallarda insanların həyat tərzinə mənfi təsir göstərir.

Azərbaycanda isə islahatlar ardıcıl şəkildə aparılır. Bu, düşünülmüş siyasətdir. Sadəcə olaraq, biz indi islahatların yeni mərhələsinə qədəm qoymuşuq. Ona görə həm iqtisadi sahədə, həm siyasi sahədə aparılan islahatlar xalqımızın, dövlətimizin maraqlarına xidmət edir. Eyni zamanda, çox ciddi struktur və kadr islahatları aparılmışdır. Bütün bunlar bir daha onu göstərir ki, bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması, sabitliyin təmin edilməsidir. Biz bütün bu məqsədlərə çatırıq. Keçən il əldə edilmiş iqtisadi və sosial nailiyyətlər bunu bir daha təsdiqləyir."

İqtisadiyyatımız 2,2 faiz, ümumi daxili məhsul 2,2 faiz, sənaye istehsalı 1,5 faiz artıb. Qeyri-neft sektorunda artım 3,5 faizdir. Neftin qiyməti sabitdir. Əsas prioritet sahə olan qeyri-neft sektoru 14 faizdən çox artıb. Burada, keçən il istismara verilmiş nəhəng sənaye müəssisələrinin fəaliyyətə başlaması, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması xüsusi rol oynayıb. "Biznes mühitinin yaxşılaşdırılmasını Dünya Bankı da qeyd edir. "Doing Business" hesabatında Azərbaycan keçən il 20 ən islahatçı ölkə sırasına daxil edilibdir. Əlbəttə ki, bütün biznes qurumları bunu görür, hiss edirlər. Vergi və gömrük inzibatçılığı, biznes dairələrinə göstərilən dövlət dəstəyi, əlbəttə ki, qeyri-neft sənayesində də özünü büruzə verir. Beləliklə, 14 faizdən çox artan qeyri-neft sənayemiz yeni iş yerlərinin yaradılması deməkdir. Qeyd etməliyəm ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu, daimi proses olmalıdır. Çünki Azərbaycanda əhali yüksək templərlə artır və iqtisadiyyat, iqtisadi inkişaf, o cümlədən iş yerlərinin yaradılması demoqrafik inkişafı daim üstələməlidir. Buna görə biz daim bu məsələyə xüsusi diqqət verməliyik. Ancaq o da həqiqətdir ki, hər bir iş yerinin yaradılması üçün həm dövlət, həm də özəl sektor tərəfindən böyük vəsait tələb olunur. Çünki iş yerlərinin yaradılması elə boş yerə olmur, gərək infrastruktur, şərait, imkanlar olsun. Özəl sektor, əlbəttə ki, iş yerlərini yaradan əsas sektor olaraq öz sözünü deyir və deməlidir. Beləliklə, əsas iqtisadi göstəricilər bunlardır. Əgər buraya ölkəmizə qoyulan sərmayəni əlavə etsək, mənzərə daha gözəl olacaqdır. Keçən il ölkəmizə 13,5 milyard dollar sərmayə qoyulubdur. Azərbaycan həm xarici, həm daxili investorlar üçün çox cəlbedici məkandır."

Bu gün həm siyasi müstəvidə, həm iqtisadi sahədə, həm də biznesin inkişafı baxımından Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik bir ölkədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yaxınlarda 14-cü dəfə Davos Ümumdünya İqtisadi Forumunda iştirakı, Forum çərçivəsində apardığı danışıqlar, iştirak etdiyi tədbirlər bir daha göstərir ki, ölkəmizə həm böyük maraq, həm də böyük rəğbət var. İyirmidən çox görüş keçirildi. Biz mətbuat vastəsilə onun bu səfərini diqqətlə izləmişik. Azərbaycanda iş görmək istəyən şirkətlərin sayı artır. Dövlət başçısı bildirir ki, "Davos Forumunda iştirak edən şirkətlər dünya miqyasında ən böyük şirkətlərdir. Yəni, oraya – Foruma daxil olmaq üçün bir çox meyarlar olmalıdır. Onlardan biri də əlbəttə ki, şirkətlərin kapitallaşdırılmasıdır. Beləliklə, bu böyük sərmayə qoyuluşu və valyuta ehtiyatlarımızın artımı bir daha göstərir ki, biz düzgün yoldayıq və bu yolla gedəcəyik."

Prezident cənab İlham Əliyevin uğurlu

sosialyönümlü siyasəti sayəsində ölkədə dinamik iqtisadi inkişafla paralel olaraq sosial sahənin bütün istiqamətlərində mühüm addımların atılmasına, o cümlədən pensiya təminatının ildən-ilə gücləndirilməsinə nail olunub. Son 16 ildə orta aylıq əməkhaqqı 11 dəfə, orta aylıq pensiya 8 dəfə, həmçinin müavinət və təqaüdlər dəfələrlə artırılıb. Xüsusilə qeyd etmək lazımdır ki, 2019-cu ildə dövlət başçısının təşəbbüsü və tapşırığı ilə reallaşdırılan inqilabi sosial islahat paketlərinin 4,2 milyon vətəndaşın gəlirlərinin əhəmiyyətli dərəcədə artırılması təmin edilib. O bildirib ki, nəticədə minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis edilib, ümumən Prezidentin aylıq təqaüdləri ilə təminat proqramı 5 dəfəyə yaxın genişlənib. Ötən il minimum pensiyanın ciddi artımı nəticəsində Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB ölkələri və Gürcüstan üzrə 1-ci yerə yüksəlib. Pensiyalarda ciddi artım nəticəsində 2019-cu ildə Azərbaycanda pensiyaların orta aylıq məbləği 15 faiz, median pensiya məbləği 54 faiz artıb. Diqqətçəkən məqamlardan biri də budur ki, minimum əməkhaqqının və dövlət sektoru üzrə çalışanların əməkhaqqının artımı 1 milyon 350 min insanı əhatə edib, eyni zamanda bu ciddi artım ötən il ölkədə orta əməkhaqqının da əhəmiyyətli dərəcədə – 16,6 faiz artması ilə nəticələnib. Bu da nəticə etibarilə ölkəmizdə 2020-ci ildə pensiyaların əvvəlki illərin müvafiq indeksləşdirmə artımları ilə müqayisədə xeyli yüksək həddə indeksləşdirilərək artırılmasına imkan verib. Son bir ildə sosial sahənin yalnız bir istiqaməti üzrə, yəni pensiya artımları hesabına pensiyaçılarımıza 1 milyard manatdan artıq əlavə vəsait ödənilir. Bu da bir tərəfdən dövlətimizin daim artan gücünün, digər tərəfdən sosial sahəyə qayğının və diqqətin bariz nümunəsidir. Dövlət başçısı ötənilki sosial islahatlardan bəhs edərkən “Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik. Ona görə sosial sahədə görülmüş bu işlər bir daha bizim siyasətimizi əks etdirir, bizim gücümüzü göstərir və bundan sonra da bu sahə daim diqqət mərkəzində olacaqdır” deyə bəyan edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Əmək pensiyalarının indeksləşdirilməsi haqqında” 6 fevral 2020-ci il tarixli Sərəncamının sosial sahədə islahatların 2020-ci ildə də uğurla davam etməsinin əyani təsdiqi olduğunu vurğulamaq lazımdır.

Keçən il sosial infrastrukturun yaradılması ilə bağlı önəmli addımlar atıldı - 84 məktəb, 60 tibb müəssisəsi tikildi və təmir edildi. Bu proses də daim gedir. Məktəblərin böyük hissəsinin təmiri başa çatdırılıb, amma hələ də qəzalı vəziyyətdə olan məktəblər var və onların da təmiri ilə bağlı gələcək illərdə konkret addımlar atılacaqdır. İnfrastruktur layihələrinin icrası ilə əlaqədar mühüm işlər görülüb. Xüsusilə elektrik enerjisi sahəsində. Bu sahədə də ciddi irəliləyiş olubdur. Qazlaşdırma prosesi də davam etdirilib. Bu gün ölkəmizin demək olar ki, bütün yerlərində qazlaşdırma təmin edilibdir. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Bu da dünya miqyasında ən yüksək göstəricilərdən biridir. 1300 kilometr avtomobil yolu salınıb. Prezident deyib ki, “Min kilometr nəzərdə tutul-

muşdu. Ancaq il ərzində rayonlara səfərlərim zamanı mənə edilən müraciətlər, sonra vətəndaşlar tərəfindən ünvanlanan məktublar əsasında biz əlavə 300 kilometr yolun çəkilişinə nail olduq. Avtomobil yollarının keyfiyyətinə görə bu gün Azərbaycan dünyada 27-ci yerdədir, bir çox inkişaf etmiş ölkələri qabaqlayır". Bu infrastruktur layihələrin dövlət investisiya proqramı hesabına icra edildiyini diqqətə çatdıran ölkə başçısı bunun ölkəmizin dayanıqlı inkişafı üçün gözəl zəmin yaratdığını vurğulayır. "Təbii ki, bütün bu işlər və eyni zamanda, aparılan islahatlar kənd təsərrüfatının inkişafına da güclü təkan verdi. Kənd təsərrüfatı istehsalı son illərlə müqayisədə rekord həddə çatdı. Yəni, artım tempi 7 faizdən çox olmuşdur, xüsusilə bitkiçilikdə artım 10 faizdən çoxdur. Bizim kənd təsərrüfatı məhsullarının ixracı artır. Daxili tələbat yerli məhsullar hesabına təmin edilir. Çünki bütün bu işlər bir-biri ilə sıx bağlı olan məsələlərdir. Keçən il, eyni zamanda, nəqliyyat sahəsində bizim böyük layihələrimiz icra edilibdir. Onların arasında Bakıətrafı dəmir yolu xəttinin çəkilişini xüsusilə qeyd etmək istərdim. Biz vaxtilə "elektriçka" adlandırılan dəmir yolu nəqliyyatını ən müasir səviyyədə bərpa etmişik, ən aparıcı şirkətin istehsal etdiyi qatarları gətizdirmişik. Qəsəbələrdə dəmir yolu stansiyaları tikilibdir və bu proses davam etdiriləcək. Bu il artıq Bakıətrafı dəmir yolunun çəkilişinin əsas mərhələsi başa çatacaq, yəni, dairə birləşəcəkdir. Ondan sonra hələ ki, dəmir yolu olmayan qəsəbələrə dəmir yolunun çəkilişi nəzərdə tutulur. Eyni zamanda, qonşularla bizi birləşdirən dəmir yollarında bərpa işləri aparılır ki, sürət daha da artsın. Buna böyük dərəcədə nail olmuşuq, xüsusilə qərb istiqamətində. Şimal və cənub istiqamətində görüləcək işlər üçün hazırlıq aparılır və bu il bu proses daha sürətlə gedəcəkdir." 14 faizdən çox artan qeyri-neft sənayesi yeni iş yerlərinin yaradılması deməkdir. Bir məsələni də xüsusi qeyd edək ki, keçən il 98 min yeni iş yeri yaradılmışdır. Möhtərəm Prezidentimizin də dediyi kimi, bu, daimi proses olmalıdır. Azərbaycan regionlarının dördüncü sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunları barədə danışarkən vurğulamaq lazımdır ki, bir il bundan əvvəl qəbul edilmiş dördüncü proqram əvvəlki dövrlərdə qəbul edilmiş proqramların məntiqi davamıdır. Üç proqram çərçivəsində böyük işlər görülmüşdür. "Ancaq hələ də görüləsi işlər çoxdur. Hesab edirəm ki, dördüncü proqram çərçivəsində ölkə qarşısında duran əsas infrastruktur vəzifələri icra olunacaq və beləliklə, ölkəmizin gələcək inkişafı üçün daha gözəl imkanlar yaranacaqdır. Keçən il ərzində proqramın icrası ilə bağlı bütün lazımi tədbirlər görülüb. Deyə bilərəm ki, proqram artıqlaması ilə icra edilib. Proqramda nəzərdə tutulmuş məsələlər həll olunub. Ancaq bəzi məsələlərdə müəyyən ləngimələr var. Ona görə bu məsələlərin həllinə xüsusi diqqət göstərilməlidir. Hesab edirəm ki, proqramın bu il icra ediləcək bütün tədbirləri həyatda öz əksini tapacaq."

Davamlı islahatların reallaşdırılması ilə yanaşı, bütün sahələrdə ardıcıl inkişaf strategiyası uğurla həyata keçirilməkdədir.

**Yusif Ələkbərov,**
**"Prant" şirkətinin prezidenti, Beynəlxalq mükafatlar laureatı, Beynəlxalq Elmlər Akademiyasının fəxri üzvü.**

www.vektormap.az

*RƏSMİ SƏNƏDLƏR*

AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## AZƏRBAYCAN RESPUBLİKASI MÜLKİ MƏCƏLLƏSİNİN 1134, 1146 VƏ 1252-ci MADDƏLƏRİNİN BƏZİ MÜDDƏALARININ ŞƏRH EDİLMƏSİNƏ DAİR

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

24 fevral 2020-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Vüqar Zeynalovun,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Dəmirov və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin baş məsləhətçisi Fərid Hacıyevin,

ekspert hüquq üzrə fəlsəfə doktoru, dosent Bağır Əsədovun,

mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin hakimi İkram Şirinovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1146 və 1252-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Salmanovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssisin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası (bundan sonra – Ali Məhkəmənin Mülki Kollegiyası) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 1252-ci maddəsində nəzərdə tutulmuş irsi transmissiya ilə bağlı hüquqi normanın düzgün tətbiq olunması üçün həmin Məcəllənin 1134, 1146 və 1252-ci maddələrinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, Y.Salahov cavabdehlər Ə.Əkbərov və Bakı şəhəri 53 saylı Notariat Kontoruna qarşı iddia ərizəsi ilə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə müraciət edərək mərhum qızı L.Salahovadan miras qalmış Bakı şəhəri Z.Xəlilov küçəsi ev 35a ünvanında yerləşən 43 saylı və Bakı şəhəri 20 Yanvar küçəsi ev 40 ünvanında yerləşən 73 saylı mənzillərin miras əmlak kimi onun tərəfindən qəbul edilməsi faktının müəyyən olunması, həmin mənzillərin 1/2 hissəsi üzərində onun, 1/2 hissəsi üzərində isə Y.Əkbərovun miras payının müəyyən olunması və buna dair vərəsəlik şəhadətnaməsinin verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Həmçinin Ə.Əkbərov və Y.Əkbərov (onun adından qanuni nümayəndəsi olaraq Ə.Əkbərov) cavabdehlər Y.Salahov və Bakı şəhəri 53 saylı Notariat Kontoruna qarşı qarşılıqlı iddia ərizəsi verərək Bakı şəhəri Z.Xəlilov küçəsi ev 35a ünvanında yerləşən 43 saylı mənzilin 5/12 hissəsinə Ə.Əkbərovun, 2/12 hissəsinə Y.Salahovun, 5/12 hissəsinə Y.Əkbərovun hüquqları tanınmaqla vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi, Bakı şəhəri 20 Yanvar küçəsi ev 40 ünvanında yerləşən 73 saylı mənzilin 1/6 hissəsinə Ə.Əkbərovun, 2/6 hissəsinə Y.Salahovun, 3/6 hissəsinə Y.Əkbərovun hüquqları tanınmaqla vərəsəlik hüququ haqqında şəhadətnamə verilməsinə dair qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 15 fevral 2019-cu il tarixli qətnaməsi ilə ilkin və qarşılıqlı iddialar qismən təmin edilmiş, Y.Salahovun L.Salahovadan miras qalmış əmlakı faktiki qəbul etməsi faktı müəyyən edilmiş, Bakı şəhəri Z.Xəlilov küçəsi ev 35a ünvanında yerləşən 43 saylı və Bakı şəhəri 20 Yanvar küçəsi ev 40 ünvanında yerləşən 73 saylı mənzillərin hər birinə Y.Əkbərovun 3/6 hissədə, Y.Salahovun 2/6 hissədə, Ə.Əkbərovun 1/6 hissədə paylarının müəyyən edilməsi və onların paylarına uyğun vərəsəlik şəhadətnaməsinin verilməsi vəzifəsinin Bakı şəhəri 53 saylı Notariat Kontorunun üzərinə qoyulması qət edilmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 20 iyun 2019-cu il tarixli qətnaməsi ilə birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Həmin qətnamədən narazı qalan Y.Salahov Ali Məhkəmənin Mülki Kollegiyasına kassasiya şikayəti vermişdir.

Ali Məhkəmənin Mülki Kollegiyası mülki işin düzgün həll edilməsi üçün Mülki Məcəllənin 1134, 1146 və 1252-ci maddələrinin şərh olunmasının zəruriliyi qənaətinə gələrək Konstitusiya Məhkəməsinə müraciət olunması haqqında 24 dekabr 2019-cu il tarixli qərardad qəbul etmişdir.

İş materiallarında olan 9 avqust 2016-cı il və 10 avqust 2016-cı il tarixli ölüm haqqında şəhadətnamələrdən görünür ki, L.Salahova və Ə.Əkbərov 5 avqust 2016-cı il tarixində vəfat etmişlər. Miras qoyanlar ər-arvad olmaqla, eyni gündə, lakin günün müxtəlif saatlarında vəfat etmişlər.

Belə ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Elmi-Təcrübi və Tədris Birliyinin 23 avqust 2016-cı il

tarixli Ekspert rəyindən görünür ki, L.Salahova 5 avqust 2016-cı il tarixində təcili tibbi yardım maşını ilə Kürdəmir rayon Mərkəzi Xəstəxanasına aparılarkən yolda ölmüş, yoldaşı Ə.Əkbərov isə Kürdəmir rayon Mərkəzi Xəstəxanasına saat 12:20 radələrində gətirilmiş və həmin gün saat 14:30 radələrində ölmüşdür.

Müraciətdə göstərilmişdir ki, Mülki Məcəllənin 1134.1-ci maddəsinə görə, qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər. Həmin Məcəllənin 1252-ci maddəsinə əsasən, əgər vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə, mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir (irsi transmissiya).

Ali Məhkəmənin Mülki Kollegiyasının qənaətinə görə, vərəsəliklə bağlı münasibətlərin tənzimlənməsində qeyri-müəyyənliyə səbəb olan məsələ Mülki Məcəllənin 1146-cı maddəsində mirasın açılma vaxtının miras qoyanın öldüyü günlə təyin edildiyi halda, həmin Məcəllənin 1134.1-ci maddəsi ilə miras qoyanın öldüyü məqamda sağ olan şəxslərin vərəsə ola bilməsinin təsbit edilməsidir. Müraciət edən qeyd edir ki, vərəsəliklə bağlı məsələlərin həllində mühüm əhəmiyyət kəsb edən zaman faktoru Mülki Məcəllənin 1146-cı maddəsində "miras qoyanın öldüyü gün", 1134-cü maddəsində "miras qoyanın öldüyü məqam" kimi müəyyən edilmişdir. Bu isə Mülki Məcəllənin 1252-ci maddəsində nəzərdə tutulmuş irsi transmissiyanın tətbiqində qeyri-müəyyənliyin yaranması ilə nəticələnir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını zəruri hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə əsasən, dövlət vərəsəlik hüququna təminat verir.

Vərəsəlik hüququna təminat miras qoymağı, yəni bir tərəfdən vəsiyyət edə bilməyi, digər tərəfdən isə vərəsə olaraq mirası qəbul edib ona sahib olmanı nəzərdə tutur. Vərəsəlik münasibətləri miras qoyanla vərəsələr arasında qanunda nəzərdə tutulmuş əsaslar üzrə, yaxud miras qoyanın iradəsinə əsaslanan vəsiyyət üzrə yaranır.

Vərəsəlik dedikdə, ölümündən sonra fiziki şəxsin başqa şəxslərə verilə bilən əmlak hüquq (miras aktivi) və vəzifələrinin (miras passivi) digər şəxslərə keçməsi başa düşülür. Şəxsin ölümü əmlak və bəzi şəxsi qeyri-əmlak hüquqlarının və vəzifələrinin xitamına səbəb olmur, əksinə onlar vərəsəlik hüquq normalarında göstərilən qaydada başqa şəxslərə keçir.

Mülki Məcəllənin 1133-cü maddəsinə əsasən, ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Vərəsəlik münasibətlərinin yaranması üçün, ilk növbədə, miras qoyanın ölüm faktı mövcud olmalıdır. Mülki Məcəllənin 1145-ci maddəsinə uyğun olaraq, miras fiziki şəxsin ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır.

Mülki Məcəllənin 25.2-ci maddəsinə görə, fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır.

Ölüm anı tibb işçisi (həkim, feldşer) tərəfindən təsdiq edilir və qeydiyyat orqanlarına təqdim etmək məqsədi ilə ölüm haqqında tibbi şəhadətnamə verilir (Azərbaycan Respublikası Səhiyyə nazirinin 2015-ci il 3 iyul tarixli 52 saylı Əmri ilə təsdiq edilmiş "Ölüm haqqında tibbi şəhadətnamənin" verilməsi qaydasına dair Təlimat"ın 1-2-ci bəndləri, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsi).

Fiziki şəxsin ölüm faktı və ölüm tarixi (günü) isə Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı orqanları tərəfindən verilən ölüm haqqında şəhadətnamə ilə təsdiq olunur (bioloji ölüm halında).

Fiziki şəxsin məhkəmə qaydasında ölmüş elan edilməsi də hüquqi nəticəsinə görə ölüm faktına bərabər tutulur və məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün şəxsin ölüm günü sayılır (Mülki Məcəllənin 41.3-cü maddəsi).

Nəzərə alınmalıdır ki, məhkəmə şəxsin həlakının güman edildiyi günü onun ölüm günü saya bilər (Mülki Məcəllənin 41.4-cü maddəsi). Belə olan halda, ölüm haqqında akt qeydində ölümün tarixi məhkəmə qətnaməsində yazılmış tarixlə göstərilir.

Beləliklə, şəxsin ölümü və ya məhkəmə qaydasında ölmüş elan edilməsi hüquqi fakt kimi mirasın açılmasına səbəb olmaqla vərəsəlik hüquq münasibətlərinin yaranma əsasını təşkil edir.

Vərəsə ola biləcək şəxslərin dairəsi Mülki Məcəllənin 1134-cü maddəsi ilə müəyyən olunmuşdur. Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq ola bilərlər.

Vərəsələrin dairəsinin müəyyən edilməsi irsi transmissiya ilə bağlı məsələnin həllində mühüm əhəmiyyət kəsb edir. Mülki Məcəllənin 1252-ci maddəsinə əsasən, əgər vərəsə miras açıldıqdan sonra, lakin miras qəbul edilənədək ölərsə, mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir (irsi transmissiya). Ölmüş vərəsənin vərəsələri mirası onun qəbulu müddətinin sonunadək qalmış vaxt ərzində qəbul etməlidirlər. Əgər bu müddət üç aydan azdırsa, üç ayadək uzadılmalıdır.

Vərəsəlik hüququnda irsi transmissiya dedikdə, miras açıldıqdan sonra öldüyünə görə mirası qəbul edə bilməyən vərəsənin (transmittent) mirası qəbul etmək hüququnun onun öz vərəsələrinə (transmissar)

keçməsi başa düşülür. Yəni, qanun və ya vəsiyyət üzrə vərəsə miras açıldıqdan sonra miras əmlakın qəbulu üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə mirası qəbul etmədən və vərəsəlik hüququnu həyata keçirə bilmədən ölərsə, mirası qəbul etmək hüququ ləğv edilmir və bu hüquq ölmüş vərəsənin vərəsələrinə keçir. Bu halda əksi sübuta yetirilməyincə mirası qəbul etmədən ölmüş vərəsənin miras qoyanın əmlakını, mirası qəbul etmək niyyətinin mövcudluğu prezumpsiyası tətbiq edilir.

Qeyd olunmalıdır ki, Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, ailə-təminat prinsipinin məntiqinə əsasən mülkiyyətçiyə yaşadığı dövrdə məxsus olan əmlak (əmlakın müəyyən hissəsi) üzərində sərəncam vermək hüququ onun vəfatından sonra yaxın ailə üzvlərinə məxsus olmalıdır. Bu prinsip qanun üzrə vərəsəlik zamanı növbəlik, irsi transmissiya qaydalarında özünü göstərir və mirasın daha yaxın şəxslər dairəsinə çatmasına xidmət edir (“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I və II hissələrinə, 29-cu maddəsinin I, II və III hissələrinə uyğunluğunun yoxlanılmasına dair” 2011-ci il 20 oktyabr tarixli Qərar).

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələnin araşdırılması üçün Mülki Məcəllənin 1134-cü maddəsində nəzərdə tutulmuş “məqam” müddəasına aydınlıq gətirilməsini zəruri hesab edir.

“Məqam” sözü müxtəlif mənalarda işlənir: 1) yer, məkan; 2) vaxt, zaman, an, müddət; 3) vəzifə, rütbə, mənsəb; 4) hal, vəziyyət. Zaman göstəricisi kimi “məqam” vaxt, an mənalarında istifadə olunur. Bu baxımdan, Mülki Məcəllənin vərəsə ola biləcək şəxslərin dairəsini müəyyən edən 1134.1-ci maddəsində nəzərdə tutulmuş “miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər” müddəası miras qoyanın öldüyü anda sağ olan vərəsələr mənasında başa düşülməlidir. Miras qoyanın vərəsələrinin təyin edilməsi üçün də onun dəqiq ölüm anı müəyyən edilməlidir. Bu an irsi transmissiya ilə bağlı məsələnin həllində mühüm əhəmiyyət kəsb edir. Belə ki, miras qoyanın öldüyü anda sağ olmuş vərəsə miras qəbul edilənədək vərəsəlik hüququnu həyata keçirmədən ölərsə, sonuncunun mirasdan pay almaq hüququ onun vərəsələrinə keçir. Ölüm anının müəyyənləşdirilməsi mümkün olmadığı təqdirdə isə eyni gündə vəfat edən, biri digərindən sonra vərəsə olmaq hüququna malik şəxslər eyni anda ölmüş hesab edilməli və onların bir-birinin vərəsəsi olması, habelə irsi transmissiyanın tətbiqi Mülki Məcəllənin 1134.1-ci maddəsinin məzmununa uyğun olaraq istisna edilməlidir. Eyni anda ölmüş hesab edilmiş miras qoyanların hər biri üçün ayrılıqda miras açılmalı və vərəsələri müvafiq qaydada vərəsəliyə çağırılmalıdır.

Qeyd edilməlidir ki, Roma hüququna əsaslanaraq mülki hüquqda eyni anda ölmüş şəxslər kommorient adlandırılır və onların bir-birinin vərəsəsi olması istisna edilir. Şəxslərin kommorient olaraq qəbul edilməsi üçün onların eyni hadisə nəticəsində (zəlzələ, daşqın və s.) və ya müxtəlif səbəblərdən ölməsi əhəmiyyət kəsb etmə-

yərək, eyni gündə ölən və ölüm anının müəyyənləşdirilməsi mümkün olmayan şəxslər kommorient hesab edilərək onların bir-birinin vərəsəsi qismində çıxış etməsi istisna edilir.

Beləliklə, vərəsəlik hüquq normalarının mahiyyəti və məzmunu baxımından Mülki Məcəllənin 1134.1-ci maddəsində "məqam" sözü zaman göstəricisi kimi konkret anı ifadə edir.

Mirasın açılma vaxtı Mülki Məcəllənin 1146-cı maddəsi ilə müəyyən edilmişdir. Həmin maddəyə əsasən, miras qoyanın öldüyü və ya fiziki şəxsin məhkəmə qaydasında ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

Qeyd olunmalıdır ki, mülki hüquqların həyata keçirilməsi və müdafiəsi vaxt (zaman) kateqoriyası ilə sıx bağlıdır. Mülki hüquqların mövcudluğu, pozulmuş hüquqların müdafiəsi və mülki-hüquqi nəticələr məhz vaxt (zaman) kateqoriyası ilə məhdudlaşır. Əmlak və qeyri-əmlak münasibətlərinin hüquqi tənzimlənməsində müddətlər mühüm rol oynayır.

Mülki hüquqda müddət dedikdə, mülki hüquq münasibətlərinin (mülki hüquq və vəzifələrin) əmələ gəlməsinin, dəyişdirilməsinin və ya xitamının bağlı olduğu vaxt anı və ya vaxt dövrü (kəsiyi) başa düşülür.

Mülki Məcəllənin "Müddətlərin hesablanması" adlanan XVİİ fəslinin 367-ci maddəsinə uyğun olaraq, müddət mülki hüquq və vəzifələrin əmələ gəlməsinin, dəyişdirilməsinin və xitamının bağlı olduğu vaxtdır. Əqdlə müəyyənləşdirilən və ya məhkəmə tərəfindən təyin edilən müddət təqvim tarixi ilə və ya illər, aylar, həftələr, günlər və ya saatlar ilə hesablanan vaxtın bitməsi ilə müəyyənləşdirilir. Müddət, həmçinin hökmən baş verməli olan hadisənin göstərilməsi ilə müəyyənləşdirilə bilər.

Vaxt dövrü ilə müəyyənləşdirilmiş müddətin axımı təqvim tarixindən və ya müddətin başlanması üçün müəyyənləşdirilmiş hadisənin baş verməsindən sonrakı gün başlanır (Mülki Məcəllənin 368-ci maddəsi).

Mülki Məcəllənin 368 və 1146-cı maddələrinin əlaqəli təhlili onu göstərir ki, həmin Məcəllənin 1146-cı maddəsi müddətin başlanğıcının xüsusi qaydasını nəzərdə tutur. Miras qoyanın öldüyü gün və ya fiziki şəxsin məhkəmə tərəfindən ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

Beləliklə, Mülki Məcəllənin mirasın açılma vaxtını tənzimləyən 1146-cı maddəsində nəzərdə tutulmuş "gün" anlayışı miras qoyanın ölümü anından sonra hesablanan iyirmi dörd saatlıq sutka mənasında deyil, miras qoyanın ölümünün baş verdiyi gün, təqvim tarixi olaraq qəbul edilməlidir. Miras qoyanın öldüyü gün təqvim tarixi etibarilə vərəsəliklə bağlı qanunvericilikdə nəzərdə tutulmuş bir sıra məsələlərin həlli üçün mühüm meyar kimi çıxış edir. Məhz həmin tarixdən etibarən mirası qəbul etmək üçün qanunvericiliklə nəzərdə tutulmuş müddətin axımı başlanır, qəbul edilmiş miras açıldığı gündən vərəsənin mülkiyyəti sayılır, eləcə də vərəsəlik

şəhadətnaməsi vərəsələrə bir qayda olaraq, mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt verilir (Mülki Məcəllənin 1246, 1255 və 1322-ci maddələri). Qeyd edilən məsələlərin həllində mirasın açılma tarixi miras qoyanın öldüyü gün, təqvim tarixi olaraq müəyyən edilir və qanunvericilikdə müəyyən edilmiş müddətlərin axımı həmin təqvim tarixindən başlamaqla hesablanır.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Mülki Məcəllənin 1134, 1145 və 1146-cı maddələrinə uyğun olaraq miras fiziki şəxsin öldüyü və ya ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün onun ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır və miras qoyanın öldüyü anda sağ olmuş şəxslər vərəsə ola bilərlər;

– Eyni gündə ölən və biri digərindən sonra vərəsə olmaq hüququna malik şəxslərlə bağlı irsi transmissiyanın tətbiqi üçün miras qoyanın dəqiq ölüm anı müəyyən edilərək daha sonra ölən şəxs ondan əvvəl ölən şəxsə vərəsə hesab edilir. Bu anı müəyyənləşdirmək mümkün olmadığı təqdirdə eyni gündə ölən şəxslər hüquqi varislik baxımından eyni anda ölmüş şəxslər hesab edilərək hər biri üçün ayrılıqda miras açılır və irsi transmissiyanın tətbiqi istisna edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1145 və 1146-cı maddələrinə uyğun olaraq miras fiziki şəxsin öldüyü və ya ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün onun ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır və miras qoyanın öldüyü anda sağ olmuş şəxslər vərəsə ola bilərlər.
2. Eyni gündə ölən və biri digərindən sonra vərəsə olmaq hüququna malik şəxslərlə bağlı irsi transmissiyanın tətbiqi üçün miras qoyanın dəqiq ölüm anı müəyyən edilərək daha sonra ölən şəxs ondan əvvəl ölən şəxsə vərəsə hesab edilir. Bu anı müəyyənləşdirmək mümkün olmadığı təqdirdə eyni gündə ölən şəxslər hüquqi varislik baxımından eyni anda ölmüş şəxslər hesab edilərək hər biri üçün ayrılıqda miras açılır və irsi transmissiyanın tətbiqi istisna edilir.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr: Fərhad Abdullayev.**

***YENİ KİTABLAR***

# ULU ÖNDƏR HAQQINDA YENİ KİTAB

**Dünyanın heç bir ölkəsində belə əmin-amanlıq, təhlükəsiz, dinc yaşayış, həyat tərzi təmin edilməyib. Azərbaycan xalqı əmin-amanlıq içində yaşayır. Ölkəmizə gələn bütün qonaqlar Bakının gözəlliyinə, müasirliyinə, abadlığına heyran olurlar.**

Azərbaycanda bütün millətlər mehribanlıq, dostluq, sülh şəraitində yaşayır. Azərbaycan tolerant ölkə kimi dünya dövlətlərinə nümunədir.

Bu fikirlər general Həsən Şirinovun ulu öndər Heydər Əliyev haqqında qələmə aldığı "Xilaskar" kitabında yer alıb. Müəllifin məqsədi müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərini, həyata keçirilməsi mümkün olmayan taleyüklü məsələləri, qlobal dövlət layihələrini hansı dünya güclərinə qalib gələrək necə gerçəkləşdirdiyini, əfsanələri reallığa çevirən siyasi güc və qüdrətini, xalqımızın rifahına həsr etdiyi həyat və fəaliyyətini bugünkü gənclərin yaddaşlarına həkk etmək və gələcək nəsillərə çatdırmaqdır. Bu kitab gənclərdə çevik düşünməyi, praktik biliklərə malik olmağı, riyakar qüvvələrlə müzakirə, araşdırma və təhlillərdə aldanmamağı, siyasi kursu dövlət müstəqilliyimizin qarantı olan o böyük şəxsiyyəti – ulu öndər Heydər Əliyevi dərk etməyi, qiymətləndirməyi bacarmağı və azərbaycanlılığı ilə fəxr etməyi aşılayır.

Nəşrin elmi redaktoru, akademik, Xalq yazıçısı Kamal Abdullanın fikrincə, kitab təkcə ulu öndəri yaxşı tanımağa deyil, həmçinin o dövrdə baş verən bir çox hadisələri doğru-düzgün təsəvvür etməyə və onları qiymətləndirməyə kömək etmiş olur. Kitabın fəsilləri Heydər Əliyev şəxsiyyətinin müxtəlif tərəflərinə işıq salmaqla yanaşı, həm də müəllifin portret cizgilərini ortaya qoyur: "Qələmə aldığı şeirlər onun qəlbinin kövrəkliyini, nələrə sevindiyini, nələrə kədərləndiyini göstərirsə, düşüncəsinin məhsulu olan hikmətli sözləri, aforizmləri onu müdrik, insanları, həyatı, keşməkeşli dünyamızı daha dərindən duyan şəxsiyyət kimi bizə göstərir".

Kitabın məsləhətçisi Yeni Azərbaycan Partiyası icra katibinin müavini, hüquq elmləri üzrə fəlsəfə doktoru Siyavuş Novruzov, ədəbi redaktoru Əməkdar incəsənət xadimi Baba Vəziroğludur. Nəşrə tarix üzrə elmlər doktoru İsgəndər Quliyev rəy yazıb.

AZ'RTAC

# "İLHAM ƏLİYEV. İNKİŞAF – MƏQSƏDİMİZDİR" ÇOXCİLDLİYİNİN 100-cü KİTABI ÇAPDAN ÇIXIB

Nəşrinə 2008-ci ilin dekabrından başlanılan "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyi dövlətimizin uğurlu daxili və xarici siyasətini, ölkəmizin sosial-iqtisadi həyatının müxtəlif sahələrini, beynəlxalq aləmdə mövqeyini, bir sözlə, ən yeni tariximizi əks etdirən və bununla da fəaliyyət istiqamətlərimizi müəyyənləşdirən dəyərli kitablardır.

Bu günlərdə çoxcildliyin yubiley nəşri - 100–cü kitabı çapdan çıxıb.

**Məqsədə doğru inamlı addımlar**

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu "İlham Əliyev – İnkişaf məqsədimizdir" çoxcildliyi müasir həyatımızın güzgüsü, vaxtaşırı müraciət etdiyimiz nəşrlərdir. Birinci kitabda yer almış "Mən dəfələrlə demişəm, çalışacağam ki, Azərbaycan xalqına xidmət edim, Azərbaycan inkişaf etsin, zəngin dövlətə çevrilsin. Azərbaycanda yaşayan hər bir vətəndaş özünü rahat, sərbəst, azad hiss etsin, onun yaşayış səviyyəsi yüksəlsin" fikrini Prezident İlham Əliyev 2003-cü ildə Dövlət Müstəqilliyi Günündə Şəhidlər xiyabanını ziyarət edərkən jurnalistlərin suallarına cavabında söyləmişdi. "İnkişaf - məqsədimizdir" ifadəsinə bu gün milli deyil, qlobal müstəvidən yanaşsaq, görərik ki, çağırışlarla dolu dünyada öz yerini tutmaq istəyən, müasir həyatla ayaqlaşmağa çalışan hər bir ölkə inkişafa can atır. Son 17 ilin salnaməsi olan kitablar ölkəmizin keçdiyi misilsiz inkişaf yolu barədə oxucuda dolğun təsəvvür yaradır, Azərbaycanın inkişafı naminə görülən böyük işlər göz önündə canlanır.

Çoxcildlikdə Prezident İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizin inkişafı, beynəlxalq aləmdə nüfuz qazanması istiqamətində atdığı inamlı addımları – dövlətimizin başçısının keçirdiyi görüşləri əks etdirən materiallar, söylədiyi nitq və çıxışlar, KİV-lərə müsahibələri, bəyanatları, məktubları toplanıb.

**Azərbaycanın inkişafının obyektiv mənzərəsi**

Əgər "Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir" çoxcildliyində dövlət müstəqilliyimizin bərpasının ilk mərhələsi əks olunubsa, "İlham Əliyev. İnkişaf – məqsədimizdir" kitablarında Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadi

inkişafın Azərbaycan modelinin obyektiv mənzərəsi canlanır. Bu kitablar dövlətimizin başçısının uğurlu daxili və xarici siyasəti, Azərbaycanda baş verən sosial-iqtisadi inkişaf, həyata keçirilən inqilabi islahatlar barədə mötəbər məlumat mənbəyi kimi maraq doğurur.

**Azərbaycanın son illərdə dünyaya təqdim etdiyi brendlərdən biri "ASAN xidmət"dir.**

Prezident İlham Əliyev Kürdəmir rayonuna səfəri çərçivəsində "ASAN xidmət" mərkəzinin açılış mərasimindəki çıxışında bu barədə fikirlərini səsləndirib. Həmin çıxışın yeni kitaba daxil edilmiş mətnində oxuyuruq: "ASAN xidmət" mərkəzləri ölkəmizdə çox ciddi müsbət dəyişikliklərə yol açdı. Bu bizim niyyətimizin, siyasətimizin təzahürü idi. Amma birinci mərkəzlər açılan zaman insanlara elə gəlirdi ki, bu, vətəndaşların rahatlığı üçün sadəcə, bir layihədir, xidmət layihəsidir. O vaxt bir çoxları bəlkə də dərk etmirdilər ki, bu, təkcə layihə deyil, bu siyasətdir, hərəkatdır, bu niyyətdir".

**Yubiley nəşri 2020-ci ilin yanvar-fevral aylarını əhatə edir**

Yüzüncü kitabda Prezident İlham Əliyevin Davos İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərinin materialları, müxtəlif ölkələrin dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və şirkət rəhbərləri ilə görüşləri haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunun rəsmi saytında dərc edilmiş "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsini də yubiley nəşrindən oxumaq olar.

Kitaba Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransının növbəti toplantısında iştirak etmək üçün Almaniya Federativ Respublikasına səfəri çərçivəsində keçirdiyi görüşlər haqqında informasiyalar, "Enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masada çıxışının mətni, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələrdə iştirakı barədə materiallar daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 100-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# GÖRKƏMLİ KİTABXANAŞÜNAS ALİMİN ELMİ VƏ PEDAQOJİ FƏALİYYƏTİ

**XX əsrin II yarısından müasir dövrədək Azərbaycan ziyalı mühitinin dəyərli etiketlərə malik olan nümunəvi ziyalıları var ki, onlar bu gün də yüksək işgüzarlıqla dövlətçiliyimizə xidmət edirlər. Bu gün elm, təhsil, mədəniyyət və digər sahələrdə fəaliyyət göstərən yaşlı nəslin nümayəndələri, elmi məktəb yaradan, böyük uğurları olan ziyalılarımız ön cərgədədirlər.**

Prezident İlham Əliyevin çıxışlarında işgüzar və qabiliyyətli, yüksək dəyərlərə malik olan ziyalılara etimadla yanaşması böyük təcrübəyə malik ziyalılara cəmiyyətdə hər zaman ehtiyacın duyulmasının bariz nümunəsidir. Bu gün Azərbaycan istənilən fəaliyyət sahəsində uğurla dünyaya inteqrasiya edir. 100 illik yubileyini yüksək səviyyədə qeyd edən Bakı Dövlət Universiteti yeni yüksəliş mərhələsini yaşayır. İnteqrasiya və yeni innovasiyaların universitetdə elmi-pedaqoji və sosial həyata tətbiq edilməsində gənclərlə yanaşı, yaşlı ziyalıların təcrübəsindən də istifadə olunur. Hazırda Bakı Dövlət Universitetində aparılan islahatlar universitetin bütün strukturlarının yeni innovativ iş metodlarına yiyələnməsinə və bu istiqamətdə proqressiv təcrübəyə stimul yaradır. 2019-cu il noyabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə görkəmli ziyalı Abuzər Alı oğlu Xələfov Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə “Şərəf” ordeninə layiq görülmüşdür. Qeyd etmək lazımdır ki, Abuzər Xələfov uzun illər Azərbaycanın ictimai-siyasi, elm, mədəniyyət, təhsil və sosial həyatında işgüzar fəallıq göstərmiş, daim dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunmuş, həmçinin, sağlığında öz layiqli qiymətini almışdır. Əməkdar mədəniyyət işçisi, Əməkdar Elm Xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Prezident təqaüdçüsü, “Şöhrət” və “Şərəf” ordeni, BDU-nun fəxri professoru A.Xələfov bu gün öz zəngin təcrübəsini yaratdığı kitabxanaşünaslıq elmi məktəbinin yetirmələrinə öyrətməklə yanaşı, universitetdə ali təhsilin müasir innovasiyalarla təmin olunması istiqamətində dəyərli tövsiyələr verir. Ömrünün 90 illiyi ərəfəsində əzmlə və işgüzarlıqla çalışan, dövlət başçısının yaşlı və işgüzarlığı olan insanların yeni yüksəliş illərində fəaliyyətə cəlb olunması çağırışlarına məmnunluqla əməl edən A.Xələfov ali kitabxanaçılıq təhsilinin təşkilatçısı olmaqla yanaşı, kitabxanaşünaslıq elmi məktəbinin bünövrəsini qoymuş və bu elmi istiqamətdə 40-a yaxın alim yetişdirmişdir. Onun kitabxana informasiya fəaliyyətinə dair dərslikləri, sanballı monoqrafiyaları bu gün kitabxana-informasiya ali təhsilinin formalaşmasına əhəmiyyətli təsir edir.

Kitabxanaşünaslığın elmi-nəzəri məsələlərinin işlənməsi, Dövlət kitabxana siyasətinin tədqiqi məsələləri, kitabxana və informasiya proseslərinə texnoloji modelin tət-

biqində innovativ yanaşmalar bu gün A.Xələfovun elmi fəaliyyətinin stimulverici parametrləridir.

XX əsrin II yarısından bu günədək A.Xələfovun elmi-tədqiqat və tədris prosesinin təşkilindəki fəaliyyətinin ali peşə təhsilinin təcrübi və elmi-nəzəri məsələlərinin parametrlərinin müxtəlif ideoloji mərhələlərdə dövlət siyasətinin atributları ilə əlaqələndirilməsi alimin elmi fəaliyyətinin prioriteti sayılır. Görkəmli alimin bu istiqamətdə təşəbbüsü də daim maraqla qarşılanmışdır. “Azərbaycan” qəzetinin 1995-ci il 17 may tarixli nömrəsində dərc etdirdiyi “Milli dövlətçiliyimiz naminə” adlı məqalədə milli ideologiyamızın, milli dövlətçilik ənənələrimizin əsas məğzini özünün müxtəlif dairələrdəki çıxış, məruzə və nitqlərində əks etdirən Heydər Əliyevin əsərlərinin ayrı-ayrı məcmuələr və ya kitablar şəklində buraxılması təşəbbüsünü irəli sürmüş və onların respublikanın bütün tip kitabxanalarında yerləşdirilməsini təklif etmişdir.

Alimin yarım əsrlik pedaqoji fəaliyyəti dövründə demək olar ki, kitabxanaşünaslığa dair bütün fənlərin elmi-nəzəri məsələləri işlənmiş, onun “Kitabxanaşünaslığa giriş”, “Azərbaycanda kitabxana işinin tarixi”, “Kitabxanaşünaslığın tarixi və metodologiyası”, “Kitabxanaların kompüterləşməsinin əsasları” adlı dərslikləri dövlət siyasi xəttinin ali peşə təhsilində motivləşməsini təmin etmişdir.

Onun 2003-cü ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə ölkəmizdə ilk dəfə olaraq “Dünyanın görkəmli dövlət xadimləri” seriyasından Azərbaycan Respublikasının dünyaşöhrətli prezidenti Heydər Əliyevə həsr olunmuş biblioqrafik məlumat kitabının Azərbaycan dilində 5000, rus dilində 3000 və ingilis dilində 2000 nüsxə ilə çap edilməsi həm onun elmi əhəmiyyətinin miqyasını, həm kütləviliyini, həm də oxucu auditoriyasının genişliyini təsdiqləyir, eyni zamanda Heydər Əliyev şəxsiyyətinə və yaradıcı irsinə tükənməz marağın get-gedə daha da gücləndiyini faktiki sübuta yetirir.

Alimin digər tədqiqatlarında kitabxana quruculuğunun dövlət siyasəti məsələləri də geniş əks olunmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki mərhələdə dövlətin kitabxana siyasəti A.Xələfovun 2006-cı ildə 312 səhifəlik “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” adlı monoqrafiyasında öz əksini tapmışdır.

Qeyd etdiyimiz kimi, A.Xələfov 70 ilə yaxın bir müddətdə Azərbaycanda ali kitabxanaçılıq təhsilinə, kitabxanaşünaslıq elmi məktəbinə rəhbərlik etməklə yanaşı, öz fəaliyyətini daim dövlətçilik ənənələri ilə uyğunlaşdırmışdır. A.Xələfov milli dövlətçiliyimizin tərəqqisində kitabxanaların rolunun əvəzsiz olduğunu öz məqalələrində, çıxışlarında dönə-dönə vurğulayır. Ümummilli lider Heydər Əliyevin söylədiyi “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir” fikrini yüksək qiymətləndirən kitabxanaşünas alim öz el-mi əsərlərində dəfələrlə vurğulamışdır ki, unudulmaz dövlət başçısının bu əvəzsiz fikri kitabxana-informasiya fəaliyyəti haqqında dövlət siyasətinin başlıca mühüm amilini təşkil edir.

Son dövrlərdə təhsil sistemində yeni standartların tətbiq edilməsi, təhsilin qabaqcıl dünya təcrübəsinə uyğunlaşdırılması və bu

sahədə aparılan islahat proqramlarının yerinə yetirilməsi sahəsindəki uğurlar kitabxana-informasiya fəaliyyətində də özünü büruzə verir. Hazırda kitabxana-informasiya fəaliyyətinə kompüter texnika və texnologiyasının tətbiqi nəticəsində kitabxanaların sosial funksiyalarının daha da artdığını bildirən "Şərəf" ordenli alim qeyd edir ki, məhz bu gün informasiya texnologiyalarının kitabxana-informasiya fəaliyyətinə tətbiqi innovativ iş metoduna çevrilir. Alimin fikrincə, informasiya kitabxana müstəvisindən üfiqi istiqamətdə keçməli, onun bütün funksiyalarının inkişaf yolunu işıqlandırmalıdır.

A.Xələfovun elmi fəaliyyət parametrlərində dövlətin siyasi xəttində prioritet istiqamət olan multikulturalizm ideyalarının kitabxana-informasiya fəaliyyətində istiqamətlənməsi əsas və vacib yerlərdən birini tutur. Ümummilli lider Heydər Əliyevin multikulturalizm sahəsindəki xidmətləri azsaylı xalqların məkanı olan Azərbaycanda məskunlaşan bütün xalqların firavan yaşamasına səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması və inkişaf etdirilməsi sahəsində həyata keçirilən siyasi istiqaməti yeni mərhələdə onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin multikulturalizm siyasətinin parametrlərini əldə rəhbər tutan Abuzər müəllim qeyd edir ki, kitabxana-informasiya sahəsində multikulturalizmin təbliği dövlətin bu sahədə prinsiplərindən bəhrələnir, kitabxana-informasiya müəssisələrinin fondlarına digər xalqların dilində ədəbiyyatın daxil olması və təbliği imkanlarının genişləndirilməsi, həmçinin kitabxana-informasiya əməkdaşlarının multikultural biliklərə yiyələnməsi kitabxanaların multikultural sahədə dövlət siyasətinin həyata keçirilməsinə stimul verir.

Bu gün A.Xələfov dövlətimiz tərəfindən ona göstərilən etimadı uğurla doğruldur, onun layiqli davamçıları elmi-tədqiqat istiqamətində əzmlə çalışır. Onun alimlər ordusunun gənc üzvləri bu qocaman müəllimin məsləhəti ilə qarşılıqlı elmi-tədqiqat işi aparır. Abuzər müəllim kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmi sahəsində təhsil alan doktorant və dissertantların elmi-tədqiqat işlərinə böyük həvəslə rəhbərlik edir. Respublikamızın bu sahədə aparılan elmi-tədqiqat işləri məhz onun dəyərli tövsiyələri ilə uğur qazanır.

Ölkə başçısı cənab İlham Əliyevin Azərbaycanda bütün sahələrdə olduğu kimi mədəniyyət, təhsil, elm sahəsinə qayğı ilə yanaşması, eyni zamanda ağsaqqal ziyalılara etimad göstərməsi və onların təcrübəsindən bəhrələnməyi təqdirəlayiq hal hesab etməsi Abuzər Xələfovun bu gün də işgüzar fəaliyyətinə stimul verir.

**Elçin Əhmədov,**
**Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent.**

*Lakin təəssüf hissi ilə qeyd edirik ki, professor Abuzər Xələfov 2020-ci il aprelin 27-də ömrünün 89-cu ilində vəfat etmişdir. Nüfuzlu pedaqoq və alimin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır. Onun yaxınlarına və əzizlərinə başsağlığı veririk.*

*Allah rəhmət eləsin!*

**SAĞLAMLIQ GUŞƏSİ**

## CAVANLIQ VƏ SAĞLAMLIQ BƏXŞ EDƏN MEYVƏ

Tərkibi vitaminlərlə zəngin olan innabı "cavanlıq və sağlamlıq bəxş edən meyvə" adlandırırlar. Çin təbibləri sübut ediblər ki, müalicəvi xüsusiyyətlərinə görə innab yalnız jenşendən geri qalır.

Bitkinin bütün hissələri (meyvəsi, yarpaqları, ağacın qabığı, kökü) müalicə məqsədilə istifadə olunur. Diş və ya baş ağrısı zamanı innabın yarpağını çeynəmək ağrıları tez azaldır. Qabığının dəmləməsi ishaldan xilas edir.

İnnabın tərkibi C, PP, A, E, B qrupu vitaminlərlə, mis, dəmir, kalium, maqnezium, fosfor, kalsium və digər orqanizm üçün vacib minerallarla, flavonoidlər, pektinlər, katexinlər, kumarinlərlə zəngindir.

Belə zəngin kimyəvi tərkib meyvəni insan sağlamlığı üçün faydalı edir:

– B qrupu vitaminləri sayəsində sinir sisteminə müsbət təsir edir, sakitləşdirir, stresi və əsəbiliyi azaldır;

– Multivitamin meyvə olduğu üçün hipovitaminozlar zamanı çox yaxşı kömək edir;

– Güclü antioksidant təsiri ilə orqanizmi toksinlər və şlaklardan təmizləyir, cavanlaşdırır, daha gümrah edir;

– Qaraciyərin və öd kisəsinin sağlamlığını qoruyur;

– Tərkibindəki C vitamini, kalium və maqnezium sayəsində ürək və damarlar üçün çox faydalıdır – damarları möhkəmlədir, daha elastik edir, ürək əzələsini qoruyur, təzyiqi normallaşdırır.

## XƏRÇƏNGLƏ SAVAŞAN QOVURĞA

Qovurğa, adətən, bayramlarda özəl ləzzətli çərəz kimi hazırlanır. Amma bu dadlı qidanın sağlamlığa da faydaları çoxdur:

– Həzmsizlik problemi yaşayanlar üçün təbii dərman təsiri göstərir;

– Mədə ağrıları və mədə xəstəlikləri üçün olduqca yararlıdır;

– Bədən yorğunluğunu azaldır və zehnin inkişafına kömək edir;

– Öskürəyin kəsilməsinə yardımçı olur;

– Nəfəs darlığı, nəfəs yolları xəstəlikləri olanlar üçün ideal qidadır;

– Antiseptik özəlliyi sayəsində mikroblarla savaşır;

– Böyrəklərində daş və qum olanlar bu qidadan faydalana bilərlər;

– Sinə ağrılarını yüngülləşdirərək yumşaldır;

– Hüceyrələrin təzələnməsini təmin edərək yaşlanmanı gecikdirir və xərçəngə qarşı qoruyur;

– Bədəndəki iltihabları təmizləyir;

– Qan dövranını sürətləndirir.

## HƏYAT ELEKSİRİ

Cücərmiş buğda hələ qədim dövrdən təbiblərin maraq göstərdiyi qida olub. Cücərmiş buğdanı qida kimi qəbul etmək üzərində aparılmış 20 illik tədqiqatların nəticəsində məlum olub ki, bu, həyat və sağlamlıq eliksiridir.

Müntəzəm qəbul etdikdə maddələr mübadiləsi, həzm yaxşılaşır, sinir sistemi qaydaya düşür. İnsanın dişləri, dırnaqları möhkəmlənir, saçları çoxalır, dərisi yaxşılaşır, cavanlaşır, görməsi itiləşir.

İnsanın immun sistemi möhkəmlənir, həyati vacib orqanlar aktivləşir. Ateroskleroz və sklerozun qarşısı alınır, ürək-damar sistemi cavanlaşır.

Hazırlanması:

50 qram buğda bir neçə dəfə yuyulub suyu süzülür, sonra tənzifin arasına yayılıb üzəri tənziflə bağlanıb cücərməyə qoyulur. 1-2 sutka ərzində bir az cücərən kimi istifadəyə hazır olur.

Əgər buğda cücərərkən pis qoxu gəlirsə, onu istifadə etməyin, deməli yaxşı toxum deyil. Cücərmiş buğdanı qurudub un halına salıb kökə bişirərək, südə, qatığa, salatlara əlavə etmək olar.

## ZƏRİF VƏ ŞƏFALI

Yazın zərif və ətirli çiçəyi bənövşə insan orqanizminə şəfaverici dərman kimi də istifadə edilir.

Baş ağrısı zamanı bənövşə yağı ilə alnın masaj edilməsi ağrını azaldır. Buxar maşınının içərisinə bir neçə damla bənövşə yağı töküb buxarı ilə nəfəs almaq baş ağrısını yüngülləşdirir, eyni zamanda əsəbləri sakitləşdirir, stresi aradan qaldırır. Yuxusuzluq probleminə qarşı yaxşı təsir göstərərək, gecə rahat yatmağı təmin edir. Təbabətdə bu şəfalı yağdan soyuqdəymə və ya qrip kimi xəstəliklərin müalicəsində də istifadə edilir. Təbii mikrobtəmizləyici və nəmləndirici olan bənövşə yağı saç köklərinin canlanmasını təmin edir və sürətli uzanmasına təsir göstərir. Antiseptik xüsusiyyət sayəsində dəridə olan iltihabı sürətlə təmizləyir.

# MÜNDƏRİCAT

*Bəxtiyar Sadıqov.* Heydər Əliyev zirvəsini fəth edən rəhbər ....................................................3

*Elçin Babayev.* Bizi məharətli idarəçilik, birlik və həmrəylik xilas edir ..................................9

*Elman Nəsirov.* İslahatçı prezident ........................................................................................17

*Səfər Mehdiyev.* Gömrük xidmətinin fəaliyyətində iqtisadi təhlükəsizlik və azad biiznes mühitinin təmin edilməsi mühüm yer tutur ............................25

*Arzu Rəhimov.* Qarşıya qoyulmuş vəzifələr əzmlə yerinə yetirilir ..........................................39

*Elçin Əhmədov.* Tarixin ən qüdrətli Azərbaycanının lideri ..........................................46

*Əhməd Əhmədzadə.* Ölkəmizin su təhlükəsizliyi etibarlı şəkildə təmin edilir ..............53

*Aynurə Əliyeva, Fatimə Hüseynova, Etibar Əliyev.* Azərbaycanda "Covid-19" pandemiyası: tibbi və hüquqi aspektlər ..............................................65

*Valentin Pereheida.* Branding a city as a socio-cative practicecommuni ..................................77

*Октай Эфендиев, Этибар Алиев.* Некоторые актуальные проблемы международно-правового регулирования обеспечения информационной безопасности ..........................................................................85

*Ариф Гулиев.* Социокультурный феномен – плагиат законы по защите авторских прав: теория и практика ........................................................................98

*Sakit Huseynov.* Dolandırıcılığın felsefe ve sosyo-psikolojik boyutları ....................................109

*Əvəz Ələkbərov.* Regionların sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioritetidir ......115

*Шахла Самедова.* Уголовная ответственность за измену государству в уголовном праве Азербайджанской Республики ..................................................118

*Qulu Novruzov, Fatimə Hüseynova.* Azərbaycanın milli hüquq sistemində gömrük hüququnun statusu ..................................................................132

*Qəhrəman Cəfərov.* Məhkəmə hökmlərinin (digər yekun qərarlarının) mübahisələndirilməsi dispozitiv hüquq kimi ................................139

*Esmira Orucova.* Etnik münaqişələr zamanı uşaq hüquqlarının müdafiəsi: Dağlıq Qarabağ münaqişəsi müstəvisində ..................................................147

*Qələndər İsbəndiyarov.* Qida təhlükəsizliyinin cinayət-hüquqi vasitələrlə mühafizəsinin ümumi xarakteristikası ......................................................................157

*Xəyalə Kələşova.* Beynəlxalq terrorçuluğa qarşı mübarizə: bu mübarizənin yaranma səbəbləri və tipologiyası ..................................................................172

*Эльза Ахмедова.* О национальных интересах Азербайджана в системе современных международных экономических связей ........................178

*Гюльназ Гурбанова.* Международная деятельность Европола в борьбе с терроризмом ........ **188**

*Etibar Əliyev.* Azərbaycanı daha möhtəşəm uğurlar gözləyir ........ **195**

*Misir Mərdanov, Aynur Həsənova, Səbinə Salmanova.* Riyaziyyat bütün elmlərin açarıdır ........ **200**

*Aslan Aslanov.* AZƏRTAC-100: bir əsrlik yola beş fərqli zaman nöqtəsindən baxış ........ **207**

*Yusif Ələkbərov.* Müasir Azərbaycan, davamlı inkişaf, yüksələn rifah, güclü dövlət ........ **220**

## RƏSMİ SƏNƏDLƏR

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1146 və 1252-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarı ........ **225**

## YENİ KİTABLAR

Ulu öndər haqqında yeni kitab ........ **232**

"İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin 100-cü kitabı çapdan çıxıb ........ **233**

## ELM XADİMLƏRİ

Görkəmli kitabxanaşünas alimin elmi və pedaqoji fəaliyyəti ........ **235**

Sağlamlıq guşəsi ........ **238**

**Jurnal Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində 19 fevral 2020-ci il tarixdə qeydə alınmışdır (Şəhadətnamə № 11479)**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

"Hüquqi müstəvi" elmi-nəzəri, təcrübi jurnalın
Redaksiyası" MMC-nin direktoru:
**Faiq HÜSEYNOV, hüquqşünas.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

«Adiloğlu» nəşriyyatı.
Ofset üsulu ilə çap edilmişdir.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 15. Tirajı 300.

Ünvan: AZ 1102. Bakı şəh., Nəsimi r-nu, Tbilisi pr, 44.
Telefon: (+994 55) 339-75-77, (+994 50) 593-27-77
E-poçt: adiloglu2000@gmail.com

**Bank of Baku ASC-nin “MXD” filialı**

**AZN**

| | |
|---|---|
| **Müştəri kodu** | **A48398** |
| **Hesab sahibi** | **“Hüquqi müstəvi elmi-nəzəri, təcrübi jurnalının redaksiyası“ Məhdud Məsuliyyətli Cəmiyyəti** |
| **Hesab nömrəsi** | **38090000184190A72** |
| **VÖEN** | **1306401681** |
| **İBAN** | **AZ34JBBK00038090000184190A72** |
| **Bankın adı** | **Bank of Baku ASC-nin “MXD” filialı** |
| **VÖEN** | **1700038881** |
| **KOD** | **506924** |
| **Müxbir hesab** | **AZ27NABZ01350100000000007944** |
| **S.W.I.F.T** | **JBBKAZ22** |

ISSN 2218-5178